AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ
99-CU İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
"REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YENİ KEYFİYYƏT
MƏRHƏLƏSİNƏ YÜKSƏLMƏSİNDƏ RƏQƏMSAL İQTİSADİYYATIN ROLU"
MÖVZUSUNDA RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ

# MATERİALLARI




Lənkəran, 06 may 2022

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

**ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 99-CU İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ "REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YENİ KEYFİYYƏT MƏRHƏLƏSİNƏ YÜKSƏLMƏSİNDƏ RƏQƏMSAL İQTİSADİYYATIN ROLU" MÖVZUSUNDA RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ**

# MATERİALLARI

**Lənkəran, 06 may 2022-ci il**

## TƏŞKİLAT KOMİTƏSİ

| | | |
|---|---|---|
| **Natiq İbrahimov** | - | Lənkəran Dövlət Universitetinin rektoru, professor |
| **Mikayıl Məhərrəmov** | - | Lənkəran Dövlət Universitetinin rektorunun müşaviri, professor |
| **İdrak Əsgərov** | - | Lənkəran Dövlət Universitetinin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent |
| **Elvin Əliyev** | - | Lənkəran Dövlət Universitetinin Elm və innovasiya məsələləri üzrə prorektoru, dosent |
| **Kamran Kazımov** | - | Lənkəran Dövlət Universitetinin Sosial məsələlər üzrə prorektoru, dosent |
| **Azər Əliyev** | - | Lənkəran Dövlət Universitetinin Təsərrüfat işləri və iqtisadi məsələlər üzrə prorektoru |
| **Telman İmanov** | - | Lənkəran Dövlət Universitetinin rektorunun müşaviri, professor |
| **Allahsükür Quliyev** | - | Lənkəran Dövlət Universitetinin elmi katibi |
| **Ənvər Şahqubadbəyli** | - | Lənkəran Dövlət Universitetinin İKT və Kitabxana mərkəzinin direktoru |
| **Ülkər Babayeva** | - | Lənkəran Dövlət Universitetinin Elm və tədqiqat işləri şöbəsinin müdiri vəzifəsini icra edən |
| **Gülbəniz Əliyeva** | - | Lənkəran Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, dosent |
| **Əlixan Bədəlov** | - | Lənkəran Dövlət Universitetinin Maliyyə idarəetməsi və audit kafedrasının müdiri, dosent |
| **Natiq Mirzəyev** | - | Lənkəran Dövlət Universitetinin Maliyyə idarəetməsi və audit kafedrasının dosenti |
| **Şəfa Bağırova** | - | Lənkəran Dövlət Universitetinin İqtisadiyyat və innovativ idarəetmə kafedrasının baş müəllimi, məsul katib |

# MÜNDƏRİCAT

## "RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNNOVATİV PERSPEKTİVLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ" BÖLMƏSİ


| | | |
|---|---|---|
| **1.** | **Ağayev Samid, dosent; Əliyeva Gülşən, magistrant** - Ölkəmizdə rəqəmsal iqtisadiyyatın formalaşması mexanizmləri.......... | 7 |
| **2.** | **Bağırova Şəfa, baş müəllim** - Elektron ticarətin inkişafını şərtləndirən zəruri amillər və Azərbaycanda elektron ticarətin müasir vəziyyəti.......... | 8 |
| **3.** | **Binnətov Arif, dosent; Nağıyeva Günel, magistrant** - Azərbaycanın turizm bazarında rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyəti.......... | 10 |
| **4.** | **Əhmədova Turanə, dosent; Əsədzadə Nuranə, magistrant** - Kiçik biznesin inkişafında rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyəti.......... | 12 |
| **5.** | **Əhmədova Turanə, dosent; Gözəlzadə Röya, magistrant** - Turizm xidmətləri bazarında rəqəmsal iqtisadiyyatın rolu.......... | 14 |
| **6.** | **Əhmədova Turanə, dosent; Məmmədova Gültəkin, magistrant** - Kiçik biznesin inkişafı həyat keyfiyyətlərinin artırılması vasitəsi kimi.......... | 15 |
| **7.** | **Əliyev Əlövsət, dosent** - Regional sosial-iqtisadi inkişafın keyfiyyətliliyinin təminində onun kiberdayanıqlılığının artırılması məsələləri.......... | 17 |
| **8.** | **Əliyev Əlövsət, dosent; Paşayeva Məleykə, elmi işçi; Əkbərova Leyla, elmi işçi** - Rəqəmsal iqtisadiyyatın yaşıllaşdırılmasında elektron tullantılar probleminin həlli istiqamətləri.......... | 19 |
| **9.** | **Əliyev Tərbiz, professor; Xankişiyev Fərid, müəllim** - Rəqəmsal iqtisadiyyatda sahibkarlıq fəaliyyətinin təşkili.......... | 22 |
| **10.** | **Əliyeva Gülbəniz, dosent; Qarayev Natiq, dosent** - Azərbaycanın sosial-iqtisadi inkişafında rəqəmsal iqtisadiyyatın formalaşması modeli.......... | 23 |
| **11.** | **Xəlilov Tural, dosent; Babayeva Emilya, magistrant** - Müasir şəraitdə turizmin sosial-ekoloji təsirlərinin azaldılmasında rəqəmsal texnologiyaların rolu. | 25 |
| **12.** | **İmanov Telman, professor; Abdinov Adil, magistrant** - Rəqəmsal iqtisadiyyatın beynəlxalq turizimdə rolu.......... | 27 |
| **13.** | **İmanov Telman, professor; Mahmudzadə Günel, magistrant** - Müasir turizm sənayesində rəqəmsal texnologiyalardan istifadə imkanlarının yaxşılaşdırılması.... | 28 |
| **14.** | **Qarayev Natiq, dosent; Əhmədzadə Məhəmməd, magistrant** - Kənd turizmində menecment konsepsiyası.......... | 30 |
| **15.** | **Qarayev Natiq, dosent; Kərimov Tural, magistrant** - Turizm sahəsi rəqəmsallaşma mərhələsində.......... | 32 |
| **16.** | **Qarayev Natiq, dosent; Orucov Elvin, magistrant** - Regionlarda turizmin inkişafında təbii-rekreasiya ehtiyatlarının rolu.......... | 33 |
| **17.** | **Rəhmanov Fərhad, professor; Bayramov Murad, müəllim** - Lənkəran-Astara iqtisadi rayonunda rəqəmsal məşğulluğun təşkilinin səmərəliliyi.......... | 35 |
| **18.** | **Sadıqov Rahim, dosent; Əhmədli Anaxanım, magistrant** - Rəqəmsal iqtisadiyyat şəraitində idarəetmənin təkmilləşdirilməsi istiqamətləri.......... | 37 |
| **19.** | **Səlimov Hikmət, baş müəllim; Fərhadova Lalə, müəllim** - Regionların sosial-iqtisadi inkişafının təmin olunması və innovativ keyfiyyət mərhələsinin yüksəlməsində rəqəmsal iqtisadiyyatın rolu.......... | 38 |
| **20.** | **Şükürov Elgiz, doktorant** - Rəqəmsal iqtisadiyyatda e-ticarət və onun regionlarda tətbiqinin əhəmiyyəti.......... | 40 |
| **21.** | **Zamanov Fizuli, dosent; Əliyev Ələkbər, magistrant** - Azərbaycanda kiçik və orta biznesin inkişafına rəqəmsal texnologiyalardan istifadənin təsiri.......... | 42 |

22. **Zamanov Fizuli, dosent; Hacızadə İlkana, magistrant** - Müasir dünyanın turizm bazarında rəqəmsal rəqabətin otel biznesinə təsiri........................................ 44
23. **Zamanov Fizuli, dosent; Rəhmanzadə Jalə, magistrant** - Regionlarda kiçik və orta sahibkar subyektlərin biznes fəaliyyətinin yaxşılaşdırılmasına rəqəmsallaşmanın təsiri................................................................................. 45
24. **Zamanov Fizuli, dosent; Rzazadə Rəşad, baş müəllim** - Otel biznesində innovativliyin yüksəldilməsinə rəqəmsallaşmanın təsiri və reallıqlar..................... 47
25. **Alirzayev Elvin, PhD in economics; Khalidova Turan, masters graduate** - The formulation of digital economy in Azerbaijan……………………………... 49

## "REGİONLARDA RƏQƏMSAL MALİYYƏ XİDMƏTLƏRİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ" BÖLMƏSİ

1. **Ağayev Asəf, dosent; Əlili Xanur, magistrant** – Regionların istehsal və xidmət müəssisələrinin idarəetmə sistemlərində daxili auditin rolu................................... 51
2. **Ağayev Asəf, dosent; Baxşalıyeva Zərifə, magistrant** – Respublikamızda büdcə siyasətinin reallaşdırılmasına rəqəmsal texnologiyaların təsiri..................... 52
3. **Ağayev Asəf, dosent; İsayeva Lalə, magistrant** - Bank auditinin təşkili və regionlarda bankların fəaliyyətinin səmərəliliyinə təsiri...................................... 54
4. **Ağayeva Könül, dosent; Qulamzadə Allahşükür, magistrant** - Maliyyə böhranlarının mahiyyəti, strukturu və səbəbləri................................................... 55
5. **Ağayeva Könül, dosent; Təhməzov Murad, müəllim; Nəzərli Elməddin, magistrant** - Fintekin (FinTech) maliyyə sektoruna inteqrasiyası və inkişafı....... 56
6. **Bədəlov Əlixan, dosent; Abbaszadə Mirsaleh, magistrant** - Azərbaycan regionlarında auditin rəqəmsallaşması istiqamətləri............................................. 58
7. **Bədəlov Əlixan, dosent; İmanov Mübariz, magistrant** - Regionlarda maliyyə-rəqəmsal bankçılıq münasibətlərinin inkişafında dövlət proqramlarının rolu....... 60
8. **Bədəlov Əlixan, dosent; Quliyev Möhsüm, magistrant** - Regionlarda maliyyə idarəetməsinin rəqəmsallaşdırılmasının əhəmiyyəti............................................ 61
9. **Cəfərova Şəhla, dosent; Mahmudov Nurlan, magistrant** - Regionların iqtisadi inkişafında istehsal müəssisələrinin uçotunun təşkili və informasiya təminatının rolu....................................................................................................... 63
10. **Əliyeva Aygün, dosent; Şıxiyev Novruz, magistrant** - Regionların iqtisadi inkişafında daxili auditin qiymətləndirilməsi və rolu........................................... 64
11. **Əliyeva Gülbəniz, dosent; Əhədova Nübar, müəllim** - Rəqəmsal bankçılığın üstünlükləri........................................................................................................ 66
12. **Əliyeva Gülbəniz, dosent; Məmmədli Şəhanə, magistrant** - Regionların inkişafında vergi siyasətinin rolu və vergi inzibatçılığında rəqəmsallaşmanın əhəmiyyəti ......................................................................................................... 68
13. **Əliyeva Gülbəniz, dosent; Mirzəbəyli Nəzrin, magistrant** - Regionlarda müəssisələrinin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması və problemləri......................................................................... 70
14. **Hüseynli Nuran, baş müəllim** - Postpandemiya dövründə Lənkəran–Astara iqtisadi rayonunda turizm rekreasiya kompleksinin maliyyə səmərəliliyinin artırılması istiqamətləri........................................................................................ 71
15. **Xəlilov Həmzə, professor; Təhməzov Murad, müəllim; Məmmədzadə Nihad, magistrant** - Borc siyasətinin əsas məqsədi və dövlət borcunun idarə edilməsinə dair strategiyanın hədəfləri............................................................ 73
16. **Quliyev Ülvi, iqtisad üzrə fəlsəfə doktoru; Ağayev Mirağa, magistrant** - Dövlət Xəzinədarlıq Agentliyində rəqəmsallaşmaya keçid istiqamətləri.................................................................................................... 74

17. **Quliyev Ülvi, iqtisad üzrə fəlsəfə doktoru; Ağazadə Nicat, magistrant -** Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun formalaşması istiqamətində əsas vəzifələri........................................................................................................ 75
18. **Quliyev Ülvi, iqtisad üzrə fəlsəfə doktoru; Əlizadə Əli, magistrant -** Vergi siyasətinin regionlarda sahibkarlığın inkişafında rolu.......................................... 77
19. **Məmmədli Aynur, doktorant -** Rəqəmsal maliyyə xidmətlərinin inkişafının qiymətləndirilməsi.................................................................................................. 79
20. **Məmmədov Məhəbbət, professor; Ələkbərov Vasif, magistrant -** Maliyyə nəzarətinin mahiyyəti, prinsipləri və dövlət maliyyə nəzarətinin təsnifləşdirilməsi............................................................................................... 81
21. **Məmmədova Afət, dosent; Atakişi Baladə, magistrant -** Regionlarda beynəlxalq standartlara uyğun maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri...................................................................................................... 83
22. **Məmmədova Afət, dosent; Həsənov Təhmasib, magistrant -** Regionlarda beynəlxalq standartlara uyğun mühasibat (maliyyə) hesabatlarının tərtibi və istifadəçilər üçün əhəmiyyəti.................................................................................. 85
23. **Məmmədova Afət, dosent; İbrahimova Nəzrin, magistrant -** Region müəssisələrində mənfəət və zərər haqqında hesabatın məqsədli istiqaməti........... 86
24. **Məmmədova Afət, dosent; Quliyev Ülvi, iqtisad üzrə fəlsəfə doktoru; Quliyeva Məhbubə, magistrant -** Aqrar sektorda maliyyə hesabatlarının hazırlanması mərhələləri......................................................................................... 88
25. **Mehdiyev Vüqar, dosent; Ağasiyeva Simuzər, magistrant -** Regionların xidmət sferası müəssisələrinin inkişafında material ehtiyatlarının uçotunun təkmilləşdirilməsi................................................................................................ 90
26. **Mirzəyev Natiq, dosent -** Regionda sahibkarlığın mövcud vəziyyətinin qiymətləndirilməsi və rəqəmsal iqtisadiyyata transformasiya.............................. 91
27. **Mirzəyev Natiq, dosent; Abdullayeva Pərvanə, magistrant -** Regionlarda sığorta bazarında rəqəmsal texnologiyalardan istifadənin təşkili......................... 93
28. **Mirzəyev Natiq, dosent; Həsənli Fərid, magistrant -** Vergi siyasətinin regionlarda iqtisadi aktivliyə təsiri.................................................................... 95
29. **Mirzəyev Natiq, dosent; Nəzərli Aydan, magistrant -** Rəqəmsallaşma şəraitində Mərkəzi Bankın pul və maliyyə sabitliyi siyasəti................................ 97
30. **Mustafayev Vaqif, baş müəllim -** Statistikada elektron xidmətlər göstərməsinin təşkili və Lənkəran rayonunda maliyyə statistik göstəricilərinin informasiya mənbələrinin öyrənilməsi........................................................................... 99
31. **Nəsirova Ofelya, iqtisad üzrə fəlsəfə doktoru; Məmmədli Əlvan, magistrant** - Regionlarda büdcə-vergi siyasəti və vergi gücünün qiymətləndirilməsi amilləri..................................................................................................... 101
32. **Nəsirova Ofelya, iqtisad üzrə fəlsəfə doktoru; Novruzov Vüsal, magistrant -** Regionlarında ödəniş sistemlərinin inkişafında rəqəmsallaşmanın rolu.............. 102
33. **Nəsirova Ofelya, iqtisad üzrə fəlsəfə doktoru; Nurullayeva Günel, magistrant -** Mühasibat uçotunda kompüter proqramlarından istifadə xüsusiyyətləri...................................................................................................... 104
34. **Tağızadə Səriyyə, baş müəllim; İsayev Vasif, müəllim -** Lənkəran regionunun müəssisələrində mühasibat uçotunun elektronlaşdırılması problemləri................. 105

## "RƏQƏMSAL İQTİSADİYYATIN FORMALAŞMASI VƏ İNNOVATİV PERSPEKTİVLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ" BÖLMƏSİ

**Ağayev Samid**
**dosent**
**Əliyeva Gülşən**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**samid.agayev@afsa.gov.az**
**gulshen.aliyeva26@gmail.com**

### Ölkəmizdə rəqəmsal iqtisadiyyatın formalaşması mexanizmləri

Hazırki dövrdə rəqəmsal iqtisadiyyat istənilən mövzu haqqında kompyuterlər vasitəsilə oxuna bilən informasiyanı toplama, istifadə etmək və təhlil etmək bacarığı ilə inkişaf edir. Nəzərə almaq lazımdır ki, rəqəmsal iqtisadiyyatın təqdim etdiyi rəqəmsal informasiyalar və ya verilənlər bazaları iqtisadi inkişaf məqsədləri və sosial - iqtisadi problemlərin həlli istiqamətində geniş istifadə edilir.

Rəqəmsal iqtisadiyyat nədir? İlk öncə onu aydınlaşdırmağa çalışaq.
Rəqəmsal iqtisadiyyat bütün dünyada sürətlə inkişaf edir. O, innovasiyaların, rəqabətliliyin və inkişafın yeganə və ən mühüm göstəricisidir. Sahibkarlar, kiçik və orta biznes sahibləri üçün böyük potensiala malikdir.

Rəqəmsal iqtisadiyyat firmalara pərakəndə satış zəncirinin bir tərəfini kəsməyə və fərdiləşdirilmiş malları mağazalar vasitəsilə deyil, birbaşa fabrikdən və ya anbardan insanların malları əldə etməsinə imkan yaradır. Bu üsul aşağı xərclər və aşağı qiymətləri təmin edir.

Rəqəmsal iqtisadiyyat internetdə baş verən bütün iqtisadi əməliyyatlar üçün bir termindir. Bu veb iqtisadiyyat və ya internet iqtisadiyyatı kimi də tanınır. Texnologiyanın yaranması və qloballaşma prosesi ilə rəqəmsal və ənənəvi iqtisadiyyat birləşir. Gəlin rəqəmsal iqtisadiyyatın bu konsepsiyası daha çox öyrənək.

Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalara yönəlmiş, yəni rəqəmsal və hesablama texnologiyalarına əsaslanan iqtisadiyyat kimi müəyyən edilir. O, mahiyyətcə internet və digər kommunikasiya texnologiyaları tərəfindən dəstəklənən bütün biznes, iqtisadi, mədəni, sosial fəaliyyətləri əhatə edir. Son 15 ildə biz rəqəmsal platformaların böyük artımını və onların həyatımıza təsirini görürük. İndi istehlakçılar sosial mediada bura Facebook, instagram, twitter kimi platformalar və hətta youtube da daxil etmək olar, burada insanlar gördükləri məhsullardan təsirlənirlər. Hətta deyərdimki son 2 ildə yaşadığımız pandemiya dövründə rəqəmsal iqtisadiyyatın inkişafının şahidi olduq. Bir növ pandemiya bu platformaların inkişafına təkan verdi. Bütün biznes sahələrinin onlayn platformalarda inkişafına şərait yarandı. Beləliklə pandemiya dövründə iqtisadiyyat bu fürsətdən yararlanıb, istifadəçilərin həyatına integrasiya etməklə səhiyyə, təhsil, bank işi, əyləncə və s. kimi sahələrdə özünü doğrultdu. Məsələn: heç ağıla gəlməyən bir məsələyə toxunmaq istərdim. Banklar onlayn yəni rəqəmsal platforma üzərindən kredit rəsmiləşdirirlər. Vebsayta daxil olmaqla ad, soyad, fin kod və s. lazimi məlumatları daxil etməklə bizə kredit ayrılır və hətta kart vasitəsilə istədiyimiz ünvana çatdırılır. Məsələn: başqa bir mövzu - təhsil sahəsindəki roluna toxunaq. Onlayn təhsil aldıq və indiki vaxtda da bir çox təhsil müəssisələrində dərslər onlayn tədris olunur. Rəqəmsal iqtisadiyyat bir çox yeni tendensiyaların və startap ideyalarının yaranmasına səbəb oldu. Dünyanın demək olar ki, bütün böyük şirkətləri (Google, Apple, Microsoft, Amazon) rəqəmsallaşıb.

Rəqəmsal iqtisadiyyatın bəzi mühüm üstünlüklərinə nəzər salaq:

1. **İnternetdən istifadəni təşviq edir;**

Fikir versəniz bu gün gündəlik işinizin çoxunu internet vasitəsilə etmək olar. ABŞ-da başlayan texnologiyanın və internetin kütləvi inkişafı indi dünya miqyasında bir şəbəkədir.

2. **Elektron ticarətdə yüksəliş;**

Son 10 ildə onlayn biznesi əhatə edən bizneslər çiçəkləndi. Rəqəmsal iqtisadiyyat e-ticarət sektorunu həddindən artıq sürətləndirdi. Rəqəmsal iqtisadiyyat sahəsində təkcə birbaşa satış deyil, alış, paylama, marketing, satmaq da asanlaşmışdır.

3. **Rəqəmsal mallar və xidmətlər;**

DVD və musiqi CD-lərinin və ya qeydlərin günləri artıq geridə qaldı. Indi bu məhsullar rəqəmsal olaraq bizə təqdim olunur. Artıq heç bir maddi məhsula ehtiyac yoxdur. Bunlar bank və sığorta kimi xidmətlər üçün də keçərlidir. Əgər hər bir əməliyyatı onlayn edə biliriksə banka baş çəkməyə ehtiyac yoxdur. Beləliklə bu rəqəmsal iqtisadiyyatda müəyyən mal və xidmətlər tamamilə rəqəmsallaşmışdır.

4. **Şəffaflıq;**

Rəqəmsal iqtisadiyyatda əksər əməliyyatlar və onlayn ödənişlər olur. Nağd pul əməliyyatları nadir istifadə halına gəlib. Bu bazarda qara pulun və korrupsiyanın azalmasına və iqtisadiyyatın daha şəffaf olmasına kömək edir. Dövlət bu kimi halların qarşısını almaq üçün onlayn əməliyyatların inkişafına şərait yaradır.

Təbii ki, bu sahənin müsbət tərəfləri olduğu kimi mənfi nüansları da var

1. **Məşğulluqda itki;**

Texnologiyadan nə qədər asılıyıqsa insan resurslarından bir o qədər az asılı oluruq. Rəqəmsal iqtisadiyyatın inkişafı bir çox iş yerlərinin itirilməsinə səbəb ola bilər. Proseslər avtomatlaşdıqca insan resurslarına tələbat azalır. Məsələn, onlayn bankçılığın özünü nümunə götürək və yaxud DSMF- də bir çox mühasiblər işdən azad edildi səbəb, onların işini artıq program təminatı yerinə yetirəcək.

2. **Mütəxəssis çatışmazlığı;**

Rəqəmsal iqtisadiyyat mürəkkəb proseslər və texnologiyalar tələb edir. Platformaların qurulması və onlara qulluq üçün mütəxəssislər və təlim keçmiş kadrlar tələb olunur. Bunlar xüsusən də şəhərdən kənar ərazilərdə asanlıqla əldə olunmur.

3. **Ağır investisiya;**

Rəqəmsal iqtisadiyyat güclü infrastruktur, yüksək işləyən internet, güclü mobil şəbəkələr və telekommunikasiya tələb edir. Bütün bunlar çox vaxt aparan və investisiya tələb edən bir prosesdir. Bizim kimi inkişaf etməkdə olan ölkədə infrastrukturun və şəbəkənin inkişafı çox yavaş, yorucu və bahalı prosesdir. Azərbaycanın da daxil olduğu inkişaf etməkdə olan ölkələr nə edə bilər? İlk növbədə inkişaf etmiş ölkələrlə aradakı rəqəmsal boşluğu azaltmaq və həmçinin rəqəmsal hazırlığı tamamlamaq məqsədilə geniş zolaqlı internet infrastrukturuna investisiyaları artıraraq, əhalinin çıxış imkanlarını fasiləsiz şəkildə genişləndirmək lazımdır. Rəqəmsal iqtisadiyyatda istehsaldan daha çox, istehsaldan öncəki və sonrakı fəaliyyətlərin yaradılan əlavə dəyərə təsir etdiyini görürük. Bu iqtisadiyyatda, marka, dizayn, innovasiya, texnologiya, rəqəmsallaşma, təhsil, satış, marketinq, reklam kimi fəaliyyətləri doğru şəkildə reallaşdıra bilməyənləri qlobal bazarda uğur əldə edə bilməyəcəkləri açıq şəkildə görünür.

**Bağırova Şəfa**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**shefa.baqirova@mail.ru**

## Elektron ticarətin inkişafını şərtləndirən zəruri amillər və Azərbaycanda elektron ticarətin müasir vəziyyəti

Azərbaycanda elektron ticarətin inkişafı və tənzimlənməsini zəruri edən bir sıra mühüm amillər formalaşmışdır. Bunlara ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya səviyyəsinin

yüksəldilməsi, dünya bazarlarında Azərbaycan mallarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məqsədilə ticarət xərclərinin azaldılması, iqtisadi inteqrasiyanın dərinləşməsi ilə əlaqədar iqtisadi proseslərin idarə edilməsinə diqqətin artırılması, ölkədə e-kommersiyanın dinamik inkişafına şərait yaradan texnoloji bazanın və yeni nəsil mobil telefonların sayının artması, ölkədə banklar tərərfındən uzaqdan xidmət əməliyyatları göstərməyə imkan yaradan avadanlıqlardan istifadənin genişlənməsi, ticarət münasibətləri iştirakçılarının informasiya təhlükəsizliyini təmin edə bilən texniki vasitələrin mövcudluğu və s. aid etmək olar.

Azərbaycan Respublikasında e-ticarətin təşkili və həyata keçirilməsinin hüquqi əsasları, onun iştirakçılarının hüquq və vəzifələri, habelə e-ticarət haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət "Elektron ticarət haqqında" Qanunla tənzimlənir. Maliyyə bazan, o cümlədən sığorta və qiymətli kağızlar bazarı istisna olmaqla, bu Qanun Azərbaycan Respublikasında bütün digər sahələrdə həyata keçirilən e-ticarətə şamil olunur. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununa (maddə 1.0.1.) görə, "Elektron ticarət - informasiya sistemlərindən istifadə etməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyət"dir.

Elektron ticarətin inkişafında əsas amillər aşağıdakıları qeyd etmək olar:

- informasiya sistemləri;
- müasir və əlçatan internet infrastrukturu;
- inkişaf etmiş logistika;
- elektron ödəmə sistemləri;
- elektron biliklər;
- dəqiq statistika;
- optimal vergi və gömrük tənzimlənməsi;
- maarifləndirmə.

Müasir və əlçatan internet infrastrukturu vasitəsilə həyata keçirilən elektron ticarətin fəaliyyəti, ilk növbədə firmanın, malın imicinin yaradılması, istifadəçilərin firma, məhsul barəsində informasiyaya malik olmasına şərait yaradılması, bütün imkanlardan: qrafikadan, səsdən, animasiyadan, videotəsvirdən və s. vasitələrdən istifadə etməklə mal haqqında məlumatın verilməsi kimi məqsədləri güdür. Məhsulun internet vasitəsilə satışı yeni ticarət nöqtələrinin açılmamasına imkan verəcəkdir, yəni korporativ xərcləri azaldacaq və gəlirləri artıracaqdır.

Qlobal elektron kommersiyanın əsas vəzifələrinə istehsalat-texniki təyinatlı məhsullara və onların bazarlarının marketinq öyrənişi, malların istehlakçı üçün lazım olan çeşiddə, miqdarda və lazımi keyfiyyətdə istehsal olunması, pərakəndə ticarət müəssisələrinin, istehlakçıların geniş çeşiddə mallarla vaxtında, dolğun və ahəngdar təchiz olunması, mal göndərişinin planauyğunluğunun və ahəngdarlığının təmin olunması əsasında mal ehtiyatlarının saxlanılmasının təşkili, mal göndərənlər, vasitəçilər, istehlakçılar arasında bütün qarşılıqlı münasibətlər sisteminin nizamlanmasının iqtisadi metodlarının geniş tətbiq olunması, ənənəvi ticarət münasibətləri forması zamanı malların istehsalçılardan istehlakçılara doğru hərəkəti ilə bağlı olan toplu məsrəflərin aşağı salınması və s. aiddir.

Elektron kommersiya bir çox üstünlüklərə malikdir ki, bunlar da ölkənin iqtisadi inkişafında mühüm rol oynayır. Elektron kommersiyanın istifadə olunması informasiyanın alınmasında operativliyi artırır, malın planlaşdırılmasından və sifarişindən onun satışınadək olan dövrülük azalır, çünki əldə olunan sənədləri hər dəfə daxil etməyə ehtiyac duyulmur, həm də bunlar daxil edilən zaman səhvin yaranma ehtimalı da azalır, daha ucuz kommunikasiya vasitələrindən istifadə olunması hesabına informasiya mübadiləsi ilə bağlı olan məsrəfləri əhəmiyyətli dərəcədə azaldır, şirkəti müştərilərə qarşı münasibətlərdə daha açıq olmağa imkan verir, tərəf-müqabilləri və müştəriləri məhsullar və xidmətlər haqqında asan və tez məlumatlandırmağa, alternativ satış kanallarını yaratmağa imkan verir.

Respublikada elektron ticarətin inkişafına mane olan səbəblərə aşağıdakılar aid oluna bilər:

- avadanlığın dəyərinin və ixtisaslı texniki heyətə çəkilən xərclərin daxil olduğu ilkin kapital qoyuluşunun yüksək olması;

- internetin milli şəbəkəsi istifadəçilərin auditoriyasının azsaylı olması;
- alışın və onun çatdırılmasının təşkilinin mürəkkəb formasının mövcud olması.

Azərbaycanda «elektron pullar» çox asta və çətinliklə özünə yer tapır, kredit kartlarının sahiblərinin sayı hələ də azdır. Bundan başqa, elektron ticarətdə rəqabət çox yüksəkdir. Adi mağaza ona ümid ola bilər ki, alıcı ucuz mal axtarışında nəzakətli və peşəkar məsləhətçidən ayrılmaq istəməz, internet-mağazada isə belə üstünlük yoxdur. Hazırkı gündə elektron ticarətin sosial-iqtisadi mahiyyəti bu biznesin mənfəətli olmasında deyil, daha çox real mövcud olan ticarət salonlarına, mağazalarına imic və dərk edilmə kimi əlavə olunan imkanlardan ibarətdir.

Ölkəmizdə elektron ticarət dövriyyəsinin vəziyyətini aşağıdakı qrafikdən aydın şəkildə görmək olar:




Azərbaycanda 2021-ci ilin ilk rübü ərzində ərzaq malları, içkilər və tütün məmulatları üzrə pərakədə **elektron ticarətin** dövriyyəsi kəskin artıb. Dövlət Statistika Komitəsinin rəsmi göstəricilərinə istinadən deyə bilərik ki, cari ilin yanvar-aprel ayları ərzində elektron ticarətdə 36 milyon 199.6 min manat həcmində məhsul satılıb. Bu isə öncəki ilin eyni dövrü ilə müqayisədə 2.4 dəfə artım deməkdir.

**Binnətov Arif**
**dosent**
**Nağıyeva Günel**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**arif0105@mail.ru**
**gunelnagiyeva845@gmail.com**

## Azərbaycanın turizm bazarında rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyəti

Turizm-insanların öz daimi yaşayış yerlərinin hüdudlarından digər yerlərə hərəkətləri ilə əlaqədar sosial, mədəni və iqtisadi hadisələri əks etdirir, iqtisadiyyata, təbiətə, antropogen mühitə əsaslı təsir göstərir. Turizm bazarı elə bir yerdir ki, burada turist tələbi turizm təklifi ilə görüşür. Turizm obyektləri-turizm bölgəsi, turizm müəssisələri və təşkilatlarıdır. Turizmin subyektləri dedikdə, turoperatorlar, turagetlər, turistlər, yerləşmə müəssisələri, nəqliyyat subyektləri və s. nəzərdə tutulur. Turizm bazarında turizm subyektlərinin əldə etdikləri gəlirlər

bütün turizm subyektlərinin arasında bərabər bölünmür. Turizm bazarında ən çox yüksək gəlirə sahib otel müəssisələridir. Otel müəssisələri yalnız rəqəmsal texnologiyalardan yaxşı istifadə edə bilirlər. Digər turizm subyektləri isə edə bilmirlər. Ən ucuz variantlarını istifadə edə bilirlər. Sadəcə yüksə və orta səviyyəli yerləşmə müəssisələrində rəqəmsal texnologiyadan daha çox istifadə edə bilirlər. Kiçik yerləşmə müəssisələri adətən naqilsiz rabitə texnologiyalarından yəni, internetdən istifadə edirlər. Rəqəmsal texnologiyaların Azərbaycan bazarında daha çox istifadə edilən programlarına aiddir: Opera, 1C, Edelweiss, Otelmlər, Fidelio və s. göstərmək olar. Opera-universal yəni, müxtəlif növ otel biznes müəssisələrində tətbiq edilə bilər. İş fəaliyyətinin ölçüsündən və həcmindən asılı olaraq konfiqurasiya edilmişdir. Ən tələbkar sorğulara cavab verir, zəngin funksionallığı var. 1C-mehmanxanalarda istirahət evlərində, pansionatlarda uçotun avtomatlaşdırılması üçün istifadə edilir. Azərbaycanda ən çox tətbiq edilən progrmam 1C dir.

Turizm bazarında yerləşmə müəssisələrində tətbiq edilən programlar eyni deyildir. Bu programların qiyməti çoxdur və buna görədə yerləşmə müəssisələri arasında rəqabət yaranır. Məsələn Lənkaranda yerləşən "Spring Hotel" Opera programını tətbiq edir. Ancaq "Hilton Baku" otelində Beynəlxalq Avro sisteminin tətbiq etdiyi programlardan istifadə edir. Bunlar aiddir: Amadeus və Galileo.

Yüksək səviyyəli otellər beynəlxalq otellərin şəbəkə sisteminə daxil olduqları üçün Lisenziya əsasında yüksək qiymətli programları tətbiq edə bilirlər .Digər aşağı səviyyəli otellərdə isə kiçik programlardan istifadə edilir.

Turizm bazarında turistlərin informasiya resurslarına gündəlik və kəsilməz əlçatanlıq yalnız internet vasitəsilə mümkündür. Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN viza"sisteminin yaradılması turizmin inkişafına əhəmiyyətli təsir göstərmiş və ölkəmizə səfər edən əcnəbi vətəndaşların sayını çoxaltmışdır. Azərbaycana tursitlərin cəlb olunması üçün çox saytlar hazırlandı. Həmin saytlardan "azərbaijan.travel", "salambaku.travel" və sair saytlar Azərbaycanın tanınmasına və turistlərin sayının artmasına səbəb oldu.

Müasir dövrdə informasiyanın bolluğu beynəlxalq turizmin imkanları ilə daha geniş şəkildə tanış olmaq imkanı yaradır. İnternetdə yayılan informasiyalardan istifadə etməklə turizmin təşkilinin alternativ variantlarını, xidmət obyektlərini,onun təşkilinin təcrübi əsaslarını öyrənmək mümkündür.

Turizmdə informasiya ölkənin turizm potensialını müəyyən edən təbii ehtiyatlar-təbiət, ətraf aləm, tarixi abidələr, dəniz və s. haqqında insanlarda müsbət fikirlər oyandırılmasından ibarət görülən tədbirlərdir. İnformasiya verilməsinə başlanılarkən insanların zövqləri, mədəniyyət səviyyələri, sosial vəziyyətləri və s. nəzərə alınmalı və hazırlıqlar buna əsasən aparılmalıdır. Bunlardan əlavə olaraq ölkənin turizmdə hansı yeri tutması və hansı səbəblə həmin yerdə yerləsməsi və s. məsələlər də aydınlaşdırılmalıdır. Çünki bu amillər informasiya verilməsininin nəticələrinə uğurla təsir göstərən amillərdəndir. Düzgün şəkildə verilən informasiya ölkəyə turist axınını çoxaldacaqdır.

Azərbaycanda rəqəmsal turizmin inkişafı sayəsində turistlər həm səyahət öncəsi məlumat toplaya bilirlər həm də səyahət sonrası təcrübələrini paylaşa bilirlər. Rəqəmsal turizm ərazini ziyarət etmək istəyən insana ərazini daha əvvəl ziyarət etmiş insanların bəyənmələri, təcrübələri, rəyləri və destinasiya haqqında baxışlarını öyrənmək fürsəti verməkdədir. İnternet vasitəsilə əldə edilən məlumatlar potensial ziyarətçilərin gözləntilərini yenidən gözdən keçirərək özlərinin ərazi seçimlərində köməkçi olur. Həmçinin internet, destinasiya ərazilərin şəffaf və asan yoldan qarşılaşdırılmasına, tətil paketlərinə, ekskursiyalara, qonaqlama və tətil servislərinə çatmağa kömək edir. Səyahətə çıxacaq insanlar axtarışlarını artıq daha çox internet üzərindən etməyə başlayıblar.

Azərbaycanda idxal olunmuş İKT məhsullarının dəyəri, milyon manat




Mənbə: Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Bakı 2021

2019 və 2020 ci illəri müqayisə etdikdə, cədvəldəndə göründüyü kimi 2020 ci ildə artım olmuşdur və 500 milyona çatmışdır. Bunun tərkibinə həmçinin müəssisə və təşkilatlarda daxildir. Sayın artaraq 500 milyon olmasının səbəbi isə bu illərdə pandemiya olmasıdır. İnsanlar yalnız onlayn işlədiklərinə görə İKT sistemlərinə üz tutublar.

**Əhmədova Turanə**
**dosent**
**Əsədzadə Nuranə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**turanaxmedov@mail.ru**
**nurka644@gmail.com**

## Kiçik biznesin inkişafında rəqəmsal texnologiyalardan istifadənin əhəmiyyəti

Ölkəmizdə son illər həyata keçirilən bu iqtisadi islahatlar biznes mühitinin daha da yaxşılaşdırılmasını, təşviq siyasətinin davam etdirilməsini və institusional islahatları əhatə edir. Həmçinin yerli şirkətlərin canlanmasına və investorların aktiv fəaliyyətinə şərait yaradacaq biznes mühiti təmin edilir. Biznes mühitinin yaxşılaşdırılması isə sahibkarlığın davamlı inkişafına şərait yaradır.

Rəqəmsal texnologiyaların mənimsənilməsi səviyyəsi ümumilikdə ölkədə innovativ inkişaf səviyyəsinin göstəriciləri sırasındadır. Qlobal pandemiya kiçik biznesin davamlı və dayanıqlı inkişafı üçün rəqəmsallaşmanın vacibliyini bir daha göstərdi. Azərbaycan hökuməti tərəfindən 2030-cu il Milli Prioritetlər çərçivəsində hazırlanmaqda olan sosial–iqtisadi inkişaf strategiyasında kiçik biznesin rəqəmsallaşdırılması mühüm elementlərdəndir.

Rəqəmsal texnologiyaların inkişafı bəşəriyyət qarşısında tərəqqi üçün yeni üfüqlər açır. Hazırda dünya IV Sənaye İnqilabına qədəm qoyur. Bu istehsalın avtomatlaşdırılması, robotlaşma, süni intellektdən geniş istifadə, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi deməkdir. "SƏNAYE 4.0" rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq ən fərqli sahələrdə yeniliklərin tətbiqinə və inkişafa gətirib çıxardır.

Hazırda dünya ölkələri yeni inkişaf mühitinə qədəm qoyaraq rəqəmsallaşma istiqamətində yeni təşəbbüslər irəli sürürlər. Belə bir dövrdə rəqəmsal texnologiyaların tətbiqi,

xüsusilə də iqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyatın qurulması ən çox müzakirə olunan məsələlərdəndir.

Son illərdə respublikamızda kiçik biznesin inkişafına çoxşaxəli maliyyə köməyi sisteminin formalaşdırılması, maliyyə dəstəyinin reallaşdırılması mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər həyata keçirilir. Bu məqsədlə 1993-cü ildən fəaliyyət göstərən Sahibkarlığa Kömək Milli Fondu "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı" və "Kiçik Sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanunu əsasında dövlət büdcəsindən kiçik sahibkarlığın inkişafına yönəldilən vəsaitin bölüşdürülməsi və istifadəsini təmin edir.

Rəqəmsal iqtisadiyyat kompüter texnologiyalarına əsaslanan fəaliyyət sahəsidir. Rəqəmsal iqtisadiyyatın 3 əsas komponenti var:

1. e-biznes;
2. e-biznes infrastrukturu;
3. e-ticarət.

Rəqəmsal iqtisadiyyat biznesin təhlükəsizliyini, səmərəliliyini və görülmə dərəcəsini yaxşılaşdıran təchizatçıları, işçiləri və ortaqları bir-biri ilə əlaqələndirərək daha yaxşı ünsiyyətə kömək edir. Buna görə də biznes rəqəmsal iqtisadiyyatı mənimsəməklə daha yaxşı fəaliyyət göstərə bilər. Bugün dünya biznesinin təxminən 12%-i internet üzərindən aparılır və yaxın 30 il üçün 80%-ə qaldırılması gözlənilir.

Hazırda ölkəmizdə də aparılan islahatlar, dövlət və özəl sektor tərəfindən icra edilən mühüm proqramlar rəqəmsal iqtisadiyyat quruculuğu üçün mühüm baza formalaşdırır. Rəqəmsal iqtisadiyyat özünün yeni iqtisadi modelini yaratmaqdadır. Belə ki, rəqəmsal iqtisadiyyatın inkişafı sayəsində ictimai və iqtisadi münasibətlər sistemi dəyişir, iqtisadi qiymətləndirmə və iqtisadi statistika sistemi dəyişikliklərə məruz qalır.

Rəqəmsal iqtisadiyyat sahibkarların inkişafı üçün aşağıdakı göstəriciləri vəd edir:

- Sosial–iqtisadi problemlərin həllində geniş istifadə etməklə iqtisadi siyasətin effektivliyinin artırılmasına geniş imkanlar açır;
- İnnovasiyaların və məhsuldarlığın artımına təkan verir;
- Az xərclə daha kefiyyətli mal və xidmət göstərilməsinə şərait yaradır;
- Azərbaycan üçün ən aktual olan kənd təsərrüfatının inkişaf yolunu dəyişməyə şərait yaradır. Ənənəvi kənd təsərrüfatı "qapalı sahədə şaquli kənd təsərrüfatı" ilə əvəzlənir.

Rəqəmsal iqtisadiyyat sosial fəaliyyətlərin və iqtisadiyyatın qlobal şəbəkəsi kimi müəyyən edilir ki, bu da kiçik sahibkarlarların sosial şəbəkə, vebsayt və s. istifadə etməklə yeni imkanlar əldə etmiş olurlar və onlar bununla satış həcmini artırır, maya dəyərini azaldır, bazarda baş verəcək maneələri aradan qaldıra bilirlər. Hazırda kiçik və orta biznes müəssisələri potensiallarını texnologiya və innovativ biznes modellərinə uyğunlaşdırırlar.

Ümumilikdə Azərbaycanda internet ticarəti sektoru üç ildir ki, daim artır və istehlak malları üçün internet bazarının proqnozlaşdırılan gücü, ekspertlərə görə, 2022–ci il üçün 2 dəfə artmalıdır. Amma, bunun üçün müasir, daim təkmilləşdirilən rəqəmsal texnologiyalar və alətlər həm tədricən, həm də sistematik şəkildə hədəf auditoriyanı əhatə edən müxtəlif səviyyəli ticarət şirkətlərinin fəaliyyətinə daxil edilməlidir.

Ölkəmizdə rəqəmsal iqtisadiyyata keçidin müasir problemlərinin həllinin sürətləndirilməsi zərurəti vardır və bunun üçün bir sıra problemlərə daha çox diqqət yetirilməlidir:

- rəqəmsal iqtisadiyyata keçidlə bağlı konseptual yanaşmalar müasir dövrün çağırışlarına uyğunlaşdırılmalı və uzunmüddətli dövr üçün baxışlar bir daha dəqiqləşdirilməlidir;
- iqtisadiyyatın müxtəlif sahələrində rəqəmsal iqtisadiyyatın tətbiqinə mühüm yer verilməli və onu dəstəkləyən ifrasturktur yaradılmalıdır;
- ölkəmizin milli gəlirini artıra biləcək sahələrə inevstiya qoyuluşları problemləri həll edilməlidir.

**Əhmədova Turanə**
**dosent**
**Gözəlzadə Röya**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**turanaxmedov@mail.ru**
**gozelzade97@mail.ru**

## Turizm xidmətləri bazarında rəqəmsal iqtisadiyyatın rolu

Rəqəmsal iqtisadiyyat internet və digər rəqəmsal kommunikasiya texnologiyalarının vasitəsi ilə həyata keçirilən iqtisadi, sosial, mədəni fəaliyyətləri əhatə edir. Qloballaşmanın nəticəsi olaraq güclü rəqabət mühiti və davamlı inkişaf ehtiyacı müəssisələrin fəaliyyətini daha da mürəkkəbləşdirir. Burada internet güclü rəqabət vasitəsi kimi ortaya çıxır. Rəqəmsal vasitələrdən istifadənin müəssisə və istehlakçılar üçün müsbət göstəciləri aşağıdakı kimidir:

- Məsafənin öz əhəmiyyətini itirməsi;
- Korrupsiya probleminin aradan qalxması;
- Sürətli, operativ kontakt yaradıla bilməsi;
- Şəbəkələrin xərcləri azaldıb, səmərəliliyi çoxaltması;
- Qlobal miqyasda zaman və məkan məhdudiyyətlərinin aradan qalxması;
- İstehlakçıların potensial alternativlərlə daha çox və rahat tanış ola bilməsi;
- Problemlərin operativ dəyərləndirilməsi;
- Müəssisələrin fəaliyyətinin operativ və səmərəli hal alması və s.

Bütün sektorlarda olduğu kimi turizm sektorunda da rəqəmsallaşmanın rolu günü-gündən artmaqdadır. ÜTT-in araşdırmalarına görə internetin turizm sektorunda rolunun zaman içərisində artmasının əsas səbəbi istehlakçıların tələbatlarını operativ olaraq müəyyənləşdirmək, informasiya mübadiləsi, rahat ünsiyyət kimi faktorlardır.

"We are Social"-ın 2020-ci il yanvar ayında apardığı araşdırmaya əsasən, bir il öncə 2019-cu il yanvar ayının araşdırması ilə müqayisədə dünya əhalisinin sayı 1,1% (82 milyon) artaraq 7,75 mlrd nəfərə çatmışdır. Eyni tarixlərdə telefon istifadəsi statistikasını müqayisə etsək 2,4% (124mln) artım müşahidə olunur ki, bu da 5,19 mlrd istifadəçi deməkdir. Həmçinin bu müqayisəyə internet istifadəçiləri üçün baxsaq, 7% (298mln) artaraq təxminən 4,54 mlrd nəfərə çatdığını görərik. Bu artım dinamikası özünü turizm sektorunda da göstərir. Belə ki, pandemiya dövrünü çıxsaq son 10 ildə turizm xidmətlərindən istifadədə rəqəmsal vasitələrin rolu artım tempi ilə müşahidə olunur. Turizm xidmətləri bazarında bronlaşdırma xidmətinin rolu əhəmiyyətli dərəcədə artmaqdadır. Bu xidmət əsasən aviabilerlərin və hotellərdə nömrələrin bronlaşdırılmasında geniş istifadə olunur.

Müasir dövrdə rəqəmsallaşma rəqabətqabiliyyətlilik baxımından güclü vasitə olduğundan, turizm xidmətləri bazarında bronlaşdırma sistemləri öz göstəricilərinə görə bu rəqabət mühitində xüsusi rol oynayır. İlk bronlaşdırma mərkəzlərinin texniki təminatı İBM firması tərəfindən verilmişdir. Kompüter bronlaşdırma sistemlərində məhz İBM firmasının avadanlıqlarından istifadə edilir. Kompüter bronlaşdırma sisteminin inkişafında ilk addım məhz aviaşirkətlərdə terminalların quraşdırılması olmuşdur. 1970-ci illərdə ABŞ-da "United Airlines" aviaşirkətində biletlərin bronlaşdırmasını həyata keçirən avtomatlaşdırılmış sistem – "APPOLLO" tətbiq edilmişdir. Bununla yanaşı "American Airlines" aviaşirkətində isə ilk sistem "SABRE" olmuşdur. Bu sistemlər real vaxt rejimində aviareyslər haqqında informasiya əldə etmək imkanı verirdi. Daha sonra aviakompaniyalardakı əvvəlki sistemlərin yeni sistemlərə birləşdirilməsi baş verdi. Yeni yaradılan sistemlərdə nəinki reyslərdəki yerlər haqqında məlumat, hətta telefon nömrələri, avtomobil kirayəsi, mehmanxanalardakı yerlər, dəmiryol biletlərinin satışı haqqında informasiyaları əldə etmək olardı. Bu cür sistemlər birləşərək kompüter bronlaşdırma sistemlərinin, yəni turist xidmətlərinin bronlaşdırmasının qlobal sisteminin yaradılmasına gətirib çıxardı. Hazırda dünyanın ən iri bronlaşdırma sistemi Amadeus hesab edilir. Onun mərkəzi Almaniyanın Erdinq şəhərində yerləşdirilmişdir.

Amadeus bronlaşdırma sisteminin əsası Avropanın iri aviaşirkətlərindən olan "Air France", "İberia" və "Lufthansa", həmçinin 25 kiçik aviaşirkətləri tərəfindən 1987-ci ildə qoyulmuşdur. Digər bir sistem, Worldspan 18,5 min agentliyə 492 aviakompaniyanı, avtomobil icarəyə etmə üzrə 45 kompaniya (dünyanın 15854 nöqtəsində xidmətlərini təklif edir), 25 turist operatoru və 191 mehmanxana şirkəti (təxminən 45000 mehmanxana təqdim edir) bronlaşdırmaya imkan yaradır.

Mehmanxanalarda bronlaşdırma sistemləri bir sıra əlavə ximətlərlə istifadəçilərin diqqətini cəlb edir. Belə ki, bronlaşdırmadan öncə, nömrələrin cari vəziyyəti ilə tanışlıq, müəssisənin bütün xidmətləri haqqında ətraflı məlumat, əvvəllər qonaq olmuş və ya olmamış şəxslər üçün müvafiq imkanlar və s. təklif olunur. Mehmanxana nömrələrinin bronlaşdırılması üçün ən çox istifadə olunan sistemlər bunlardır:

- ResearchGate;
- HotelTechReport;
- HotelRunner;
- Butiksoft, və s.

Qeyd etmək lazmdır ki, bronlaşdırma sistemləri həm istehlakçıların, həm də müəssisənin öz fəaliyyətinin səmərəliliyini və operativliyini təmin edir. Dünya turizm bazarına nəzər salsaq görərik ki, müasir bronlaşdırma sistemlərindən istifadə etməyən bir sıra müəssisələr rəqabətqabiliyyətli olmadıqları üçün bazar payını itiriblər. Nəticə olaraq aydındır ki, ETT-in dinamik inkişafı ilə uyğunlaşmadan rəqabətqabiliyyətliliyi təmin etmək, xüsusən turizm sektorunda, mümkünsüzdür. Təəssüf ki, Azərbaycanda da turizm sektorunda rəqəmsallaşma, geniş imkanlara malik bronlaşdırma sistemləri bir o qədər inkişaf etməmişdir. Bu da öz növbəsində əcnəbilərin (turistlərin) ölkəyə gəlməsini müəyyən mənada çətinləşdirir. Bu kimi problemlərin aradan qaldırılması üçün ilk növbədə mövcud müəssisələrdə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, müəyyən güzəştlərin tətbiqi, həmçinin təlim kurslarının keçirilməsi, daha sonra, sahə üzrə kadrların yetiştirilməsi faydalı olacaqdır.

Müstəsna olaraq qeyd olunmalıdır ki, ölkəmizdə “ASAN VİZA”-ın mövcudluğu həm turistlərin gəlməsi prosesini, həm də satış kanallarının (booking.com, sanatoriums.com, trivago.com və s.) fəliyyətini müəyyən mənada rahatlaşdırır.

Ümumiyyətlə belə nəticəyə gəlirik ki, internet rəqəmsallaşmada və dolayısı ilə iqtisadiyyatın səmərəliliyinin təmin olunmasında zəruri əhəmiyyətə malikdir.

**Əhmədova Turanə**
**dosent**
**Məmmədova Gültəkin**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**turanaxmedov@mail.ru**
**mmmdovagultekin@gmail.com**

## Kiçik biznesin inkişafı həyat keyfiyyətlərinin artırılması vasitəsi kimi

Kiçik biznes subyektləri bazar iştirakçıları arasında əhəmiyyətli mövqeyə malikdir. Öz təşkilatı quruluşları, idarəetmə sistemləri, marketinq strategiyaları, qanunla təşkil olunma qaydalarına görə kiçik bizneslər digər iştirakçılardan kəskin şəkildə fərqlənirlər. Bu fərqlilik özünü onların bazar payında fəaliyyət planlarında cəmiyyət üçün daha faydalı dövlət və ümumdaxili məhsul üçün daha üstün olmalarında da göstərir. Böyük firmalardan fərqli olaraq kiçik bizneslər daha lokal ərazilər üzrə cəmləşir və müəyyən sosial qruplara birbaşa aid olur. Onların qəbul etdikləri qərarlar daha etik və ictimai rifaha yönəlmiş qərarlar olur, onların fəaliyyətinin əsasında cəmiyyətinin sosial-iqtisadi rifahının inkişaf etdirilməsi prinsipləri

dayanır. Əhalinin məşğulluğunun təmini, yerli istehsalın inkişafı, istehlakçıların tələblərinin öyrənilməsi, bazarın çevikliyinin və rentabelliliyinin artırılması baxımından kiçik bizneslər həm cəmiyyət, həm iqtisadiyyat, həm də dövlət üçün hədsiz imkanlar vəd edir.

Sahibkarlar üçün kiçik biznes daha məqsədəuyğundur. Kiçik biznesin cəlbedici olması onun sadə təşkilati quruluşa malik olmasıdır. Dövlətin bu sahədə həyata keçirtdiyi həvəsləndirici tədbirlər, vergi güzəştləri bu sahədə öz müsbət təsirlərini göstərməkdədir. Kiçik biznes subyektləri ölkə iqtısadiyyatına ümumdaxili məhsula, işsizlik səviyyəsinin azaldılmasına, əhalinin gəlirlərinin yüksəldilməsini və onların yaşayış səviyyələrinin yaxşılaşdırılmasına böyük töhvə qatır. Xüsusi ilə inkişaf etmiş ölkələrdə bu quruluşlu biznes daha sıx təsadüf olunması müsbət haldır. İqtisadi sferadakı təlabatı tez bir zamanda aşkar edən və dəyişiliklərə tez bir zamanda uyğunlaşaraq cəmiyyətin təlabatına tam şəkildə cavab verən xidmət və məhsulların təqdim edilməsi ilə kiçik biznes subyektləri ölkə iqtisadiyatının əsas oyunçularına çevrilməkdədirlər.

Kiçik biznesin uğurlu və uğursuz olmasını müxtəlif səbəbləri izah etmək mümkündür. Bəzi biznes sahələrində uğurlu olmaq öz müştəri kütləsini formalaşdırmaq və onları tanımaqdırsa, digərlərində bu müştərilərin məmnuniyyətini təmin etməkdir. Kiçik biznes əvvəlcədən də qeyd etdiyimiz kimi çevik və müstəqil olmaqdır.

Kiçik biznes üçün təhlükə yaradan və onun uğursuzluğuna səbəb olan faktorlar vaxt və nizamsızlıqlar ola bilər. Müəssisə kiçik olduğunda idarəetmədəki asanlıq, rəhbərləri düzgün zamanlama və planlamada arxayanlaşdıra bilər. Bu da nəticə etibarı ilə fəaliyyətilərinin davamı prosesində uğursuzluğa səbəb ola bilər. Kiçik biznesin ən geniş yayılmış növü ayrı-ayrı şəxslər tərəfindən öz investisiyaları hesabına formalaşdırılmış müəssisələrdir. Lakin bazarda ortaqlıq əsasında formalaşan kiçik biznes subyektləri üstünlük təşkil edir. Kiçik biznesin böyük əksəriyyətini ailə biznesləri təşkil edir. Bir çox hallarda ən uğurlu olanları da elə ailə biznesləri olur. Ailə biznesi hər hansı bir ailənin bir neçə üzvü ilə birlikdə təşkil və idarə etdikləri biznes növüdür. Biznes mühütündə bir ailə üzvlərinin və ya yaxın qohumların birgə iştirakı bu biznesi güclü və dayanaqlı edir, bu da onların gələcək prespektivlərini müəyyən edir. Bu gün Walmart, Ford, Mars kimi dünyanın böyük transmilli korparasiyaların başlanğıcı da ailə biznesi olaraq bazara daxil olmuşdur. İstər iqtisadi səmərə, istər çeviklik, istərsə də cəmiyyətin firavanlığına təsiretmə dərəcəsinə görə kiçik bizneslər digər biznes formalarından əsaslı şəkildə fərqlənirlər. Bu fərqlər onları cəmiyyət qarşısında daha diqqətli davranmağa vadar edir. İşsizliyin azaldılması əhalini tələb və ehtiyaclarının daha yaxşı və çevik qarşılanması, ümumdaxili məhsula daxilolmanın həcminin artırılması bütövlükdə ölkə iqtisadiyyatının çevikliyinin təmin olunması kiçik müəssisə və bizneslərin fəaliyyəti ilə təmin olunur.

Kiçik biznesi səmərəli və daha cəlbedici edən xüsusiyyətləri daha az xərc tələb etməsinə malik olması və dövlət tərəfindən dəstəklənməsidir. Kiçik biznesə dövlətin və onun struktur vahidlərinin ayrı ayrı orqanların dəstəkləri zəruridir. Bu məqsədlə hüquqi qərarlar, strateji planlar və uzunmüddətli fəaliyyət topluları hazırlanmalı və icra olunmalıdır. Əhalinin tələbatının əksər hissəsinin ödənilməsi yerlərdə məşğulluğun təmin olunması, bölgələrin sosial iqtisadi çiçəklənməsi əsasən kiçik biznesin mövcudluğu ilə reallaşır.

Ölkəmizdə kiçik müəssisə və biznes subyektlərinin milli iqtisadiyyatda çəkisi əhəmiyyətli dərəcədə çoxdur. Kiçik biznes sahələri iqtisadiyyatın demək olar ki, bütün sahələrini və ölkənin bütün regionlarını əhatə edir. Regionlar üçün kiçik biznesin vacibliyi və töhvələri daha böyükdür. Əhalinin tələbatının əksər hissələrinin ödənilməsi, yerlərdə məşğulluğun təmini, bölgələrin sosial-iqtisadi çiçəklənməsi əsasən kiçik bizneslərin mövcudluğu ilə reallaşır. Kiçik biznes fəaliyyəti üçün zəruri və yardımçı xarakter daşıyan bütün alətlər dövlət tərəfindən təmin olunur. Azərbaycan kiçik biznesə yaradılmış şərait və üstünlüklərə görə nümunə ola biləcək ölkədir. Xüsusilə son dövrlərdə ölkədə postneft iqtisadiyyatına keçidlə əlaqədar görülən işlər, qəbul olunmuş qərarlar buna bariz bir nümunədir.

**Əliyev Əlövsət**
**dosent**
**AMEA İnformasiya Texnologiyaları İnstitutu**
**alovsat_qaraca@mail.ru**

## Regional sosial-iqtisadi inkişafın keyfiyyətliliyinin təminində onun kiberdayanıqlılığının artırılması məsələləri

Təqdim olunan işdə regional sosial-iqtisadi inkişafın keyfiyyətliliyi aspektində kiberdayanıqlılığın artırılması məsələlərinə baxılmışdır. Sosial-iqtisadi inkişafa rəqəmsal iqtisadiyyatın təsiri təhlil olunaraq kiberdayanıqlığın zəruriliyi əsaslandırılmış, onun ölçülməsinə olan baxışlar araşdırılmışdır. Müvafiq sahədə meyarlar təklif edilmiş, kiberdayanıqlılığın artırılması üzrə bəzi tövsiyələr verilmişdir.

Müasir dövrdə regional iqtisadiyyatın davamlı inkişafına nail olmaq, sosialyönümlü, diversifikasiya olunmuş yeni milli iqtisadiyyatların formalaşdırılmasını həyata keçirmək aktual məsələlərindəndir. Makroiqtisadi sabitlik, regionların sürətli inkişafı, əlverişli biznes və investisiya mühiti əsasında tarazlı iqtisadi inkişaf modelini daha da təkmilləşdirmək tələb olunur. Bu tədbirlərin əsas məqsədi iqtisadi davamlılığın və dayanıqlılığın gücləndirilməsi, müəssisələrin səmərəliliyinin artırılması yolu ilə iqtisadi dinamikliyin təmini, insan kapitalının inkişafı və biznes mühitində institutisional mexanizmlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Burada əsas vasitə İKT-nin inkişaf potensialının artırılması və İKT infrastrukturunun təkmilləşdirilməsi vasitəsilə iqtisadiyyatın rəqəmsallaşdırılması səviyyəsini yüksəltməkdir. Bazarlara rəqabətədavamlı İKT məhsullarının çıxarılması və yüksək texnologiyalara əsaslanan yeni investisiya layihələrinin ölkəyə cəlb edilməsidir.

Bu səbəblərdən də regional iqtisadiyyatın dayanıqlılığı, o cümlədən kiberdayanıqlılığı səviyyəsinin yüksəldilməsi məsələlərinin tədqiqi aktual məsələlərdən biridir və onun həlli istiqamətində müvafiq mexanizmlərin işlənilməsinə tələbat böyükdür.

Ümumi halda qeyd oluna bilər ki, regional iqtisadiyyatın kiberdayanıqlılığı səviyyəsinin yüksəldilməsi məsələləri ilk növbədə onun iqtisadi təhlükəsizlik səviyyəsiylə müəyyən olunur. Bu isə iqtisadi təhlükəsizlik səviyyəsinin keyfiyyət kriteriyaları və indikatorlarıyla xarakterizə olunur. Bu istiqamətdə C.Y.Qlazyev 22 əsas göstərici (istehsal dinamikası, milli büdcə, dövlət borcu və s.), V.K.Sençaqov isə 16 göstərici (azgəlirli əhalinin nisbəti, çoxgəlirli əhalinin nisbəti və s.) təklif etmişdir. Prinsipcə iqtisadi təhlükəsizliyin dayanıqlılıq səviyyəsinin qiymətləndirilməsi meyarlarına aşağıdakıları aid etmək olar: 1) makro meyarlar, 2) tənzimləmə meyarları, 3) spesifik institutsional meyarlar, 4) sosial meyarlar, 5) ekoloji meyarlar, 6) hərbi/hərbi-sənaye meyarları, 7) elm-təhsil meyarları, 8) innovasiya meyarları, 9) qida təhlükəsizliyinin səviyyəsi və s.

Bu istiqamətdəki araşdırmalardan biri də Qlobal Kibertəhlükəsizlik səviyyəsinin ölçülməsi vasitəsilə müvafiq qərarların qəbuluna elmi dəstək göstərilməsidir. Belə ki, Qlobal Kibertəhlükəsizlik İndeksi (Global Cybersecurity Index-2020.https://www.itu.int/en/ITU-D/Cybersecurity/Pages/global-cybersecurity-index.aspx) xeyli illərdir ki, hesablanır. Həmin İndeksin 2020-ci il hesabatına görə Azərbaycan reytinqdə mövqeyini 15 pillə yaxşılaşdıraraq 89.31 xalla 40-cı yerdə qərarlaşıb. Bu İndeks dövlətlərin kibertəhlükəsizlik səviyyəsini beş əsas sahə üzrə qiymətləndirməklə ranqlaşdırma məqsədi daşıyır: 1) Hüquqi tədbirlər (qanunvericilik, tənzimləmə və nəzarət), 2) Texniki tədbirlər (CERT, standartlar, sertifikatlaşdırma), 3)Təşkilati tədbirlər (siyasət, strategiya, cavabdeh təşkilat, milli qiymətləndirmə), 4) Kadr potensialının gücləndirilməsi tədbirləri (standartların işlənməsi, insan resurslarının inkişafı, peşəkarların və təşkilatların sertifikatlaşdırılması), 5) Əməkdaşlıq (idarələrarası, idarədaxili, dövlət-özəl sektor, beynəlxalq). İndeks qeyd olunan beş istiqaməti xarakterizə edən 20 indikatoru birləşdirir. Həmin hesabata görə Azərbaycan MDB ölkələri arasında Rusiya və Qazaxıstandan sonra 3-cü yerdədir.

Regional iqtisadiyyatın informasiya təhlükəsizliyi və onun qiymətləndirmə kriteriyalarıyla bağlı qeyd edilməlidir ki, iqtisadi təhlükəsizlik müasir iqtisad elminin müəyyən bir sahəsi kimi fəaliyyət göstərir. Burada əsasən iqtisadiyyatın sistemli və dinamik vəziyyəti tədqiq edilməklə öyrənilir. Onun orta, strateji və uzunmüddətli dövrlər üçün inkişafının yüksək davamlılığı və dayanıqlığı təmin edilir. İqtisadi kibertəhlükəsizliyin təmini kifayət qədər investisiya tutumludur. Təkcə ABŞ-da həmin sferada cari ildə 140 mlrd. dollardan çox vəsaitin aparat və proqram təminatına, servisə xərclənəcəyi gözlənilir. Buraya daha çox banklar təxminən 20 mlrd. dollara yaxın kapital yatırırlar. Daha sonra istehsal sferası (10 mlrd.), mərkəzi və vergi idarəetmə orqanları (8 mlrd.). Əsas xərc telekommunikasiya sferasında gözlənilir. Bu sferada ABŞ-dan sonrakı yerləri Böyük Britaniya və Çin tutur. Yeni iqtisadiyyatın qarşısında qoyulmuş ənənəvi sənaye iqtisadiyyatının vəzifələri ilə yanaşı yeni tələblər, məsələlər və məqsədlər ölkə vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşdırılması üçün həm ənənəvi, həm də rəqəmsal formada olan məhsullara, xidmətlərə olan tələbatlarını daha dolğun və səmərəli şəkildə ödənilməsini tələb edir. Bu isə rəqəmsal texnologiyalardan daha geniş istifadə, əhalinin rəqəmsal savadlılığının artırılması, insanların informasiya ilə təmin olunmaq səviyyəsinin yüksəlməsi, dövlət xidmətlərinə əlçatanlığın asanlaşması şəraitində mümkündür. Ona görə də hesab olunur ki, formalaşmaqda olan müasir informasiya və bilik iqtisadiyyatı ancaq ən yüksək İKT infrastrukturu, kommunikasiya-rabitə vasitələri və kiber-fiziki sistemlərdən ibarət platformada effektiv fəaliyyət göstərə bilər.

Rəqəmsal iqtisadiyyatda təhlükəsizlik və inam səviyyəsinin yüksəldilməsi istiqamətləri üzrə olan tətbiqlər hədəflərin və təhlükəsizlik göstəricilərinin əldə edilməsinə kömək etməlidir. Onlar informasiya infrastrukturunun təhlükəsizliyini və vətəndaşların, biznesə, rəqəmsal texnologiyalara və e-xidmətlərə olan inamının artırılması ilə bağlı məsələləri əhatə etməlidir. İqtisadi informasiya sferasında mövcud təhlükələrin hamısı çox mühüm iqtisadi xarakteristikaya malikdir. Bununla yanaşı, qeyd olunmalıdır ki, milli iqtisadiyyatın iqtisadi təhlükəsizlik səviyyəsinin dayanıqlılığı tamamilə və birbaşa olaraq onun informasiya təhlükəsizliyinin səviyyəsindən asılıdır.

İqtisadi təhlükəsizliyi təmin edən mexanizmlərin hazırlanmasıyla bağlı qərarlar qəbul edilərkən mövcud iqtisadi vəziyyət bir sıra göstəricilər sistemi əsasında ciddi təhlil olunmalıdır. Həmin göstəricilər sistemi bütövlükdə ölkə iqtisadiyyatı sahə və regional kontekstində sistemləşdirilməklə təhlil olunur. Regional iqtisadi təhlükəsizliyin dayanıqlılığı meyarları üzrə ə*sas iqtisadi inkişaf kriteriyalarına* yaşayış səviyyəsi, sosial rifah səviyyəsi, istehsalın inkişaf sürəti, istehsalın elmi-texnoloji innovativ səviyyəsi, işsizlik səviyyəsi, istehsalın dayanıqlılıq səviyyəsi, regional rəqəmsallaşdırma səviyyəsi kimi alt göstəriciləri daxil etmək olar. *Subinstitutsional və xüsusi institusional kriteriyalarına* fiskal tənzimləmə, vergi gəlirləri və daxil olmaları, yerli və regional qurumların qarşılıqlı fəaliyyəti, regionun büdcə təhlükəsizliyi, "kölgə" sektorunun strukturu və miqyası, mədəni, sosial-ictimai vəziyyət, regional infrastrukturun dayanıqlılığı, inklüziv xidmətlər səviyyəsi kimi alt göstəriciləri daxil etmək olar.

Azərbaycan iqtisadiyyatının, o cümlədən regional iqtisadi proseslərin və strukturların qlobal iqtisadi fəzaya inteqrasiya edilməsi üçün iqtisadiyyatın rəqəmsallaşdırılması daha səmərəli həyata keçirilməlidir. Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi sənayenin, innovasiya və infrastrukturun inkişaf prinsiplərini yerinə yetirmək, inklüziv və dayanıqlı iqtisadi inkişafı, məhsuldar məşğulluğu, dayanıqlı sənayeləşməni, qlobal əməkdaşlığı, yüksək texnoloji innovasiya iqtisadi sektorlarının formalaşmasını təmin etmək mühüm vəzifə kimi qarşıda durur. 4.0 Sənaye platformasının tərkib elementlərinin regional sosial-iqtisadi inkişafın səmərəliliyinin yüksəldilməsində və kiberdayanıqlılığının effektivliliyinin artırılmasında tətbiqi vacib amildir.

Regional sosial-iqtisadi inkişafın keyfiyyətliliyinin təminində mühüm rol oynayan İKT sferasının və rəqəmsal iqtisadiyyatın təhlükəsizliyinin təmini istiqamətində bir çox konseptual texnoloji yanaşmalar mövcuddur. Belə ki, elektron-elm inkişaf konsepsiyası, regionların iqtisadi və informasiya təhlükəsizliyinə yardım edən elektron-region platforması qeyd olunan

problemlərin həllinə dəstəkdir. Bundan başqa e-demoqrafiya, e-kənd təsərrüfatı, e-innovasiya, e-ekologiya və yaşıl texnologiya konsepsiya və paradiqmaları da göstərilən problemin elmi-texnoloji həllini nəzərdə tutur. Kibertəhlükəsizliyin əsas mərhələlərindən biri rəqəmsal davamlılıq paradiqmasına keçidin baş verməsidir. Artıq informasiya təhlükəsizliyinin təmininə çevik yanaşma prosesləri həyata keçirilir.

*Regional sosial-iqtisadi inkişafın keyfiyyətliliyinin təmini aspektində onun kiberdayanıqlılığının artırılmasında d*aha çox intellektual kibertəhlükəsizlik texnologiyaları istifadə olunmalıdır. Bu texnologiyalara anomaliyanın aşkarlanması, əməliyyatların saxta və ya qanuni olması, bağlantının təhlili, saxta əməliyyatların aşkarlanması, nağdlaşdırma əməliyyatı üçün istifadə olunan hesabların müəyyənləşdirilməsi, müəssisədəki işçilərin iştirakı ilə fırıldaqçılığa hazırlıq faktlarının aşkarlanması, virusla yoluxmuş şəbəkə komponentlərinin ilkin mərhələlərində hücumların aşkarlanmasıvə s.aid etmək olar**.** Bu prosesdə intellektual qurğuların kibertəhlükəsizliyinin həyat dövrünün ilkin mərhələlərinin, tələblərinin də nəzərə alınması çox vacib məsələlərə çevrilmişdir.

**Əliyev Əlövsət**
**dosent**
**Paşayeva Məleykə**
**elmi işçi**
**Əkbərova Leyla**
**elmi işçi**
**AMEA İnformasiya Texnologiyaları İnstitutu**
**alovsat_qaraca@mail.ru**
**ibishova96@mail.ru**
**akberovaleyla@rambler.ru**

## Rəqəmsal iqtisadiyyatın yaşıllaşdırılmasında elektron tullantılar probleminin həlli istiqamətləri

Müasir dövrdə ölkədə formalaşmaqda olan rəqəmsal iqtisadiyyatın bir seqmenti olan ekoloji iqtisadiyyatın əsas hədəfi ətraf mühitin mühafizəsinin səmərəli yolu olan təkrar emal üsullarından istifadə etməklə tullantısız texnologiyaya nail olmaqdır. Tullantısız və az tullantılı texnologiyaya keçid müəssisələrdə yaranan tullantı haqqında hərtərəfli məlumatın olmasını tələb edir. Əslində zavod-müəssisənin layihələndirmə prosesində onun enerji və material balansında hansı tullantıların nə qədər yaranacağı göstərilir. Tullantısız istehsalın yaradılması dünyanın ən ciddi problemlərindən biridir. Elektron tullantılar (e-tullantı) sferasında ekoloji-iqtisadi məsələlər texniki-texnoloji və bioloji əsaslarla həll edilməlidir. Bunun üçün tullantının miqdarı, onun faydası, yer kürəsində istehsal və tullantıların emalı haqqında informasiya mübadiləsi, müvafiq əməli təkliflər, təkrar emal üçün inkişaf etmiş texnologiyanın tətbiqi və s. kimi şərtləri qəbul edilməlidir.

Məlum olduğu kimi Azərbaycan neftlə, qazla zəngin olan ölkədir. Respublikanın sosial-iqtisadi inkisafında onlar müstəsna rol oynayır. Uzun illər mütərəqqi texnologiyanın olmaması və neftə olan tələbatın artması ətraf mühitin həddən artıq çirklənməsinə səbəb olmusdur.

Müasir dövrün ən aktual problemlərindən biri də ətraf mühitin mühafizəsinin təmin olunmasıdır. Odur ki, müxtəlif texnoloji rəqəmsal qurğuları olan, yüksək keyfiyyətli məhsullar istehsal edən müasir neft-qaz və digər emal sənaye müəssisələrinin ətraf mühitə etdikləri neqativ təsirlərin və atdığı tullantıların, o cümlədən İKT ilə əlaqəli elektron tullantıların

azaldılması üçün aparılan arasdırmalar və tədqiqat işləri mövzunun aktuallığını bir daha təsdiq edir.

Bu sahədə AMEA İnformasiya Texnologiyaları İnstitutunun müvafiq şöbələrində elmi-tədqiqat işləri aparılır. Yerinə yetirilmiş işlərdə rəqəmsal iqtisadiyyatın və onun müvafiq seqmentlərinin inkişafına təkan verən elmi yeniliklər nəzərdən keçirilmiş və elektron tullantılarla əlaqədar bilikləri sistemləşdirməklə tədqiqatçıların bu sahədəki nəzəri işləri ümumiləşdirilmişdir. Göstərilmişdir ki, iqtisadi inkişafı yeni qlobal çağırışlara uyğunlaşdırmaq, xüsusilə onun ətraf mühitin davamlı inkişaf paradiqmasıyla inteqrasiyasına nail olmaq yaşıl iqtisadiyyata keçid əsasında ola bilər. Bu zaman davamlı iqtisadi artım, insan sağlamlığının yaxşılaşdırılması və ətraf mühitin mühafizəsi, məşğulluq və ətraf mühit siyasəti arasında əlaqələri təhlil edərək rəqəmsal iqitisaidiyyatın davamlı inkişafının əsas tendensiyalarına diqqət yetirilmişdir. Burada elektron-tullantılarla əlaqədar ekoloji mühafizə və ətraf mühitin qorunması mexanizmləri arasındakı əlaqənin makro və mikroiqtisadi səviyyədə effektivliyinə nail olmaqla, onların idarə olunmasının inkişaf etdirilməsi və təkmilləşdirilməsi üzrə tövsiyələrin işlənilməsi nəzərdə tutulmuşdur.

Ümumiyyətlə qeyd olunmalıdır ki, 4.0 Sənaye inqilabı platformasında elektron tullantıların idarə olunması proseslərinin perspektiv istiqamətləri böyük potensiala malikdir. Bu prosesin effektiv idarə olunması çox böyük həcmli ilkin məlumatların (data) operativ emalını tələb edir. Buna görədə 4.0 Sənaye inqilabi platformasında, İnformasiya cəmiyyəti tələbləri və şəraitinə müvafiq olaraq elektron tullantıların idarə olunması proseslərinin avtomatlaşdirilmasının konseptual struktur modelinin işlənilməsi vacib məsələlərdəndir. Bu səbəbdən də həmin modelin tərkib elementlərinin işlənilməsi və onlar arasındakı qarşılıqlı əlaqələrin qurulması gələcək tədqiqatlarda nəzərdə tutulacaqdır.

Qeyd etmək lazımdır ki, bir sıra inkişaf etmiş ölkələrin e-tullantılarla bağlı yüksək təhlükəlik dərəcəsinə aid olduğunu nəzərə alıb, e-tullantıların idarə olunması məqsədi ilə ayrıca qanunvericilik bazasından istifadə edilir. Bu səbəbdən Azərbaycanda da e-tullantıların, elektrik və elektron avadanlıqlarının idarə edilməsini tənzimləyən xüsusi dövlət proqramı hazırlanmağa başlanılmışdır. Ölkədə elektron tullantıların təkrar emalı səmərəli təşkil olunmadığından müasir texnolologiyaların tətbiqi olunmasına xüsusi ehriyac vardır. Elektrik və elektron avadanlıqların tullantılarının toplanması və təkrar emalı sisteminin yaradılması üçün ilk cəhdlər edilir. Tullantıların elektrik və elektron avadanlıqlarının emalı üzrə müəssisənin yaradılması məqsədilə “Təmiz Şəhər” ASC Türkiyənin “Exitcom Recycling” şirkəti ilə memorandum imzalayıb. Memoranduma əsasən, 1-ci mərhələdə iri müəssisələrdən elektron tullantıların toplanması və sonradan emalı planlaşdırılır.

Ətraf mühit barədə bir iqtisadi kateqoriya kimi danışarkən, ilk növbədə, əlbəttə yaşıl iqtisadiyyat, davamlı inkişaf kimi məsələlərə toxunmaq vacibdir. Davamlı inkişaf və yaşıl iqtisadiyyat iqtisadi artımın yeni növünü təmsil edir – belə inkişaf “lazım olduğu qədər təbiətdən götürmək” və “çoxu azla istehsal etmək” prinsipləri ilə həyata keçirilməlidir. Yaşıl iqtisadiyyat davamlı inkişafa çatmaq vasitəsi ilə inkişafa gedən yoldur. Bu iqtisadi elm istiqaməti ətraf mühitin bir hissəsi kimi çıxış edir.

İqtisadiyyatın diversifikasiyasına, dünyada olduğu kimi Azərbaycanda da yaşıl texnologiyaların tətbiqinə, yaşıl iqtisadiyyatın inkişafına, onun ekoloji kontekstdə daha da səmərəli formalaşmasına və sürətli inkişafına nail olmaq hazırda ölkə üçün zəruri məsələlərdəndir. Yaşıl iqtisadiyyatın inkişafında əhəmiyyətli bir dəyişiklik tələb olunur ki, bu prosesin başlanğıcında sektorların yaşıllaşdırılmasını planlaşdırmaq lazımdır. Bu, əlavə resursların səfərbər olunmasını da əhatə edə bilər, lakin yaxın gələcəkdə bütün bunlar üçün sərmayə qoyulmalıdır. Yaşıl İqtisadiyyat Konsepsiyası davamlı inkişafa gətirib çıxaran böyük bir prosesdir və bu, həqiqətən, iqtisadi inkişafın bir mərhələsindən digər mərhələsinə çevrilmə qabiliyyətidir.

Yaşıl iqtisadiyyat, yeni iqtisadiyyat anlayışı olaraq da ifadə edilə və ya klassik iqtisadiyyatın təməllərinə insan və təbiət faktorlarının əsaslı bir şəkildə əlavə olunması kimi də müəyyən oluna bilər. Yaşıl iqtisadiyyat iqtisadiyyatın və siyasətin bütün sektorlarında təbiəti

qoruyan investisiyaları həvəsləndirən islahatlara kömək məqsədi güdür. Gəlirlərin və məşğulluğun artması dövlətlər və fərdi şəxslər tərəfindən qoyulan, karbon tullantıları və çirkləndirməni azaldan, enerji və resurslardan istifadənin effektivliyini artıran, həmçinin bioloji müxtəlifliyin və ekoloji sistemli xidmətlərin itirilməsinin qarşısını alan investisiyalarla təmin olunur. Yaşıl iqtisadiyyat təbii mühitin bir hissəsi olan, həmçinin ondan asılı olan bir iqtisadiyyatdır. Yaşıl iqtisadiyyatın konsepsiyası iqtisad elmində və fəlsəfədə mövcud olan postmodernizm, resursyönümlü iqtisadiyyat, ekoloji iqtisadiyyat, ətraf mühitin iqtisadiyyatı, yaşıl siyasət və s. kimi bir çox istiqamətlərin ideyalarını özündə birləşdirir.

Azərbaycan qanunvericiliyində elektrik və elektron avadanlıqların tullantıları anlayışı olmadığı üçün Avropa İttifaqının e-tullantılar haqqında Direktivindəki (http://eur-lex.europa.eu/legal-content/EN/ALL/?uri=CELEX:32012L0019) beynəlxalq terminlərdən istifadə etmək olar. Bu qanunvericilik aktında 10 qrupda toplanmış 600 adda elektrik və elektron avadanlıqlarının tullantıları elektron tullantılara aid edilir. İKT avadanlıqları təsnifatın üçüncü qrupunu təşkil edir.

Elektron tullantıların yuxarıda qeyd olunan xüsusiyyətlərini nəzərə almadan idarə edilməsi ətraf mühitin ekoloji vəziyyətini pisləşdirməklə əhalinin sağlamlığı üçün toksiki, infeksion, kanserogen, mutagen, radioaktiv, qıcıqlandırıcı və s. kimi ziyanlı təsirlər törədə bilər. Bu isə müxtəlif xəstəliklərin yaranması ehtimalını daha artırır. Ona görə də elektron tullantılar problemlərinin həlli hər bir ölkənin ekoloji, iqtisadi, texnoloji, sosial, mədəni və s. kimi milli xüsusiyyətlərinə müvafiq Elektron tullantıların idarəetmə sisteminin yaradılması yolu ilə həll edilir və bu sistemin səmərəlilik dərəcəsi həmin ölkənin iqtisadi, texnoloji və sosial inkişaf səviyyəsinin əsas göstəricilərindən biri kimi qəbul edilir. Artıq elektron tullantıların idarəetmə sisteminin xüsusiyyətləri və onların səviyyəsinin ölçülməsi üzrə müvafiq sosial-iqtisadi göstəricilər işlənilməkdədir.

Yaşıl iqtisadiyyata keçid investisiya siyasətinə əsaslanan rəqəmsal iqtisadiyyatın tətbiqi və iqtisadi inkişaf, ekosistem, orta və uzun müddətli sağlamlıq və rifah arasında əlaqəni nəzərdə tutur. Bunlar davamlı inkişafa nail olmaq üçün birləşdirilməlidir, iqtisadi artımın qlobal səviyyədə bərpasına cəhd kimi hesab olunur. Yaşıl iqtisadiyyata keçid uzunmüddətli sürətlə davamlı inkişafı təşviq etmək üçün bilik, tədqiqat və yeniliklərə yönəlmiş düzgün bir variantddır. Davamlı inkişafa əsaslanan yeni iqtisadi sistem, ekoloji, iqtisadi və sosial inkişaf problemlərini aradan qaldırmaq üçün həll olmağı bacaracaqdır. Bu mənada, iqtisadi artım və yoxsulluğun azaldılmasına dəstək olmaq üçün şərait yaratmaq üçün müvafiq siyasətlərdən istifadə etməklə tədbirlər görülməlidir.

Yaşıl iqtisadiyyat iqtisadi inkişafı təşviq etmək və yeni iş yerləri yaratmaq üçün təbii ehtiyatların, enerji və yeni texnologiyaların təmiz istehsal üsulları ilə istifadə edilməsini nəzərdə tutur. Davamlı inkişaf dinamikliyi tələb edir. Daimi dəyişiklik, uyğunlaşma və tədqiqat tələb edir. Bütün bu elementlər ətraf mühitin mühafizəsi və təbii ehtiyatların düzgün istifadəsi ilə sıx bağlıdır. Nəticə etibarı ilə elektron tullantıların idarə olunması probleminin həm texniki-texnoloji mexanizmlərlə, həm də normativ-hüquqi institutsional mexanizmlər vasitəsiylə həlli İnformasiya Cəmiyyəti quruculuğuna əhəmiyyətli yardım göstərəcəkdir.

**Əliyev Tərbiz**
**professor**
**Xankişiyev Fərid**
**müəllim**
**AMEA-nın Elmi İnnovasiyalar Mərkəzinin Tədris-təhsil mərkəzi**
**Lənkəran Dövlət Universiteti**
**tarbiz.aliyev@bk.ru**
**ferid_khan@mail.ru**

## Rəqəmsal iqtisadiyyatda sahibkarlıq fəaliyyətinin təşkili

Son illərdə həyatımıza daxil olan innovativ texnologiyalarla biznesin aparılması tərzində əhəmiyyətli dəyişikliklər və onlarla birlikdə ortaya çıxan böyük qazanclar bütün dünyada gözləri "Rəqəmsal İqtisadiyyat" anlayışına çevirdi.

Rəqəmsal iqtisadiyyat dedikdə, istər insanlar, istərsə də müəssisələr arasında internet bağlantısının köməkliyi ilə həyata keçirilən iqtisadi proses nəzərdə tutulur. Müasir texnoloji avadanlıqların ön plana çıxdığı bu istiqamətdə sosial, iqtisadi və mədəni fəaliyyət sahələri üzrə internet kommunikasiya prosesləri həyata keçirilir.

Rəqəmsal iqtisadiyyatın ən mühüm hərəkətverici qüvvəsi internetdə yerləşdirilən məlumatlara əsaslanan biznes modelləri və innovativ texnologiyalarla yaradılmış platforma iqtisadiyyatıdır. 2019-cu ildə super platformalar adlanan ən böyük bazar dəyərinə malik 8 şirkətdən 7-si (Microsoft, Apple, Amazon, Alibaba, Facebook, Alphabet və Tencent) ön plana çıxmış və onların ümumi bazar dəyəri 4,5 trilyon dollar olaraq hesablanmışdır. S&P Dow Jones İndeksinə görə, ilk 5 şirkət qlobal bazarın demək olar ki, 23%-ni təşkil edir. Sadə bir statistik məlumatı da qeyd edək ki, 11 noyabr 2019-cu il tarixində AliBaba platforması bir gündə 38 milyard dollar dövriyyəyə malik ticari fəaliyyət həyata keçirmişdir.

2020-ci ilin statistik məlumatlarına əsasən rəqəmsal iqtisadiyyatda dünya üzrə lider dövlət ABŞ, 2-ci yerdə isə Çindir. Lakin yaxın beş ildə Çin istər fiber internetdən istifadəyə görə, istərsə də 5G texnologiyasının tətbiqinə görə dünya sıralamasında ilk yeri tutacağı proqnozlaşdırıldığına görə rəqəmsal iqtisadiyyatada da vahid liderə çevrilməsi qaçınılmazdır.

2017-2020-ci illərdə dünya ölkələri üzrə rəqəmsal iqtisadiyyat göstəricilərinə görə sürətli inkişaf etmiş ilk 5 ölkə kimi Çin, Səudiyyə Ərəbistanı, Braziliya, Argentina və Türkiyə qeyd edilmişdir. 2020-2024-cü illərdə rəqəmsal iqtisadiyyat üzrə yüksək inkişaf tempi əldə edəcək ölkələr kimi isə Hindistan, Peru, İndoneziya, Fillipin və Meksika ön plana çıxmaqdadır. Bu proqnozun da təməl səbəbləri kimi, həmin ölkələrə orta təbəqə nümayəndələrinin pay nisbətinin artımı, rəqəmsal iqtisadiyyata rahat qoşulma imkanları, lazımı səviyyədə maddi-texniki bazanın olmasını göstərmək olar.

Rəqəmsal iqtisadiyyatın yüksək tempdə inkişafı sahibkara "ağıldan bazara" gedən yolda, yəni biznesin və ya məhsul xəttinin ideya mərhələsindən prototipin yaradılmasından yeni məhsulun bazara çıxarılmasına və evdə biznesin inkişafına qədər dəstək olmasına səbəb olmuşdur.

Rəqəmsal iqtisadiyyatın sahibkarlıq fəaliyyəti üçün faydaları kimi istehsalatın təkmilləşdirilməsi, hazır məhsulunun alıcılara çatdırılması proseslərinin optimallaşdırılması, yeni sahibkarlıq istiqamətlərinin yaradılması, ümumi xərclərinin azalması, rəqabət mühitinin formalaşması, kommunikasiya texnologiyalarının qiymətlərində azalmaların olması, bu rəqəmsal vasitələrin öyrənilməsinə insanların təşviqini qeyd edə bilərik. Eyni zamanda alıcıların daha bol çeşiddə və aşağı qiymətlərdə məhsul ala bilməsi, insanların müxtəlif istiqamətlərdə yetərli səviyyədə məlumat əldə etməsi, dövlətin əldə etdiyi vergilərin həcminin artması, şəffaflığın təmin edilməsi, korrupsiya hallarının azaldılması bu fəaliyyət istiqamətinin üstünlüklərindəndir.

Rəqəmsal iqtisadiyyat təkmilləşdirilməsi yoxsulluğun və işsizlik səviyyəsinin azalmasına birbaşa təsir edir. Belə ki, internet resurslarının əlçatanlığı məlumat

asimmetriyasını azaltmaqla, regionlardakı qadınların və gənclərin də sahibkarlıq subyekti kimi bazara daxil olmasını təşviq etmiş olar. Bu baxımdan da qeyd etmək yerinə düşər ki, davamlı olaraq yeni rəqəmsal texnologiyaları ilk mənimsəyən gənclər dünyada beynəlxalq miqyasda rəqabətədavamlı olan ixtisaslı sahibkarlıq təbəqəsinin inkişafı üçün kritik rol oynaya bilər.

Yuxarıda qeyd etdiyimiz müsbət tərəflərdən başqa rəqəmsal iqtisadiyyatda sahibkarlıq fəaliyyətinin təşkili və inkişafı ilə bağlı bir sıra problemlər də ön plana çıxmaqdadır. Son dövrlərə baxdığımız zaman görürük ki, iqtisadiyyatda rəqəmsallaşma prosesinin baş verməsi yeni tapşırıqlarının yerinə yetirilməsini sahibkarların qarşısında prioritetə çevrilir.Bu addımlardan biri kimi istər sahibkarların, istərsə də onların işçi qüvvələrinin müasir dövrün tələblərinə uyğun texnoloji biliklərə yiyələnməklə fəaliyyət göstərməyə məcbur olduqlarını qeyd edə bilərik.

Növbəti önəmli bir istiqamət kimi dövlətlərin bu yeni sahə üzrə lazımı səviyyədə tənzimləmə mexanizmlərinin olmaması istər vergilərdən yayınma hallarına, istərsə də alıcılara qarşı bəzi fırıldaqçı addımların atılmasına səbəb olmuşdur.

Dövlətin eyni zamanda rəqəmsal sahibkarlar üçün müvafiq maliyyələşdirmə mexanizmlərini formalaşdırılması, sahibkarların bu istiqamətdə yetərli səviyyədə məlumatlandırılması, ümumi rəqəmsal sahibkarlıq mədəniyyətinin yaradılması və innovativ tərəfdaşlıq imkanlarını genişləndirilməsinə kömək məqsədi ilə yardım fəaliyyətləri həyata keçirməsi məqsədəuyğundur.

Bir çox inkişaf etməkdə olan ölkələr rəqəmsal iqtisadiyyatda sahibkarlığı dəstəkləyən siyasət çərçivələrini, texniki proqramları, bacarıqların inkişafı proqramlarını və maliyyələşdirmə təşəbbüslərini təkmilləşdirməyə çalışır. Bu təşəbbüslərin son məqsədi rəqabət qabiliyyətini artırmaq, investisiya cəlb etmək, iş yerləri yaratmaq və bazarları artırmaqdır.Bu baxımdan da bu istiqamətdə müsbət nəticələr əldə etmiş ölkələrin təcrübələrindən faydalanmaq rəqəmsal sahibkarlıq fəaliyyətinin formalaşmasında çox önəmlidir.

Bu da çox önəmlidir ki, bu növ sahibkarlıq fəaliyyətinin inkişafı hökumətlərə sosial media, mobil texnologiyalar, böyük məlumat bazaları, internet resursları və ağıllı şəhər şəbəkələri kimi tanınan inkişaflardan faydalanmağa kömək edir. Bunlar əqli mülkiyyət, infrastruktur, investisiya mühiti və sahibkarlar tərəfindən istehsal olunan rəqəmsal məhsul və xidmətlərin satın alınması ilə bağlı məsələlər də daxil olmaqla, rəqəmsal sahibkarlara biznesin qurulmasında, miqyasının artırılmasında və beynəlmiləlləşdirilməsində kömək edə bilər.

**Əliyeva Gülbəniz**
**dosent**
**Qarayev Natiq**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**natiq_qarayev@rambler.ru**

## Azərbaycanın sosial-iqtisadi inkişafında rəqəmsal iqtisadiyyatın formalaşması modeli

Rəqəmsal inqilab, həyatımızı və yaşadığımız cəmiyyəti əvvəllər görülməmiş dərəcədə yüksək sürətlə və böyük miqyasda transformasiyaya məruz qoyacaq, bir tərəfdən çox geniş imkanlar, digər tərəfdən isə bir çox ciddi çağırışlar və təhdidlər yaradır.

Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, rəqəmsal iqdisadiyyatın təqdim etdiyi rəqəmsal informasiyalar və ya verilən bazaları iqtisadi inkişaf məqsədləri və sosial-iqtisadi problemlərin həlli istiqamətində geniş istifadə edilməklə, iqtisadi siyasətin effektivliyinin artırılması üçün böyük imkanlar açır.

İkincisi rəqəmsal iqtisadiyyat, innovasiyaların və məhsuldarlığın artımına təkan

verməklə, sektorların və bazarların rəqəmsallaşması yolu ilə daha aşağı xərclərlə daha keyfiyyətli mal və xidmət istehsalına şərait yaratmaqla və dəyər zəncirlərini müxtəlif yollarla transformasiya edərək, əlavə dəyərin yaradılmasının yeni kanallarını açmaqla, iqtisadi inkişaf prosesinin sürətlənməsinə əvəzsiz töhfələr verir.

Rəqəmsallaşma Azərbaycan üçün də çox aktual olan kənd təsərrüfatı sektorunu da böyük çağırışlarla üz-üzə qoyur. Ənənəvi kənd təsərrüfatı getdikcə "qapalı sahədə şaquli kənd təsərrüfatı" ilə əvəzlənir. Rəqəmsal iqtisadiyyatda innovativlik, rəqbətliliyin yeganə faktoruna çevrilir. Bu baxımdan, bütün təşviq sistemlərinin ilk növbədə innovativliyə fokuslanması, başqa sözlə desək, milli innovasiya sistemlərinin gücləndirilməsinə istiqamətləndirilməsi zərurəti ortaya çıxır. Belə olan halda, araşdırma və işləmə fəaliyyətləri, universitet-sənaye əməkdaşlığı, startap fəaliyyətləri və s. təşviqi böyük əhəmiyyət qazanır. Milli iqtisadiyyatın modernləşməsinin əsas meyarlarını və onun rəqabət qabiliyyətliliyinin artırılmasını təşkil edəcək innovativ sistemin yaradılması dövlət üçün prioritet məqsəd olmalıdır. Bu kontekstdə, iqtisadiyyatın innovativ idarəetmə yolu ilə inkişaf etdirilməsi strateji baxımdan da olduqca vacibdir. Bu amil əsasən müasir dünya iqtisadiyyatında innovasiyaya əsaslanan artım nəticəsində daha da aktuallaşmışdır. Belə ki, sosial-iqtisadi inkişaf müasir texnologiyaların tətbiqi ilə son məhsul istehsalının artırılması, başqa sözlə, innovasiyanın rolunun artması ilə bağlıdır. Məsələn, Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı və Qlobal İnnovasiya İndeksi tərəfindən də qeyd olunduğu kimi, innovasiya iqtisadi artımın əsas meyarı olaraq qalır. Gələcəkdə hər bir ölkənin sosial-iqtisadi inkişafı onun yeni iqtisadi mühitə adaptasiyası və yeniliklərin tətbiqi ilə müəyyən olunacaqdır. Bundan əlavə, elmi araşdırmalar, yeni biznes ideyalarının və modellərinin formalaşdırılması, həmçinin birbaşa xarici investisiyaların cəlb edilməsi bu istiqamətdə əsas amillərdən olacaqdır.

Azərbaycanın innovasiya sisteminin inkişafının regional modullar bazasında həyata keçirilməsi məqsədəuyğun sayılır. Bunun üçün aşağıdakı tədbirlərin işlənib hazırlanması zəruridir:

- Qapalı ərazi vahidləri üzrə, onların iqtisadi və sosial inkişafı effektiv inteqrasiyası üzrə inkişaf proqramlarının işlənib hazırlanması və reallaşdırılması;
- Azərbaycanın ayrı-ayrı regionları üzrə elmi mərkəzlərin yaradılmasına dövlət köməyi, eləcə də iqtisadi rayonlar üzrə texnologiyaların transferti mərkəzlərinin yerləşdirilməsi;
- Respublikanın regionlarında elm və texnikanın dövlət üçün prioritet sayılan inkişaf istiqamətlərində fundamental tədqiqatlar aparan elm və təhsil fəaliyyətinin inteqrasiyasını təmin edən, tədqiqat institutlarının funksiyasını yerinə yetirən ali təhsil məktəblərinin yerləşdirilməsi üçün yerlərin müəyyən edilməsi. Həmin təhsil müəssisələri ilk növbədə Azərbaycan üçün "inkişaf lokomotivi" funksiyasını yerinə yetirən və digər regionlara daha çox multiplikativ təsir göstərən regionlarda yerləşdirilməlidir;
- Regionların investisiya-innovasiya inkişaf proqramı (innovasiya fəaliyyətinin istehsal-texnologiya infrastrukturunun-texnologiyalarının, innovasiyatexnoloji mərkəzlərin, biznes-inkubatorların inkişafı);
- Azərbaycan Respublikası ərazisində xüsusi iqtisadi zonaların (texnikitətbiqi və sənaye istehsal) yaradılması.

İnnovasiya yönümlü milli iqtisadiyyatın yaradılması və inkişaf ölkə üçün əsas amillərindən olmalıdır. Bu istiqamətdə ölkədə fəaliyyət göstərən innovativ qurumların sayının artırılması və onlara dəstəyin göstərilməsi, innovativ məhsulların təşviqi, vergi güzəştlərinin tətbiq olunması və bu cür məhsullara üstünlük verilməsi olduqca vacibdir. Hazırda ölkə innovasiyanın inkişafının başlanğıc illərini yaşayır. Bu gün ölkənin əsas prioriteti iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirməkdir. Qeyd olunmalıdır ki, innovativ fəaliyyətlə məşğul olan təşkilatlar arasında koordinasiyanın gücləndirilməsi prioritet olmalıdır. Bu səbəbdən də davamlı iqtisadi inkişafa nail olmaq üçün elmi bazaya əsaslanan innovativ məhsulların təbliğini və istehsalını geniş yaymaq və bu cür məhsulların bazara sərbəst daxil olmasını stimullaşdırmaq lazımdır. Qeyd olunduğu kimi, bütün bunların həyata keçirilməsi

üçün ölkədə düzgün hüquqi bazanın yaradılmasına və təkmilləşdirilməsinə ehtiyac duyulur. Bütün əldə edilmiş nailiyyətlərə baxmayaraq, ölkənin qarşısında bir sıra aktual problemlər və çağırışlar durur. Bu çağırışlar sırasına təhsilin müasir inkişaf sistemindən geri qalmasını və yüksəkixtisaslı kadrlar çatışmamazlığını qeyd etmək mümkündür. Bu kadrlara əsasən İKT, aqrar sahə, nanotexnologiyalar sahəsində böyük ehtiyac duyulur. Bu səbəbdən də yüksəkixtisaslı kadrların formalaşdırmaq və iqtisadiyyatda innovasiya prosesini sürətləndirmək üçün ali təhsil sisteminin təkmilləşdirilməsi və innovativ metodlara əsaslanan tədrisin ali məktəblərdə aparılması zəruridir. Mövcud kadr potensialının beynəlxalq əməkdaşlıq çərçivəsində təlimlərə cəlb olunması ölkənin innovasiya sisteminə böyük töhfə verə biləcək amillərdəndir. Bu kontekstdə qeyd edə bilərik ki, dövlət tərəfindən innovativ sahədə təhsil almaq istəyən tələbələrə daha çox dəstək verilməlidir.

Regionlarda aqrar sahənin inkişafı, kənd təsərrüfatı mallarının ölkənin ərzaq tələbatını tam təmin etməsi və xarici bazarlara ixracı prioritet istiqamətlərdən biridir. Bunun üçün də aqrar sahədə texnoloji nailiyyətlərin əldə olunması və yüksəkixtisaslı kadrların hazırlanması vacibdir. Aqrar sektorda innovasiya sisteminin yaradılması bölməsində qeyd olunduğu kimi, ölkənin aqrar sahədə çox böyük potensialı mövcuddur. Bir çox ölkələrin də təcrübələri göstərir ki, bu sahənin innovasiyaların tətbiqi ilə inkişaf etdirilməsi ölkə iqtisadiyyatına böyük gəlirlər gətirir. Azərbaycan da öz növbəsində bu ölkələrin uğurlu təcrübəsindən faydalana bilər. Artıq ölkəmizdə innovasiya yönümlü və davamlı iqtisadi inkişaf modelinin yaradılması istiqamətində innovasiya sistemin əsas xüsusiyyətlərinin formalaşdırılması və innovasiya prosesində elm, təhsil, istehsalat və bazar arasında əlaqələrinin gücləndirilməsi, ölkədə fəaliyyət göstərən müəssisə və təşkilatlarda innovasiya inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi, maliyyə, kadr ehtiyatları ilə təmin edilməsi , elmi texniki məhsul bazarının formalaşdırılması və bir sıra məsələləri ön plana keçməlidir. Milli iqtisadiyyatın innovasiya inkişafının fəallaşması, innovasiya sistemində innovasiya fəaliyyəti strukturunun genişləndirilməsi, innovasiya texnologiyaları vasitəsi ilə xarici və daxili bazar tələbatlarına müvafiq olaraq, iqtisadiyyatın təkmilləşdirilməsi, yeni rəqabət qabiliyyətli məhsulların istehsalı, əməyin səmərəli təşkilat formalarının işlənməsi və tətbiqi kimi məsələlər və elm tutumlu məhsul istehsalı ilə əlaqədar qabaqcıl istehsalatın yaradılması gözlənilir.

**Xəlilov Tural**
**dosent**
**Babayeva Emilya**
**magistrant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**turmos@mail.ru**
**missbabayeva31@gmail.com**

## Müasir şəraitdə turizmin sosial-ekoloji təsirlərinin azaldılmasında rəqəmsal texnologiyaların rolu

Turizm sənayesinin sürətli inkişafı nəticəsində, onun infrastruktur şəbəkəsinin genişlənməsi, insanların istirahət etməsi üçün geniş imkanlar yaratmaqla yanaşı bir sıra problemlərin meydana çıxmasına da səbəb olmuşdur. Belə problemlərdən biri də ekologiya və ətraf mühitin qorunması məsələsidir. Təbiətin gözəlliyi, landşaftın rəgarəngliyi, təmiz havanın olması, göllər, çaylar, çimərliklər geniş meşə sahələri və s. bütün bunlar turizmin inkişaf etməsi üçün başlıca təbii sərvət hesab edilir. Lakin bu sərvətlərin istismar olunması ilə ətraf mühitin çirklənməsi təhlükəsi artır və bir sıra ekoloji problemlərin yaranmasına səbəb olur. Ekoloji problemlərin aradan qaldırılması müasir dövrdə turizm sənayesinin qarşısında duran ən mühim vəzifələrdən biridir. Son dövrlərdə bir sıra inkişaf etmiş ölkələrdə insanlar ənənəvi

turizmdən imtina edərək , ekoloji turizmə daha çox meyil edirlər. Eyni zamanda, turizm çox sayda müxtəlif növ mənbələrdən istifadə edən və düzgün planlaşdırılmadığı və idarə olunmadığı təqdirdə inkişafı ciddi sosial-iqtisadi və ekoloji problemlərə səbəb ola bilən bir sahədir. Turzimin inkişafına təsir edən ekoloji pozğunluğun aradan qaldırılmasına aşağıdakıları aid etmək olar:

1. Turizim məqsədi ilə istifadə edilən təbiət obyektlərinin səmərəli istifadəsinin təmin edilməsi.
2. Rəqəmsal texnologiyalardan istifadə etməklə resurslara qənaət və nəzarət sistemini təmin etmək.
3. Ekoloji təsirə məruz qalan təbiət obyektlərinin istifadəsini məhdudlaşdırmaq.

Həm ətraf mühit , həm də sosial- iqtisadi baxımdan turizmin inkişafının bir sıra mənfi xarici təsirləri müəyyən edilə bilər:

- Ekosistemdə baş verən təbii əlaqələrin pozulması;
- Təbii ehtiyatlardan səmərəsiz və ya nəzarətsiz istifadə edilməsi;
- Ətraf-mühitin çirklənməsinin sürətlənməsi;
- Torpaq sahələrinin və su sahillərinin eroziyası hallarının baş verməsi;
- Ətraf aləmdə səs-küy və titrəmə səviyyəsinin artması;
- Turizm obyektlərində əhali sıxlığının artması;
- Ölkə ərazisində ənənəvi fəaliyyətlərin itirilməsi, iqtisadi quruluşun eyni zamanda yerli kimlik və dəyərlərdəki dəyişikliklər və s.

Turizmin davamlılığının təmin edilməsi məqsədi ilə ÜTT tərəfindən bütün ölkələr üçün keçərli olan vahid inkişaf konsepsiyasının olması daha məqsədəuyğun olardı. Turizmin fiziki və ekoloji yüklənməsi bir sıra mənfi sosial nəticələrə gətirib çıxarır ki, bunlara:

1. Əhalinin gündəlik həyat tərzini və ənənələrini dəyişdirmək,
2. Maddi nemətlərin istehlak edən alıcıların psixologiyasında dəyişiklik etmək,
3. Cinayət, narkomaniya və digər mənfi halların səviyyəsinin yüksəlməsi,
4. Xarici turistlər tərəfindən pis vərdişlərin və qeyri adi həyat tərzinin ölkəyə gətirilməsi,
5. Turizmin əhalinin qanunsuz miqrasiyasi vasitəsi kimi istifadəsi və s.

Turizmin təbii mühitə təsiri birbaşa və dolayı yolla ola bilər.

Birbaşa idarəetməyə aşağıdakıları daxil etmək olar:

- ✓ Turist sayının məhdudlaşdırılması;
- ✓ Xüsusi ilə qiymətli təbii obyektlərə və ərazilərə baş çəkmək üçün bağlanma;
- ✓ Ətraf mühitin çirklənməsini azaltmaq üçün müasir texniki vasitələrdən istifadə.

Müəyyən edilmiş qaydalara riayət edilməməsi müvafiq sanksiyaların (cərimələr , sərəncamlar və s.) tətbiq edilməsini nəzərdə tutur.

Dolayı idarəetmə turistlərin davranışına təsir göstərməyin daha çevik bir yoludur və onların mədəni səviyyəsini yüksəltməyə və ətraf mühit təhsili almağa, yerli sakinlərə qarşı yaxşı münasibət qurmağa və ziyarət edilən ərazinin flora və faunasına diqqət qayğıya əsaslanır.

Turizm şirkətlərində idarəetmənin avtomatlaşdırılması zərurəti məlum olsa da, innovativ texnologiyalara keçməyin üsul və maliyyə imkanları hələlik müəyyən çətinliklər yaradır. Xüsusi ilə turizm şirkətinin və turizm müəssisələrinə öz xidmətini təklif edən təşkilatların avtomatlaşdırılması yəni əslində avtomatlaşdırılan iş yerlərinin tətbiqi sayəsində idarəetməyə dair müxtəlif vəzifələrin həllinə yardım edən təminatçı və səmərəli informasiya texnologiyaları tətbiq etmək məqsədə uyğundur. Turizimdə müxtəlif texnologiyalardan istifadə etməklə monitorinq həyata keçirilir. Turizmdə ekoloji monitorinqlərin keçirilməsi ətraf mühit üzərində nəzarəti təmin edir. Ekoloji monitorinqin vəzifəsi ekosistemlərdə antropogen dəyişiklikləri ortaya çıxarmaqdan ibarətdir. Ekoloji monitorinqin nəticələri ətraf mühitin mühafizəsinin informasiya bazasını təşkil edir. Monitorinq zamanı müşahidələr peyk, rabitə, kosmik cihazlarla bir sözlə rəqəmsal cihazlar vasitəsi ilə həyata keçirilir.

**İmanov Telman**
**professor**
**Abdinov Adil**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**telman.adiu@gmail.com**
**adil12abidinov@mail.ru**

## Rəqəmsal iqtisadiyyatın beynəlxalq turizimdə rolu

Müasir dövürdə elmin müxtəlif sahələrində olduğu kimi iqtisadiyyatda da kompüter texnoligiyalarından istifadə mövcuddur. Biz, rəqəmsal iqtisadiyyat dedikdə insanların, müəssisə sahiblərinin, sahibkarların və digər şəxslərin müxtəlif cihazlar vasitəsi ilə internet bağlantısı nəticəsində məlumatların öyrənilməsi yaxud ötürülməsi fəaliyyətidir. Rəqəmsal iqtisadiyyatın müəyyən olunmuş bir tərifi olmadığına görə, internet bağlantısı vasitəsi ilə idarə olunduğu üçün çox vaxt onu internet iqtisadiyyatı adlandırırlar. Rəqəmsallaşma prosesi turizm sənayesindən də yan keçməyib. Turizmdə rəqəmsallaşma turizm biznesini nəinki sürətli, müasir dövrün reallığlarına uyğun, həm də inkişaf etməkdə olan rəqəmsal aləmdə daha rəqabət qabiliyyətli etmək məqsədi daşıyır.

Turizm sənayesinin rəqəmsallaşdırılması istehlakçıların yaxşı, xoşagələn nəticələr əldə etdiyi, turizm şirkətlərinin sahiblərinin isə daha yüksək gəlir əldə etdiyi vəziyyəti təmin etməyə kömək edir. Hazırki dövürdə turizmin mahiyyəti və quruluşu sürətli şəkildə dəyişir, müasir texnologiyalar, turizm məhsullarının ixtisaslaşmış istehsalçılarının – turoperatorların ənənəvi təklifi ilə rəqabət apararaq, boş vaxtlarının eyni zamanda istirahət vaxtlarının surətli və seqmentli təşkilinə imkan verir. Onuda bildirmək istərdim ki, dövrümüzdə innovativ təkliflərin yarandığı mədəni-maarifləndirici turizm davamlı olaraq məhşurlaşır. İstənilən xidməti təşkilatlar kimi turizm təşkilatları da müasir texnologiyaların fəal tərəfdarıdır. Telekommunikasiya və elektron marketinq sferasında yeni nailiyyətlər turizm biznesi üçün əhəmiyyətli dərəcədə yeni imkanlar yaradır, sərhədlərini genişləndirir. Hazırda kütləvi turizm məhsullarının təşkili ilə məşğul olan bir çox turizm agentlikləri indi müştərilərin tələblərinə uyğunlaşmaq məcburiyyətindədirlər və fəal şəkildə öz işlərinə informasiya texnologiyalarını tətbiq etməyə çalışırlar. Elektron məlumat sayəsində xidmətləri, ilkin olaraq qlobal kommunikasiyalar vasitəsilə bir tur almaq, səyahət marşrutunun planlaşdırılması və s mümkündür. Elektron məlumatlar yalnız turoperatorlara deyil, həm də xidmətlər paketinin dəyərini müqayisə etmək imkanı yaradır, fərdi istehlakçılara məlumatları sistemləşdirir və çatdırır. Turizm aparıcı xidmət sənayesidir və müştərilərə xidmətin müasir innovativ forma və texnologiyalarını tələb edir. Bununla belə, yuxarıda göstərilənlərə baxmayaraq, bütün tur operatorları aktiv deyil, bir qayda olaraq, öz fəaliyyətlərində yeniliklərin tətbiqini risk kimi izah edirlər.

Ölkəmizdə iqtisadiyyatın rəqəmsal hissəsinin, o cümlədən iqtisadiyyatın inkişafı istiqamətində dövlət tərəfindən tədbirlər həyata keçirilir. Bunlara bir sıra informasiya texnologiyalarının tətbiqi, məsafədən rabitə, elektron sənəd dövriyyəsi sistemlərinin tətbiqi, elektron ödənişlərin inkişafı, tənzimləyici bazanın təkmilləşdirilməsi, e-ticarət sahəsi və s daxil etmək olar. Hazırda dünyanın demək olarki əksər ölkələrində koronavirus pandemiyası ilə əlaqədar rəqəmsal iqtisadiyyatın tətbiq olunması bir qədər sürətlənmişdir çünki bununla bir çox məsələlərin uzaqdan həll oluna biləcəyi sübut edilmişdir.

Dünya üzrə rəqəmsal iqtisadiyyatın tətbiqinin turizm sahəsinə müsbət tərəfləri kimi aşağıdakıları daxil edə bilərik:

- Rəqəmsal iqtisadiyyatın sosial-iqtisadi həyatımıza, o cümlədən turizmə tətbiqi, insanların vaxtına, puluna və enerjisinə qənaət edəcək. Bu, vaxta, əməyə və səmərəliliyə qənaət edir;
- İstənilən malları, o cümlədən dünyanın istənilən yerində evdə oturmaqla turizm xidmətlərini buradan almaq imkanınız olacaq, amma bunun baş verməsi üçün ölkənin bütün

bölgələrində internet tam şəkildə işləməlidir. Bu da bir həqiqətdir ki, ölkəmizdə internetin sürəti hələ də tələbatı tam ödəmir. Buna nail olmaq üçün "Rəqəmsal Özbəkistan -2030" proqramının həyata keçirilməsini sürətləndirmək lazımdır;

- Rəqəmsal iqtisadiyyatın tətbiqi sahəsində mühüm aspektlərdən biri turizm iqtisadiyyatın nəticələrinin saxtalaşdırılmasının azaldılmasıdır.

**İmanov Telman**
**professor**
**Mahmudzadə Günel**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**telman.adiu@gmail.com**
**gunelmahmudzadeh@gmail.com**

## Müasir turizm sənayesində rəqəmsal texnologiyalardan istifadə imkanlarının yaxşılaşdırılması

Müasir şəraitdə insanların həyat səviyyəsi yüksəldikcə, ölkələr arasında iqtisadi münasibətlər dərinləşdikcə, turizm insanlar üçün getdikcə böyük zərurətə çevrilir. Yeni münasibətlər formalaşdıqca turizmə xidmət edən xüsusi qurumlar yaranır, turizm məhsulları meydana gəlir. Turizmə xidmət edən sahələrdən biri kimi rəqəmsal texnologiyalar turizm sənayesinin bütün sahələrinə nüfuz etməyə başlamışdır. Turizmin inkişafı, ilk növbədə, turizm sənayesinin inkişafı deməkdir. Yəni nəqliyyat növlərinin, mehmanxana obyektlərinin, iaşə obyektlərinin, əyləncə məkanlarının, idman komplekslərinin, ekskursiya və s. xidmətlərin müasir texnoloji nailiyyətlərdən istifadə edilməsi zərurətinin yaranması deməkdir.

Müasir turizm sənayesi kompüter texnologiyalarından istifadədə digər sahələrlə müqayisədə nisbətən gec tətbiq edilsə də xüsusi proqram vasitələrinin işlənib hazırlanmasından qlobal kompyuter şəbəkələrindən istifadə olunmasına qədər ən müxtəlif informasiya texnologiyalarının tətbiqini təmin edir. Lakin müasir rəqəmsal texnologiyalardan dünya ölkələrinin hamısı eyni səviyyədə istifadə etmək iqtidarında deyildir. Bunun bir səbəbi də maliyyə imkanlarının geniş olmamasıdır. Turizm sənayesinə xidmət edən sahələrdə fəaliyyət göstərən sahibkar müəssisələrin təxminən 80-90 %-i özəl sektorun payına düşür. İşləyən əhalinin hər 11 nəfərindən biri bu sahə üzrə fəaliyyət göstərir. Qeyd edək ki, rəqəmsal texnologiyaların tətbiqi nə qədər əhəmiyyətli olsada onlardan düzgün istifadə etmək bir o qədər vacibdir. Turizmdə rəqəmsal texnologiyalar sahəsində elmi-texniki tərəqqinin yeni nailiyyətlərinin işlənib hazırlanması və tətbiqi bir çox üstünlükləri əmələ gətirir və bu üstünlüklərə aşağıdakıları aid etmək olar:

1.Ən müasir texnologiyalar real on-line şəraitdə "kağızsız ofis" prinsipi ilə həyata keçirilir;

2.Turoperatorlar, bələdçilər, səyahət və nəqliyyat agentilkləri, otel müəssisələri nisbətən ucuz yerli rəqəmsal ofis texnologiyalarından istifadə etməyə üstünlük verərək qrşılıqlı əlaqə sistemini formalaşdırmaqla yanaşı əlavə vaxt itkisinin qarşısını almış olurlar;

3.İnformasiya texnologiyaları bazarında ofis proqramları həm geniş istehlakçı üçün, həm də sifarişlə işlənib hazırlanır;

4.Ölkənin turizm bazarında daha çox Opera, Edelveys, 1C ofis rəqəmsal tenilogiyalarından istifadə olunur ki, bu da MDB məkanında turizm müəssisələri üçün xarakterikdir və qarşılıqlı əlaqələrin yaradılmasında əlverişli imkanlar açır;

Rəqəmsal dünya inkişaf etdikcə, müştəri davranışı dəyişməyə başlamışdır. Turizm sənyesində rəqəmsal transformasiya mövcud biznes proseslərinin həyata keçirilmə üsulunu dəyişərək rəqəmsal texnologiyalara uyğunlaşma prosesini əmələ gətirir. Bu turizm təşkilatları

ilə yanaşı müştərilərinə də təsir edəcək bir prosesdir. İnkişaf etmiş ölkələrin bir çox turizm təşkilatları ən son texnologiyanı tətbiq edərək mövcud bizneslərini asanlıqla rəqəmsal şəkilə çevirə bilirlər. Artıq qəbul olunmuş belə bir ifadə formalaşmışdır ki: - rəqəmsallaşma biznesinizi rəqəmsal dünyaya köçürmək aktıdır. Qlobal internet şəbəkəsi vahid dünya "informasiya sahəsində" informasiyanın etibarlı və ani ötürülməsini təmin edir. İnternet vaxta (bronlaşdırma ani həyata keçirilir) və pula (turagentlikdən ucuzdur) qənaət edir. Müasir turizm sənayesi üçün informasiyanın ötürülmə sürətinin əhəmiyyəti olduqca vacibdir.

Mütəxəssislər qlobal şəbəkənin aşağıda göstərilən üstünlüklərini qeyd edirlər: hər insan üçün əlçatan olması; vaxta və pula qənaət edilməsi; informasiyanın rahat verilməsi; effektiv və ucuz rabitənin təmin edilməsi; hər zaman reklam yerləşdirilməsi imkanının olması; beynəlxalq və regionlararası turist müəssisələri ilə birbaşa əlaqələrin yaradılması; mehmanxanada yerlərin və başqa xidmətlərin çevik tapılması və ödənişin edilməsi.

Mütəxəssislərə görə, rəqəmsal texnologiyalardan istəyinə mane olan səbəblər də vardır ki, bunlara hüquqi zəmanətin, kredit kartının olmaması və ya onun nömrəsini demək qorxusu, şəxsi xarakterli məlumatları verməmək istəyi, xaker hücumuna məruz qalma təhlükəsi və s.aid ola bilər. Lakin bu kimi çatışmazlıqlar nə qədər real görünsə də rəqabət mühitində bazarda uğur qazanmağın şansları rəqəmsallaşmadan çox aslıdır.

Dünya iqtisadiyyatında internet texnologiyalarının böyük gəlir gətirdiyi sahələrindən biri də turizmdir. Turizm biznesi üçün təkcə informasiyanın özü deyil, həmçinin onun daxil olma vaxtı da əhəmiyyət kəsb edir. Forrester Researchın məlumatlarına əsasən, ABŞ-da geyim, kompüter, musiqi, video və s. satışından əldə edilən gəlirlə müqayisədə turizm xidmətlərinin internet satışından olan gəlir 4 dəfədən çoxdur. 2009-ci ildə turizm xidmətlərinin internetlə satışı Asiyada 30%, Avropada 50%-ə, ABŞ-da isə turizm məhsullarının şəbəkə vasitəsilə satışı 65%-ə çatmışdır. Texnologiya insanların vərdişlərini dəyişməyə səbəb olub. Artıq mobil proqram və ya otelin veb-saytı vasitəsilə otel otaqlarının rezervasiyası sürətlə həyata keçirilə bilər. Müştərilər mobil cihazlarla qeydiyyat, otaq, nəqliyyat, yemək və.s. xidmətləri sifariş etmək, gəliş zamanı öz otağını seçməyə və otel otağının qapısını açar olmadan açmağa qədər bir çox şeyi asanlıqla edə bilər. Qonaqlara təqdim edilən bu üstünlüklər otellərə rəqiblərindən fərqlənməklə ən son texnologiyaya tez uyğunlaşmaq imkanı verir. İnternet turoperatora xidmət satan və təchiz edənlərlə cari vəziyyətə nəzarət edilməsi üçün, xidmətlərin satılması, bronlaşdırılması və keçirilmiş əməliyyatların tez təsdiqi imkanı üçün lazımdır. Turoperatora sifarişlərin qəbulu və işlənməsi, şəxsi server, öz serverinin internetdə reklamı, müşrətilərin və turagentlərin internet vasitəsilə işləməyə cəlb edilməsi üzrə marketinq siyasəti lazımdır.

XXI əsrin ödəniş sistemi klirinq sistemi, rəqəmsal pul və smart kartlardan istifadə adlanır. Turizm sahəsində internet və müasir informasiya texnologiyalarından istifadəyə xüsusi diqqət yetirilməlidir. Şəbəkə marketinqi tətbiq edilməlidir. Təklif olunan xidmət onlayn şəkildə satılmalı, müştərilərlə ərazidən uzaqda keyfiyyətli ünsiyyət qurmaq mümkün olmalıdır. İnternet vasitəsilə bilet satışı, otel nömrələrinin bronlaşdırılması, effektiv reklam, uzaqdan nağdsız ödənişlər, potensial işçilərin axtarışı on-line qaydada olmalı, bölgədən uzaqda olan alıcılarla keyfiyyətli əlaqə yaratmaq mümkün olmalıdır. Bu xidmətlər həm də mehmanxana və turizm obyektlərinin xərclərini planlaşdırmağı asanlaşdırır. Turistlər bu xidmətlər vasitəsilə heç bir vasitəçiyə ehtiyac olmadan öz sifarişlərini daha tez və az xərclərlə həyata keçirə bilərlər. Turizmə həsr olunmuş saytlar xüsusi və yardımçı saytlara ayırırlar. Yardımçı saytlara videosəyahət saytları, hüquqi yardım serveri, hava serveri, muzey və sərgi fəaliyyətinə həsr olunmuş saytlar, tərcümə serverləri və b. aiddir.

**Qarayev Natiq**
**dosent**
**Əhmədzadə Məhəmməd**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mahammadahmad899@gmail.com**
**natiq_qarayev@rambler.ru**

## Kənd turizmində menecment konsepsiyası

Kənd turizmi son illərdə dinamik inkişaf edən və yaxşı gəlir gətirən turizm sahələrindən biri kimi bu sektorda mühüm yer tutur. Azərbaycanda turizmin bu növü hələ yeni formalaşdığına görə kənd ərazilərinin mövcud iqlim, təbii və mədəni mənbələrdən çoxu tam istifadə olunmur. Həqiqətən, turizmin bu xüsusi növü kənd yerlərinin potensialından istifadəni, həmçinin hərtərəfli kənd turizm məhsulunun realizasiyasını təmin edir.

Kənd turizminin inkişafına iqlim, sosial-iqtisadi, iqtisadi-coğrafi, sosial, təşkilati, ekoloji və s. kimi bir sıra amillər təsir göstərir. Respublikamızda kənd turizminin inkişaf etdirilməsində əsas məqsəd turizm potensialından tam istifadə etməklə bu sektordan rəqabətqabiliyyətli və yüksək gəlirli turizm sahəsi yaratmaqdır. Məhz buna görə də kənd rayonlarının mövcud ehtiyatları, onların konservasiya, çoxalma və qənaət imkanlarını dəqiq analiz etmək tələb olunur. Kənd turizmin inkişafına müsbət və mənfi təsir göstərən amillərin nəzərə alınması və iqtisadi fəaliyyətə maksimum ehtiyatların daxil edilməsi kənd turizmində turizm məhsulunun formalaşması üçün əsasdır.

Kənd turizminin menecmentini aparmaq çətin bir işdir, bu, ilk növbədə bu xidmətlərin təşkilatçısı tərəfindən sahibkarlıq keyfiyyətlərinin və məsuliyyətin mövcudluğu, həmçinin əzmkarlıq və bütün prosesdə iştirak etmək arzusu tələb edir. Ümumiyyətlə kənd turizminin bir sıra özünəməxsus təşkilatı xüsusiyyətləri vardır:

- Kənd turizmi şərti olaraq turizm biznesində iqtisadi cəhətdən ən az kapital tələb edən turizm növlərindən biri hesab olunur və yalnız müəyyən olunmuş bəzi xərclər tələb olunur: personalın saxlanılması üçün çəkilən xərclər, mövsümi təmir və amortizasiya xərcləri və s.;
- Resurs bazasına görə kənd turizmi öz spesifikliyinə görə seçilir. Sakit və rahat atmosfer yaratmaq imkanı turist özünə cəlb edir və marjinallığına görə hər zaman turistlər tərəfindən maraqla qarşılanır;
- kənd turizminə qoyulan investisiyaların nisbətən təhlükəsizliyi və risk amilinin az olması bu sahəyə kapital qoyuluşuna marağı artıran amillərdəndir. Buna baxmayaraq, yüklənmə və infrastrukturun səmərəli istifadəsini təmin etmək üçün riskləri qiymətləndirmək lazımdır;
- kənd qonaq təsərrüfatının səmərəli fəaliyyətinin təmin edilməsinin əsas istiqaməti "qiymət-keyfiyyət" nisbətidir ki, bu da ya rəqabətli qiymətləri nisbətən aşağı qiymətlərdə saxlamağa imkan verir və ya keyfiyyətin yüksəldilməsi səbəbindən qiymət artımı müşahidə olunur. Qiymət amili istehlakçı tələbinin formalaşmasında ən vacib şərtlərdən biridir. Qonaq evinin xidmətləri üçün qiymət rəqabətlidirsə, həmçinin yaşayış və yemək şəraiti uyğun gəlirsə, verilən qiymətə uyğun müştəri kütləsi tapmaq mümkün ola bilər.

Kənd turizm menecmentində nəzərə alınan əsas amillərdən biri də turizm paketinin düzgün şəkildə formalaşdırılmasıdır. Kənd qonaq evi sənayesində xidmətlər paketinin dəyəri aşağıdakı amillərdən asılıdır:

1. Destinasiyanın əlverişliliyi: magistral yollara yaxın olan, yəni nəqliyyat əlçatanlığı bölgəsində yerləşən qonaq evləri turistlər arasında ən çox tələb olunur. Xüsusilə populyar olan yerlər gözəl mənzərəli ərazilər hesab olunur;
2. Göstərilən xidmətlərin keyfiyyəti: turistlər kənd qonaq evlərinin pullu əlavə xidmətlərinə xüsusi diqqət yetirirlər. Şirkət bütün planlaşdırma, memarlıq, sanitariya və

gigiyenik xüsusiyyətlərə nə qədər yaxşı cavab versə, göstərilən xidmətlərin qiyməti bir o qədər yüksək olar;

3. Kadr keyfiyyətləri: qonağa, xüsusən də əlavə xidmətlər zamanı göstərilən xidmətin keyfiyyətinə xüsusi diqqət yetirilməlidir. Təbii ki, təcrübəli və yetişmiş kadrların göstərdiyi xidmətlərin dəyəri bir qədər yüksək olacaqdır. Heyət nə qədər yaxşı və diqqətli olarsa, qonağın ehtiyaclarını və tələblərini başa düşərsə, yaşayış, yemək və ümumilikdə bütün səyahətdən daha çox məmnunluq yaranar;

4. Mövsümilik: kənd turizm müəssisələrinin inkişafında əsas amil mövsümilikdir. Ən çox turist axını əsasən yaz və yayda olur. Lakin kənd turizminin bu amildə özünəməxsus xüsusiyyəti var. Əvvəla, bu turizm növü il boyu istirahət, məsələn, həftə sonları, tətil, yaz və qış tətilini təmin edə bilər. Ancaq mövsümdənkənar dövrlərdə qiymətlər aktiv mövsümdəki qiymətlərdən bir qədər aşağı olmalıdır.

Təşkiletmə mərhələsinin son vacib meyarı kənd qonaq evlərinin marketinqi və onların keyfiyyətinin idarə olunmasıdır. Kənd turizm müəssisələri üçün marketinq onun xidmətlərinin daim təşviqi deməkdir. Potensial müştəri, minimum enerji və vaxt sərf edərək müəyyən bir yerləşdirmə şirkəti seçməsi üçün bu prosesi effektiv etmək çox vacibdir.

Müştəri xidmətində digər vacib amil müştəri atmosferinin yaradılmasıdır. Qonaq atmosferi hisslərinin köməyi ilə qəbul edir, məsələn, duyğu hissləri: toxunma, qoxu, eşitmə, görmə, vizual və eşitmə aspektləri daxil olmaqla: parlaqlıq, rəng, həcm; ətirli və toxunma cəhətləri: yumşaqlıq, sərtlik, qoxu.

Beləliklə, yuxarıda göstərilən təhlillərdən belə nəticəyə gələ bilərik ki, kənd turizmi və qonaqpərvərliyin təşkili bir sıra rəqabət üstünlüklərinə malikdir. Birincisi, turizm xidmətlərinin qlobal fərdiləşmə meylinə uyğundur, ikincisi, fərdi ehtiyacları ödəyir və çevikdir. Tədbirlərin, istirahət və əyləncə proqramlarının turistlərin üstünlüklərindən, habelə iqlim amillərinin vəziyyətindən asılı olaraq dəyişdirilməsi mümkün olduqda kənd turizm məhsulunun həyata keçirilməsinə şərait yaranır.

Bildiyiniz kimi, hər hansı bir turizmin inkişafı kənd ərazisinin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir, buna görə də turizm sənayesinin inkişafı, xüsusən də regional iqtisadiyyat çərçivəsində dövlətimizin prioritet iqtisadi vəzifələrindən birinə çevrilir.

Kənd turizm menecmentinə mənfi təsir göstərən amillər isə bunlardır:

- iqtisadiyyatın ayrı bir sektoru olaraq kənd turizminə kifayət qədər dəstək verilməməsi;
- hüquqi və normativ bazanın inkişaf etməməsi;
- kənd turizm fəaliyyətini stimullaşdıran vahid sistemin olmaması;
- zəif inkişaf etmiş turizm infrastrukturu, o cümlədən nəqliyyat sistemi;
- Bölgələrin kənd əhalisinin yaşayış səviyyəsinin aşağı olması;
- kənd turizm sektorunun idarə edilməsi üçün kifayət qədər effektiv mexanizmin yoxluğu
- Bəzi ərazilərdə əlverişsiz iqlim şəraiti;
- kənd yerlərinin kifayət qədər inkişaf etməmiş infrastrukturu;
- kənd məhsullarının daxili və beynəlxalq bazarlarda tanıdılması və məlumatlandırılması üçün sistemin olmaması;
- tanınan bir markanın olmaması;
- turist kadr hazırlığı səviyyəsinin aşağı olması;
- kənd turizminin inkişafına investisiya səviyyəsinin aşağı olması;
- Kənd yerləri üçün dəstək proqramlarının olmaması.

**Qarayev Natiq**
**dosent**
**Kərimov Tural**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**karimovtural87@gmail.com**
**natiq_qarayev@rambler.ru**

## Turizm sahəsi rəqəmsallaşma mərhələsində

Rəqəmsal texnologiyaların inkişafı bəşəriyyət qarşısında tərəqqi üçün yeni üfüqlər açır. Hazırda dünya "SƏNAYE 4.0" - Dördüncü Sənaye İnqilabına qədəm qoyur. Bu, istehsalın avtomatlaşdırılması, robotlaşma, süni intellektdən geniş istifadə, iqtisadiyyatın bütün sahələrində rəqəmsal texnologiyaların tətbiqi deməkdir. "SƏNAYE 4.0" rəqəmsallaşma, texnoloji infrastruktur quruculuğu ilə sıx bağlı olaraq ən fərqli sahələrdə yeniliklərin tətbiqinə və inkişafa gətirib çıxarır.

Hazırda ölkəmiz İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) "State of Broadband Report 2021" sənədinə əsasən, Azərbaycan MDB məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (80 %). Dünya Bankının "Doing Business 2019" hesabatında isə Azərbaycan Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasına düşüb və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. İqtisadi və sosial sahələrdə aparılan geniş islahatlar Azərbaycanın beynəlxalq reytinqlərdə öncül mövqeləri əldə etməsi ilə nəticələnir.

Yeni iqtisadiyyat - Rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı infrastruktur ilə sıx bağlıdır

İqtisadiyyatın rəqəmsallaşması və rəqəmsal iqtisadiyyat quruculuğu dayanıqlı və təhlükəsiz infrastruktur quruculuğu ilə sıx bağlıdır. Çünki bir qayda olaraq dayanıqlı və təhlükəsiz infrastruktur olmadan həm iqtisadiyyatın rəqəmsallaşması, yəni iqtisadiyyatda, iqtisadi münasibətlərdə İKT-dən istifadə, həm də rəqəmsal iqtisadiyyata keçid və onun qurulması, yəni rəqəmsal texnologiyalar əsasında rəqəmsal məhsulların yaradılması - istehsalı mümkün ola bilməz. Məhz müasir texnoloji infrastruktur rəqəmsallaşmanın və rəqəmsal iqtisadiyyatın əsas komponentini təşkil edir. Hazırda dünyada sürətlə inkişaf edən Əşyaların interneti (IoT), 5G, robotlaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiqi sahələri də müvafiq magistral infrastrukturun qurulmasını və yenilənməsini tələb edir. Dayanıqlı sabit infrastruktur olmadan həm ölkələrarası, həm də ölkədaxili bağlantı (connectivity) xidmətlərinin qabaqcıl standartlara uyğun təmin edilməsi mümkün deyil. Hazırda dünya üzrə bağlantı xidmətləri sürətlə inkişaf edir. Həm mobil, həm də genişzolaqlı internet istifadəçilərinin sayı artır. Operatorlar hər ötən il infrastruktura yeni sərmayə yatırımı ehtiyacı ilə qarşılaşırlar. Böyük Britaniyanın telekom, media və texnologiya üzrə ixtisaslaşmış konsaltinq şirkəti olan "Analysys Mason"un məlumatına əsasən, 2014-cü ildən bəri operatorlar internet infrastrukturuna 300 milyard ABŞ dollarından çox sərmayə yatırıblar.

İqtisadiyyatın rəqəmsallaşması prosesi onun əsas və perspektivli sahələrindən biri olan turizm sahəsindən də yan keçmir. Lakin hələ inkişafda olan bu sahədə kifayət qədər çətinlik və boşluqlar müşahidə olunmaqdadır.

Pandemiya səbəbilə dünya və eləcə də, ölkə turizmində müvəqqəti durğunluq olsa da, pandemiyadan sonra bazar payı əldə etmək üçün ciddi rəqəmsal rəqabət yaranır. Lakin bizim araşdırmalarımız göstərir ki, ölkədə fəaliyyət göstərən əksər otel və turizm şirkətləri bu rəqəmsal rəqabətə hazır deyillər. Bu gün otel və turizm sahəsində fəaliyyət göstərən şirkətlərin bir çoxlarının veb saytları istifadəçi və google axtarış sisteminin tələblərinə cavab vermir. Bu isə pandemiyadan sonra həmin şirkətlərin həyata keçirəcəkləri marketinq aktivliklərini nəticəsiz qoya bilər.

Pandemiyadan sonra otel və turizm şirkətləri illik kampaniya planlarına uyğun olaraq yerli əhaliyə bir-birindən maraqlı təkif paketləri təqdim etməyə hazırlaşırlar. Burada əsas məsuliyyət oteli təmsil edən personalın üzərinə düşür. Ona görə də otel və turizm sektoru üzrə fəaliyyət göstərən şirkətlər müştəri məmnuniyyətini yüksək tutmaq üçün əməkdaşlarına ciddi təlim keçməli və hər şeyin onların göstərdiyi xidmətdən asılı olduğunu aşılamalıdırlar.

Apardığımız kiçik müşahidələrin verdiyi nəticəyə görə, bir sıra turizm şirkətlərində CRM platformaları mövcud deyildir. Otelin marketinq və satış departamenti onların A,B,C kateqoriyalı müştərilərinin kimlər olduğunu, onlara nəyi və nə zaman təklif etmək lazım olduğunu bilmirlər. Belə olduğu halda isə hər bir müştəriyə fərdi yanaşma formulasını qurmaq, o cümlədən digər marketinq aktivliklərini həyata keçirmək çətin olur. Bir çox otellər CRM sistemlərinin yığılmasını xarici şirkətlərə həvalə edirlər. Bu da gələcəkdə texniki dəstəyin vaxtında göstərilməsi, dil baryeri, ölkələrarası zaman və valyuta fərqi kimi ciddi problemlər yaradır.

Məlumdur ki, pandemiya dövründə ölkə turizmi kifayət qədər durğunluq yaşadı. Həmin dövrü turizmin tsiklik inkişaf xətti üzrə dib nöqtə kimi qiymətləndirmək olar. O zaman qeyd edə bilərik ki, hazırda turizm sahəsi növbəti tsiklik dalğanın pik nöqtəsinə doğru irəliləyən inkişaf xətti üzrə hərəkət edir. Bu və növbəti mərhələdə rəqəmsal proseslər, turizmdə İKT məhsullarının tətbiqinin genişləndirilməsi, virtual turizm məhsullarının yaradılması və artırılması, turizm məhsullarının marketinq strategiyasında rəqəmsallaşma və digər addımlar turizmin yeni inkişaf perspektivlərinə imkan yaradacaq.

**Qarayev Natiq**
**dosent**
**Orucov Elvin**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**Elvin.orucov098@gmail.com**
**Natiq_qarayev@rambler.ru**

## Regionlarda turizmin inkişafında təbii-rekreasiya ehtiyatlarının rolu

Təbiət obyekti, hadisələri və insan fəaliyyəti nəticəsində yaranan ehtiyatlar rekreasiya ehtiyatları adlanır. İstirahət, turizm və müalicə məqsədilə yaradılan obyektlər də rekreasiya ehtiyatları sırasına daxildir. Bu ehtiyatlar iki növə ayrılır və bunlar aşağıdakılardır:

- Təbii rekreasiya ehtiyatları;
- Tarixi-mədəni rekreasiya ehtiyatları.

Təbii rekreasiya ehtiyatları dedikdə, regionda təbii ərazi kompleksləri, komponentləri, xüsusiyyətləri ilə yanaşı landşaftın cəlbediciliyi, növbələşməsi və tarazlılığı, gözəlliyi, nadirliyi, obyektlərin ölçüsü və forması, onların görünüş imkanı başa düşülür. Tarixi-mədəni abidələrə aşağıdakılar aid edilir:

- Maddi abidlər - insanların dərketmə tələbatını təmin edən, cəmiyyətin qiymətli, maddi və istehsal vasitələrindən olan tarix və mədəniyyət abidələri, təsərrüfat sahələri müəssisələri daxildir.
- Mənəvi abidələr - dövlətin, cəmiyyətin ictimai həyatında mühüm yer tutan: elm, mədəniyyət və incəsənətdə baş verən nailiyyətlər mənəvi abidələrə addir.

Sosial-mədəni məkan, zaman, insanı əhatə edən mühitin təzadlığı, müxtəlif təbii və mədəni mühitin uyğunluğu rekreasiya sərvətləri üçün səciyyəvidir. İnsanı əhatə edən adi mühitdən fərqli yerlər həmçinin təbii cəhətdən iki və daha çox müxtəlif uyğunluğu olan yer rekreasiya ehtiyatı sayıla bilər. Müxtəlif mühitin qovuşduğu yer daha cəlbedici hesab olunur. Regionlarda olan quru-su, meşə-çöl, təpə-düzənliyi bunlara misal olaraq göstərmək olar.

Dağlar -düzənliklər, müxtəlif mədəni mühit kimi daha çox cəlbedici olan təzadlı mühitin həmahəng olması ən mükəmməl nümunə hesab olunur. Ərazinin sosial-mədəni cəhətdən mənimsənilməsinə tələbat onun bu və ya digər xüsusiyyətlərinin məcmusunun rekreasiya ehtiyatlarına çevrilməsinin əsas səbəbi və amili hesab olunur. Rekreasiya ehtiyatları xeyli dərəcədə əhalinin rekreasiya tələbatından irəli gələrək meydana gəlir. Rekreant axını əsasən insanlar tərəfindən mənimsənilmiş regiona istiqamətlənir ki, bu da öz növbəsində ən mühüm rekreasiyanın bu ərazidə cəmlənməsi fikir formalaşdırır. Ərazinin mənimsənilməsi prosesi yüksək həddə çatanda, onun rekreasiya ehtiyatlarının əhəmiyyəti azalmağa başlayır. Rekreasiya ehtiyatlarını ilkin vəziyyətinə və yüksək qiymətinə qaytarmaq mümkün deyildir. Turizm ehtiyatları təbii, sosial-mədəni, sağlamlıq resurslarının məcmusudur. Turizm ehtiyatlan insanın istirahəti zamanı müxtəlif rekreasiya tələbatlarının öyrənilməsinə və bu tələbatın ödənilməsinə xidmət etməlidir. Turizm ehtiyatlarına turistlərə göstərmək üçün obyektlər, həmçinin turistlərin mənəvi tələbatını ödəyən, fiziki qüvvənin bərpası və inkişafına təsir edən obyektlər aid edilir. Turizm ehtiyatları-turizm sahəsində istifadə üçün yararlı tarixi-mədəni, sosial-iqtisadi və təbii obyektlərin məcmusudur. Turizm ehtiyatları iki qrupa ayrılır: bilavasitə və vasitəli olur. Biləvasitə turizm ehtiyatları - turistlərin özləri tərəfindən istifadə edilən qeyri-adi gözəlliyə malik olan landşaft, müalicəvi xüsusiyyətlərə malik rekreasiya yeri, tarixi-mədəni diqqətəlayiq yerlər aid edilir. Vasitəli turizm ehtiyatları - buna sosial-iqtisadi ehtiyatlarda deyilir. Vasitəli turizm ehtiyatlarına maddi-texniki baza, maliyyə vəsaiti, əmək ehtiyatları aid edilir. Regionda turzmin inkişafına yardım göstərən turizm ehtiyatlarını digər təsnifata görə üç qrupa ayırırlar: Kurortologiya; ümumi sağlamlıq; rekreasiya obyektləri və s.

Turizm ehtiyatlarının tərkibinə təbiətin bu və ya digər elementinin daxil edilməsi meyarları onlardan istifadənin texniki mümkünlüyü və iqtisadi məqsədə görə uyğunluğuna, həmçinin onların öyrənilmə səviyyəsinə əsaslanır. Turizmin sağlamlıq, dərketmə və idman növləri kimi funksional cəhəti vardır. İqtisadi rifah kimi əks olunan turizm ehtiyatları sayca məhdud, keyfiyyətcə fərqli cəhətə malikdir. Təsərrüfat cəhətdən istifadədə müxtəliflik yaradan turizm, iqtisadi planda turizm ehtiyatları turizm məhsulu istehsalı amili kimi çıxış edir. Turizm ehtiyatları iqtisadi və coğrafi xarakter daşıdığına görə onun təsnifatında olan təbii elementlər iqtisadi nöqteyi-nəzərdən qiymətləndirilir. Turizm ehtiyatlarının yerləşməsində ərazi amili əsas olduğuna görə mövcud ehtiyat potensialı, turist cəlbetmə imkanı və bölgələr, regionlar üzrə yayılmasının da öyrənilməsi vacib şərtlərdən biridir. Regionlarda turizm ehtiyatlarından istifadə müddəti aşağıdakı amillərdən asılıdır:

- Turizm-rekreasiya ehtiyatlarının qiymətləndirilməsi və onların turistləri cəlb etmə imkanları;
- Bəzi turizm ehtiyatlarının toxunulmazlığı və ərazi üzrə yayılma səviyyəsi;
- Turizm ehtiyatlarının kompakt yerləşməsi, həmçinin müəyyən ərazi vahidi çərçivəsində miqdarı;
- Turizm ehtiyatlarına olan tələbat və mövcud infrastrukturun inkişaf səviyyəsi.

Uzunmüddətli turizm ehtiyatlarının istifadəsi əsasən onun yerləşdiyi ərazinin coğrafi xüsusiyyətlərindən asılıdır. Turizm məqsədilə insanların tələbatını ödəyə bilən, turizmin inkişafı üçiin maddi və təşkilati-iqtisadi baza yaradan iqlim, sosial-mədəni, tarixi, arxeoloji, memarlıq, elmi-sənaye, əyləncə, dini və digər obyektlər regionun turizm-rekreasiya ehtiyatı başa düşülür. Turizm-rekreasiya ehtiyatları turizmin idarə olunmasında əsas rol oynayır və regionda turizm biznesinin formalaşmasa təkan verir. Turizm-rekreasiya ehtiyatları turizm biznesinin səmərəli inkişafının əsasını təşkil edir. Turizm-rekreasiya ehtiyatları regionda turizmin inkişaf xüsusiyyətlərini müəyyən edir, həmçinin turizm məhsulunun istehsalında, regionun maliyyə siyasətinin üstün istiqamətlərinin planlaşdırılmasında əsas rol oynayır.

Regionlarda turizm ehtiyatlarının nəzəri və təcrübi əsaslarının öyrənilməsi onların təsnif olunmasını tələb edir və aşağıdakı xüsusiyyətlərini önə çıxmasına səbəb olur.

- Yayıldığı ərazinin coğrafi şəraiti;
- Turizm sənayesində istifadə olunması;
- İstifadənin iqtisadi səmərəsinin müəyyən olunması.

Əvvəllər ölkəmizin regionlarında turizm sahəsində turizm potensialı nadir halda istifadə olunurdu. Hal-hazırda ölkəmizin regionlarında rekreasiya potensialı daha çox istifadə olunur.

**Rəhmanov Fərhad**
**professor**
**Bayramov Murad**
**müəllim**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**farhad52@live.ru**
**bizimmurad@yahoo.com**

## Lənkəran-Astara iqtisadi rayonunda rəqəmsal məşğulluğun təşkilinin səmərəliliyi

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir.

Dövlət məşğulluq xidmətlərinin elektron infrastrukturunun qurulması, rəqəmsal məşğulluq xidmətlərinin tətbiqi prosesi bu il daha geniş miqyas alacaq. İşsiz və işaxtaran şəxslər, işəgötürənlər üçün həmin xidmətlərin e-platformalardan təqdim olunmasında 2021-ci ildə bir sıra yeniliklər olacaq. Bu sahədə Prezident İlham Əliyev cənablarıda tapşırığlarını vermişdir. Bu məqsədlə ölkənin məşğulluq xəritəsi, məşğul şəxslərin ölkə üzrə reyestri, qeyri-formal məşğulluğa nəzarət informasiya ehtiyatı, səyyar yoxlama və monitorinq sistemi də yaradılır. E-əmək birjası və yarmarkası, ictimai işlər portalı (works.gov.az) və BACAR innovativ platforması üzrə işlərə də başlanılıb.

Azərbaycanda müasir rəqəmsal xidmətlərdən istifadə, elektron platformaların qurulması, online qeydiyyat bölgələr üzrə də tətbiq olunur. Lənkəran-Astara iqtisadi zonasında dövlət sosial xidmətləri, o cümlədən məşğulluq xidmətləri sistemində geniş vüsət alan elektronlaşma proqramı bu sahədə müasir, çevik, eyni zamanda şəffaf idarəçiliyin və xidmətlərin formalaşmasına yönəlib. Artıq ölkə üzrə bütün vakansiyalar "Məşğulluq" altsistemində (MAS) toplanır. İşəgötürənlərin hesabatları kağız üzərində təqdim etməsi praktikası ləğv edilərək, bu proses elektron müstəviyə keçirilib. İşsiz və işaxtaran şəxslərin

qeydiyyatı prosesi elektronlaşdırılıb, elektron fərdi məşğulluq proqramının tərtibatına başlanılıb.

Bu qəbildən “Elektron əmək birjası və yarmarkası” məşğulluğun təmin olunmasında ölkə və eyni zamanda cənub regionu üzrə səmərəliliyini artıracaqdır. Bu birja həmçinin işaxtaran və işsiz şəxslərin daimi və müvəqqəti məşğulluğunun təmin edilməsinə xidmət göstərəcək. Bu, daimi, mövsümi və müvəqqəti iş axtaran şəxsləri eyni əsasla iş təklif edən şəxslərlə görüşdürən virtual platformadır. Platformanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Əmək münasibətləri və məşğulluq” (ƏMAS) altsistemi, işədüzəltmədə vasitəçilik fəaliyyəti ilə məşğul olan e-platformalar ilə qarşılıqlı əlaqədə işləməsi nəzərdə tutulub.

Bu elektron xidmətlər Lənkəran-Astara iqtisadi regionunun insan resursları əməliyyatlarının tamamilə elektron müstəviyə keçidini təmin edəcək. Bununla inzibati ərazi vahidləri üzrə əsas məşğulluq, demoqrafik, peşə ixtisasları və əmək ehtiyatları balansı göstəriciləri, qeyri-formal məşğulluq sahəsində nəzarət və risk əsaslı yoxlamalar, haqqı ödənilən ictimai işlərin vahid platformada toplanması, təlim, peşəyönümü və peşə hazırlığı fəaliyyəti onlayn müstəviyə daşınacaq. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə əsaslanaraq regionda məşğulluq səviyyəsini görə bilərik. Cədvəldə inzibati ərazi vahidləri üzrə məşğul əhalinin sayı göstərilmişdir (Cədvəl-1).

Cədvəl 1

| | **2010** | **2015** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Lənkəran-Astara iqtisadi rayonu - cəmi** | **381.0** | **416.0** | **429.5** | **435.5** | **439.3** | **434.1** |
| o cümlədən: | | | | | | |
| Astara rayonu | 44.7 | 49.2 | 50.6 | 50.9 | 51.7 | 51.1 |
| Cəlilabad rayonu | 87.9 | 95.6 | 98.8 | 100.5 | 101.3 | 100.6 |
| Lerik rayonu | 33.8 | 38.8 | 40.0 | 40.3 | 40.6 | 39.5 |
| Lənkəran rayonu | 98.8 | 105.1 | 108.6 | 110.4 | 111.3 | 110.0 |
| Masallı rayonu | 90.6 | 98.4 | 101.7 | 103.5 | 104.3 | 103.5 |
| Yardımlı rayonu | 25.2 | 28.9 | 29.8 | 29.9 | 30.1 | 29.4 |

Bütün bu deyilənləri nəzərə alaraq aşağıdakı nəticələri qeyd edə bilərik:

- Məşğulluğun səmərəli təşkilinə nail olunaraq işsizliyin minimallaşmasına gətirib çıxaracaq;
- Təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsi, korporativ sektorda şəffaflığın artırılmasına nail olunacaq;
- Vergidən yayınma hallarının aradan qaldırılması ilə kölgə iqtisadiyyatının həcmi azalacaqdır;
- “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi”ndə rəqəmsal ödənişlərin genişləndirilməsi ilə bağlı nəzərdə tutulan hədəflərə nail olunacaqdır.

**Sadıqov Rahim**
**dosent**
**Əhmədli Anaxanım**
**magistrant**
**Bakı Biznes Universiteti**
**S.rahim72@mail.ru**
**gulyaxmedova@mail.ru**

## Rəqəmsal iqtisadiyyat şəraitində idarəetmənin təkmilləşdirilməsi istiqamətləri

Müasir dövrdə telekommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə ciddi nüfuz edərək, inkişaf üçün geniş imkanlar yaratmışdır. Qabaqcıl təcrübələrdə keyfiyyətli, təhlükəsiz və səmərəli transformasiya, eləcə də bu sahədə resurslardan effektiv istifadə informasiyaların inkişafında hərəkətverici qüvvə hesab olunur. Ölkələr rəqəmsal xidmətlərin genişləndirilməsi və elektron hökumətin inkişafı vasitəsilə səmərəliliyin və şəffaflığın artırılmasına nail olmuşlar.

Rəqəmsal iqtisadiyyatın məqsədi bütün sahələrdə rəqəmsal texnologiyaların sistemli tətbiqini və inkişafını təşkil etməkdir. Məqsəd ölkədə müvafiq dövlət sektorunun, eleəcə də müəssisələrin səmərəli fəaliyyət göstərməsi, əhalinin sosial-iqtisadi rifah səviyyəsinin yüksəldilməsi, təhsilin, maliyyənin, idarəetmənin ümumiyyətlə iqtisadiyyatın rəqəmsallaşdırılması üçün informasiya texnologiyalarının sürətli inkişafı, ölkənin İKT sənayesinin potensialının daha da artırılmasıdır.

Texnologiyanın sürətli inkişafı və çeşidliliyi, cəmiyyətləri və eyni zamanda onlara xidmət göstərən şirkətlərin iş görmə prinsiplərini daim yenilənməyə məcbur edir. Rəqəmsal iqtisadiyyat, rəqəmsal texnologiyaların şirkət tərəfindən strateji olaraq mənimsənilməsidir. Şirkətlər bizneslərinin bütün sahələrində bu mənimsəməni həyata keçirməlidirlər. Məsələn, tədarük zənciri, ERP, müştəri xidmətləri, riskin idarə edilməsi, qiymətə nəzarət mexanizmi və bunun kimi şirkəti formalaşdıran bütün sahə və fəaliyyətlərin, bu texnologiyalara uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Məsələn: kağıza əsaslana uçot sistemi və insan resursları idarə etməsini yerinə kompüter və buna uyğun olan proqram təminatları ilə həyata keçirilməsi idarəetməni daha da sistemli və effektiv edir. Ənənəvi üsullarla günlərlə vaxt alan prosesləri bu texnologiyalar daha sürətlənmiş formada həyata keçirməkdədir. Bu səbəbdən, bu prosesləri idarə edəcək və düzgün strateji yol xəritəsi müəyyən edəcək daha keyfiyyətli mütəxəssislərə ehtiyac yaranır. Rəqəmsal iqtisadiyyatın şirkət üçün əsas faydaları aşağıdakılar hesab olunur:

- düzgün bir strategiya ilə prosesi həyata keçirilə bilsə, şirkət rəqabət mübarizəsinə tab gətirəcəkdir;
- daha sürətli və daha əhəmiyyətli iş prosesləri həyata keçirəcək;
- idarəetmə işləri daha səmərəli şəkildə yerinə yetirildiyi üçün, görülə biləcək işin həcm də artacaqdır;
- tətbiq edilən müasir texnologiyalar idarəetmə xərclərini aşağı salacaq;
- artan məhsuldarlıq və yüksələn keyfiyyət müşahidə olunacaqdır.

Təbii ki, qeyd etməliyik ki, şirkət rəqəmsal texnologiyaların tətbiqi zamanı müəyyən çətinliklərlə də üzləşə bilər:

- müasir texnologiyaların tətbiqi kifayət qədər xərc tutumlu olması. Bunun üçün tələb olunan investisiyanın miqdarı da artmaqdadır. Həmçinin onları idarə edə biləcək ixtisaslı kadrların olması da mühüm şərtdir.
- şirkətdaxili yaranacaq dəyişiklik zamanı idarəetmənin çətinliyi. Bəzən şirkətlər, proses bitdikdən sonra ortaya çıxacaq olan yeni quruluşa malik şirkəti necə idarə edəcəkləri barədə tərəddüd edirlər. Bu yanaşma, onları bu yenilikləri – dəyişiklikləri etməyə imkan vermir.
- strategiya uğursuzluğu. Şirkətlər, rəqəmsala uğurla keçid etməsi üçün, prosesin ən əvvəlindən uğurlu və güclü bir strategiya qurmağı bacarmalıdır. Bugün ölkəmizdə şirkət sahibləri bu strategiyanın qurulmasında müəyyən çətinliklərlə qarşılaşırlar. Bəzən xarici

firmalarla razılaşsalar da, bu da kifayət qədər uğurlu nəticə göstərmir. Çünki, bazarda dəyişiklik olacaqsa, həyata keçiriləcək prosesləri planlayan, şirkət daxilindən və yerli bazardan mütəxəssislər olması vacibdir.

- şirkət sahiblərinin dəstək verməməsi. Ən önəmli məqamlardan biri də budur. Prosesin tam olaraq sona qədər getməsi üçün, sahibkarlar, idarəedicilər bu prosesə dəstək olmalıdırlar.

Hazırda bütün dünyada iqtisadiyyatın, dövlətin və müəssisələrin idarə edilməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə informasiya və kommunikasiya texnologiyalarından istifadə imkanları genişlənməkdədir.

**Səlimov Hikmət**
**baş müəllim**
**Fərhadova Lalə**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**hikmat.salimov@bk.ru**
**laleferhadova1998@gmail.com**

## Regionların sosial-iqtisadi inkişafının təmin olunması və innovativ keyfiyyət mərhələsinin yüksəlməsində rəqəmsal iqtisadiyyatın rolu

Regionların sosial-iqtisadi inkişafının təmin olunması məqsədilə Dövlət Proqramları çərçivəsində görülmüş işlər ölkədə həyata keçirilən ümumi sosial-iqtisadi inkişaf siyasətinə ciddi dəstək vermiş və nəticədə 2004-ci illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 2,6 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,4 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.

Strateji valyuta ehtiyatları 2004-cü ilə nisbətən 24,3 dəfə artaraq 1 yanvar 2019-cu il tarixinə 45 milyard ABŞ dolları səviyyəsini keçmişdir.

Dövlət Proqramı hazırlanarkən davamlı inkişaf prinsipləri, o cümlədən BMT-nin "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf Gündəliyi" ilə müəyyən olunan Dayanıqlı İnkişaf Məqsədləri, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanına müvafiq olaraq təsdiq edilmiş Milli iqtisadiyyat və iqtisadiyyatın 11 prioritet sektorunun inkişafı üzrə strateji yol xəritələri, Azərbaycan Respublikası ilə beynəlxalq tərəfdaşlar arasında imzalanmış əməkdaşlıq sazişləri və həyata keçirilən layihələr nəzərə alınmışdır.

Dövlət proqramlarının icrası dövründə xarici ticarətin coğrafiyası daha da genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Bu dövrdə Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparmış, qeyri-neft ixracı 4,2 dəfə artmışdır.

Sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması Azərbaycan Respublikası Prezidentinin iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindəndir. Dövlət proqramlarının qəbulundan ötən müddət ərzində ölkədə sahibkarlığın dinamik inkişaf etdirilməsi və genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi və onların hüquqlarının etibarlı müdafiə mexanizmlərinin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilmiş, ölkədə güclü özəl sektor formalaşmış, biznes və investisiya mühiti daha da yaxşılaşmış, sahibkarların sayı artaraq ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişdir. Görülən işlərin nəticəsində artıq 2018-ci ildə özəl bölmənin payı ümumi daxili məhsulda 80 faizdən, məşğulluqda 75 faizdən çox olmuş, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı 950 mini keçmişdir. Qeydiyyatdan keçmiş sahibkarlıq subyektlərinin 66,6 faizi regionların payına düşmüşdür.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da öz müsbət əksini tapmışdır. Təsadüfi deyildir ki, Dünya Bankının "Doing Business 2019" hesabatına görə, Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci yerdən 25-ci pilləyə yüksəlib. Sənədə əsasən, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Dövlətin sosialyönümlü iqtisadiyyat quruculuğu və insanların layiqli iş yerləri ilə təmin edilməsi istiqamətində apardığı siyasət öz müsbət tövhəsini vermiş, ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 2004-2018-ci illər ərzində 1,5 milyonu daimi olmaqla, 2 milyondan artıq yeni iş yeri yaradılmışdır ki, bu iş yerlərinin də 75 faizi regionların payına düşmüşdür.

Regionların sosial-iqtisadi inkişafının təmin olunması ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icra olunduğu illər ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması iqtisadi sahələrin fəaliyyətinə birbaşa müsbət təsirini göstərmişdir. Son illərdə, regionlarda investisiya qoyuluşu səviyyəsinin artmasına, əhalinin məşğulluğunun artırılmasına əlverişli şərait yaranmışdır. 2016-cı ildə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi" də regionların inkişafı istiqamətində qəbul olunmuş mühüm sənəd hesab olunur. Müvafiq sənəd 2016-2021-ci illər ərzində iqtisadi rayonların inkişafında, mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin genişləndirilməsində, iqtisadi sahələrin rəqabətqabiliyyətinin yüksəldilməsində mühüm rol oynamışdır. Qeyd olunan Strateji Yol Xəritəsində 2025-ci ilədək ölkənin iqtisadi sahələrinin rəqabətqabiliyyətliliyinin daha da gücləndirilməsi nəzərdə tutulmuşdur. 2021-ci ildə qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" tədbirlər planı çərçivəsində həyata keçiriləcək iqtisadi tədbirlər yaxın on il ərzində ölkəmizin regionlarında iqtisadi sahələrinin inkişafında mühüm rol oynayacaqdır. Qeyd edilən sənəd üzrə yaxın dövrlərdə aşağıdakı istiqamətlər üzrə məqsədəuyğun tədbirlər həyata keçiriləcəkdir: rəqabət imkanlı iqtisadiyyatın təşkili; sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması; müasir innovasiyaların iqtisadi sahələr üzrə tətbiqi; yeni işğaldan azad olunmuş regionlara qaçqın və köçkünlərin qayıtmasının həyata keçirilməsi; "yaşıl artım" ölkəsinin yaradılması və s.

Regionların sosial-iqtisadi inkişafının təmin olunması və innovativ keyfiyyət mərhələsinin yüksəlməsində rəqəmsal iqtisadiyyatın potensial faydaları böyükdür. Çünki proseslərin və istehsalın optimallaşdırılmasına, əməliyyat xərclərinin azaldılmasına və tədarük zəncirlərinin dəyişməsinə kömək edən rəqəmsal məhsul və xidmətlər rəqabət qabiliyyətini və məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmaq imkanları yaradır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində qiymətlərin aşağı düşməsi investisiyaların və rəqəmsal texnologiyaların mənimsənilməsini təşviq edir.

Bunun istehlakçılar üçün faydası rəqabətli qiymətlərlə daha geniş çeşidli mal və xidmətlər əldə etməkdir. Bundan əlavə, rəqəmsallaşma sahibkarlıq və iş yerlərinin açılması üçün də yeni imkanlar yaradır. Rəqəmsal iqtisadiyyat hökumətə daha çox və daha yaxşı dövlət xidmətləri göstərməyə, idarəetməni inkişaf etdirməyə və ümumilikdə daha yaxşı nəticələr əldə etməyə yardımçı olur.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli Sərəncamı ilə "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində ölkə iqtisadiyyatında şəffaflığın artması, vergidən yayınma hallarının

azalması, bank sektorunun sağlamlaşması, işəgötürənlə işçi arasında maliyyə şəffaflığının təmin edilməsi, sosial sığorta ayırmalarının həcminin artaması, elektron bank əməliyyatlarının çeşidi və həcminin genişlənməsi, elektron bankçılıqdan istifadə edən əhalinin xüsusi çəkisinin artması, elektron ticarətin həcminin böyüməsi göz qabağındadır. Bütün bunlar Azərbaycanda iqtisadiyyatın nağdsızlaşmasını sürətləndirmiş və nəticədə real ÜDM-in və dövlət büdcəsi gəlirlərinin artmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə ciddi töhfə vermişdir.

Son dövürlər İKT-nin iqtisadi faktor kimi rolunun artması iqtisadiyyatdakı struktur dəyişiklikləri ilə bağlıdır. Bu dəyişikliklər iqtisadiyyatın sənaye sektorunda məşğul olanların payının azalması, informasiyanın yaradılması, emalı və istehlakı ilə bağlı sektorlarda işləyənlərin payının artması ilə xarakterikdir. Regionlarda İKT-nin geniş tətbiqi və elektron hökumətin formalaşdırılması, inkişaf etdirilməsində əsas məqsəd effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmənin həyata keçirilməsidir.

**Şükürov Elgiz**
**doktorant**
**Bakı Biznes Universiteti**
**elgiz_sukurov@mail.ru**

## Rəqəmsal iqtisadiyyatda e-ticarət və onun regionlarda tətbiqinin əhəmiyyəti

Müasir iqtisadi şəraitdə dünyada ikitərəfli, regional və çoxtərəfli əməkdaşlığın təşkilində rəqəmsallaşma mühüm əhəmiyyət kəsb edir. Rəqəmsallaşma xüsusilə ticarətin keyfiyyətli və dayanıqlı inkişafında əhəmiyyətli rol oynayır. Pandemiya Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarına təsir etdiyi kimi xarici ticarət dövriyyəsinə də təsir etmişdir. Aşağıdakı cədvəl məlumatlarına diqqət yetirək:

Xarici ticarət dövriyyəsinin dinamikası

| İllər | Milyon ABŞ dolları ilə | | | | Əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə *) | | |
|---|---|---|---|---|---|---|---|
| | ticarət dövriyyəsi | idxal | ixrac | saldo | ticarət dövriyyəsi | idxal | ixrac |
| 2015 | 25 809,0 | 9 216,7 | 16 592,3 | 7 375,6 | 99,9 | 99,5 | 100,1 |
| 2016 | 21 596,6 | 8 489,1 | 13 107,5 | 4 618,4 | 92,7 | 89,6 | 94,4 |
| 2017 | 24 263,8 | 8 783,3 | 15 480,5 | 6 697,2 | 89,3 | 83,8 | 92,9 |
| 2018 | 31 782,7 | 11 465,9 | 20 316,8 | 8 850,9 | 100,5 | 100,2 | 100,7 |
| 2019 | 33 065,3 | 13 667,5 | 19 397,8 | 5 730,3 | 96,1 | 93,5 | 97,6 |
| 2020 | 24 201,1 | 10 730,7 | 13 470,4 | 2 739,7 | 78,1 | 64,0 | 88,0 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi*
*Qeyd: *) 2010-2020-ci illər üzrə indekslər qiymət amili nəzərə alınmaqla hesablanmışdır.*

Statistik göstəricilərə istinad edib qeyd edə bilərik ki, 2020-ci ildə 2015-ci illə müqayisədə həm Azərbaycanın idxal mallarının çeşidliyi və həm də ixrac edilən malların çeşidliyi artmışdır.

Pandemiyası nəticəsində yaranan çətinliklər istiqamətində elektron ticarətin müsbət rolu olmuşdur. "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd edilir ki, elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə həyata keçirilən fəaliyyətdir (Elektron ticarət haqqında Azərbaycan Respublikasının Qanunu10 may 2005-ci il № 908-IIQ). Yəni iş və ya xidmətlərin alıcı tərəfindən satıcıdan (xidmət göstərəndən) onlayn şəkildə əldə

edilməsidir. E-ticarət artıq istehsalın həyata keçirilməsinin və istehsal dövriyyəsinin avtomatlaşdırılmasının texniki və iqtisadi vasitəsidir. E-ticarətin genişlənməsində elektron ödəmə vasitələri kimi kredit kartlarının, debit kartların, öncədən ödəmə kartlarının inkişafının böyük rolu vardır.

Rəqəmsal iqtisadiyyatda e-ticarətin iki növü fərqləndirilir:

- Birbaşa e-ticarət. Birbaşa e-ticarət istər ödəmə sisteminin, istərsə də məhsulların elektron vasitələrin köməyilə təqdim edildiyi ticarət formasıdır;
- Dolayı e-ticarət. Dolayı e-ticarətdə ödəmə e-ödəmə vasitəsilə, çatdırılma isə ənənəvi ticarətdə olduğu kimi həyata keçirilir.

Rəqəmsal iqtisadiyyat şəraitində elektron ticarət vasitəsilə əsasən aşağıda qeyd olunan fəaliyyət növləri həyata keçirilir:

- elektron sistemlərindən istifadə etməklə müştəri tərəfindən sifariş olunub;
- dəyəri ödənilən və çatdırılan "fiziki" malların satışı;
- elektron məhsulların satışı (proqramlar, musiqilər və s.);
- real vaxt rejimində maliyyə xidmətləri (broker, bank xidmətləri və s.);
- informasiya xidmətləri (məsələn, qanunvericilik aktlarının mətnləri);
- telekommunikasiya xidmətləri (məsələn, videokonferensiyaların təşkili və s.);
- məlumatların işlənməsi və arxivləşdirilməsi (məsələn, məlumat bazalarının idarə edilməsi);
- proqram təminatlarının müddətli istifadəsi.

Dünyanın ən böyük elektron ticarət bazarına sahib olan ABŞ-da bu göstərici 75%, Avropa ölkələrində isə 60%-ə bərabərdir. Ölkəmizdə elektron ticarətin həcmi inkişaf etmiş ölkələrlə müqayisə olduqca çox aşağı səviyyədədir. İlkin hesablamalara görə, Azərbaycanda elektron ticarət ümumi ticarət dövriyyəsinin 5%-ni təşkil edir. Elektron ticarətin dünya göstəricilərindən geri qalmasının əsas səbəbi elektron ödənişlər üçün zəruri infrastrukturun kifayət qədər olmaması və əhalinin maliyyə savadlılığının zəifliyidir. Elektron ticarətin inkişafı üçün üç tərəfin - hökumətin, sahibkarın, əhalinin üzərinə məsuliyyət düşür. Əhalinin əsas məsuliyyəti maliyyə savadlılığının artırılması, ödənişləri elektron qaydada həyata keçirməkdən ibarətdirsə, sahibkar istehsal və ya idxal etdiyi malların onlayn satışını təşkil etməklə əhalinin prosesə marağını artıra bilər. Dövlət isə sahibkarlara texniki və maliyyə dəstəyi verməklə elektron ticarəti təşviq edə bilər.

Elektron ticarətin ənənəvi ticarətdən fərqli müsbət və mənfi tərəfləri vardır. Müsbət tərəflərinə e-ticarət vasitəsilə alınan malın qiymətinin daha ucuz olmasını, çeşidinin çox olmasını, internet üzərində istənilən çeşiddə, ölçüdə, rəngdə əmtələrin alınmasını aid etmək olar. Müasir dövrdə Azərbaycanda bankların elektron ticarət ekosisteminə qoşulması ilə rəqəmsal və biznes imkanları maliyyə resurslarının idarə edilməsi imkanları ilə qovuşur. Banklar elektron ticarət sistemində müştərilərin elektron ticarət əməliyyatlarını yerinə yetirən funksiyadan daha çox maliyyə tərəfdaşı rolunu oynayırlar. Elektron ticarət dövriyyələrinin vasitəçisiz birbaşa olaraq bank hesablarında toplanması sahibkarlara əlavə üstünlüklər verir. Mənfi tərəflərinə isə alınmış əmtələrin geri qaytarılmasında yaranan çətinlikləri göstərmək olar. Beləki alınan mallarda ölçülər uyğun gəlməyə bilir, sifariş verilən malın ünvana gəlməsi üçün xeyli zaman tələb olunur və s. Digər tərəfdən regionlarda e-ticarətlə bağlı logistika fəaliyyəti də qənaətbəxş deyildir. Elektron ticarət əməliyyatlarının virtual aləmdə həyata keçirilməsi həmin əməliyyatların vergiyə cəlb edilməsi məsələlərini çətinləşdirir. Elektron ticarət əməliyyatları aparan şəxslərin (alıcının və satıcının) fərqli ölkələrin rezidentləri olması, informasiya sistemlərinin (serverlərin) isə digər ölkələrdə yerləşməsi malların (işlərin, xidmətlərin) təqdim edildiyi yerin, vergi ödəyicisinin və vergi məbləğinin müəyyən edilməsini mürəkkəbləşdirir. Ona görə də Azərbaycanda elektron ticarətin inkişafını ləngidən amillərin aradan qaldırılması istiqamətində işlər daha da sürətləndirilməlidir. Bu istiqamətdə infrastrukturun lazımı səviyyədə çatdırılması, poçt sisteminin gücləndirilməsi, elektron məkanda müştərilərə daha keyfiyyətli xidmətlərin göstərilməsi işləri kimi problemlər öz həllini tapmalıdır.

Mövcud problemlərə baxmayaraq, elektron ticarət getdikcə ənənəvi ticarətin ciddi rəqibinə çevrilməkdədir. Elektron ticarətin inkişafı həm də yeni iş yerlərinin yaradılması, dövlət gəlirlərinin stimullaşdırılması və yerli məhsulların xarici onlayn satış platformalarına çıxarılması vasitəsilə ölkənin tanıdılmasına xidmət edir. Bu sahədə inkişaf təkcə sahibkarların sayəsində deyil, həm də dövlət dəstəyi ilə mümkündür. Xüsusilə Azərbaycan məhsullarının xarici ölkələrdə internet platfromaları ilə satışa çıxarılması üçün dövlət dəstəyi vacibdir. Respublikamızda elektron ticarətin inkişafına dəstək olaraq dövlət bu sahədə ƏDV-ni müəyyən müddətə dayandırarsa və ya ƏDV-yə cəlb edilməyə görə dövriyyə limitini 200000 manatdan artırarsa bu rəqəmsal iqtisadiyyatda e-ticarətin inkişafına şərait yaradar. Həmçinin elektron ticarətlə bağlı bəzi gömrük güzəştlərinin tətbiqi məqsədəuyğun hesab edilməlidir. Xüsusilə güzəştlər regionlarda daha çox tətbiq edilərsə bu həm regionlarda əhalinin, həm də iqtisadi subyektlərin rəqəmsal xidmətə keçməsinə müsbət təsir edəcəkdir. Regionlarda elektron ticarətin zəif inkişaf etməsinin səbəbləri kimi güclü investisiya qurumlarının olmamasını göstərmək olar. Əgər regionlarda güclü investisiya qurumları fəaliyyət göstərərsə, bu halda elektron ticarətçilər onlardan aldıqları investisiya hesabına öz fəaliyyətlərini təşkil edə bilərlər. Qeyd edilənləri həll etməklə regionlarda əhalinin və sahibkarların elektron sferaya keçməsini təmin etmək olar.

**Zamanov Fizuli**
**dosent**
**Əliyev Ələkbər**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**fizuliz@list.ru**
**elekber.eliyev.14@mail.ru**

## Azərbaycanda kiçik və orta biznesin inkişafına rəqəmsal texnologiyalardan istifadənin təsiri

Müasir cəmiyyətdə internet texnologiyalarının və onlardan istifadə imkanlarının genişlənməsi kiçik və orta sahibkar subyektlərinin işinin yeniliklərə uyğun olaraq qurulmasını tələb edir. İnsanların yeni texnologiyalardan istifadə edə bilmə bacarığına əsaslanaraq biznes subyektlərinin fəaliyyətinin ona uyğunlaşdırılması dövrün tələblərindən irəli gəlir. Belə rəqabət mühitində müəssisələr arasında müştəri uğrunda aparılan “iqtisadi müharibənin” nəticələrinə əsasən daim yeni imkanların əldə edilməsi zəruridir. Biznes fəaliyyəti ilə məşğul olan hər bir təsərrüfat subyekti yaxşı başa düşür ki, rəqəmsal texnologiyalardan istifadə etmədən bazarda uğur əldə etmək çox çətindir və ya getdikcə mümkünsüz olur. Ona görə də istər xidmət (təhsil, səhiyyə, idman, iaşə), istərsə də istehsal sahələrində biznes işinin texnoloji nailiyyətlərə uyğun təşkili vacibdir.

Aparılan araşdırmalar göstərir ki, xüsusilə regionlarda biznes subyektlərinin internet imkanlarından istifadə etmək imkanları həm geniş, həm də əlverişli deyil. Birmənalı olaraq qeyd etmək olar ki, internet sürətinin çox aşağı olması, “spam” lazımsız elektron məktubların göndərilməsi, şəxsi informasiyalardan sui istifadə edilməsi, kompüter viruslarının yayılması və.s. xüsusilə təhsil və digər biznes sahələrinə mənfi təsir göstərir. Bunu pandemiya dövründə yaranan çətinliklərdən də görmək mümkün idi. Bundan əlavə internet resurslarından istifadə imkanlarına konkret olaraq nəzarət sisteminin çox zəif olması səbəbindən bu sahədə neqativ hallara tez-tez rast gəlmək mümkün olur. Deməli daha yüksək texnoloji yeniliklərin ölkəyə gətirilməsinə və daha yaxşı nəzarət sisteminin qurulmasına ehtiyac vardır. Bu bəzi biznes subyektlərinin internet üzərindən neqativ təsirlərinin qarşısını almış olar. Həm də nəzərə

almaq lazımdır ki, çox yüksək texnologiyaların qiymətlərinin baha olası maliyyə imkanları baxımından kiçik və orta müəssisələr üçün çətinliklər yaradır. Ona görə də, sahibkarların xarici rəqabətdə uduzmaması üçün dövlətin maliyyə imkanlarından dəstək almasına ehtiyacı vardır. Müasir reallıqda biznes subyektlərinin, dövlət müəssisələrinin və eləcə də insanların internet resurslarından istifadə məqsədlərinə fikir verilsə, onlayn rejmində qarşılıqlı əlaqələrin qurulması imkanlarından daha çox istifadə edilməsini görmək mümkündür. Faiz nisbətində bu əlaqələr daha sürətlə artmaqdadır. Biznes subyektləri elektron biznes imkanlarından faydalanaraq mal və xidmətlərin reklamını və hərəkətini, məhsulun bazardakı rəqabətə davamlılığının öyrənilməsini, sifarişin qəbulunu, malın daşınması və çatdırılmasını, istehsalçı və istehlakçı arasında hesablaşmaların həyata keçirilməsini yerləşmə məkanından asılı olmayaraq internet üzərindən təşkil edir. Burada əmtəə və xidmətlərin sifarişi, satışı və ya bu barədə məlumatların axtarılması, dövlət orqanları ilə əlaqələrin yaradılması, pullu oyunların və musiqilərin yüklənilməsi kimi hərəkətlər daha çox qeydə alınır. Bunu aşağıda verilən diaqram məlumatlarından da görmək mümkündür.

İnternet istifadəçilərinin internetdən istifadə məqsədlərinin stukturu
(yekuna nisbətən faizlə)




Mənbə: Dövlət Statistika Komitəsinin materialları. Bakı- 2021

Əmtəə və xidmətlər, elcə də idman və işlə bağlı real vaxt rejmində internetdən istifadənin daha yüksək olması biznes imkanlarından istifadənin yaxşılaşdırılması ilə bağlıdır. Hesab etmək olar ki, ölkədə onlayn rejmində fəaliyyətin son dövrlərdə artmasına daha çox pandemiya şəraiti səbəb olmuşdur. Vəziyyətə uyğun olaraq yeni biznes imkanlarının axtarıb tapılması istehsalçı və istehlakçı arasında rəqəmsal texnologiyaların tətbiqini daha da sürətləndirəcək, xalq təsərrüfatının bütün sahələrinə bərabər şəkildə nüfuz edəcəkdir.

Müasir şəraitdə ölkə iqtisadiyyatının qarşısında duran əsas hədəflərindən biri də ölkənin iqtisadi maraqlarının qorunması məqsədilə xalq təsərrüfatının bütün sahələrinin rəqəmsallaşması, texnoloji müstəqilliyin və təhlükəsizliyinin təmin olunması ilə rəqabət qabiliyyətinin yüksəldilməsidir. Bunun üçün sahənin müvafiq qanunvericilik bazasının daha da təkmilləşdirilməsi zəruridir.

**Zamanov Fizuli**
**dosent**
**Hacızadə İlkana**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**fizuliz@list.ru**
**ilkanahacizade@mail.ru**

## Müasir dünyanın turizm bazarında rəqəmsal rəqabətin otel biznesinə təsiri

Turizm bazarının iştirakçılarından biri də otel biznesi ilə məşğul olan turizm subyektləridir. Müasir dövrdə elmi-texniki nailiyyətlərin sürətli inkişafı otel biznesinə də öz təsirini göstərmişdir. Müasir otellərin idarəetmə sistemləri dünya təcrübəsi nəzərə alınmaqla qurulmuşdur. Otellərin idarə edilməsi üçün informasiya proqramları öz proqram məhsullarını daima təzələyir və eləcə də öz istifadəçiləri üçün sistemin yeni versiyasını təyin edirlər və standart proqram məhsullarından istifadə etməyə üstünlük verirlər. Bu proqram təminatçılarının rəqabət üstünlüklərini formalaşdırır. Funksional məsələləri əhatə edən modulların formalaşması iş rejimini də avtomatlaşdırır və idarəetməni asanlaşdırır. Hazırda daxili turizm bazarında standart avtomatlaşdırmanın həyata keçirilməsi prosesi özündə ilkin mərhələ olaraq ofis proqramlarının, hazır məlumat bazalarının, eyni zamanda tərcümə, mühasibat, maliyyə proqramlarının, sənədlərinin idarəetmə sistemlərinin tətbiqini və habelə CAMO-TYP, AMADEUS, GALILEO, GABRIEL, SABRE, TURWIN, MULTIPRO WORLDSPAN, MASTER TUR kimi qlobal bronlaşdırma sistemlərinin tətbiqini birləşdirir.

Rəqəmsallaşdırmaya keçidin arxasında davamlı, geniş, faydalı kontent dayanır. Faydalı kontentlərdən və avtomatlaşdırılmış sistemdən istifadə marketinq xərclərini də azaldır. Dünyada ilk dəfə rezervasiya işlərini internet üzərindən aparan ilk otel “Hilton” oteli olmuşdur. Müasir dövrdə turistlər getmək istədikləri şəhərin adını yazmaqla belə müxtəlif otellər tapa və internet üzərindən bron edə bilirlər. onlayn platformalar vasitəsi ilə otelə getmədən otaqların şəkillərini, qiymətlərini, otel ətrafındakı əraziləri rahatlıqla görmək olur və ən əsası digər otellərlə müqayisə edə bilib, orada istirahət etmiş insanların fikirlərini oxuya bilərlər. Həmin onlayn platformalara Booking.com, Hotels Combined, Agoda.com, Tripadvisor, Hotels.com daxildir. Hazırda dünyanın bir çox ölkələrində yayılan əsas 4 bronlaşdırma növü vardır. İlk öncə Avropa və Cənubi Amerika turizm bazarlarında liderlik edən Amadeus sistemi eyni zamanda Asiya və Afrika bazarlarında da qabaqcıl yerləri tutmaqdadır. Daha sonra “American Airlines” aviaşirkəti tərəfindən yaradılan Sabre sistemi, Worldspan sistemi, Avropa, Amerika, Asiya, Afrika ölkələrində istifadə edilən Qalileo sistemi əsas yeri tutmaqdadır. Qeyd edilən proqram təminatları funksionallığına görə bir-birindən fərqlənirlər. Hər proqram təminatının xüsusi özəllikləri mövcuddur. Funksionallıq artdıqca xidmətlərin qiymətləri yüksəlir. Ona görə də otel biznesi ilə məşğul olan subyektlər maliyyə imkanlarını nəzərə alaraq daha bahalı proqram təminatlarından istifadə edə bilmirlər. Bundan əlavə iri otellər rəqəmsal rəqabətdə üstün mövqeyə malik olması məqsədi ilə rəqəmsal texnologiyaların daha geniş imkanlarından istifadəyə maraq göstərirlər. Buna misal olaraq iri otellər öz daxilində kiçik maliyyə xidmətlərini (valyuta dəyişmə, digər sifarişlərin onlayn verilməsi və.s.) təqdim edirlər.

Rusiya bazarındakı otellərin idarə edilməsi üçün Smarthotel, Fidelio, Edeilweiss və 1C otel proqramlarından istifadə edilir. Eyni zamanda MDB ölkələrinin istifadə etdiyi əsas proqramlar 1C və Amadeus PMS proqramıdır və bu proqram 18 dili dəstəkləyir. Qərbdəki əksər otellər rəqabətin və texnoloji tərəqqinin daha da artması üçün tez-tez idarəetmə proqramlarını dəyişirlər. Ən populyar olan Qərb sistemləri - Micros Fidelio, Lodging Touch LIBICA, Hospitality Enterprise Resource Planning Cenium, Epitome PMS, OPERA-dır.Qərb otel proqram təminatçıları uzaqdan istifadə üçün xüsusi hazırlanmış PMS-lərinin bir versiyasına sahibdirlər. Bu sistemlər İnternet texnologiyaları əsasında həyata keçirilə bilir və ya internetin olmadığı şəraitdə tətbiqi mümkün olmur. Rusiyada bu məhsullar KEI Hotel və

Nimeta sistemləri ilə təmsil olunur. Otel tərəfindən rabitə xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulmuş proqramlaşdırılan avtomatik telefon stansiyaları Alcatel, NEC, Defmity, Meridian, GDX, Bosch, Panasonic kimi markalar əhatə edir. ATS-də otellər üçün xüsusi bir proqramlar, nəzarət funksiyalarını dəstəkləyir. Eyni zamanda fiksasiya ilə zənglərin onlayn hesablanmasını həyata keçirə bilirlər. Elektron kilidlər getdikcə populyarlaşır. Bu sahədəki ən məşhur sistemlər Amerika VingCard, İsveç Timelox, İspaniyanın TESA və İtalyan CISA'dır.

Artıq dünyanın bir çox otel şəbəkələrində rəqəmsal mühit mövcuddur. Bu otellərdən biridə insanların marağına səbəb olan İsrailin aparıcı qonaqpərvərlik brendi Dan Hotels tərəfindən dəstəklənən yeni və innovativ otel olan “LINK hotel & hub”dır. Tel-Əviv küçə sənətini və rəqəmsal otel təcrübəsini birləşdirən bu otel minillik auditoriyaları hədəfləyən qapılar açır. Bütün otel xidmətləri innovativ və hərtərəfli LINKApp vasitəsilə həyata keçirilir ki, bu da qonaqlara rahatlıq asanlığı və bir düymə ilə dərhal nəzarət təklif edir. Onlar ənənəvi otellərə xas olan bir çox proseduru ləğv ediblər: nağd əməliyyatlar yoxdur, xidmət heyətləri 50-dən çox danışıq dillərindən ibarətdir və hər kəsin hər şeyi etdiyi 24/7 saat rejimi var. Qeyd edək ki, Azərbaycanın Turizm Agentliyi 2020 ilin mart ayında İsraillə birgə əməkdaşlıq sayəsində Tel-Əvivdə özünün turizm üzrə nümayəndəliyini açmışdır ki, bu da rəqəmsal texnologiyaların ölkəmizdə otel biznesinin beynəlxalq təcrübəyə əsaslanaraq inkişafına xidmət edəcəkdir.

**Zamanov Fizuli**
**dosent**
**Rəhmanzadə Jalə**
**magistrant**
**fizuliz@list.ru**
**jalarahmanr@gmail.com**
**Lənkəran Dövlət Universiteti**

## Regionlarda kiçik və orta sahibkar subyektlərin biznes fəaliyyətinin yaxşılaşdırılmasına rəqəmsallaşmanın təsiri

Ölkə regionlarınlarının iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsi, eyni zamanda regionlarda kiçik və orta biznes subyektlərinin (KOB) xüsusi çəkisinin artırılması, onların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dəstək mexanizminin təkmilləşdirilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi və sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması, bütövlükdə ölkə iqtisadiyyatının diversifikasiyası və davamlı inkişafının təmin edilməsi istiqamətində dövlət siyasətinin əsas hədəflərindəndir.

Regionların iqtisadi həyatında yerinə yetirilən islahatlar, o cümlədən vergi güzəştlərinin (xüsusilə pandemiya dövründə) tətbiqi, daxili istehsalın dəstəklənməsi, güzəştli kreditlərə bütün sahibkarlar üçün əlçatanlığın təmin edilməsi və maliyyə dəstəyindən istifadə ilə bağlı proseslərin sadələşdirilməsi kiçik və orta sahibkar subyektlərinin bilavasitə marağında olan məsələdir.

Son illərdə məlum (pandemiya) səbəbindən bütün dünyada olduğu kimi ölkəmizdə də biznes subyektlərinin fəaliyyətində ciddi geriləmələr müşahidə edilmişdir. Bunu aşağıdakı dioqram məlumatlarından da görmək mümkündür.

Şəkil 1




Mənbə: Dövlət Statistika Komitəsi, Bakı – 2021

Statistik materiallardan və aparılan müşahidələrdən məlum olur ki, 2019-2020 illərdə ölkə üzrə göstərilən ticarət və nəqliyyat xidmətlərin dəyəri 4092 və 4993 mln. manat təşkil etdiyi halda informasiya və rabitə sahəsində bu rəqəm 818,1 və 705,3 mln. manat həcmində olmuşdur. Nəticələrin azalmasına bir səbəb pandemiya şəraiti olmuşdursa da, digər bir səbəb isə biznes subyektlərinin rəqəmsal texnologiyalardan kifayət qədər səmərəli istifadə edə bilmək bacarığının olmamasıdır. Fəaliyyətlərini düzgün qura bilməyən kiçik və orta təsərrüfat subyekləri rəqabət mühitinə tablaşmayaraq tarixin səhifələrinə qovuşmuşdur. Həmçinin, qeyd edilən dövrdə kiçik və orta sahibkar subyektlərinin strukturundada azalma müşahidə edilmişdir. Bunu şəkil 2 görmək mümkündür. Bütövlükdə həm ölkə, həm də regionlar üzrə 2019 ilə nisbətdə 2020 ildə kiçik və orta sahibkarların ümumilikdə sayında azalma qedə alınmışdır.

Şəkil 2.




Mənbə: Dövlət Statistika Komitəsi, Bakı – 2021

Hazırki şəraitdə ölkə üzrə fəaliyyətdə olan kiçik və orta biznes subyektlərinin yerləşmə strukturuna da nəzər salsaq yenə də fərqli bir mənzərənin şahidi oluruq. Belə ki, 2020 ildə regionlar üzrə KOB-ların faiz nisbətində həcmi 52,4 % olduğu halda təkcə Bakı şəhəri üzrə bu rəqəm 47,6 % təşkil etmişdir. Bu isə bir daha onu deməyə əsas verir ki, regionlara nisbətdə Bakı şəhərində KOB-ların fəaliyyəti üçün hər cür normal infrastruktur mövcuddur. Regionlarda rəqəmsal texnologiyaların istifadə imkanlarının yaxşılaşdırılmasına dövlətin maliyyə dəstəyinin yaxşılaşdırılması eyni zamanda regional infrastrukturun gücləndirilməsi istiqamətində mühüm addım kimi qəbul edilə bilər.

**Zamanov Fizuli**
**dosent**
**Rzazadə Rəşad**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**fizuliz@list.ru**
**rashad.rzazada@mail.ru**

**Otel biznesində innovativliyin yüksəldilməsinə rəqəmsallaşmanın təsiri və reallıqlar**

Müasir turizm cəmiyyətin bütün sahələrinə təsir etmək gücünə malik olan iqtisadiyyatın ən unikal sahələrindən biri kimi qiymətləndirilir. Məhz bu səbəbdən turizmin inkişafı prosesində nəinki turizm sahəsinin təmsilçiləri, eləcə də cəmiyyətinin bütün üzvləri iştirak edə bilirlər. Dünyanın daim dəyişən və yenilənən düzənində iqtisadi maraqların daha üstün mövqe tutması turizm müəssisələrinin biznes maraqlarının qorunmasını və "sağ qalmaq" şanslarından istifadəsini obyektiv zərurətə çevirir. Yeni texnoloji nailiyyətlərin tətbiqi və rəqabətə uyğunlaşma istəkləri bu gün bütün turizm sənayesində xüsusilə, otelçilik sahəsində fəaliyyət göstərən müəssisələr üçün əlçatan deyildir. Müasir dövrdə turizm sahəsində yaranan fasilədən sonra (pandemiya) otel müəssisələri öz məhsullarını turizm bazarının tələblərinə uyğun olaraq reallaşdırmaq uğrunda imkanlarını daha da artırmaq niyyətində olduqlarını fərq etdirəcəkdir. Bu daha çox pandemiyadan sonra daxili bazar payını artırmaq arzusunda olan otel müəssisələri arasında rəqabəti daha da artıracaqdır. Məlumdur ki, turizm sənayesində fəaliyyət göstərən müəssisələrin turməhsulun hazırlanmasında öz xüsusi payı olsa da, məhsulun reallaşmasından əldə olunana gəlir payı eyni səviyədə deyildir. Ona görə də, hər bir təsərrüfat subyektinin müasir innovasiyalardan istifadə imkanları fərqlidir.

Müasir dünya və eləcə də ölkə turizmində durğunluqdan sonrakı mövqelərinin genişləndirilməsi meyilləri rəqəmsal texnologiyaların tətbiqinə ciddi maraq yaratmaqdadır. Lakin, rəqəmsal rəqabətin artdığı bir vaxtda ölkədə fəaliyyət göstərən əksər turizm müəssisələri yeniliklərin tətbiqində uduzurlar və ya maliyyə imkanlarının aşağı olması səbəbindən rəqəmsal rəqabətə girə bilmirlər. Hazırki şəraitdə ölkədə xüsusilə, regionlarda otel müəssisələrinin bir çoxlarının internet saytları istifadəçilər üçün əlçatan olmadığından və ya müəyyən olunan standartlar səviyyəsindən aşağı olduğundan axtarış sistemlərinin tələblərini ödəmir. Həmçinin, region otellərin veb səhifələrinin təqdim etdiyi xidmətlərin marketinqi peşəkar-ixtisaslı mütəxəssislər tərəfindən yönəldilmədiyi üçün müştəri cəlbediciliyində ciddi problemlərlə üz-üzə dayanırlar. Bu isə onların maliyyə imkanlarını getdikcə zəiflədir, yeniliyə maraqlarını itirir. Yalnız ümidlərini mövsümə bağlayan bu tip otellər rəqabət aparmaq arzusunda belə olmurlar və ya buna hazır deyillər. Proqram təminatçılarının, turoperatorların, iri otellərin, ixtisaslı mütəxəssislərin cəmləndiyi, bir sözlə turizmin inkişafı üçün əlverişli infrastrukturun mövcud olduğu paytaxt Bakıda rəqəmsal texnologiyalardan istifadə imkanlarının nisbətən geniş olması otel müəssisələri arasında rəqabəti artırır. Araşdırmalar göstərir ki, rəqəmsallaşmanın sürətlə artdığı bir dövrdə Azərbaycanda ötən bir il ərzində turizmlə bağlı müxtəlif xarici ölkələrdən milyonlarla axtarış qeydə alınıb. Lakin axtarışların çox hissəsində istifadəçilər axtardıqlarına cavab tapa bilmədikləri üçün saytı tərk etməli olublar.

Qeyd edək ki, ölkədəki əksər otel müəssisələrinin axtarış sistemləri beynəlxalq tələblərə cavab vermir və ya müasir texnoloji nailiyyətlərdən istifadə etmək imkanına malik deyillər. Axtarış saytlarını nəticəsiz tərk edən ziyarətçi isə itirilmiş şans kimi qəbul edilməlidir. Azərbaycanın otel təsərrüfatlarında rəqəmsal rəqabətin artması tətbiq edilən texnoloji nailiyyətlərin imkanlarından və onların maliyyə vəziyyətindən bilavasitə asılıdır. Texnoloji üstünlükləri ilə seçilən, geniş imkanlara malik olan və Avropa turizm bazarında geniş tətbiq edilən müasir rəqəmsal texnologiyalar çox baha oduğundan belə proqramların ölkənin otel təsərrüfatlarında tətbiqi bir o qədər də real görünmür. Yalnız dünyanın iri otel şəbəkələrinin ölkə daxilindəki nümayəndəlikləri belə şəbəkə texnologiyalardan istifadə edə bilir. Ölkəmizin

otel təsərrüfatında tətbiq edilən CRM (Müştərilərlə Əlaqələrin İdarəetmə Sistemləri) sistemlərinə Opera, Fidelio, Edelweiss, Nimeta, 1C və.s. daxil etmək olar. Digər bir proqram Otel İdarəetmə Sistemi (otel) və ya PMS (əmlak idarəetmə sistemi) bir bulud adlanır. Ayrıca gündəlik əməliyyatları optimallaşdırmağa və davranışları sürətləndirməyə imkan verir. MDB məkanında ən geniş tətbiq edilən rəqəmsal sistem "1C otel"-dir. Fidelio Otel İdarəetmə Sistemi Alman istehsal məhsulu olsa da, Rusiya da Fidelio otel və restoran sistemlərini (HRS) təqdim edir. Otellərdə rəqəmsal texnologiyaların tətbiqi aşağıdakı üstünlükəri əmələ gətirir:

- Bütün şöbələrin fəaliyyəti bir informasiya sistemində cəmləşməklə məlumatları birləşdirir və bu idarəetməni asanlaşdırır;
- Otel ehtiyatlarının xəclənməsinə, şifarişlərin qəbulu və ödənişlərə, həmçinin mühasibat uçotunun aparılmasına nəzarəti təmin edir;
- Bütün hesab məlumatlarını vahid bir sistemə daxil edir;
- Qonaqların qəbulunda vaxt itkilərini minimuma endirir;
- Otel personalının işini təşkil etməklə işçilər üçün hərəkət giriş sahələrini məhdudlaşdırır;
- İşin təhlükəsizliyini artırmaq məqsədilə video nəzarət sistemindən istifadəni təmin edir;
- Otelin ayrı-ayrı təsərrüfat şöbələri arasında daxili rabitəni təmin edir və sənəd dövriyəsini sürətləndirir və.s.

Azərbaycanın rəqəmsal texnologiyalar bazarında otel müəssisələrinə proqramların tətbiqini həyata keçirən "Makrom", "Tərəzi" və digər şirkətlərdir. Bəzi hallarda otel müəssisələri mövcud rəqəmsal texnologiyaların tətbiqini daxılı şirkətlərə etibar etmədiyindən xarici şirkətlərə müraciət edirlər. Lakin, sistemdə hər hansı çatışmazlıqlar yarandıqda təkrar xarici şirkətlərə üz tutmaq çətinlikləri meydana gəlir. Həmçinin, belə proqramları istifadə edə bilən mütəxəssislər də çox deyil. Hesab etmək olar ki, ən azı bu səbəbdən ölkədaxili şirkətlərin xidmətlərindən istifadə etmək daha məqsədəuyğundur.

Məlumdur ki, ölkənin turizm potensialından səmərəli istifadəni təmin edən səbəblərdən biri də regionların turizm ehtiyatlarından effektiv istifadə təşkil edir. Regionların otel fəliyyətində rəqəmsal texnoloğiyaların tətbiqində meydana gələn çətinliklər aşağıdakılarla bağlıdır:

- Hazırki şəraitdə ölkə regionlarının təbiəti, mətbəxi, adət-ənənələri, tarixi yerləri, yerləşmə müəssisələri ilə bağlı yazılı və video məlumatların sayının azlıq təşkil etməsi;
- Mövcud məlumatların beynəlxalq standartların tələbinə uyğun yığılmadığı üçün internet şəbəkələri tərəfindən qeydə alına bilinməməsi;
- Yüksək proqram təminatının olmaması səbəbindən mümkün məlumatların digər dillərə tərcümə və səsləndirilmə sistemlərinin olmaması;
- Hazırlanan məlumat materialları digər müəssisələrin məlumatlarını təkrar etdiyindən axtarış sistemlərində üzə çıxması və onların nüfuzuna xələl gətirməsi.

Hesab edirik ki, gələcəkdə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsi olduqca vacibdir. Rəqəmsal texnologiyalardan istifadədə dövlətin maliyyə dəstəyindən otel təsərrüfatlarının istifadəsinə əlverişli imkanların yaradılmasına böyük ehtiyac vardır.

**Elvin Alirzayev**
**PhD in economics**
**Turan Khalidova**
**lecturer**
**Academy of State Customs Committee**
**UNEC**
**elvin.alirzayev@ascca.edu.az**
**khalidovaturan@gmail.com**

## The formulation of digital economy in azerbaijan

**Abstract**

Digital economy is considered as a highest development level of ICT which impacts on economic prosperity. Banking sector functioning as medium in this process needs to be developed firstly. We have taken digitalization level of banking services as proxy for digital economy for Azerbaijan. We concluded that number of ATMs in overall economy and precisely in the rural areas steeply increased in recent years which can be considered as good level of digital economy. Besides, banking payment systems especially in salary, pensions, rent, government and corporation related payments covered all economy in Azerbaijan. Furthermore, New Generation POS / Smart Cashier installed in all service spheres. Additionally, mobile POS launched by few banks which support digital economy in this regard.

**Keywords:** digital economy, banking systems, cashless payments

### Introduction

The digital economy is an economy that is based on digital computing technologies, but is often perceived as conducting business through e-markets. The digital economy run by billions worldwide of everyday online connections among people and businesses. Digitalization of economies will bring new products, services, jobs, company types and even markets. The idea of digital economy is via spreading ICT across all business sectors to enhance its productivity. As future of work, digital economy brings more efficient business model reducing cost of marketing, distribution and other economic factors. COVID-19 pandemic itself has given to businesses chance to improve economic model more efficiently and resulted in deepening in digital economy. pandemic has pushed remote working to the fore. Especially post-COVID pandemic status is contributing to the digital economy.

### The phenomena of digital economy

Digital economy is a result of switching from the third to the fourth industrial revolution. Third industrial revolution, so-called the digital revolution, refers to the changes with the transition from analog electronic and mechanical devices to digital technologies happened in the late 20th century. The fourth industrial revolution is built on the digital revolution as technologies today try to bridge the physical and cyberworlds. In 2016, the Digital Economy represented $11.5 trillion, or 15.5% of global GDP. It is noteworthy that the digital economy had grown two and a half times faster than global GDP over the previous 15 years, almost doubling since 2000.

### Global experience

Most of the value in the digital economy was produced in only a few economies: United States (35%), China (13%) and Japan (8%). The EU together with Iceland, Liechtenstein and Norway accounted for another 25%. According to UNCTAD Digital Economy Report 2021, only 20% of people in least developed countries have access to internet with relatively low speeds and with relatively high cost. In comparison, up to 8 out of 10 internet users shop online in most developed countries, while less than 1 out of 10 in many LDCs. Furthermore, there are significant disbalances between rural and urban areas, as well as between men and women within countries. There are mainly two countries, United States and China front run and mostly benefit from data-driven digital economy. They hold half the hyperscale data centers and almost 90 % of the market capitalization of the largest digital platforms in the world. From economic sight internet banking level, purchasing and selling

goods or services online for developed economies is relevantly high, whereas online banking and trade indicators are too low for Transition and African countries. However, developing economies of Asia significantly thriving.

**Current status and perspective of digital economic background in azerbaijan**

One of the key improvements in digital economic filed is launching Anipay (Instant Payment System) program since 2018. Anipay was established by the Central Bank within the framework of the "State Program on Expansion of Digital Payments in the Republic of Azerbaijan in 2018-2020" approved by the Order of the President of the Republic of Azerbaijan dated September 26, 2018. Anipay (**AÖS**) provides digital payment habits in society and increases cashless circulation in the economy, as well as innovative payment solutions. The main purpose of establishing Anipay is to ensure that payments can be made at any time, all year round between individuals and legal entities who are customers of banks and other non-bank payment service providers in Azerbaijan, as well as between these individuals and government agencies up to 40 thousand AZN per transaction [3]. The Government Payment Portal (GPP) has also been integrated into the Anipay to ensure that budget, utilities, communications, penalties, insurance and other payments are collected from a single platform. Thus, legal entities and individuals have the opportunity to pay for more than 1,000 services provided by organizations through the Anipay.

As a new obligation since 2022 by State Tax Service under the Ministry of Economy of Azerbaijan Republic, businesses should get New Generation POS / Smart Cashier. In addition to the traditional POS-terminal function, this device combines a smart cash register and many additional features. Running on a modern Android platform, these devices, equipped with touchscreen, have the features like using one device for a fiscal online cash register and for a POS-terminal, also obtaining sales turnover reports. Two state-owned banks very recently launched new Mobile POS service to legal entities and individual entrepreneurs for the first time in Azerbaijan. Kapital Bank and Azerturk Bank have launched jointly with the State Tax Service under the Ministry of Economy, the service will now allow entrepreneurs besides the traditional POS-terminal to accept payments from cards, smart watches, stickers and other contactless payment methods via smartphones. Number of ATMs functioning in the regions accounted 1347 which was 425 in 2006. Counts of ATMs in the region more than tripled in this time period. In 2016, after double devaluation in the economy, number of ATMs decreased by 60 in the region and 180 in Baku comparing this previous year. As of 2022, there are 2908 ATMs run by 26 banks in the country. Till 2015 number of ATMs increased year by year but aftermath of devaluation impact on banking services could only reach the same level after 2019. The number also continued to decrease in 2017. In 2020 total newly added ATMs in the country realized 68, whereas 8 of them happened in the regions and 60 of them were in Baku. However, in 2021 new ATMs added in the economy realized 193, whereas 61 of them happened in the regions and 132 of them were in Baku.

**Conclusion**

As a result of improvements in digitalization in all sectors of the economy, banking system also expanded and not only in capital Baku, but in the regions as well in recent years. However, negative impact of 2015 economic downturn can be easily seen in spreading of banking sector. The number of total ATMs in the economy as well as how many in Baku and the regions since 2006 till nowadays. The number of total ATMs shows us first phase of digitalization as all payments transact via banking system including salary, pensions, rent, government payments, corporate payments and receivers want to withdraw it immediately or whenever they need. Each year more than 100 ATMs added on overall economy till 2016, and in that year existing 240 ATMs were even shut down. In 2021 increase level of ATMs counts is more than previous year meaning that pandemic situation almost over.

## “REGİONLARDA RƏQƏMSAL MALİYYƏ XİDMƏTLƏRİNİN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ” BÖLMƏSİ

**Ağayev Asəf**
**dosent**
**Əlili Xanur**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**agayev.asf@mail.ru**
**xanuralili13@gmail.com**

### Regionların istehsal və xidmət müəssisələrinin idarəetmə sistemlərində daxili auditin rolu

Regionlarda istehsal və xidmət müəssisələrinin idarəetmə sistemlərində daxili auditin aparılması davamlı yaxşılaşdırmanı təmin edən ən geniş yayılmış alətlərdən biridir. Bütün beynəlxalq idarəetmə sistemi onları tətbiq edən müəssisə və təşkilatlardan planlaşdırılmış vaxt intervallarında idarəetmə sisteminin daxili auditinin keçirilməsini tələb edir.

Regionlarda istehsal və xidmət müəssisələrinin idarəetmə sistemlərində daxili auditin məqsədi təşkilatın bütün səviyyələrində fəaliyyətlərin səmərəliliyinin yoxlanılmasını, bu fəaliyyətlərin qanunvericiliyin, beynəlxalq standartların və təşkilatın özünün müəyyən etdiyi tələblərə uyğunluğunun qiymətləndirilməsini, eləcə də təşkilatın idarəetmə strukturlarına effektiv nəzarətin həyata keçirilməsini təmin etməkdən ibarətdir.

Özünün inkişafının ilk mərhələsində daxili auditin rolu maliyyə idarəetməsinin məqsədləri, vəsaitlərin qorunmasının təmin edilməsi ilə müəyyən olunurdu və müəssisələrdə kiçik qruplar səviyyəsində ümumi nəzarətin təşkil edilməsindən ibarət idi. Sonrakı dövrlərdə daxili auditorların diqqəti idarəetmə sistemlərinin öz məqsədlərinə necə nail olmasına, eyni zamanda, onların nə dərəcədə səmərəli təşkil olunmasının və təkmilləşdirmə sahəsində nə kimi işlər aparılmasının təhlilinə yönəldilmişdir. Daxili audit müəssisə və təşkilatın tərkibində müstəqil struktur bölməsi və ya Beynəlxalq konfransın materialları vahidi kimi fəaliyyət göstərir və daxili nəzarət orqanı olmaqla, yalnız müəssisənin rəhbərinə və ya direktorlar şurasına tabedir, onun tələb etdiyi məsələləri araşdıraraq, nəticələri haqqında yalnız ona hesabat verir.

Müəssisələrdə daxili audit mərhələsinə aşağıdakılar aiddir:

1. Təsərrüfat əməliyyatlarının qanunauyğunluğunu yoxlamaq;
2. Audit sübutlarını əldə etmək;
3. Alınan məlumatların təhlili, tədqiq olunan obyektin modelini yaratmaq;
4. Auditor rəyini hazırlamaq və idarəetmə informasiyalarını təqdim etmək.

Daxili audit xidmətinin əsas uğur amillərinə aşağıdakıları göstərmək olar:

1. Obyektivlik, məxfilik və tamlıq.

Daxili audit qərəzsiz olmalı və öz fəaliyyətini müdaxilədən kənar şəkildə həyata keçirməlidir. Daxili auditor öz vəzifələrini həyata keçirərkən əldə etdiyi məlumatların qorunmasında və istifadəsində sayıq olmalı və bu məlumatları şəxsi maraqlar üçün və ya təşkilatın məqsədlərinə zərər verəcək şəkildə istifadə etməməlidir.

2. Effektiv audit ab-havasının yaradılması.

Effektiv audit ab-havasının yaradılmasının əsas şərtlərindən biri ünsiyyətli audit komandasının olması və struktur bölmələri ilə səmərəli qarşılıqlı əlaqənin yaradılmasıdır. Məhz bu baxımdan, başqalarına nümunə olmaq, “peşəkar” ofis ab-havası yaratmaq və işçilərin sərbəst fikir söyləməsinə imkan yaratmaq mühüm şərtlərdir.

3. Təşkilatda bütün biznes proseslərinin dərk edilməsi.

Təşkilatın hər bir əməkdaşı daxili nəzarətin həyata keçirilməsində iştirak etdiyindən, rotasiya sistemi daxili auditorların peşəkar kadr kimi yetişdirilməsində böyük rola malikdir. Bu cür yanaşma kiçik təşkilatlarda daha effektiv ola bilər.

4. Peşəkarlıq, davamlı araşdırma və öyrənmə.

Daxili auditorlar audit keçirilən obyekt haqqında əldə etdikləri məlumatları qiymətləndirərkən peşəkarlıq nümayiş etdirmək üçün aldıqları bilikləri, təcrübəni tətbiq etməyi bacarmalı, daim effektiv audit metodlarından istifadə etməlidirlər.

Daxili audit xidməti regionlarda istehsal və xidmət müəssisələri sahələrindən asılı olaraq müxtəlif formalarda yaradılsa da, məqsəd eynidir və mövcud əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir. Regionlarda istehsal və xidmət müəssisələrinin daxili audit xidmətinin funksiyalarını ümumi olaraq dörd qrupa ayırmaq olar:

1. Nəzarət-yoxlama;
2. Məlumat-analitik;
3. Metodoloji;
4. Məsləhət.

Regionlarda istehsal və xidmət müəssisələri daxili audit bölməsi özünün vəzifələrini yerinə yetirməklə yanaşı, daxili audit informasiyalarından istifadə edən müxtəlif qrupların tələbatlarına da cavab verməlidir.

Regionlarda istehsal və xidmət sahələrindən asılı olmayaraq, daxili audi xidməti yaradılarkən aşağıdakı prinsiplərə riayət edilməlidir:

- daxili auditin yaranmasına təsir göstərən amillər;
- daxili audit nəzarətinin həyata keçiriləcəyi subyektlər;
- daxili audit nəzarətinin təşkili forması;
- daxili audit fəaliyyətinin nizama salınması;
- təsərrüfatdaxili subyektlərlə daxili audit xidmətinin qarşılıqlı münasibətləri.

Nəticə etibarilə qeyd etmək lazımdır ki, daxili auditin tələb olunan səviyyədə təşkil olunması region müəsisənin tərkibində fəaliyyət göstərən digər bölmə və şöbələri, maddi-məsul şəxslərin öz xidməti vəzifələrinin yerinə yetirilməsi məsuliyyətini artırmaqla, təsərrüfat əməliyyatlarının icrasında neqativ halların qarşısının alınmasında mühüm rol oynayır. Bunlardan başqa daxili audit kənar audit üçün bir sıra əsaslı məsələlərdə informasiya mənbəyi olmaqla, mövcud qanunçuluğun gözlənilməsində böyük əhəmiyyəti vardır. Daxili audit bir qayda olaraq müəssisə aktivlərinin dəyərinin müstəqil qiymətləndirilməsinə imkan verməklə, rəhbərliyə və nəzarət orqanlarına xidmət nöqteyi-nəzərindən qiymətləndirmə və təhlil keçirir, daxili nəzarətin səmərəliliyini artırır. Təsərrüfat subyektində daxili auditin tətbiqi nəticəsində idarəetməyə böyük diqqət; riskin qiymətləndirilməsinin təkmilləşmiş metodları; qanun pozuntusu hallarının azalması; səmərəliyin artması; vəsaitlərə qənaət olunması; maliyyə hesabatlarının yüksək etibarlılığı və aktivlərin qorunması kimi nəticələr əldə edilir.

**Ağayev Asəf**
**dosent**
**Baxşalıyeva Zərifə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**agayev.asf@mail.ru**
**zerifebaxseliyeva02@gail.com**

## Respublikamızda büdcə siyasətinin reallaşdırılmasına rəqəmsal texnologiyaların təsiri

Dövlət büdcəsi dövlətin mərkəzləşdirilmiş pul vəsaitlərindən istifadə etməklə pul fondların yaradılması və istifadəsinin əsas maliyyə planıdır. Büdcə mühüm bir maliyyə

mənbəyi olmaqla yanaşı eyni zamanda dövlət və bələdiyyələrin ayrılmaz tərkib hissəsidir.Büdcədən istifadə etməklə dövlət və yerli özünüidarəetmə orqanları öz üzərlərinə düşən vəzifə və funksiyalarını həyata keçirirlər. Dövlət büdcəsinin tərkibinə gəlirlər və xərclər bölməsidə daxildir.

Hər bir dövlət büdcəsinin öz mənbələri, məqsədi, həcmi və yerinə yetirdiyi funksiyalar mövcuddur. Büdcə maliyyə sisteminin tərkib hissəsi olan iqtisadi kateqoriya olmaqla yanaşı, eyni zamanda maliyyə funksiyalarını özündə əks etdirir. Büdcə əsasən aşağıda qeyd edilən funksiyaları reallaşdırır:

- ümumi daxili məhsulun təkrar istifadəsi ilə əlaqədar yenidən bölgüsü;
- dövlətin sosial siyasəti inkişafının maliyyə təminatı;
- iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və həvəsləndirilməsi;
- mərkəzləşdirilmiş pul vəsaitlərindən istifadə etməklə pul vəsaiti fondlarının yaradılması və istifadəsi üzərində nəzarət.

"Büdcə sistemi haqqında" ilk qanun 1992-ci ilin 1 dekabrında qəbul edilmiş və 2002-ci ilə qədər mövcud olmuşdur. Zaman keçdikcə "Büdcə sistemi haqqında"qanuna kömək məqsədilə və yaranan ehtiyaclarla bağlı bır sıra dəyişiklik edilmişdir. 1999-cu il 18 may tarixində "Büdcə sistemi haqqında" xüsusi qanun qəbul edildiyi zaman digəri öz əhəmiyyətini nisbətən itirməyə başladı. İki qanunun paralel olaraq qüvvədə olması boşluqların aradan qaldırılmasına, həmçinin daha üstün hüquqi-normativ sənədin əhəmiyyətini aşkara çıxartdı. Ümumiyyətlə "Büdcə sistemi haqqında qanunun sonraki illərdə yenisi ilə əvəz olunması büdcə məsrəfləri, mənfəətin idarə edilməsi və dünyada baş verən proseslərə uyğunlaşma məqsədi daşıyır.

Dövlətin büdcə siyasətinin mahiyyəti büdcənin əsası olan gəlir və xərclərin, həmçinin büdcə kəsirinin idarə edilməsi ilə əlaqədar dövlət tərəfindən həyata keçirilən tədbirlərin məcmusudur. Büdcə siyasəti "Büdcə sistemi haqqında"Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Konstitusiyası, o cümlədən, bununla əlaqədar ayrı-ayrı qanunvericilik aktları ilə müəyyən edilir.

Ölkədə iqtisadi inkişafının və sosial sabitliyin təmin edilməsi məqsədilə qəbul ediləcək qərarlar və həyata keçiriləcək büdcə siyasəti ölkədə iqtisadi sabitliyin saxlanılmasına, inflyasiyanın aşağı salınmasına ,eyni zamanda iqtisadi islahatların inkişafına təkan verməlidir. Bu halda islahatların ilkin nəticəsi olaraq əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi təmin olunmalıdır.

Son zamanlarda inkişaf etməkdə olan texnologiyalar, sosial-demoqrafik dəyişikliklər və iqtisadi qeyri-müəyyənliklə əlaqədar iqtisadi münasibətlərdə ciddi dəyişikliklər olacağı gözlənilir. Belə ki, rəqəmsallaşma maliyyə sahəsindəki əməliyyatlara da müsbət təsirini göstərir. Ölkəmizdə bu istiqamətlə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2018-ci ilin 26 sentyabr tarixli sərəncamı ilə "2018-2020 ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə dövlət proqramı" təsdiq edilib. Bu Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulmuş tədbirlərin icrası və icra göstəricilərinə nail olmaq məqsədilə hazırlanmışdır.

Rəqəmsallaşma ilə bağlı dövlət proqramında göstərilir ki, qeyd edilən tədbirlərin həyata keçirilməsi nəticəsində iqtisadiyyatda şəffaflıq artacaq, vergidən yayınma halları azalacaq, elektron ticarətin həcmi böyüyəcək və s. Bütün bunlar Azərbaycanda iqtisadiyyatın nağdsızlaşmasını sürətləndirəcək və nəticədə real ÜDM-un və dövlət büdcəsi gəlirlərinin artmasına əhalinin həyat səviyyəsinin yüksəlməsinə ciddi töhfə verəcəkdir.

Qeyd edilənlərdən bu nəticəyə gəlmək olar ki, rəqəmsallaşmanın iqtisadiyyatın bütün sahələrinə, o cümlədən dövlət büdcəsinə tətbiqi büdcə siyasətinin həyata kecilirməsində yeni texnika, texnologiyaların və informasiya resurslarının İEÖ və beylənxalq təcrübələrə uyğunlaşdırılmasına təkan verəcəkdir.

**Ağayev Asəf**
**dosent**
**İsayeva Lalə**
**magistrant**
**Azərbaycan memarlıq və inşaat universiteti**
**Lənkəran Dövlət Universiteti**
**agayev.asf@mail.ru**
**lalabdullayeva080@gmail.com**

## Bank auditinin təşkili və regionlarda bankların fəaliyyətinin səmərəliliyinə təsiri

Dünya ölkələrinin iqtisadiyyatının inkişaf tarixi sübut edir ki, auditin meydana gəlməsi obyektiv səbəblərlə bağlıdır. Hər şeydən əvvəl bu səbəblər təsərrüfatın, iqtisadiyyatın tarixi inkişaf prosesi ilə bağlı olmuşdur. İqtisadiyyat inkişaf etdikcə, onun idarə olunmasında operativliyə ehtiyac artdıqca, idarəetmədə dəqiq məlumatların əldə olunması və onların əhəmiyyətinin yüksəlməsi auditin zəruriliyini şərtləndirmişdir. Çox hallarda mülkiyyət sahiblərinin maraqları ilə, onların tabeçiliyində çalışan uçot–hesabat işçilərinin maraqlarının üst-üstə düşməməsi auditin meydana gəlməsinə səbəb olmuşdur. Eyni zamanda sıravi uçot işçilərinin və həmçinin investorların əldə olunan məlumat əsasında vəziyyəti kifayət dərəcədə qiymətləndirə bilməməsi auditi zəruri etmişdir.

Qeyd etmək lazımdır ki, auditin mühüm əhəmiyyət kəsb edən, özünəməxsus xüsusiyyətlərə malik növlərindən biri bank auditidir. Bank auditinin məqsədi kredit təşkilatının mühasibat (maliyyə) hesabatının düzgünlüyünün yoxlanılması, kredit təşkilatı tərəfindən aparılan əməliyyatların ölkədə qüvvədə olan qanunvericiliyin tələblərinə uyğunlaşdırılmasıdır. Bu məqsədin yerinə yetirilməsi ayrı–ayrılıqda hər bir kredit təşkilatının və bütövlükdə ölkənin bank sisteminin etibarlığının yüksəlməsi, dayanıqlığının möhkəmlənməsi, sabit fəaliyyət şəraitinin yaradılması, icra edilən əməliyyatların keyfiyyətinin və səmərəliliyinin artırılmasına xidmət edir.

Kredit təşkilatlarında formasından asılı olmayaraq həyata keçirilən audit aşağıdakı vəzifələri yerinə yetirir:

- kredit təşkilatının maliyyə–təsərrüfat fəaliyyətinin təhlilinin həyata keçirilməsi;
- kredit təşkilatının aktiv və passivlərinin formalaşmasının və quruluşunun təhlili;
- kredit təşkilatının aktiv əməliyyatlarının təhlili;
- vəsaitlərin səmərəli yerləşdirilməsinin yoxlanması baxımından kredit təşkilatının ödəmə qabiliyyətinin, likvidliyinin təhlil olunması;
- kredit təşkilatının maliyyə–təsərrüfat fəaliyyətinin nəticələrinin proqnozlaşdırılması;
- kredit təşkilatının maliyyə fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi, onun dayanıqlığının və likvidliyinin artırılması üzrə tövsiyələrin hazırlanması;
- kredit təşkilatında mühasibat uçotunun dəqiq qurulması və onun təkmilləşdirilməsi;
- kredit təşkilatı əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
- kredit təşkilatının fəaliyyəti ilə bağlı olan maliyyə, vergi, bank qanunvericiliyinin və digər uyğun qanunvericilik aktları barədə məsləhətlərin verilməsi;
- auditor firmalarının fəaliyyətinə dair digər növ xidmətlərin göstərilməsi.

Daxili audit işinin məqsəd və vəzifələri əsasən daxili audit bölməsindən bankın aşağıdakı sahələrdə fəaliyyətinin yoxlanılmasını, qiymətləndirilməsini və müvafiq hesabatların verilməsini tələb edir:

- Qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə və AMB-nin normativ xarakterli aktlarına və göstərişlərinə riayət olunması;
- Risklərin tənzimlənməsi və idarə edilməsi;
- Daxili nəzarət sisteminin mövcud olması;
- Yeni bank əməliyyatlarının, sistemlərinin və proseslərinin hazırlanmasında və tətbiqində keyfiyyət prosedurları;

- Bank aktivlərinin qorunması üzrə sistem və prosedurlar;
- Uçot məlumatlarının adekvatlığını və düzgünlüyünü təmin etmək üçün sistem və prosedurlar.

Regionlarda yerləşən banklarda audit yoxlamasının aparılması müəyyən audit proqramı əsasında həyata keçirilir. Banklarda səmərəliliyin artırılmasında audit yoxlamalarının aparılması mühim əhəmiyyət kəsb edir. Audit proqramı bankın Maliyyə-təftiş komissiyası və Müşahidə şurası tərəfindən təsdiq edilməli və müntəzəm surətdə nəzərdən keçirilməlidir. O, yazılı formada olmalı və auditin məqsədlərini əks etdirməli və kifayət qədər geniş miqyasda olmalıdır. Yoxlamları hər bir sahə üzrə ətraflı iş proqramlarına malik olan proqramda zəruri audit işinin aydın və dəqiq təsviri olmalı, habelə işin miqyasından asılı olaraq bankın ayrı-ayrı departamentlərində konkret əməliyyatların yoxlanılması prosedurаları göstərilməlidir. Proqramda nəzərdə tutulan proseduralar, digər amillərlə yanaşı bank əməliyyatlarının həcmindən və mürəkkəbliyindən asılı olaraq dəyişdirilə bilər.

**Ağayeva Könül**
**dosent**
**Qulamzadə Allahşükür**
**magistrant**
**Azərbaycan memarlıq və inşaat universiteti**
**Lənkəran Dövlət Universiteti**
**konul.aghayeva@gmail.com**
**allahsukurqulamzad@gmail.com**

## Maliyyə böhranlarının mahiyyəti, strukturu və səbəbləri

Maliyyə böhranı fond bazarlarında müəyyən vəziyyəti xarakterizə edən müxtəlif maliyyə alətlərinin kəskin azalmasıdır. Bu fenomenlərin əksəriyyəti bank problemləri və bu vəziyyətdə meydana gələn çaxnaşma ilə əlaqələndirilir.

Maliyyə böhranları çağdaş iqtisadiyyatın önəmli və maraqlı aspektlərindən birini təşkil edir. İqtisadçı alimlərin fikrinə görə ilk maliyyə böhranı 1716-1720-ci illərdə Fransada şotland əsilli Con Lonun qurduğu maliyyə piramidası nəticəsində baş vermişdir. O dövrdən maliyyə böhranları nəinki azalmır, ildən-ilə artır.

Maliyyə böhranının tərifinə əsaslanaraq, yerli və xarici müəlliflərin elmi araşdırmalarında maliyyə qeyri-sabitliyinin yaranması və inkişafının dəqiq çərçivəsinin müəyyənləşdirilməsinə dair vahid yanaşmanın olmadığını əminliklə sübut etmək olar. Maliyyə böhranı anlayışı o qədər genişdir ki, onun mahiyyətini dəqiq müəyyənləşdirmək mümkün deyil.

Bəzi iqtisadçı alimlər maliyyə böhranı anlayışını dövlətin maliyyə-kredit mexanizmlərinin böhranlı vəziyyəti kimi göstərmişlər.

İqtisadi ədəbiyyatlarda maliyyə böhranına iki baxış növü mövcuddur. Monetaristlər adətən maliyyə böhranını bank çaxnaşması ilə əlaqələndirirlər və iqtisadi fəallığın zəifləməsinə səbəb olan pul təklifinin məhdudlaşdırılması ilə bağlı problemlərin əsas mənbəyini məhz onda görürlər. Onlar maliyyə böhranını yalnız bank çaxnaşmasına və pul təklifinin azalmasına gətirib çıxardan hadisə kimi müzakirə edirlər. Monetaristlərdən fərqli olaraq Kindlebergerin və Minskinin əsərlərində aktivlərin qiymətlərinin kəskin aşağı düşməsi, iri bank və firmaların müflisləşməsi, valyuta bazarında deflyasiya, qeyrisabitlik və ya mənfi hadisələrin bir-bir ilə əlaqələnməsi daxil olmaqla maliyyə böhranının daha geniş tərifi verilir. Bu neokeynsianlıq cərəyanının nümayəndələri maliyyə böhranı zamanı ondan çıxmaq məqsədilə dövlətin müdaxiləsinin genişləndirilməsini təklif edirlər. Monetaristlərin maliyyə

böhranına baxışı həddindən artıq məhduddur, çünki onlar böhranı bank çaxnaşması və onun pul təklifinə təsiri ilə əlaqələndirirlər.

Maliyyə böhranının strukturu aşağıdakı komponentlərdən ibarətdir:

1. Valyuta böhranı milli valyutanın devalvasiyasına səbəb olur;
2. Bank böhranı bir və ya bir neçə bankın müflisləşməsi ölkədə ödəmə böhranını yaradır və onun fonunda da iqtisadiyyatda bankların müflisləşmə epidemiyası yayılır;
3. Borc böhranı daxili və ya xarici borc probleminin kəskinləşməsi ilə əlaqədardır;
4. fond böhranı qiymətli kağızların, özəlliklə səhmlərin bazar dəyərinin sürətlə düşməsi.

Bütün maliyyə böhranlarının özünəməxsus səbəbləri və xüsusiyyətləri vardır. Əksər tədqiqatçılar maliyyə böhranlarının aşağıdakı səbəblərini göstərirlər:

- Böhrandan əvvəl bazarda baş verən panika;
- Mərkəzi bankların siyasəti;
- Spekulyativ əməliyyatlar (P. Kruqman, İMF-in direktoru Dominik Stross-Kan);
- Mənfəətin yüksək həddinin saxlanılması məqsədilə riskli əməliyyatların həyata keçirilməsi (İngiltərə Bankının icraçı direktoru Piter Cey);
- XX yüzilliyin sonunda əksər investisiya banklarının mülkiyyət formasını dəyişdirib, tərəfdaşlıqdan səhmdar şirkətlərə keçmələri və bununla da xaricdən daha çox kapital cəlb etmələri. Bunun nəticəsində bu banklar London, Dubay, Sinqapur və Moskvada öz filiallarını açmışlar.
- Mürəkkəb struktura malik olan maliyyə aktivlərinin ədalətli qiymətlərinin qeyri-müəyyənliyi;
- İnflyasiya;
- Böyük kredit ekspansiyası;
- Ticarət şəraitinin pisləşməsi;
- Maliyyə bazarlarının liberallaşması.

Maliyyə böhranlarının səbəbləri təkcə iqtisadi qeyri-sabitliyi deyil, həm də qlobal kapital axınlarını təhrik edir.

Fikrimizcə maliyyə böhranlarını real sektorda baş verən iqtisadi böhranlardan fərqləndirmək lazımdır, çünki onların əsas səbəbləri də, sosial nəticələri də müxtəlifdir. Real sektorun böhranı daha təhlükəlidir.

**Ağayeva Könül**
**dosent**
**Təhməzov Murad**
**müəllim**
**Nəzərli Elməddin**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**konul.aghayeva@gmail.com**
**murad.tahmazov.97@mail.ru**
**elmenezeroff98@gmail.com**

## Fintekin (FinTech) maliyyə sektoruna inteqrasiyası və inkişafı

Texnoloji imkanların genişlənməsi maliyyə institutlarının müştərilərlə münasibətlərini yeni keyfiyyət müstəvisinə yüksəltmiş, ənənəvi biznes modellərinin modernləşdirilməsi üçün əlavə stimullar yaratmış və yeni bazarların formalaşmasına təkan vermişdir. İnternet və mobil rabitədən istifadənin genişlənməsi ənənəvi maliyyə xidmətlərinin alternativ kanallarla və yeni

bazar iştirakçıları tərəfindən daha aşağı xərc və yüksək sürətlə təklif edilməsi imkanlarını artırmışdır. Böyük istifadəçi auditoriyasına malik sosial şəbəkələr maliyyə xidmətləri istehlakçılarına banka müraciət etmədən birbaşa maliyyələşmə imkanı yaradan platformalar təqdim edir. Yol xəritəsində nəzərdə tutulan prioritet çərçivəsində ötən il "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" qəbul edilib. Bu proqramda qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün dörd inkişaf istiqaməti müəyyən olunub. Bunlar rəqəmsal ödənişlərin institusional mühitinin daha da yaxşılaşdırılması, bank sektorunun yenidən canlandırılması, rəqəmsal ekosistemin formalaşdırılması və rəqəmsal ödənişlər üzrə təbliğatın və maarifləndirmənin gücləndirilməsidir.

Ölkəmizin sürətli inkişafa meyilliliyinin yüksək olması yeni texnoloji dəyişikliklərin daha rahat mənimsənilməsi və geniş tətbiq olunmasını təmin edir. Bu da Azərbaycanın fintek sahəsinin inkişafı baxımından böyük potensiala sahib olduğunu düşünməyə imkan verir. Hazırda mövcud finteklərin dar spektrdə olması bu bazarda bir çox istiqamətdə finteklərin yaradılması perspektivinin mövcudluğunu göstərir.

Maliyyə texnologiyası və ya fintek (İng. FinTech) - maliyyə xidmətləri bazarında banklar və vasitəçilər kimi ənənəvi maliyyə qurumları ilə rəqabət aparmaq üçün texnologiya və yeniliklərdən istifadə edən şirkətlərdən ibarət bir sahədir. Fribourg İdarəetmə Məktəbinin professoru Patrick Schueffelə görə "Fintech, maliyyə fəaliyyətini yaxşılaşdırmaq üçün texnologiya tətbiq edən yeni bir maliyyə sənayesidir". Maliyyə və texnologiya sözlərinin birləşməsindən əmələ gələn və "Financial Technologies"in qısaltması olan Fin Tech son illərin ən trend terminlərindən biridir.

Maliyyə Texnologiyası mənasını verən Fin Tech, maliyyə sektorunu texnoloji sektoru ilə birləşdirir və nəticədə texnoloji aparat və proqram təminatı vasitəsi ilə ənənəvi maliyyə əməliyyatlarının aparıla biləcəyi inkişaf etmiş bir bank sistemi meydana gəlir. Əsas məqsədi maliyyə əməliyyatlarını daha sürətli və praktik etmək olan Fin Tech ilə bir filiala getmədən saniyələr içində onlarla fərqli bank əməliyyatı etmək mümkündür. Beləliklə, həm müştərilərin həyatı asanlaşır, həm də personalın iş yükü azalır.

Fin Tech (maliyyə texnologiyası) - maliyyə xidmətləri və şirkətlərə bir işin maliyyə aspektlərini idarə etməyə kömək edən texnologiyalar kimi xarakterizə edilir. Bunlara aşağıdakılar daxildir:

- proqram təminatı;
- tətbiqetmələr;
- proseslər;
- biznes modelləri.

Fin Tech eyni zamanda şirkətlərin müştərilərin fondları üçün ənənəvi maliyyə qurumları ilə rəqabət aparmaq üçün yeni maliyyə texnologiyaları və həllərindən istifadə etdiyi bir sənayeyə də işarə edir. Çox vaxt bunlar texnoloji startupları və xidmətlərini yaxşılaşdırmaq üçün fin tech alətlərindən istifadə edən şirkətlərdir.

Fin Tech texnologiyanın maliyyə sektoruna inteqrasiya olunması ilə maliyyə xidmətlərinin daha rahat, daha təhlükəsiz və daha sürətli həyata keçirilməsinə imkan verən bir innovasiyadır.

Fin Tech-in XXI əsrin məhsulu olduğunu qeyd etmək doğru olardı. Müqayisə üçün qeyd edək ki, ənənəvi bankçılıqda borcalma və borcvermə kimi ən sadə maliyyə əməliyyatları belə çox yavaş həyata keçirilir və uzun müddət tələb edir. Fin Tech sayəsində bu sadə əməliyyatlar daha sürətli həyata keçirilir.

Fin Tech ənənəvi bankçılıq əməliyyatlarından üstün bir anlayışdır. Maşın öyrənməsi (Machine Learning), davranış analizi və data mərkəzli marketinq kimi yeni texnologiyalar maliyyə sektorunda vacib rol oynamağa başlamışdır. Bu texnologiyaların ətrafındakı Fin Tech ekosistemini 4 fərqli qrup əmələ gətirir:

- Banklar və B2B;
- Müştərilər;

- Kiçik sahibkarlar və B2C;
- İstehlakçılar.

Real sektorda həm B2C (şirkət və müştərilər arasında əlaqələr), həm də B2B (şirkətin başqa şirkətlərlə əlaqələri) sahəsində ixtisaslaşmış texnoloji həllər tətbiq olunur. B2C əməliyyatlarından müştəri xidmətləri demək olar ki, bütünlükdə yeni texnoloji yeniliklərlə əhatə olunaraq çatbotlar vasitəsilə yerinə yetirilir. B2B əməliyyatları arasında idxal-ixrac prosedurları zamanı sənəd dövriyyəsi, vergi ödənişlərinin hesablanması və elektron formada ödənilməsi, beynəlxalq səviyyədə maliyyə tranzaksiyaların həyata keçirilməsi kimi prosedurlar süni intellekt və blokçeyn texnologiyalarının tətbiqi ilə avtomatlaşdırılıb.

Maliyyə bazarları finteklərinin qlobal trendlərinə misal olaraq mikro investisiya platformalarını, investisiya portfellərini idarə edən robo-advisorları (robot-məsləhətçilər), elektron brokerləri göstərmək olar. Süni intellektə əsaslanan mikro-investisiya platformaları və robo-advisorlar əsasən ABŞ bazarında tətbiq olunurlar. Robo-advisorlar ödənişlərin, kreditlərin və aktivlərin idarə olunmasını, investisiya istiqamətlərinin təyin olunmasını müştərinin risk tolerantlığı, gələcək planları və gəlir gözləntilərinə uyğun olaraq həyata keçirir.

Fintekin inkişafında ilk növbədə rəqəmsallaşmaya keçidin tam təmin olunmamasını qeyd etmək lazımdır. Müəyyən yanaşmalara görə fintekin inkişafının işsizliyin artmasına təkan verdiyi iddia olunur. Əlbəttə ki, daha az xərclə çox gəlir gətirən və stabil fəaliyyəti ilə dayanıqlılığı təmin edən süni intellektin tətbiqi insanlara ehtiyacı azaldır. Lakin realda süni intellektin tətbiqinin təsiri daha çox əmək resurslarının ixtisarı ilə deyil, yeni bazarların əhatə olunması və fəaliyyətin genişləndirilməsi ilə müşahidə olunur. Süni intellektin texniki əməliyyatları həyata keçirdiyi anda paralel olaraq insanlar daha spesifik, rasional deyil, emosional yanaşma tələb edən əməliyyatlara cəlb olunaraq texnologiya ilə tandem şəklində fəaliyyət göstərə və inkişafı daha da üst səviyyəyə apara bilərlər.

Azərbaycanda maliyyə texnologiyalarının tətbiqi ayrı-ayrı şirkətlərin, xüsusən bankların və sığorta şirkətlərinin təşəbbüsü ilə ildən-ilə daha çox artmaqdadır. Mobil və rəqəmsal bankçılıq demək olar ki, bütün banklar tərəfindən tətbiq olunur.

Hesab edirik ki, Fin Tech cəlbedicidir, çünki istifadəçinin problemlərini və ehtiyaclarını tez və minimal səylə həll edə bilər.

**Bədəlov Əlixan**
**dosent**
**Abbaszadə Mirsaleh**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirsaleh.abbasov99@gmail.com**
**alixan.badalov@mail.ru**

## Azərbaycan regionlarında auditin rəqəmsallaşması istiqamətləri

Azərbaycanda auditin inkşaf perspektivlərindən biri də auditin rəqəmsallaşmasıdır.Müasir dünyada informasiya axını sürətlə artır. Azərbaycan XXI əsrdə audit sahəsində kompüter texnologiyalarının,rəqəmsallaşma imkanlarından istifadəyə çox ciddi diqqət yetirir. Hazırki dövrdə informasiya axının sürətlənməsi, Covid 19 pandemiyasının yaratdığı problemlər audit sahəsində də kompüterləşmənin, rəqəmsal inkişafın aktuallığını daha da artırmışdır. Ölkəmizdə auditin avtomatlaşdırılması, rəqəmsallaşma meyllərinin artması bır sıra aşağıdakı faktorlarla bağlıdır.

- birinci faktor Azərbaycan iqtisadiyyatının sürətli inkişafı;

- ikinci faktor isə 2010-cu ildən etibarən milli audit standartlarının ləğvi və beynəxalq audit standartlarına keçid ilə bağlıdır.

Auditin rəqəmsallaşmasının vaxta qənaət kağızsız ofis modelinin inkişafı, maliyyə şəffaflığı, informasiyanın əlçatanlığının artması və s. kimi üstünlükləri vardır. Regionlarda bu istiqamətdə bir sıra problemlər mövcuddur ki, həmin problemlərə aşağıdakıları aid etmək olar:

- regionda İT bacarıqlarının kifayət qədər olmaması, yəni, auditin rəqəmsallaşmasının əsas təkanverici qüvvəsi məhz güclü İT bacarıqlarına sahib işçi qüvvəsinin regionda nisbətən zəif olması. Dünya təcrübəsi onu göstərirki, şirkətlər yeni texnologiyaların tətbiqini artırdıqca ixtisaslı kadr çatışmazlığı yaşanır. Xarici tədqiqatçıların apardığı ən son araşdırmalar nəticəsində əldə edilmiş məlumata görə şirkətlərin 54%-i rəqəmsallaşma məqsədlərinə çatmaqda onlara mane olan başlıca səbəb məhz ixtisaslı kadr problemini əsas gətirmişlər.

- dəqiq strategiyanın müəyyənləşdirilməməsi: Auditin Rəqəmsallaşması tranformasiyası istiqamətinin dəqiq müəyyənləşdirmədən onun inkişafını təmin etmək mümkün deyil. Ona görə də regionlarda konkret müəyyən edilmiş strategiyalar qurulmalıdır.

-Büdcə ilə bağlı məhdudiyyətlər: Dəqiq strategiyaların olmaması son nəticədə büdcənin dəqiq müəyyənləşdirilməsi imkanlarını məhdudlaşdırır və belə addım son nəticədə region müəssisələrində gəlirlərin azalmasına gətirib çıxarda bilər.

-Kiber hücumlar. Regionlarda auditin rəqəmsallaşmasının yarada biləcəyi ən böyük problem müasir dövrdə kiber hücum təhlükəsindən müdafiə imkanlarının zəif olmasıdır.

Qlobal dünyanın əsas trendlərindən olan rəqəmsallaşma auditin yeni forması olan rəqəmsal auditin yarandığını nəzərə alsaq Azərbaycanın regionlarında da auditin rəqəmsallaşmasının sürətli inkşafını təmin etmək auditin əsas perspektiv istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Fikirimizcə Azərbaycanın regionlarında sürətli inteqrasiyası fonunda auditin rəqəmsallaşdırılması prosesinin inkişafı üçün yuxarıda sadaladığımız problemlərin həlli vacibdir və bu istiqamətində aşağıdakı təkliflərimizi verə bilərik:

- regionlarda İT bacarıqlarının artırılması məqsədi ilə auditor təşkilatları öz daxili komandalarına rəqəmsallaşma, informasiya texnologiyaları üzrə ekspertləri vəproqram təminatı məsləhətçilərini cəlb etməli;

-region müəssisələrində mövcud olan işçi kontingenin bu sahə üzrə ixtisasartırma proqramlarına cəlb etmək, onlarla treninqlər keçirmək, xidmət təminatçısı olan kadrların inkişaf etdirilməsinə pulsuz proqram təminatını yaratmaq;

- regionlarda rəqəmsallaşmanın inkişafına ən ciddi təhdidlərdən biri də kiber hücumların baş vermə ehtimalıdır. Ona görə kiber hücumlardan müdafiə üçün ilk addım işçilərini bu barədə məlumatlandırmaq, göndərilən şübhəli linklərə daxil olmazdan əvvəl araşdırmaq onların gəldiyi e-mail ünvanları yoxlamağı izah etmək lazımdır və s.

Hesab edirik ki, auditin rəqəmsallaşdırılmasındakı mövcud problemlər öz effektiv həllini tapacaq və Azərbaycanın regionlarında auditin təkmilləşdirilməsi bu istiqamətdə öz həllini tapacaqdır.

**Bədəlov Əlixan**
**dosent**
**İmanov Mübariz**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**mubarizimanov999@gmail.com**

## Regionlarda maliyyə-rəqəmsal bankçılıq münasibətlərinin inkişafında dövlət proqramlarının rolu

Mütəxəssislərin fikrinə görə informasiya-kommunikasiya texnologiyalarının qlobal həcmi dinamik yüksəltməkdə davam edir. Beləki son 15-20 ildə yüksəliş 1,3 faizdən 3 faizə qədər artıb. Dünya ölkələrində dövlət və özəl sektorun birgə fəaliyyətinin effektivlik əmsalı nə qədər çoxdursa, texnoloji proqress də bir o qədər sürətli inkişaf edir. Elektron hökümətin maliyyə araşdırmalarına istinad edib qeyd edə bilərik ki, aparıcı dünya ölkələrində qlobal onlayn müraciətlərin böyük hissəsi – 50 faizi onlayn tranzaksiyaların, 24 faizi sığorta əməliyyatlarının, 20 faizi investisiya ilə əlaqədar əməliyyatların, 10 faizi kreditlərin, 10 faizi də digər maliyyə əməliyyatlarının payına düşür.

Dünyanın bir sıra ölkələrində insanlar bank xidmətlərinin çoxunu internet vasitəsi ilə əldə edirlər. Ölkəmizdə də bu istiqamətdə təxirəsalınmaz tədbirlər görülür. Lakin bunu da qeyd edək ki, respublikda bu cür xidmətlər inkişaf etmiş ölkələrdəki kimi deyildir. Bu istiqamətdə bəzi problemləri görmək mümkündür. Beləki, ölkəmizdə problemlərdən biri kimi əhalinin məlumatsızlığını qeyd etmək olar. Bu istiqamətdə maarifləndirmə sürətləndirilməlidir. Müştərilər xidmət aldığı bankların onlayn xidmət göstərdiklərini bilib bu xidmətdən yararlanmalıdırlar. Digər bir problem kimi psixoloji baryeri qeyd etmək olar. Yəni regionlarda insanlar bank xidmətlərini onlayn əldə etməyə öyrəncəli deyillər. Digər bir problem kimi regionlarda banklara güvənsizlik kimi bir münasibəti də qeyd etmək olar. Beləki 2015-ci ildə olan devalvasiya region əhalisində bu güvənsizliyi yaradırsa, digər tərəfdən 2012-ci ildə qanunvericilikdə bankların nizamnamə kapitalının 50 milyona qaldırılması ilə bağlı olan dəyişikliklərə görə bir çox banklar bağlanması da bu işdə onlara təsir etmişdir. Yəni qeyd edilənlər bank sisteminə olan inamın azalmasına səbəb olmuşdur. Digər bir problem kimi isə başa düşülməyən interfeysi göstərmək olar. Bankların bir onlayn platforma qurduğu zaman ən çox diqqət yetirilməsi vacib olan amillərdən biri asan başa düşülən interfeys yaratmaqdır. Belə ki, regionlarda yaşayan insanlar bu xidməti əldə etdiyi zaman sual maksimal dərəcədə yaranmamalı, müştərilər rahat şəkildə bütün operasiyaları tək başına yerinə yetirə bilməlidirlər.

Rəqəmsal bankçılıq ölkəmizdə ayrı fərdlər tərəfindən deyil, böyük şirkətlər tərəfindən daha çox istifadə edilir. Ancaq burda bir problem yaranır ki, orta və kiçik sahibkarlar üçün bu sistemi istifadə etmək əlverişli deyil. Belə ki, orta və kiçik sahibkarlar bütün tranzaksiyalarını virtual yolla yerinə yetirmədiyi üçün bu pulu gec-tez çəkmək məcburiyyətindədirlər. Hər dəfə pul çəkdikdə isə əlavə komissiya ödəməli olurlar.

Bu problemlərin aradan qaldırılmasına "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi", "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" və bunun kimi bir sıra dövlət proqramlarını uğurla həyata keçirməklə nail olmaq olar.

Digər tərəfdən insanları daha çox məlumatlandıraraq malliyyə-rəqəmsal bankçılıq münasibətlərinin inkişafını təmin etmək mümkündür. Bu istiqamətdə regionlarda stimullaşdırıcı kampaniyalar təşkil etmək məqsədəmüvafiq sayıla bilər. Qeyd edək ki, hər bir bank üçün müştəri qiymətlidir və onların hər birinə fərdi yanaşmaqla bu sahəni daha da inkişaf etdirmək mümkündür.

Nəzərə alaq ki, regionlarda pul köçürmələrinin həcmi onlayn maliyyə əməliyyatlarında üstünlük təşkil edir. Ölkədə maliyyə xidmətlərinə əlçatanlığın artırılması məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Azərpoçt”MMC və “Access Bank” QSC-nin birgə əməkdaşlığı çərçivəsində agent bankçılıq modelinin tətbiqinə start verilib. Regionlarda maliyyə inklüzivliyinin yüksəldilməsini hədəfləyən layihə Azərbaycan Respublikasının Mərkəzi Bankının təşəbbüsü və Beynəlxalq Maliyyə Korporasiyasının (İFC) dəstəyi ilə həyata keçirilir. Qeyd edək ki, layihə Azərbaycanda ilk dəfədir reallaşdırılır və agent bank funksiyasını “Azərpoçt” MMC həyata keçirəcək. Müqaviləyə əsasən, layihəyə “Azərpoçt”un ilk olaraq Ağdaş rayonundakı filialı qoşulacaq. Artıq mart ayından etibarən vətəndaşlar həmin poçt filialında bank əməliyyatlarını həyata keçirə biləcəklər. Müştərilərə ilk növbədə mikro və aqrokreditlər, həmçinin istehlak kreditləri və debit kartları təklif olunacaq.“Azərpoçt”MMC və “Access Bank” QSC arasında əldə olunmuş razılığa əsasən, bu il ərzində agent bankçılıq layihəsi daha bir neçə regionu əhatə edəcək. Layihənin reallaşması nəticəsində bank məhsulları və xidmətləri region sakinləri üçün daha əlçatan olacaq. Fikrimizcə belə layihələrin ölkənin bütün regionlarında reallaşdırmaq malliyyə-rəqəmsal bankçılıq münasibətlərinin inkişafını daha da sürətləndirəcəkdir.

**Bədəlov Əlixan**
**dosent**
**Quliyev Möhsüm**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**alixan.badalov@mail.ru**
**mohsum-quliyev@bk.ru**

## Regionlarda maliyyə idarəetməsinin rəqəmsallaşdırılmasının əhəmiyyəti

Rəqəmsallaşma dedikdə kağız daşıyıcılarındakı məlumatların minimallaşdırılması və onların elektronlaşdırılması başa düşülür. Müasir dövrümüzdə rəqəmsallaşdırma mümkün olan bütün sahələrdə tətbiq olunmaqdadır. Son zamanlar isə daha çox maliyyə, kənd təsərrüfatı və iqtisadiyyatın bir çox sahələrinə nüfuz etməyi dərinləşdirmişdir. Rus və xarici alimlərin çoxsaylı işləri müasir texnologiyaların və rəqəmsallaşma proseslərinin şirkətlərin maliyyə idarəçiliyinə artan təsirini təsdiqləyir. Bu tezisin məqsədi rəqəmsal iqtisadiyyatın maliyyə idarəçiliyinə müsbət təsirlərini öyrənməkdir.

Rəqəmsallaşdırmanın daxil olduğu sahələrdən biri də maliyyə idarəetməsidir. Maliyyə idarəetməsinin rəqəmsallaşdırılması regionların müəssələrinə bir sıra faydalar gətirə bilər. Bunun üstünlüklərdən biri də regionların müəssisələrində kağız sənədləri çap etmək və saxlamaq ehtiyacını aradan qaldırmasıdır. Rəqəmsal iqtisadiyyatda maliyyə idarəetməsi maliyyənin müxtəlif sahələrini özündə əks etdirir, region müəssisələrində inteqrasiya olunmuş bir yanaşma tələb edir. Regionların istehsal və xidmət müəssisələrində maliyyə və mühasibat uçotunun rəqəmsallaşdırılması bir sistem kimi proseslərin tam rəqəmsal transformasiyasını özündə birləşdirə bilər.

Müasir dünyada olduğu kimi regionlarımızda da kağız sənədləri lazımsız yük yaradır. Fiziki sənədlər asanlıqla yox ola bilir və məlumatların daxil edilməsi zamanı insan səhvi nəticəsində müəssisə əziyyət çəkir. Bu həm də işçilər fiziki sənədləri emal etdikcə səmərəliliyə təsir edir və aşağı dəyərli inzibati yükü artırır.

Regionların müəssisələrində maliyyə və mühasibat sənədlərinin idarə edilməsinin rəqəmsallaşdırılmasının aşağıdakı iki yolunu qeyd edə bilərik:

- kağız sənədlərin rəqəmsal formatlara çevrilməsini nəzərdə tutur (pdf kimi);

- müxtəlif mənşəli sənədin rəqəmsallaşdırılmasıdır. Bu, kağızdan istifadə edən mövcud proseslərin dəyişdirilməsini, müştərilərin, təchizatçıların və daxili şöbələrin müasir texnologiyalara köçürülməsini tələb edir.

Regionlarda rəqəmsal maliyyə idarəetməsinin üstünlüklərini aşağıdakı formalarda ümümiləşdirə bilərik:

- sərbəstlik;
- asanlıq və səmərəlilik;
- real vaxt rejimində məlumat əldə etmək;
- çeviklik;
- daha yaxşı qərar qəbul etmək;
- informasiyanın şəffaflığı;
- mobil işləmə;
- bərabərlik;
- ətraf mühitə uyğunluq.

Rəqəmsal maliyyə idarəetmə sistemi getdiyimiz hər yerdə bizimlədir. Gündəlik tapşırıqları yerinə yetirməyə, hesabatları bizə uyğun olan vaxta yoxlamamıza şərait yaradır. Sadəcə tək lazım olanlar internet bağlantısı, kompüter və ya mobil cihazdır. Bir çox işi smartfonlarda asanlıqla yerinə yetirə bilərik. Həmçinin də maliyyə idarəetmə vəzifələrini mühasiblərə həvalə etmək də daha asanlaşır.

Rəqəmsal maliyyə idarəçiliyi ilə sonsuz kağız yığınlarını unutmaq olar. Bir çox ümumi tapşırıqları daha sürətli və ya ümumiyyətlə avtomatlaşdırıla bilərik.

Maliyyə idarəetmə sistemlərində qeydə alınan bütün məlumatlara real vaxt rejimində baxmaq olar ki, bu da regionların iqtisadi subyektlərində idarəetmə qərarların qəbulunu dəstəkləmək üçün səmərəli istifadə oluna bilər.

Rəqəmsal kanallar rahat, çevik rabitə vasitələri sayıla bilər.

Bütün müvafiq maliyyə məlumatları asanlıqla əldə edildikdə, qərarlar və həllər faktlara əsaslanaraq daha rahat həll yolunu tapa bilir. Bu baxımdan regionlarda gələcək inkişafı proqnozlaşdırmaqda daha asanlaşır.

Məlumatın mövcudluğu və əlçatanlığı zəruri hallarda məhdudlaşdırıla bilər. Bu da təhlükəsizliyi təmin etmək və məlumatın həddindən artıq yüklənməsinin qarşısını almaq üçündür.

Rəqəmsal maliyyə idarəçiliyinə keçid mobil işi mümkün etməyə kömək edir. Bütün lazımi məlumat və alətlərə istənilən yerdən daxil olmaq mümkün olduqda, hamını eyni yerdə bir araya gətirməyə ehtiyac olmur. Bu, işin idarə edilməsi üçün yeni imkanlar açır və ayrı-ayrı işçilərin ehtiyaclarına uyğun olaraq işin təşkilinə imkan verir, rifahı və iş məmnunluğunu əhəmiyyətli dərəcədə yaxşılaşdırır.

Məlumatlara vaxtında əl çatanlıq işçilərin öz öhdəliklərini zamanında yerinə yetirməsinə və işçilər arasında məlumatları eyni anda qəbul etmə imkanı olması baxımından bərabərlik yaradır.

Rəqəmsal sistemlər kağız istehlakını və çap ehtiyaclarını azaldır. Məlumat rəqəmsal kanallar vasitəsilə paylandıqda fiziki tədarüklərə daha az ehtiyac yaranır. Bu həmçinin regionlarda nəqliyyatla bağlı emissiyaları azaltmağa kömək edir.

Belə nəticəyə gəlmək olar ki, regionların idarəetmə sistemində rəqəmsal maliyyə idarəetməsi iqtisadi fəaliyyəti yeni effektiv səviyyəyə çatdıra bilər. Beləki, rəqəmsallaşma sistemi regionlarda müəssisələrə öz funksiyalarını uzaqdan yerinə yetirməyə imkan verir. Bu halda iş prosesi işin keyfiyyətinə və əldə edilən nəticələrə təsir göstərmir. Rəqəmsallaşma həmçinin regionlarda maliyyə resurslarına maliyyə nəzarətini həyata keçirməyə imkan verir. Məsələn, daxili nəzarətin və ya "region-büdcə" maliyyə idarəetmə sisteminin effektivliyini artırmaq üçün rəqəmsallaşdırmadan bir alət kimi istifadə edilə bilər.

**Cəfərova Şəhla**
**dosent**
**Mahmudov Nurlan**
**magistrant**
**Azərbaycan Kooperasiya Universiteti**
**cafarovashehla@gmail.com**
**nurlanm@hotmail.com**

## Regionlarin iqtisadi inkişafinda istehsal müəssisələrinin uçotunun təşkili və informasiya təminatinin rolu

Məlumdur ki, regionların iqtisadi inkişafı istiqamətində istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsi və onlarda uçotun düzgün təşkili üçün lazım olan informasiyaların toplanması əsas şərtdir. Təbii ki, bütün məlumatların böyük nisbəti mühasibat uçotunda cəmləşmişdir. Hər bir funksional altsistem müəyyən nəzarət funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş öz tapşırıq kompleksləri və məlumat toplusuna malikdir. Odur ki, mühasibat uçotunun informasiya təminatı həm mühasibat uçotu şöbəsindən kənarda, həm də daxilində müxtəlif şöbələrdə yaranan çoxlu sayda müxtəlif ilkin sənədlər, habelə normativ və arayış sənədlərinin geniş istifadəsi ilə xarakterizə olunur.

Mühasibat uçotu məlumat sistemi müəssisənin maliyyə məlumatlarını toplamaq, saxlamaq, idarə etmək, emal etmək, əldə etmək , hesabat vermək üçün istifadə etdiyi strukturdur ki, ondan mühasiblər, məsləhətçilər, biznes analitikləri, menecerlər, aparıcı maliyyə işçiləri, auditorlar, vergi mütəxəssisləri tərəfindən geniş istifadə olunur. Mühasibat uçotu məlumat sistemi şirkətlər tərəfindən maliyyə məlumatlarını toplamaq, depolamaq, idarə etmək, emal etmək, əldə etmək və hesabat vermək üçün istifadə olunur ki, mühasiblər, məsləhətçilər, biznes analitikləri, menecerlər, maliyyə direktorları, auditorlar qiymətləndirmə apara bilər. Mühasibat uçotu informasiya sistemi mütəxəssislərin idarəetmə və maliyyə uçotu funksiyalarını yerinə yetirmələri üçün zəruri olan məlumatları əldə etmək üçün texniki vasitələr kompleksindən istifadə edən xüsusi məlumatların emalı metodlarından istifadə etməklə uçot məlumatı prosesinin avtomatlaşdırıldığı sistemdir. Belə ki, bütün müəssisələrdə olduğu qaydada istehsal müəssisələrində də mühasibat uçotunun əsas funksiyasından biri də analitik və sintetik informasiya (məlumatvermə) cəmləmək funksiyası mövcuddur ki, bu da şəffaflığın, nəzarətin, statistik məlumatların əldə edilməsində daxili və xarici istifadəçilər üçün də əhəmiyyətə malikdir.

Mühasibat uçotunun informasiya sisteminin əsasını informasiya təşkil edir - planlaşdırma, nəzarət, təhlil funksiyalarını yerinə yetirmək üçün labüd olan və idarəetmə qərarlarının qəbulu üçün əsas olan kəmiyyət məlumatlarının məcmusudur. Müasir iqtisadi şəraitdə müəssisənin səmərəli idarə edilməsi dinamik proses kimi böyük əhəmiyyət kəsb edir ki, bu da menecer tərəfindən müxtəlif informasiyalardan istifadə əsasında həm qeyri-rəsmi, həm də rəsmiləşdirilmiş idarəetmə üsullarının məharətlə tətbiqi olur. Vətən müharibəsində ordumuzun, xalqımızın Cənab Ali Baş Komandanımızla vəhdətli mübarizəsi düşməndən arındırılmış ərazilərimizdə yaradılan istehsal təşkilatlarında informasiya təhlükəsizliyi, hesabatlılığın kompüterləşdirilməsi, dövlətin elektron xidmət platformalarının sürətlə tətbiqini şərtləndirir.

Mürəkkəb sistem olan informasiya sistemi (İS) onun tərkibi fəaliyyət növündən və müəssisənin (subyektin) ölçüsündən asılıdır. İS-nin müasir elementlərinə (alt sistemlərinə) aşağıdakılar daxildir:

- istehsalın hazırlanması, idarə edilməsi, planlaşdırılması, maddi-texniki təchizatı və satışı (marketinqi);
- mühasibat uçotu;
- kadr məsələlərinin həlli.

Mühasibat uçotu məlumat sistem şirkət daxilindəki müxtəlif şöbələrin birlikdə işləməsinə kömək edir. Effektiv mühasibat uçotu məlumat sistemi məlumatları effektiv saxlamaq və əldə etmək üçün aparat və proqram təminatından istifadə edir. Bu məlumatlar daxili və xarici nəzarəti, şirkətin zəruri məlumatlarını qorumaq üçün çox vacibdir.

İstehsal müəssisələrinin avtomatlaşdırılmış informasiya sisteminin (AIS) verilənlər bazası üçün istifadə olunan kompüter dili olan strukturlaşdırılmış sorğu dili (SQL) kimi məlumatları yadda saxlamaq üçün verilənlər bazası strukturuna malik olmalıdır. SQL hesabat məqsədləri üçün AIS-də olan məlumatları idarə etməyə və əldə etməyə imkan verir. AIS, həmçinin müxtəlif istifadəçilərin və müxtəlif növ məlumatların ehtiyaclarını ödəmək üçün müxtəlif sistem istifadəçiləri və məlumatların daxil edilməsi üçün müxtəlif daxiletmə ekranlarına, habelə müxtəlif çıxış (çap) formatlarına malikdir.

AIS-in proqram komponenti şirkətin maliyyə məlumatlarını saxlamaq, əldə etmək, emal etmək və təhlil etmək üçün istifadə olunan kompüter proqramlarıdır. Kompüterlər mövcud olmamışdan əvvəl informasiya əl əməyi ilə, kağız əsaslı təhlil edilirdi, lakin bu gün əksər şirkətlər informasiyanın əlçatanlığının asanlaşdırılması fonunda kompüter proqramlarından istifadə edirlər.

İlkin dövrlərdə mühasibat məlumat sistemləri 1970-ci illərdə əmək haqqı funksiyaları üçün nəzərdə tutulmuşdu. Əvvəlcə mühasibat uçotu informasiya sistemləri paketləşdirilmiş (anbar,satış,istehsal,inzibati və s. kimi hissələr) həllər olmadığına görə "kustar" üsullarla işlənib hazırlanmışdı. Bu cür proqramların təmin edilməsi baha idi və onlara qulluq etmək lazım olduğu üçün bir çox mühasibat uçotu mütəxəssisləri kompüter əsaslı yox, əl əməyi ilə kağız daşıyıcıda yanaşmaya üstünlük verdilər. Bu gün mühasibat uçotu məlumat sistemləri daha çox Microsoft, Sage Group, SAP AG, 1C buxqalteriya, Azmühasib və Oracle Corporationkimi iri təchizatçıların qurulmuş proqram paketləri əsasında qurulur, eyni zamanda təşkilatın biznes proseslərinə uyğunlaşdırılmaq üçün konfiqurasiya edilir və istehsalat müəssisələrinin mühasibatına uyğun fərdiləşdirilir.

Mühasibat uçotu aparılan bütün təşkilatların fəaliyyəti üçün normativ hüquqi sənədlərin Ali qanunvericilik orqanına təkliflərin, iradların bildirilməsi istiqamətində, eyni zamanda hüquqi aktların tərtib olunması, yeni qanun layihələrinin qiymətlənsirilməsi istiqamətində Cənab Prezident İlham Əliyevin təşəbbüslərini xüsusi qeyd etmək lazımdır. Bakıda keçirilən müxtəlif görüşlərdə bu sahəyə olan marağın artırılması, inkişaf etmiş ölkərin tətbiq edilən texniki innovasiyaların gətirilməsi istiqamətində Möhtərəm Dövlət Başçımız öz iştirakı ilə dəfələrlə öz dəstəyini göstərmişdir.

**Əliyeva Aygün**
**dosent**
**Şıxiyev Novruz**
**magistrant**
**Sumqayıt Dövlət Universiteti**
**Azərbaycan Kooperasiya Universiteti**
**alizadaconi@gmail.com**
**wixiyevnovruz@gmail.com**

## Regionların iqtisadi inkişafında daxili auditin qiymətləndirilməsi və rolu

Ölkəmizin iqtisadi inkişafının müasir dövründə mühasibat uçotunun yeni iqtisadi çağırışlara müvafiq şəkildə inkişaf etdirilməsi mühüm əhəmiyyətə malikdir. 2025-ci ilədək olan dövrdə ölkə iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyən edən Strateji Yol Xəritəsində maliyyə və mühasibat uçotunun yeni iqtisadi inkişaf prioritetlərinə uyğunlaşdırılması məsələlərinə ciddi diqqət yetirilmişdir. Bunlar göstərir ki, mühasibat

uçotunun yeni iqtisadi inkişaf prioritetlərinə uyğun təşkil edilməsi ölkəmizdə regionların iqtisadi inkişafının məqsədəuyğun şəkildə yönləndirilməsində mühüm rol oynayır. Bu konteksdə ölkə Prezidenti İlham Əliyevin müasir dövrümüzdə iqtisadi inkişafa həsr olunmuş yığıncaqlarda mühasibat uçotunun və audit yoxlamanın günün tələbləri səviyyəsində təşkili və inkişafı barədə səsləndirdiyi fikirlər də bu məsələnin ciddiliyinin bariz nümunəsi kimi qəbul edilə bilər. O, son illərdə regionların iqtisadi inkişaf məsələlərinin təhlilinə dair çıxışlarında dəfələrlə uçotun və auditin vaxtında aparılmasına, həmçinin inkişafına toxunmuş və ölkənin iqtisadi inkişafının yeni hədəflərə yüksəldilməsində bu xidmətin mühüm əhəmiyyətə malik olduğunu vurğulamışdır.

Mühasibat uçotunun yeni iqtisadi inkişaf hədəflərinə uyğun təkmilləşdirilməsi məqsədi ilə 4 may 2018-ci ildə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa əhəmiyyətli dəyişikliklər edilmişdir. Qanuna əlavə edilmiş yeni müddəalar və aparılmış bir sıra dəyişikliklər mühasibat uçotunun inkişafında yeni istiqamətlərin açılmasına və onun iqtisadi inkişafın prioritet hədəflərinə uyğun harmonikləşdirilməsinə xidmət edir.

Mühasibat uçotunun inkişafı ilə bərabər onun müntəzəm olaraq yoxlanılması istiqamətləri də iqtisadiyyatın müxtəlif sahələrində daxili auditin tətbiq edilməsindən ibarətdir. Daxili audit – təsərrüfat subyektinin fəaliyyətinin inkişafına və səmərəliliyinin yüksəldilməsinə yönəldilmiş risklərin idarə olunması, nəzarət və idarəetmənin səmərəliliyinin qiymətləndirilməsi və inkişafına sistemli yanaşmaqla, təsərrüfat subyektinə öz məqsədlərinə nail olmaqda köməklik edən obyektiv, təminatverici və məsləhətverici fəaliyyətdir. Daxili audit müəssisənin daxili nəzarət sistemlərinin mütəmadi yoxlanılması prosesinin, habelə onun etibarlı idarə edilməsini və fəaliyyətini təmin edən daxili nəzarət sisteminin bir hissəsidir.

Daxili audit nəzarət sisteminin ilkin forması olmaqla, idarəetmənin əsas elementlərindən biri kimi mühüm əhəmiyyətə malikdir. Müəssisə, idarə və təşkilatların idarə olunmasında əhəmiyyətli rol oynayan daxili audit stabil iqtisadi inkişafa malik dünya dövlətlərində XIX əsrin sonlarından etibarən müxtəlif fəaliyyət növlü müəssisələrdə fəal tətbiq edilsə də, ölkəmizin iqtisadi həyatı üçün yeni bir anlayışdır. Daxili audit mühasibat uçotunun yoxlanılması, qiymətləndirilməsi və hesabat təqdim edilməsi üçün təsərrüfat subyektinin müdiriyyətinin yaratdığı daxili nəzarət sisteminin ayrılmaz və vacib elementidir.

Daxili audit başlıca olaraq müəssisə daxilində mal-material ehtiyatlarının itkisinin qarşısını almaq və bu məqsədlə lazımi tədbirlər görülməsi üçün zəruridir. Daxili audit vasitəsilə müəssisə aktivlərinin hərəkətinə, menecment siyasətinə və onun keyfiyyətinə nəzarət olunur.

Daxili audit aşağıdakıları əhatə edir:

1. Aktivlərin vəziyyətinə nəzarət və itkilərə yol verilməməsi;
2. Rəhbərliyin istifadə etdiyi informasiyanın dəqiqliyinin təsdiqi;
3. Sistemdaxili nəzarət prosedurlarının yerinə yetirilməsinin təsdiqi;
4. Daxili nəzarət və informasiyanın işlənməsinin səmərəliliyinin təhlili;
5. Daxili informasiya sisteminin verdiyi informasiyanın keyfiyyətinin qiymətləndirilməsi.

Daxili audit təsərrüfat subyekti rəhbərliyinin göstərişi ilə müəssisə və təşkilatın maliyyə-təsərrüfat fəaliyyətinin qanunvericiliyinə və qəbul edilmiş mühasibat uçotu qaydalarına uyğunluğunun və idarəetmə prinsiplərinin səmərəliliyinin müstəqil yoxlanılması sistemidir. Daxili audit müstəqil, təminatverici və məsləhətverici fəaliyyət olub, müəssisədə idarəetmə nəzarəti sisteminin ayrılmaz hissəsidir və onun məqsədi müəssisənin idarəetmə sisteminin səmərəliliyini qiymətləndirməkdir. Bu məqsədlə müəssisədə yaradılan daxili audit bölməsi tərəfindən mühasibat hesabatının düzgünlüyü, xərclər smetasının icrası və əmlakın qorunması üzərində nəzarətin həyata keçirilməsi, habelə istehsalın təşkili üsullarının, müxtəlif bölmələrin qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması sayəsində nail olunur. Daxili audit təkcə pozuntuların qeydə alınması və onların aradan qaldırılmasına nəzarətin həyata keçerilməsi ilə məhdudlaşmır. O, hər şeydən əvvəl aşkara çıxarılmış kənarlaşmaların səbəb-nəticə əlaqələrini müəyyənləşdirməklə, yoxlanılan obyektdə işlərin

yaxşılaşdırılmasına imkan verir. Daxili audit xidmətinin təşkil edilmədiyi müəssisə və təşkilatlarda nəticə etibarilə büdcəyə vergi ödənişlərində səhvlərə gətirib çıxaran mühasibat və vergi qanunvericiliyinin pozulması riski artır. Son dövrlərdə ölkədə sahibkarlıq fəaliyyətinə, milli istehsala, büdcə ilə bağlı məsələlərə və ümumiyyətlə, ölkə əhalisinin maddi rifah halının yaxşılaşdırılmasına kömək edə biləcək fəaliyyət sahələrinə diqqətin artırılması tez bir zamanda auditor xidmətinin və onun ünsürü olan daxili auditin geniş vüsət alması üçün yaxşı zəmin yaratmışdır. İnkişafın ilk mərhələsində daxili auditin rolu maliyyə idarəetməsinin məqsədləri vəsaitlərin qorunmasının təmin edilməsi ilə müəyyən olunurdu və müəssisələrdə kiçik qruplar səviyyəsində ümumi nəzarətin təşkil edilməsindən ibarət idi. Sonrakı dövrlərdə daxili auditorların diqqəti idarəetmə sistemlərinin öz məqsədlərinə necə nail olmasına, eyni zamanda onların nə dərəcədə səmərəli təşkil olunmasının və təkmilləşdirmə sahəsində nə kimi işlər aparılmasının təhlilinə yönəldilmişdir.

Daxili auditin məqsədi uçot siyasəti də daxil olmaqla, müəssisənin iqtisadi siyasətinə ekspert rəyinin verilməsindən və bütün struktur bölmələrinin həyata keçirdiyi müəsisədaxili nəzarətin səviyyəsinin qiymətləndirilməsindən ibarətdir. Başqa sözlə, daxili audit daha geniş və müasir anlaşılmada nəzarət xarakterli vəzifələrdən başqa, iqtisadi təhlil, maliyyə strategiyasının müəyyənləşdirilməsi, bazar münasibətlərinin araşdırılması, idarəetmə məsləhətləri vəzifələrini də geniş əhatə edir. Daxili audit təsərrüfat subyektinin rəhbərliyinin göstərişi ilə müəssisə və təşkilatın tərkibində onun daxili sənədləri ilə tənzimlənən maliyyə-təsərrüfat fəaliyyətinin qəbul olunmuş mühasibat uçotu qaydalarına uyğunluğunun və idarəetmə prinsiplərinin səmərəliliyinin yoxlanılması sistemidir. Daxili audit müəssisə və təşkilatların tərkibində müstəqil struktur bölməsi və ya ştat vahidi kimi fəaliyyət göstərir və daxili nəzarət orqanı olmaqla, yalnız müəssisənin rəhbərinə və ya direktorlar şurasına tabedir, onun tələb etdiyi məsələləri araşdıraraq nəticələri haqqında yalnız onlara hesabat verir. Daxili audit müəssisədə şəffaf informasiya mühiti yaratmaqla, onun fəaliyyətinin daha dərin və əsaslı təhlilinə, daha səmərəli fəaliyyət sistemi yaratmaqla şərait yaradır.

Deməli, regionların iqtisadi inkişafının yüksəlməsində hər bir müəssisə daxilində nəzarətin bütün növlərinin səmərəliliyinin artırılması və düzgün qiymətləndirilməsi yolu ilə daxili auditin fəaliyyətinin həyata keçirilməsi vacib şərtdir.

**Əliyeva Gülbəniz**
**dosent**
**Əhədova Nübar**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**ahadovanubar2@gmail.com**

## Rəqəmsal bankçılığın üstünlükləri

Ənənəvi bankçılıqdan rəqəmsal bankçılığa keçid tədricən davam edir və fərqli dərəcədə bank xidmətlərinin rəqəmsallaşdırılması ilə müəyyən edilir. Rəqəmsal bankçılıq yüksək səviyyədə avtomatlaşdırma və veb əsaslı xidmətləri əhatə edir və bank məhsulları çatdırmaq və əməliyyatlar təmin etmək üçün müəssisələrarası xidmət tərkibini təmin edən API-ləri əhatə edə bilər. İstifadəçilərin masa üstü vasitəsi ilə maliyyə məlumatlarına giriş imkanı təmin edir.

Rəqəmsal transformasiya müasir dövrümüzdə dünya biznesində yeni şərtlərlə uyğunlaşmaq üçün gedən qarşısı alınmaz bir prosesdir. Həm də müasir rəqəmsal texnologiyalar banklar üçün böyük imkanlar təklif edir. İnsanların ənənəvi bankçılığa olan bağlılığının azalmasının əsas səbəbi rəqəmsal bankçılıq sisteminin vaxt itkisinə yol vermədən, çox uzun növbələr gözləmədən, asan və rahat başa gəlməsidir, bir qədər də bəzi istiqamətlərdə

qənaət etmək imkanının yaradılmasıdır. Deməli, rəqəmsal bankçılığın əsas üstünlüyü məhz banka getmədən bank xidmətlərindən istifadə edə bilməkdir.

Rəqəmsal bankçılığın əsas üstünlükləri kimi aşağıdakıları qeyd edə bilərik:

1. Biznes səmərəliliyi. Rəqəmsal platformalar təkcə müştərilərlə qarşılıqlı əlaqəni yaxşılaşdırmır və onların ehtiyaclarını daha tez çatdırmır, həm də daxili funksiyaları daha səmərəli etmək üçün üsullar təqdim edir. Banklar onilliklər ərzində istehlakçılar üçün rəqəmsal texnologiyanın ön sıralarında olsalar da, məhsuldarlığı sürətləndirmək üçün ara proqramın bütün üstünlüklərini tam olaraq mənimsəməyiblər.

2. Xərclərə qənaət. Bankların xərcləri azaltmaq üçün açarlarından biri artıq əl əməyini əvəz edən avtomatlaşdırılmış proqramlardır. McKinsey & Company-ə görə, ənənəvi bank əməliyyatları baha başa gəlir, yavaşdır və insan səhvinə meyllidir. İnsanlara və kağıza güvənmək həm də ofis sahəsini tutur, bu da enerji və saxlama xərclərini artırır. Rəqəmsal platformalar gələcəkdə daha keyfiyyətli məlumatların sinerjisi və bazar dəyişikliklərinə daha sürətli reaksiya vasitəsilə xərcləri azalda bilər.

Aparılan araşdırmlara görə, bankirlərin 47%-i rəqəmsal bankçılıq vasitəsilə müştəri münasibətlərini yaxşılaşdırmaq potensialını, 44%-i bunu rəqabət üstünlüyü yaratmaq vasitəsi, 32%-i isə yeni müştəri əldə etmək üçün bir kanal kimi görür. Yalnız 16% xərclərə qənaət potensialını vurğuladı.

3. Artırılmış dəqiqlik. Əsasən kağız emalına arxalanan ənənəvi banklarda yenidən işləmə tələb edən 40%-ə qədər səhv nisbəti ola bilər. Filial və arxa ofis işçiləri arasında İT inteqrasiyasının olmaması ilə birlikdə bu problem biznesin səmərəliliyini azaldır. Maliyyə dəqiqliyi bankların hökumət qaydalarına riayət etməsi üçün çox vacibdir.

4. Təkmilləşdirilmiş rəqabət qabiliyyəti. Rəqəmsal həllər marketinq siyahılarını idarə etməyə kömək edir, banklara daha geniş bazarlara çıxmağa və texnologiyanı bilən istehlakçılarla daha sıx əlaqələr qurmağa imkan verir. CRM platformaları müştəri tarixçəsini izləyə və e-poçta və digər onlayn ünsiyyət formalarına sürətli çıxışı təmin edə bilər.

5. Daha çox çeviklik. Avtomatlaşdırmadan istifadə həm xarici, həm də daxili prosesləri sürətləndirə, hər ikisi müştəri məmnuniyyətini artıra bilər. 2008-ci ildə maliyyə bazarlarının dağılmasından sonra risklərin idarə edilməsinə daha çox diqqət yetirildi. Bankların risklərin idarə edilməsi üzrə mütəxəssisləri işə götürmək və onlara təlim keçmək əvəzinə, risklərin idarə edilməsi proqram təminatı hətta təcrübəli peşəkarlardan daha tez aşkar edib bazar dəyişikliklərinə reaksiya verə bilər. Rəqəmsal bankların əhəmiyyətli rəqabət üstünlüyü əldə edə biləcəyi açar daha möhkəm İT arxitekturasını inkişaf etdirməkdir. Manual back-ofis prosedurlarını avtomatlaşdırılmış proqram həlləri ilə əvəz etməklə banklar işçilərin səhvlərini azalda və prosesləri sürətləndirə bilərlər. Bu paradiqma dəyişikliyi daha kiçik əməliyyat bölmələrinə gətirib çıxara bilər və menecerlərə insan müdaxiləsini tələb edən tapşırıqları təkmilləşdirməyə imkan verə bilər.

6. Gücləndirilmiş təhlükəsizlik. Bütün böyük və ya kiçik bizneslər reputasiyaya xələl gətirə biləcək artan sayda kiber təhlükələrlə üzləşirlər. 2016-cı ilin fevral ayında Daxili Gəlir Xidməti bir neçə böyük texnoloji şirkət kimi əvvəlki ildə sındırıldığını elan etdi. Banklar məlumatları qorumaq üçün əlavə təhlükəsizlik qatlarından faydalana bilərlər. Təhlükəsizliyi və hökumət qaydalarına uyğunluğu təmin etmək üçün maliyyə institutları ən son texnologiyaların önündə olmalıdır.

Rəqəmsal bankçılığın inkişaf etməkdə olan formaları aşağıdakılardır:

– BaaS - Xidmət kimi Bankçılıq (üçüncü tərəfin inteqrasiyasına imkan verir);
– BaaP - Platforma kimi Bankçılıq (əsas sistemləri proqram təminatı ilə inteqrasiya etmək üçün);
– Bulud əsaslı İnfrastruktur (İT işçilərinə daha az etibar etməyə imkan verir);
– White Label Banking (məsələn, ortaq brendli kredit kartları);
– Bu həllər təkmil texniki arxitekturalar və müxtəlif biznes modelləri üzərində qurulur.

Bütün banklar IT infrastrukturuna və ya bunun üstündəki arxitekturaya sürətli dəyişiklik etmək iqtidarında olmasa da, pozucu olmamağı hədəfləyən banklar, geniş bir ucdan uca avtomatlaşdırmaya keçə bilər.

Nəticə etibarilə qeyd edə bilərik ki, ilk növbədə bankların istehlakçı tələblərinə cavab verməsi üçün çeviklik, genişlənmə və səmərəliliyi təmin edən rəqəmsal texnologiyanın təkmilləşdirilməsinə diqqət yetirməlidirlər. Bankların bütün əməliyyat səviyyələrində daha çox rəqəmsal həllər əlavə etmək qərarı onların maliyyə sabitliyinə böyük təsir göstərəcək. Nəhayət, rəqəmsal bank bütün xidmət platformalarında bankçılığın bütün funksional səviyyələrini asanlaşdırmalıdır.

**Əliyeva Gülbəniz**
**dosent**
**Məmmədli Şəhanə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**mshahane99@gmail.com**

## Regionların inkişafında vergi siyasətinin rolu və vergi inzibatçılığında rəqəmsallaşmanın əhəmiyyəti

Bazar iqtisadiyyatı dövründə ölkə üzrə sosial-iqtisadi məsələlərin həlli üçün iqtisadiyyatın regionlar üzrə təşkilinin reallaşdırılması prosesi vacib məsələlərdən biridir. Ona görə də ölkəmizdə aparılan iqtisadi islahatların əksəriyyəti regional iqtisadiyyata aiddir. Son illərdə ölkəmizdə məqsədəuyğun regional siyasətin həyata keçirilməsi, regional iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi və idarə olunması prosesi və qeyri-neft sektorunun inkişaf edilməsi prosesi ölkəmizin priotet istiqamətləridir.

Regionların inkişafının tənzimlənməsində vergi siyasətinin rolu danılmazdır.

Vergi siyasəti dövlətin maliyyə siyasətinin ayrılmaz tərkib hissəsidir. Ölkənin vergi sistemini yaradarkən, dövlət ondan müəyyən maliyyə siyasətinin məqsədləri üçün istifadə etməyə can atır. Vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərindən biridir.

Dövlətin vergi siyasəti dedikdə, dövlət tərəfindən işlənib hazırlanmış, vergi sahəsində cəmiyyətin qarşısında duran bu və ya digər vəzifələri həyata keçirməyə yönəlmiş tədbirlər sistemi başa düşülür.

Vergi siyasəti dövlətin vergi inzibatçılığına yanaşmasını, yeni vergi növlərinin yaradılmasına və yaxud mövcud hər hansı növün ləğv edilməsini xarakterizə edir. O vergi ödəyicilərinin kateqoriyalarını, qanuni əsaslarını və vergi faizlərini təyin edir.

Dövlətin vergi siyasətinin ən vacib məqsədi bütün maraqlı tərəflər arasında razılığın təmin edilməsidir. Lakin bu vergi sisteminin sonsuz çətinləşdirilməsinə gətirib çıxarır. Hətta balanslaşdırılmış vergi siyasəti belə heç vaxt vergi ödəyicilərini qane etmir, çünki hər kəs daha az vergi ödəməyə çalışır.

Dövlətin vergi siyasəti dinamik şəkildə dəyişən bir mühitdir və bu dəyişməyə əsas olaraq təsir edən amillər bazardakı dəyişikliklər, makroiqtisadi və siyasi amillərdir.

Vergi siyasətinin əsas məqsədi vergilərin mahiyyəti və funksiyalarından irəli gəlir və məcmu ictimai məhsulun bir hissəsinin dövlət tərəfindən alınmasından və bu vəsaitlərin büdcə vasitəsi ilə yenidən bölüşdürülməsindən ibarətdir. Beləliklə, vergilər öz təyinatlarını və funksiyalarını vahid büdcə prosesində həyata keçirirlər. Hər bir maliyyə ili üçün büdcə qəbul edilərkən, vergi siyasətinin əsası qoyulmuş olur. Onun həyata keçirilməsi isə qanunvericilik və normativ aktların qəbul edilməsi yolu ilə aparılır.

Vergi siyasəti həyata keçirilərkən dövlət büdcəsinin tənzimlənməsi, planlaşdırılması və ona nəzarətin qanunla müəyyən edilmiş hüquqi normaları reallaşdırılır. İqtisadi cəhətdən əsaslandırılmış vergi siyasəti vəsaitlərin vergi sistemi vasitəsi ilə toplanmasının optimallaşdırılması məqsədini güdür. Vergi siyasəti dövlət orqanlarının elmi cəhətdən əsaslandırılmış hüquqi fəaliyyəti kimi geniş təkrar istehsalın tələbatını təmin etməlidir. Onun əsas məqsədi vergi ödəyicilərindən vergilərin tutulmasının hüquqi qaydalarını təmin etməklə bərabər, vergitutmanın təsiri altında formalaşan iqtisadi münasibətlərin hərtərəfli qiymətləndirilməsidir.

Ölkəmizdə aparılan vergi siyasətinin bir çox vəzifələri vardır və onlara aşağıdakı bir sıra amilləri aid etmək olar:

1. İnflyasiyanın orta sürəti
2. Tam məşğulluq
3. Milli gəlirin sabit artımı
4. İqtisadiyyatın dövrü dəyişkənliyinin aradan qaldırılması

Vergi siyasətinin ən önəmli faktoru büdcəyə vergi daxilolmalarında artırılmasına nail olmaqdır. Vergi siyasəti nəticəsində dövlət vergi daxilolmalarına həcminə birbaşa təsir edir və büdcənin formalaşmasına isə dolayı yolla təsir göstərir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, regionlarda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması,ixrac siyasətinin həyata keçirilməsi, vergi siyasətinin təkmilləşdirilməsi və s. yollarla bu iqtisadi böhrandan çıxmağa çalışmaqdadır. Vergi siyasətinin təkmilləşdirilməsinin əsas məqsədi ilk öncə vergi sisteminin müstəqil, səmərəli və ədalətli şəkildə inkişaf etdirilməsi olmalıdır. Ölkəmizdə aparılan vergi siyasətinin bir çox vəzifələri vardır və onlara aşağıdakı bir sıra amilləri aid etmək olar:

1. İnflyasiyanın orta sürəti;
2. Tam məşğulluq;
3. Milli gəlirin sabit artımı;
4. İqtisadiyyatın dövrü dəyişkənliyinin aradan qaldırılması.

Regionlar üzrə vergi siyasətinin təkmilləşdirilməsi əsas məqsədləri regionlardan dövlət büdcəsinə vergi daxilolmalarının payının çoxalması, regionların iqtisadi inkişafına nail olmaq və regionlarda əhalinin həyat səviyyəsinin və maddi rifah halının yaxşılaşmasına nail olmaqdır.

Azərbaycan regionlarında vergi orqanlarının rəqəmsallaşma sahəsində layihələri nağdsız ödənişlərin inkişafına əhəmiyyətli dərəcədə kömək göstərir. Nağdsız ödənişlərə keçidin təmin olunmasında vacib rol oynayan rəqəmsal texnologiyaların istifadəsinin genişləndirlməsinin əsas istiqamətlərindən biri yeni nəsil kassa aparatlarının tətbiq olunmasıdır. Regionlarda yeni nəsil kassa aparatlarının istifadəsinin genişlənməsi artıq öz səmərəli nəticələrini göstərir, eyni zamanda ticarət dövriyyəsinin şəffaf bəyan olunması prosesi də sürətlənir. Son illərdə regionların ticarət və ictimai iaşə sahələrində işləyən hüquqi və fiziki şəxslərə nağdsız ödənişlərin məbləğinə mütənasib olaraq vergi güzəştləri tətbiq olunur. Vergi Məcəlləsinə uyğun olaraq kommersiya və ya ictimai fəaliyyət göstərən hüquqi şəxslərin və fərdi sahibkarların gəlir vergisinin həcmi 2019-cu il yanvarın 1-dən üç il müddətinə 25 faiz azaldılıb.

Regionlarda innovativ texnologiyalar insan, biznes və dövlət arasında olan ənənəvi əlaqə üsullarını dağıdaraq yeni biznes modellər yaradacaq başlıca prioritetlərdən hesab edilir. Məqsəd vergi öhdəliklərini yerinə yetirməkdə daha məsuliyyətli olmağa kömək etməkdir. Regionlarda olan ərazi vergi idarələri sahibkara yönümlü yanaşma nümayiş etdirməlidirlər. Bu kompleks bir fəaliyyətdir, vergiödəyiciləri üçün komfortlu bir mühitin yaradılmasıdır. Bu siyasətin hədəfində hər şeydən öncə vergiödəyicisi və vətəndaş məmnunluğu durur.

Hesab edirik ki, rəqəmsallaşma vergi inzibatçılığının effektivliyini artıran ən başlıca amillərdən biridir. Regionlarda vergi inzibatçılığında rəqəmsallaşmanın tətbiqi regionlar yeni vergiləri tətbiq etmədən və ya onları artırmadan böyük sayda vergiödəyicilərindən vergi toplamağa imkan yaradacaqdır.

**Əliyeva Gülbəniz**
**Dosent**
**Mirzəbəyli Nəzrin**
**Magistrant**
**Lənkəran Dövlət Universiteti**
**gulbeniz_aliyeva@mail.ru**
**nezrinmrzbli99@gmail.com**

## Regionlarda müəssisələrinin maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması və problemləri

Azərbaycan Respublikası 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra iqtisadi sahədə inkişafını sürətləndirdi və müstəqil siyasət aparmağa başlamışdı. Bu siyasətin başlıca məqsədi bazar iqtisadiyyatına keçidin formalaşdırılması və ölkəmizin qloballaşmasını təmin etməkdən ibarət idi. Azərbaycan Respublikasında aparılan islahatlar iqtisadiyyatın səmərəliliyinin artırılması həmçinin digər dövlətlərlə əlaqələrin gücləndirilməsi hər bir müəssisədən maliyyə hesabatlarının hazırlanmasını tələb edir. Bütün bunlar Respublikamızda və onun regionlarında müəssisələrin Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə cavab verən maliyyə hesabatlarının tərtib edilməsi vacib məsələlərdəndir.

Regionlarda müəssisə və təşkilatların maliyyə hesabatının tərkibi "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri əsasında formalaşmışdır. Regionlarda fəaliyyət göstərən müəssisələr maliyyə hesabatı tərtib edib müvafiq orqanlara təqdim edirlər.

Maliyyə hesabatları Regionlarda aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- Anlaşıqlılıq. Bu prinsipin əsas xüsusiyyəti maliyyə hesabatlarında təqdim olunan informasiyanın istifadəçilər tərəfindən tez başa düşülməsindədir. Eyni zamanda, istifadəçilər biznes, mühasibatlıq haqqında biliklərə malik olmalıdır.
- Etibarlılıq. Etibarlılıq prinsipinin əsas xüsusiyyəti informasiyanın faydalı olmasıdır. Tərkibində ciddi səhvlər olmayan informasiya etibarlı hesab edilir. Ciddi səhvlər dedikdə, istifadəçilər tərəfindən iqtisadi qərarların qəbuluna təsir göstərə bilən informasiyaların təhrif olunması başa düşülür.
- Neytrallıq. Neytrallıq prinsipində təqdim olunan informasiyanın etibarlı olması üçün məlumatlar problemsiz olmalıdır.
- Tamlıq. Bu prinsip əsasında maliyyə hesabatlarında təqdim olunan informasiyanın etibarlı olması üçün bu informasiya, ona çəkilən xərclər nəzərə alınmaqla, dolğun olmalıdır.
- Müqayisəlilik. Müxtəlif dövrlər üçün mühasibat uçotu subyektinin maliyyə vəziyyətindəki və fəaliyyətinin nəticələrindəki meylləri müəyyən etmək baxımından istifadəçilər mühasibat uçotu subyektinin maliyyə hesabatlarını müqayisə edə bilməlidirlər. İstifadəçilər həmçinin müxtəlif mühasibat uçotu subyektlərinin müvafiq maliyyə vəziyyətini, fəaliyyətinin nəticələrini və maliyyə vəziyyətindəki dəyişikləri qiymətləndirmək üçün mühasibat uçotu subyektlərinin maliyyə hesabatlarının müqayisə edə bilməlidirlər.

Müxtəlif ölkələrdə maliyyə hesabatları bütövlükdə eyni mahiyyət kəsb etsə də onların tərtib olunma qaydası müxtəlifdir. Bəzi ölkələrdə hesabatın tərtib olunma qaydası və prinsipləri, burada uçot informasiyalarının açıqlanması qanunvericilik səviyyəsində tənzimlənir. Digər ölkələrdə isə bu məsələ ilə bilavasitə hesabatı tərtib edənlər məşğul olurlar. Buna görə də iqtisadi fəaliyyət subyektləri tərəfindən tərtib olunan hesabatlar həm özünün xarici görüşünə, həm də daxili məzmununa görə fərqli ola bilər. Mühasibat uçotu və hesabatın milli sistemlərinin harmonizasiyası üçün bir sıra ölkələrdə onların Beynəlxalq Standartlara uyğunlaşdırılması istiqamətində çox böyük işlər görülmüşdür.

Mühasibat uçotu subyektləri maliyyə hesabatlarının tərtib olunması üçün mühasibat uçotunun aparılması zamanı bu qaydalarla müəyyən edilmiş Hesablar Planından istifadə etməlidirlər.

Hesablar Planı bir sıra bölmələrdən ibarətdir:

1) Uzunmüddətli aktivlər;
2) Qısmüddətli aktivlər;
3) Kapital;
4) Uzunmüddətli öhdəliklər;
5) Qısamüddətli öhdəliklər;
6) Gəlirlər;
7) Xərclər;
8) Mənfəətlər.

Maliyyə hesabatlarının tam toplusuna misal olaraq:

1) Maliyyə vəziyyəti haqqında hesabat;
2) Mənfəət və zərərlər haqqında hesabat;
3) Kapitalda dəyişikliklər haqqında hesabat;
4) Pul vəsaitlərinin hərəkəti haqqında hesabat.

Respublikamızda və onun regionlarında maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun aparılması üçün savadlı mühasiblarin olması vacib amil hesab edilir. Bu səbəbdən təklif edirəm ki, Respublikamızda və onun regionlarında bu mövzu ilə bağlı təlimlər aparılsın.

**Hüseynli Nuran**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**nurangaga@yahoo.com**

## Postpandemiya dövründə Lənkəran–Astara iqtisadi rayonunda turizm rekreasiya kompleksinin maliyyə səmərəliliyinin artırılması istiqamətləri

Turizm-rekreasiya kompleksinin səmərəliliyivə onun gəlir göstəricilərindən yanaşaraq, nə qədər və hansı kəmiyyətdə qazanmaq olar, göstəricilərin artırılması üçün əsas hansı strategiyalardan istifadə edilə bilər, pul axınlarının idarə edilməsi, debitor borclarının, aktivlərin idarəedilməsi və ümumiyyətlə idarəetmə sistemi, maliyyə sistemi, menecment və marketinq xidmətləri necə olmalıdır ki, mənfəətlilik, səmərəlilik anlayışlarından bəhs etmək mümkün olsun və hansı mexanizmlər tətbiq etmək lazımdır. Bütün bunları kompleks şəkildə təhlil edərkən müəssisənin gəlirdən səmərəliliyə gedən bir strategiyasının olması vacibdir. Bu strategiyanın şərtlərinə ciddi riayət edilməsi mühüm əhəmiyyət kəsb edir və müasir dövrdə xeyli aktualdır. Turizmin yekcins fəaliyyət növü olmaması burada səmərəliliyin bir neçə mənada inkişaf etdirələrək artan sürətlə iqtisadi, ekoloji, idarəetmə, sosial və digər səmərəlilik əmsalları göstəricilərinin akkumilasiya edilməsinə gətirib çıxaracaqdır. Lənkəran-Astara iqtisadi regionunun enerji və investisiya səmərəliliyi istiqamətlərində xüsusi olaraq qeyd etmək yerinə düşərki, regionun iqlim fərqliliyi, onun antropogen yerləşməsi, landşaftının turizmə yönümlülüyünün yüksək olması, günəşli günlərin sayının ümumdünya normalarından yüksək olması burada potensial ixtisaslaşdırılmış turizm-rekreasiya kompleksinin, hətta kombinə edilmiş turizm-rekreasiya kompleksinin maliyyə səmərəliliyi ilə işlək formada olması öz aktuallığını qorumaqdadır və qoruyur.

Erqonomik qaydalar zamanı sağlamlığın gözlənilməsinə idarə edənlə yanaşı, turistin özü də diqqət yetirməli olduğu məqamlar vardır. Yəni erqonomika həyat fəaliyyətinin təhlükəsizliyini təmin edən mühitin yaradılmasını nəzərdə tutur. Turizm fəaliyyətinin də erqonomik əsasları olmalıdır. Bura turizm fəaliyyətinə aid olan bütün komponentlərin turistin

və turizm fəaliyyətini həyata keçirənlərin ideal fəaliyyət şəraiti nəzərdə tutulur. Hazırda insanların fəal həyat tərzi sürmələri və sağlamlıqlarının bərpası üçün turizmin əhəmiyyətli olduğu vurğulanır.

Son illərdə dünyada turizm sektorunun ayrı-ayrı ölkələrin iqtisadi inkişafında çəkisinin güclənməsi ilə intensiv inkişaf edən bir beynəlxalq turizm və pandemiya dövründə iflic olan iqtisadiyyatların bir qolu kimi turizm əslində eyni anlayışlardır və burada inkişaf yollarından biri və ən az xərc tələb edəni elə turizmin yenidən canlanmasına imkan vermək və mümkün qadağaları aradan qaldıraraq təhlükəsiz şəkildə turistlərin səyahət etmələrinə şərait yaratmaqla yanaşı, turizmin dayanıqlı inkişafı məsələsinin aktuallığı daha da artmışdır.

Bunlarla bərabər, Azərbaycanda da neft gəlirlərinin tükəndiyi bir mərhələdə qeyri-neft sektorunun, xüsusilə də turizm sektorunun davamlı inkişafı mühüm əhəmiyyət kəsb edir. Son illərin statistik göstəricilərinə görə, turizm Azərbaycanda daim inkişaf edən sektorlardan biri olmuşdur.

Ümumiyyətlə səmərəliliyi bir neçə aspektdən araşdırmağa ehtiyac vardır. Bu aspektlərə marketinq, menecment, iqtisadi, qlobal, investisiya, ekoloji, nəqliyyat-logistika, kənd təsərüffatı, əməliyyat, əmək və sair istiqamətlər daxil olacaqdır. Əsas vurğunu iqtisadi qlobal investisiya və ekoloji istiqamətlərə ayırsaq da, digər istiqamətlər də vacib hesab olunur. Maliyyə səmərələliyinə aktivlərin idarəedilməsi nöqteyi-nəzərindən baxmaq lazımdır. Burada aktivlərin dövretmə əmsalı, aktivin gəlirliliyi kapitalın mənfəətliliyi, likvidliyin imunizasiyası, pul axınlarının hərəkətinə nəzarət kimi aspektlər ön plana çıxmaqdadır.

Müəssisənin səmərəliliyinin təhlili onun menecerləri üçün maliyyə vəziyyətini və sonrakı strateji planlaşdırmanı qiymətləndirmək üçün lazımdır. Həmçinin, müəssisənin belə bir təhlilinin nəticələrinə investorlar, kreditorlar, auditorlar və digər maraqlı tərəflər də ehtiyac duyurlar. Ancaq qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatı şəraitində müəssisələrin səmərəliliyinin obyektiv qiymətləndirilməsi təkcə mikro səviyyədə vacib deyil, çünki bunlar bütövlükdə ölkə iqtisadiyyatının tərkib hissəsi olan müəssisələrdir. Struktur olaraq baxdıqda burada ciddi mənada işlərin uyğunlaşdırılması, yəni inteqrasiyası vacibdir və eləcə də hedcinqləşmə prosesi və ümumiyyətlə bütün səviyyələrdə sığortalama prosesi hətta sığorta şirkətlərinin cəlbi ilə belə etmək zərurəti ön plana çıxmaqdadır. Hecerlər, sığorta şirkətləri və ya diversifikasiya metodları bir də homojen deyil, qarışıq portfelin və xidmətlərin göstərilməsi ilə əlaqədar olaraq müəssisələr öz aktivlərini idarə edə və onların optimallaşdırılmasını və mümkün tarazlaşdırma proseslərindən keçirmək cəhdlərini artıraraq səmərəlilik göstəricilərini qaneedici səviyyəyə yüksəldə bilərlər. Maliyyə səmərəliliyi deyərkən, bir başqa nəzərə alınmalı göstərici dövriyyə vəsaitlərindən istifadənin mümkünlüyünün və inventarın səmərəlilik əmsalının artırılmasını da diqqətdə saxlamaq əsas şərtlərdən biridir. Turizm-rekreasiya müəssisələrində maliyyə menecerinin əsas vəzifəsi məhz mənfəətlilik əmsalının yüksəldilməsi və daimi, davamlı olaraq bu prosedurun müsbət saldoyla getməsinə nəzarət etməkdən ibarətdir.

Əslində turizmin həm spesifik sadəcə turizmə aid xidmət növləri, həm də dolayı olaraq turizm ilə kəsişən xidmət növlərinin cəmi olaraq qiymətləndirilib, regional turizmə təsirləri ümumiləşdirmək olar. Bu proseslərdə baş verən hadisələrə, spesifik xüsusiyyətlərə və hallara nəzəri-metodoloji baxımdan, buradakı problemlərin mahiyyətini açıqlamaq vacib şərtlərdəndir.

Postpandemiya dövründə turizm-rekreasiya kompleksinin yenidən öncül sıralara çıxması üçün, öz rəqabətqabiliyyətliliyini artırması üçün bir neçə şərt vacibdir və bunlardan bəzilərini qeyd edə bilərik:

1. Vergi güzəştləri (6 ay verginin sıfır vergisiylə hesablanması kimi radikal vergi güzəştləri);
2. Maliyyə vəsaitlərinə əlçatanlığı artırmaq;
3. Aviabiletlərə endirim təşkil etmək;
4. Aktivlərin idarəedilməsi üzrə məsləhətlər vermək (turizm rekreasiya komplekslərinə);

**Xəlilov Həmzə**
**professor**
**Təhməzov Murad**
**müəllim**
**Məmmədzadə Nihad**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**hamza_xelilov@mail.ru**
**murad.tahmazov.97@mail.ru**
**mammedzade.520@gmail.com**

## Borc siyasətinin əsas məqsədi və dövlət borcunun idarə edilməsinə dair strategiyanın hədəfləri

Dövlət borcları hər bir ölkənin maliyyə siyasətində mühüm yer tutur. Maliyyə siyasətinin tərkib hissəsi kimi borc siyasətinin əsas məqsədinə aşağıdakıları aid etmək olar:

- bankların xarici borclanmasını azaltmaq və daxili kredit bumlarını ləngitmək üçün bank müəssisələrinin xarici öhdəliklərinin məbləğinin onların kapitalına və passivlərinə nəzərən limitləşdirilməsi;
- istənilən böhran şəraitində dövlətin daxili və xarici borc öhdəliklərinin stabil ödənilməsini təmin etmək;
- daxili və xarici maliyyə bazarlarında baş verən dəyişikliklərə tez reaksiya verməklə əlverişli mənbələrdən və borclanma formalarından istifadə etmək;
- borcun strukturu ilə əlaqədar olaraq, risklərin proqnozlaşdırılması və aradan qaldırılması, borc ödəmələrinin aşağı salınmasında valyuta amilindən maksimal istifadə etmək;
- iqtisadiyyatın borc yükünün vəziyyətini nəzarətdə saxlaya biləcək dövlət borcunun monitorinqinin və uçotunun təkmilləşdirilməsi.

İstər qlobal miqyasda, istərsə də milli iqtisadiyyat çərçivəsində dövlət borcu münasibətlərinin dərindən öyrənilməsinə ehtiyac vardır.

Dövlət borcu Azərbaycan Respublikası adından bağlanmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borcdur. Daxili dövlət borcu Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc hesab edilirsə, xarici dövlət borcu isə Azərbaycan Respublikası adından Azərbaycan Respublikasının qeyri-rezidentləri ilə bağlanmış müqavilələrin öhdəlikləri üzrə borc hesab edilir.

2022-ci il yanvarın 1-i vəziyyətinə Azərbaycanın xarici dövlət borcu 8 milyard 135,7 milyon ABŞ dolları (13 milyard 830,7 milyon manat) və ya 2021-ci il üzrə ümumi daxili məhsulun (ÜDM) 14,9 %-ini təşkil etmişdir. 2021-ci ilin əvvəli ilə müqayisədə 2021-ci ilin sonuna xarici dövlət borcu mütləq ifadədə 685,8 milyon ABŞ dollar azalmış, xarici dövlət borcunun ÜDM-ə nisbəti isə 5,8 faiz azalmışdır. 2022-ci il yanvarın 1-i tarixinə ölkənin birbaşa daxili dövlət borcu 2 milyard 507,1 milyon manat və ya ÜDM-in 2,7 %-ini təşkil etmişdir. 2021-ci ilin əvvəli ilə müqayisədə 2022 ci ildə daxili dövlət borcu mütləq ifadədə 1 milyard 126,1 milyon manat olmuşdur və daxili dövlət borcunun ÜDM-ə nisbəti isə 0,6 faiz artmışdır. Bu artım təsdiq olunmuş Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyasına əsaslanır. Ona uyğun olaraq xarici borclanmaların tədricən daxili borclanmalar ilə əvəzlənməsi və yerli dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi üzrə ardıcıl tədbirlərin həyata keçirilməsi vacib amillərdən hesab edilir.

Strategiya ortamüddətli və uzunmüddətli dövrləri əhatə etməklə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışdan ibarətdir. Strategiyada müəyyən edilmiş hədəflərə nail olmaq üçün 3 strateji məqsədin və 5 prioritet tədbirin həyata keçirilməsi planlaşdırılır.

Dövlətin borclanmasının əsas səbəbləri dövlət xərclərininin tam maliyyələşdirilməsi məcburiyyətindədir. Onun idarə edilməsi bilavasitə dövlət hakimiyyəti orqanları və idarələrinə məxsusdur. Dövlət və xarici borcun uğurla idarə edilməsi üçün əlverişli makroiqtisadi mühitin olması vacibdir. Dövlət borcunun idarə edilməsi - dövlətin borc öhdəliklərinin idarə edilməsi strategiyasının işlənib hazırlanması və yerinə yetirilməsi prosesidir ki, bu da zəruri maliyyələşdirmə məbləğinin cəlb olunmasına, risk dərəcəsinə və xərcə münasibətdə hökumətin məqsədli göstərişlərini yerinə yetirməyə, eləcə də borcun idarə edilməsi sahəsində hökumətin qarşıya qoyduğu digər məsələləri həll etməyə imkan verir.

Ölkəmizdə dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün strategiyanın hədəfləri müəyyənləşdirilmişdir. Strategiyaya əsaslanaraq aşağıdakı nəticəni verə bilərik.

Ölkəmizdə dayanıqlı və idarəolunan dövlət borcu səviyyəsi həyata keçirilməsi təmin edilməlidir. Bu istiqamətdə isə risklərin idarə edilməsi sisteminin təkmilləşdirilməsi vacib şərt kimi nəzərə alınmalıdır.

**Quliyev Ülvi**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Ağayev Mirağa**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**agayevm124@gmail.com**

## Dövlət Xəzinədarlıq Agentliyində rəqəmsallaşmaya keçid istiqamətləri

Müasir dövrdə maliyyə sektoru üzrə siyasət maliyyə sabitliyinin qorunması və maliyyə vasitəçiliyinin genişləndirilməsi yolu ilə biznesin dəstəklənməsi, maliyyə-kapital bazarlarının dərinləşdirilməsi kimi istiqamətlərə yönəlməkdədir. Bütün bunlar perspektivdə maliyyə sektorunun iqtisadi artımda rolunun daha da yüksəlməsinə imkan yaradacaq. 2022-ci ildə maliyyə sabitliyi siyasəti və maliyyə sektorunun inkişafının prioritet istiqamətlərində rəqəmsallaşma və müasir ödəniş sistemi infrastrukturundan istifadə səviyyəsinin yüksəldilməsi istiqamətində də işlər davam etdirilməkdədir. Bu istiqamətdə vacib məsələlərdən biri də Dövlət Xəzinədarlıq Agentliyində rəqəmsallaşmaya keçidi təmin etməkdir. Qeyd etmək lazımdır ki, muasir dövrdə dünya ölkələrinin əksəriyyətində xəzinədarlığın rəqəmsallaşdırılması həyata keçirilir. Qeyd edək ki, rəqəmsallaşma kağız daşıyıcılarındakı məlumatların minimallaşdırılması və onların elektronlaşdırılmasıdır. Eyni zamanda rəqəmsallaşdırma daha geniş məhfumdur və nağdsız ödənişləri də özündə ehtiva edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra 1995-cı il baş Dövlət Xəzinədarlığı yarandı. Xəzinədarlıq yarandığı ilk vaxtlarda xəzinədarlıqda rəqəmsallaşma olduqca zəif inkişaf etmişdir. Xəzinədarlığın rəqəmsəllaşdırılması xəzinədarlığı daha səmərəli etdi. Xəzinədarlığın rəqəmsallaşdırılması əl ilə həyata keçirilən proseslərin yükünün azalmasına, tapşırıqların daha sürətli həll edilməsinə, xəzinədarlığın bütün elementlərinin optimallaşmasına imkan verdi.

Xəzinədarlığın rəqəmsallaşdırılmasının bütün ideyası tək bir texnoloji platformadan istifadə etmək deyil, daha çox real vaxtda dəyər yaratmaq və daha yaxşı qərarlar qəbul etmək

üçün istifadə edilə bilən bir-biri ilə əlaqəli texnologiyaların ardıcıl ekosistemini yaratmaqdan ibarətdir.

Dövlət Xəzinədarlıq Agentliyini rəqəmsallaşma son illərdə sürətlə inkişaf etmişdir. Pandemiya dövründə rəqəmsallaşma geniş vüsat almışdır, elektron xidmətlər yüksək şəkildə inkişaf etmişdir. Regionların xəzinədarlıq idarələrində dəpandemiya dövründə elektron xidmətlər daha da inkişaf etdi.

Regionlar üzrə xəzinədarlıq orqanlarının rəqəmsal mühitində bir sıra aşağıdakıları problemləri qeyd etmək olar:

1. Regionlarda rəqəmsallaşma ilə bağlı ictimai məlumatlılığın kifayət qədər olmaması;
2. Regionlarda xəzinədarlıq agentliyinin rəqəmsal infrastrukturunun yetərincə inkişaf etməməsi;
3. Dünyanın inkişaf etmiş ölkələrində xəzinədarlıq sistemində tətbiq olunan rəqəmsal yeniliklərin ölkəmizin rəqəmsal mühitə operativ inteqrasiya edilməməsi;
4. Regionlarda və ucqar ərazilərdə rəqəmsal xidmətlərin zəif inkişaf etməsi;
5. Regionların xəzinədarlıq bölmələrində qeyri-leqal halların müşahidə olunması.

Bu problemlərin həlli vacib məsələlərdən hesab edilir. Fikrimizcə bu problemlərin həlli aşağıda qeyd edilənlərdən asılıdır:

- Regionlarda rəqəmsallaşma ilə bağlı ictimai məlumatlılığın aşağı səviyyədə olması;

Hesab edirik ki, bu istiqamətdə regionlarda seminarlar təşkil edilsə məqsədəuyğun olar.

- Regionlarda İT bacarıqlarının artırılması vacibdir.

Hesab edirik ki, xəzinədarlıq idarələrinin rəqəmsallaşdırılmasındakı mövcud problemlər öz effektiv həllini tapacaqdır.

**Quliyev Ülvi**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Ağazadə Nicat**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**nicataqazade0987@gmail.com**

## Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun formalaşması istiqamətində əsas vəzifələri

Sahibkarlığın inkişafı, müəssisələrin yeni təşkilati-hüquqi formalarının qurulması, ölkənin dünya birliyinə inteqrasiyası idarəetmədə əsaslı dəyişikliklər aparılmasına, nəzarətin təşkili, metodologiyası və həyata keçirilməsi sisteminin yenidən qurulmasını tələb edirdi. Bunun üçün Milli Mühasibat Uçotu Sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması labüd idi. Mühasibat uçotu və maliyyə hesabatı sahəsində beynəlxalq standartların ölkəmizdə tətbiq olunması və onların əsasında Azərbaycan iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılmış milli standartların yaradılması ölkə iqtisadiyyatının dünyanın inkişaf etmiş iqtisadi qurumlarına müvəffəqiyyətlə və əlverişli şəkildə inteqrasiyasına və yüksələn templə inkişaf etdirilməsinə hesablanmışdır. Beləliklə ayrı-ayrı regionlarda istehsal və xidmətləri sahələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması vacib məsələyə çevrilmişdir. Bu baxımdan Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun formalaşması problemlərinin öyrənilməsi aktuallıq kəsb edir.

Hazırda Azərbaycanda mühasibat uçotu sahəsində aparılan islahatlar Milli Mühasibat Uçotu modellərinin hazırlanmasını və bunların Beynəlxalq Maliyyə Hesabatlarının tələblərinə uyğunlaşdırılması bir vəzifə kimi qarşıya qoyur. Milli Mühasibat Uçotu Standartlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğunlaşdırılması hər şeydən əvvəl beynəlxalq bazarlardan maliyyə resurslarının respublika iqtisadiyyatına cəlb edilməsi zərurətindən irəli gəlir. Eyni zamanda mürəkkəb iqtisadi prosesləri optimal qaydada idarə edə bilmək üçün etibarlı informasiya resurslarından daha geniş istifadə olunmalıdır. Məlumdur ki, idaretmənin etibarlı informasiya təminatı mühasibat uçotunun inkişafı konsepsiyasının təmin edilməsindən və onun operativliyinin və analitikliyinin yüksəldilməsindən asılıdır.

Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun formalaşması istiqamətində aşağıdakı vəzifələr qeyd edə bilərik:

– Lənkəran regionunun istehsal və xidmətləri sahələrində mühasibat uçotunun təşkilinin təkmilləşdirilməsi maliyyə hesabatının formalaşdırılmasının əsasında duran ümumi metodoloji prinsipləri təhlil etmək;

– ayrı-ayrı hesabat formalarının formatını, məzmunu və quruluşunu istifadəçilərin informasiyaya olan tələbatları baxımından tənqidi qiymətləndirmək;

– Lənkəran regionunun istehsal və xidmətləri sahələrində mühasibat uçotunun təşkilinin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılmasının əsas istiqamətlərinin müəyyənləşdirilməsi;

– maliyyə hesabatının məqsədyönlü formalaşdırılması üçün dəqiq konsepsiyanın müəyyən edilməsi zəruriliyini əsaslandırmaq və onun tərkib elementlərini müəyyən etmək;

– maliyyə hesabatında obyektlər barədə informasiya formalaşdırmaq üçün təməl prinsipləri dəqiqləşdirib əsaslandırmaq.

Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun aparılmasında aşağıdakı məsələlər həllini tapmalıdır:

– Lənkəran regionunun istehsal və xidmətləri sahələrində maliyyə hesabatının beynəlxalq standartlara və praktikaya uyğunlaşdırılmasının obyektiv şərtləri müəyyən edilib konkretləşdirilmişdir;

– Lənkəran regionunun istehsal və xidmətləri sahələrində maliyyə hesabatının formalaşdırılması konsepsiyasının nələri (hansı məsələləri) əhatə etməli olduğu əsaslandırılmışdır;

– Lənkəran regionunun istehsal və xidmətləri sahələrində əsaslandırılmışdır ki, idarəetmə uçotu və maliyyə uçotu üzrə informasiyanın keyfiyyəti MHBS üzrə prinsiplərdə və MMUS üzrə Konseptual əsaslarda sadalanan atributlarla deyil, informasiyanın formalaşdırılmasının əsasında qoyulmuş konkret standartlarla, metodlar və üsullarla müəyyən edilə bilər.

Bazar münasibətləri şəraitində Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində maliyyə resurslarının, əmlakın, pul axınlarının və qlobal maliyyə nəticələrinin idarə olunmasında maliyyə uçotunun inkişafı konsepsiyası və onun operativliyinin və analitikliyinin yüksəldilməsi məsələləri hələlik kompleks şəkildə tədqiq edilməmişdir. Bu baxımdan Lənkəran regionunun istehsal və xidmətləri sahələrində mühasibat uçotu və nəzarətin təşkili üzrə aşağıdakı tövsiyyələr irəli sürülmüşdür:

1. Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində mühasibat uçotunu və maliyyə hesabatlarını Beynəlxalq Standartlara uygunlaşdırmaq üçün xarici və daxili mühitin dəyişilməsi barədə dürüst və dolğun informasiyaların toplanması və onun əsasında effektiv idarəetmə qərarlarının qəbulu məqsədəuyğundur.

2. Lənkəran regionunun istehsal və xidmətləri müəssisələrində uçotun Beynəlxalq Standartlara uyğun şəkildə qurulması mərhələlərlə aparılmalıdır.

**Quliyev Ülvi**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Əlizadə Əli**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**guliyev.ulvi@gmail.com**
**alisoyeli@gmail.com**

## Vergi siyasətinin regionlarda sahibkarlığın inkişafında rolu

Vergilər iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas elementlərindən biridir. Dövlətin əsas məqsədi cəmiyyətin qarşısında duran sosial və iqtisadi məsələlərin həll edilməsidir ki, bu da vergi siyasətinin formalaşmasına öz təsirini göstərir. Dövlətin vergi siyasəti ilkin olaraq onunla müəyyən edilir ki, dövlət özü təkrar istehsal prosesinin fəal iştirakçısı kimi çıxış edir. Bazar iqtisadiyyatı olan ölkələrdə, dövlətin iqtisadiyyata təsiri müxtəlif dərəcələrdədir. İqtisadi inkişaf prosesini təmin etmək və böhran hallarını aradan qaldırmaq üçün hər bir ölkənin hökuməti iqtisadiyyata dövlət təsiri sistemində olan bütün üsullardan istifadə edirlər.

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil sürətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların istehsalından və satışından mənfəət götürlüməsi üçün olan fəaliyyətdir. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq Azərbaycan Respublikasının Konstitusiyası və digər akt və qanunlarla tənzimlənir. Sahibkarlıqla Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallar istisna edilməklə aşağdakılar məşğul ola bilərlər:

1. Fəaliyyət qabiliyyəti olan hər bir Azərbaycan Respublikası vətəndaşı;
2. Mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslər;
3. Hər bir xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxslər;
4. Xarici hüquqi şəxslər.

Sahibkarlıqın inkişafı, əlverişli biznes mühitinin yaradılması məqsədilə əsaslı şəkildə islahatların aparılması ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş və hal hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl olaraq həyata keçirilən iqtisadi inkişaf strategiyasının tələblərindən irəli gəlir və onun mərkəzində durur. Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırki mərhələsinin prioritet vəzifələrindəndir. Hazırki dövürdə bu sahədə siyasət sahibkarlıqa dəstəy və onun sistemli şəkildə dövlət himayəsinin tətbiqində səmərəliliyin yüksəldilməsinə yönəldilmişdir. Ölkəmizdə sahibkarlıqın inkişafının yeni modelləri yəni xüsusi iqtisadi zonaların, sənaye parklarının, aqroparkların yaradılması sahəsində müvafiq işlər aparılılır.

Kiçik və orta sahibkarlıqın fəaliyyətində dinamikliyə nail olmaq və onların inkişafdan geri qalmamağı, bu biznes fəaliyyətinin tənzimlənməsi sisteminin səmərəliliyinin artırılması və ölkə iqtisadiyyatındakı rolunun artırılması üçün Azərbaycan Respublikasının Prezidentinin 2017 -ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi yaradılmışdır. Ölkədə sahibkarlığın inkişafı sahəsində aparılan dövlət siyasəti və həyata keçirilmiş işlərin nəticəsi olaraq 2021-ci ilin 9 ayı ərzində qeydiyyata alınmış sahibkarlıq subyektlərinin sayı ümumilikdə 6,7 % artaraq 2021-ci ilin oktyabrın 1-i tarixinə 1306490 olub. Onların 12.5% - i hüquqi şəxslərin, 87.5% -i fərdi sahibkarların payına düşür.

Vergilər sahibkarlıq fəaliyyətinin maliyyə nəticələrinə təsir göstərən xarici amillər arasında xüsusi yer tutur. Qeyritəkmil vergi sistemi bir çox hallarda müəssisə və təşkilatları mürəkkəb və bəzəndə çıxılmaz maliyyə vəziyyətinə düşməsinə səbəb olur. Belə vergilərdən biridə ikiqat vergitutmadır. İkiqat vergitutma hər hansı bir gəlirə görə eyni ölkələrdə vergilərin eyni zamanda tətbiq edilməsidir. Qeyri-rezident şəxslərlə əməliyyat aparan rezident vergi ödəyicilərinin böyük əksəriyyəti çox zaman onların ödəməli olmadığı vergiləri də

ödəmək məcburiyyətində qalır. Buna səbəb isə yerli sahibkarların əksəriyyəti qeyri-rezidentlərə ödənişlər apararkən onlardan vergi tutulmalı olmasından məlumatsız olduquna görə və qeyri-rezidentlərin tələbinə əsasən. İkiqat vergitutmanın qarşısını almaq üçün bir sıra ölkələrlə beynəlxalq saziş bağlanılmışdır. Rezident şəxslər yalnız Azərbaycan Respublikası ilə ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişi imzalamış digər ölkələrin rezident şəxsləri ilə əməliyyatlar apararkən bu sazişin üstünlüklərindən istifadə edə bilərlər. Azərbaycan Respublikası ilə 55 ölkə arasında beynəlxalq saziş mövcuddur.

Qloballaşma dünyada artan kütləvi ticarət və mədəniyyət mübadiləsi nəticəsində meydana çıxan inteqrasiya prosesidir. Bu proses dünya iqtisadiyyatında mal və xidmətlərin istehsalını və istehlakını artan qanunauyğunluqda aparıldığını görmək olur. Qloballaşmanın son yarım əsrdə daha da sürətlənməsi ilə bağlı kapitalın, malların və xidmətlərin sərbəst hərəkəti nəticəsində böyük şirkətlər birdən çox ölkədə əməliyyatlar həyata keçirir ki, bu da xarici ticarətin artımı ilə nəticələnir. Bu bir tərəfdən inkişaf etmiş ölkələrin transmilli şirkətlərinin daha da zənginləşməsinə gətirib çıxarırsa, digər tərəfdən az inkişaf etmiş ölkələrin iqtisadi artmına mənfi təsir edir. Qloballaşma dövlətlərin qarşılığlı iqtisadi asılılığına gətirib çıxarır, nəticədə milli iqtisadi dövlət müstəqilliyinin tədricən dağılması və milli iqtisadi təşkilatların, qlobal korporasiyaların, transmilli idarəetmə strukturlarının meydana çıxması baş verir.

Sahibkarlığın və sosial-iqtisadi rifahın artırılması, vergi orqanlarının düzgün və səmərli fəaliyyəti üçün son illərdə vergi məcəlləsində bir sıra dəyişikliklər və yeni qərarlar qəbul edilmişdir.

Ekoloji mühitin qorunması yolunda daha çox hibrid və elektron mühərlikli avtomobillərin alışı, satışı, ehtiyyat hissələrinin alışı, satışı ilə bağlı 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş Vergi Məcəlləsinin müddəalarına əsasən, elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və ƏDV-dən azaddır, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 2022-ci il yanvarın 1-dən 3-il müddətinə ƏDV-dən azaddır.

Bu qərarlardan əlavə olaraq, Vergi Məcəlləsinin 1 yanvar 2022-ci il tarixdən qüvvəyə minmiş müddəalarına əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş kütləvi informasiya vasitələri məhsulların və kitabların habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların istehsalı ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı ƏDV-dən azaddır.

Sahibkarlar üzərində vergi yükünü azaltmağ üçün 2019-cu ildə Vergi Məcəlləsində əsaslı vergi güzəştlər sistemi tətbiq edilib. Vergi qanunvericiliyinə edilmiş son dəyişikliklər nəticəsində sadələşdirilmiş verginin dərəcəsi ölkə üzrə 2 faizə salınıb, muzdlu işdə çalışan işçilər üzrə 8000 manatadək əmək haqlarının gəlir vergisindən azad edilməsi, habelə mikrosahibkarlıq subyektlərinə gəlirlərini 75 faizə qədər azaltmağa imkan verən ciddi vergi güzəştləri tətbiq olunub, kiçik və orta sahibkarlıq subyektləri üçün əlavə vergi stimullaşdırmaları və güzəştlər müəyyən edilib.

Nəticə olaraq aşağdakıları qeyd edə bilərik:

- Regionlarda sahibkarlığın inkişafı üçün ayrı-ayrı sahibkarlıq sahələrinə xüsusi vergi dərəcələri və güzəştli vergi siyasətinin tətbiqi məqsədəuyğundur;
- Kiçik və orta sahibkarlıq fəaliyyətinin ÜDM-də payının artırılması vacib məsələlərdəndir;
- İkiqat vergitutmanın qarşısını almaq üçün sahibkarlara marifləndirici məlumatlar verilməsi məqsədyönlüdür.

**Məmmədli Aynur**
**doktorant**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**mammadli-2012@mail.ru**

## Rəqəmsal maliyyə xidmətlərinin inkişafının qiymətləndirilməsi

Maliyyə institutlarında maliyyə inklüzivliyinin təhlil olunması hazırki vaxtda çox önəmlidir. Bu hər şeydən əvvəl müştəri məmnuniyyətinin təmin olunmasına yönəldilib. Həmçinin maliyyə institutlarında tənzimləmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi bu sektora inamı yüksəldir. Maliyyə institutlarının maliyyə inklüzivliyinin təmin edilməsinin əsas hədəflərindən biri maliyyə sisteminə olan inamı yüksəltməkdir. Müasir dövrdə maliyyə sisteminin təkmilləşdirilməsi üçün zəruri şərtlərdən biri də koordinasiyanın düzgün təşkil olunması və maliyyə xidmətlərindən istifadənin asanlaşdırılmasıdır.

Maliyyə inklüzivliyinin təmin edilməsinin əsas hədəflərindən biri maliyyə sabitliyinin qorunmasıdır. Maliyyə intitutlarında maliyyə sabitliyinə nail olmaq müasir dövrdə maliyyə sistemində dayanıqlılığın qorunması üçün zəruridir. Maliyyə sistemində prudensial tənzimləmə və nəzarətin güclənməsi maliyyə sabitliyinin təmin edilməsində mühüm rol oynayır. Maliyyə xidmətlərinə əlçatanlıq səviyyəsinin yüksəldilməsi maliyyə sferasına, əsasən bank sektoruna etimadın artmasına mühüm təsir göstərir.

Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin təmin edilməsində əsas istiqamət burada tətbiqi zəruri olan inkişaf modelinin qurulması və bunun üçün aşağıdakı kompleks tədbirlərin görülməsidir.

1. Maliyyə inklüzivliyinin təminatı üçün maliyyə sistemi infrastrukturunun təkmilləşdirilməsi;
2. Maliyyə sisteminin inkişaf potensialının artırılması;
3. Maliyyə sistemində güclü, dinamik institutların formalaşdırılması;
4. Risklərin idarə edilməsinin keyfiyyətini artırmaq;
5. Maliyyə sistemində tənzimlənmənin gücləndirilməsi;

Hazırki dövrdə iqtisadi mühitdə risklərin idarə olunmasının təkmilləşdirilməsini zəruri edən əsas faktor maliyyə institutlarında risklərə həssaslığın artması ilə əlaqədardır. Maliyyə institutlarında rəqəmsal transformasiyanı stimullaşdıran sağlam risk idarəetməsinin yaradılması, yeni nəzarət üsulları və tənzimlənmə formalarının qurulması üçün strateji hədəflərin müəyyən edilməsi maliyyə inklüzivliyinin təminatı üçün zəruridir. Maliyyə institutlarında maliyyə xidmətləri istehlakçılarının maliyyə savadlılığının artırılması, həmçinin maliyyə mütəxəssislərinin bilik və bacarıqlarının yüksəldilməsi, dayanıqlı, effektiv, sağlam maliyyə sisteminin formalaşdırılması müasir dövrdə mühüm əhəmiyyət kəsb edir. Bunun üçün bir sıra strateji hədəflər müəyyən edilməlidir, məsələn, maliyyə mütəxəssislərinin savadlılığının artırılması, dünya iqtisadiyyatındakı informasiya texnologiyalarının sürətli inkişafı və onun respublikaya transformasiyasının stimullaşdırılması bunlara misal ola bilər. Maliyyə inklüzivliyinin müasir dövrdə təmin olunmasının üsulları kimi aşağıdakıları qeyd edə bilərik:

1. Maliyyə institutlarında əməliyyat modellərinin təkmilləşdirilməsi;
2. Maliyyə xidmətlərinin rəqəmsallaşması;
3. Maliyyə institutlarında prudensial tənzimləmə və nəzarətin artırılması;
4. Maliyyə sistemində yeni bilik və bacarıqların inkişaf etdirilməsi;
5. Maliyyə subyektlərinin davranış modellərinin dəyişməsi;
6. Maliyyə sistemində daxili və xarici şoklara qarşı dayanıqlılığın təmin olunması;
7. Alternativ bankçılığın genişlənməsi.

Maliyyə inklüzivliyinin təmin edilməsində əsas zərurət maliyyə sabitliyinin qorunmasıdır. Maliyyə sabitliyinə mənfi təsir edən amillərdən biri də maliyyə bazarlarında emitentlərin və investor aktivliyinin məhdud olmasıdır. Qiymətli kağızlar bazarına neqativ

təsir göstərən amillərdən biri məlumat çatışmazlığı, ənənəvi təksahiblik düşüncəsi, maliyyə alətləri, investorların kapital bazarı, potensial emitentlər barədə informasiyanın azlığıdır. Bu amillər iqtisadiyyatda maliyyə resurslarının qeyri-səmərəli bölüşdürülməsinə səbəb olur. Belə məhdudlaşdırıcı amillərin aradan götürülməsi, bazar iştirakçıları üçün əlverişli mühitin yaradılması, pul və kapital bazarlarının inkişafı zəruridir.

Maliyyə sabitliyinə nail olmaqda likvidlik və kapitallaşma üçün tədbirlərin həyata keçirilməsi zəruridir. Mövcud dövrdə problemli bankların restrukturizasiyası tədbirlərinin tamamlanmaması, səhmdarların banklara əlavə kapital yerləşdirmək marağının azalması, institutsional və hüquqi mexanizmlərin formalaşdırılmasında gecikmələrin müşahidə olunması makroiqtisadi mühitdə mənfi meyllərin davam etməsinin nəticəsi olaraq problemli bankların sayının artması və bu da nəzərdə tutulan məqsədlərə nail olmaqda çətinliklərin yaranmasına səbəb olur.

Milli valyutanın devalvasiyasından sonra banklarda qeyri-işlək aktivlərin həcmi artmışdır. Bu səbəbdən qeyri-işlək aktivlərin restrukturizasiyasına ehtiyac vardır. Qeyri-işlək kreditlərin həcminin artması kredit portfelinin keyfiyyətinin pisləşməsi meyllərinin davam edəcəyini göstərir. Belə ki bankların qeyri-işlək aktivlərlə iş prosedurunun düzgün təşkil olunmaması, kredit risklərinin ötürülməsi alətlərindən doğru istifadə olunmaması bankların böyük itkilərlə üzləşməsinə səbəb olur. Bank sektorunda maliyyə sabitliyinin təmin olunması üçün aşağıdakı tədbirlərin görülməsi zəruridir:

1. Kredit və likvidlik risklərinin birgə təhlil olunması;
2. Kreditlərin risk modelinin təkmilləşdirilməsi;
3. Bank sisteminin kapitallaşmasında likvidliyin təmin olunması;
4. Maliyyə sisteminin inklüzivliyinin gücləndirilməsi.

Sığorta təşkilatlarının ümumi iqtisadi inkişafa və maliyyə sektoruna təsiri minimum səviyyədədir. Belə ki sığorta haqlarının ÜDM-ə nisbətinin aşağı səviyyədə olmasının səbəblərindən biri sığorta təşkilatlarının risklər haqqında tam məlumatlı olmamasıdır. Bu da sığorta təşkilatlarını yeni məhsul növlərini hazırlamaqda maraqlı etmir. Həmçinin müəyyən sığorta məhsullarına əlçatanlıq səviyyəsinin aşağı olması sığorta təşkilatlarında sığortalanma səviyyəsinin zəif olmasının səbəbidir. Sığorta təşkilatlarında maliyyə inklüzivliyinin təmin etdirilməsi üçün aşağıdakı zəruri tədbirlər görülməlidir:

1. Sığorta bazarının genişlənməsi;
2. Sığorta təminatı almayan əhali hissəsinin sığorta məhsulları ilə əhatə olunması;
3. Maliyyə xidmətlərinə çıxışın artırılması.

Maliyyə institutlarının sağlamlaşdırılmasında daha effektiv alətlərdən istifadə məqsədəuyğundur. Bu maliyyə institutlarının restrukturizasiyası prosesində dövlət vəsaitlərindən istifadəni minimuma çatdırır. Maliyyə sektoruna nəzarətin təşkilində riskəsaslı yanaşma prinsipləri daha çox müşahidə olunur. Riskəsaslı yanaşma prinsiplərinin tətbiqi zamanı nəzarət orqanları tərəfindən maliyyə institutlarının strategiyaları daha dəqiq təhlil olunur ki, bu da preventiv tədbirlərin həyata keçirilməsi üçün zəruridir. Eyni zamanda banklar üzərində tənzimləmə mexanizmlərinin güclənməsi onların maliyyə bazarlarının digər iştirakçıları ilə müqayisədə rəqabətqabiliyyətliliyini azaldır. Bu da alternativ bankçılığın cəlbediciliyini artırır.

Dünya təcrübəsində istifadə olunan metodların tətbiqi nəticəsində maliyyə sistemi mütərəqqi risklərin idarə olunmasına yönləndiriləcək ki, bu da maliyyə xidmətlərində və hesablarda şəffaflığı təmin edəcək, maliyyə inklüzivliyini artıracaq və rəqəmsallaşmanı inkişaf etdirən nəzarət mexanizmini formalaşdıracaqdır.

Müasir dövrdə maliyyə institutlarında, xüsusən də banklarda maliyyə inklüzivliyinin artırılması, bunun üçün ümumilikdə maliyyə sisteminin sağlamlaşdırılması, qeyri-işlək aktivlərin restrukturizasiyası, maliyyə institutlarında mövcud olan kapitallaşma və likvidlik problemlərinin həll olunması nəzərdə tutulur.

**Məmmədov Məhəbbət**
**professor**
**Ələkbərov Vasif**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**m.m.asirli@mail.ru**
**vasif0060@mail.ru**

## Maliyyə nəzarətinin mahiyyəti, prinsipləri və dövlət maliyyə nəzarətinin təsnifləşdirilməsi

Müasir iqtisadi şəraitdə iqtisadiyyatın idarə edilməsində, xüsusilə bazar münasibətləri şəraitində maliyyə nəzarətinin rolu və əhəmiyyəti getdikcə artır. Maliyyə nəzarəti bir tərəfdən maliyyə idarə edilməsinin həlledici hissəsi, digər tərəfdən maliyyə sisteminin idarə olunmasının effektliliyinin vacib şərti kimi çıxış edir.

Dövlətin maliyyə sisteminin düzgün idarə olunması, onun iqtisadi gücünün və maliyyə mexanizminin səmərəliliyinin artırılması yolunda maliyyə nəzarəti əhəmiyyətli rol oynayır. Müasir dövrdə maliyyə nəzarətinin düzgün təşkil olunması aktual məsələlərdəndir.

Maliyyə nəzarəti - bütün iqtisadi subyektlər: dövlət, müəssisə və təşkilatların maliyyə fəaliyyəti üzərində qanunverici və icraedici hakimiyyət orqanlarının nəzarətidir. Onun məqsədi dövlətin iqtisadi siyasətinin uğurla yerinə yetirilməsini təmin etmək, xalq təsərrüfatının bütün sahələrində maliyyə ehtiyatlarının formalaşması və onlardan səmərəli istifadə prosesini gerçəkləşdirməkdir.

Maliyyə nəzarətinin yeri və rolunu obyektiv qiymətləndirmək üçün ona iki aspektdən baxmaq lazımdır:

Geniş mənada dövlət və bələdiyyə maliyyə nəzarəti effektiv dövlət maliyyə siyasətinin həyata keçirilməsi üçün dövlətin iqtisadi təhlükəsizliyini və ictimai maliyyə fəaliyyəti prosesində dövlət və bələdiyyə maraqlarına riayət etməni təmin edən dövlət tənzimləməsinin ölçülərinin məcmusudur.

Dar mənada dövlət və bələdiyyə maliyyə nəzarəti ölkənin effektiv sosial-iqtisadi inkişafı, pul vəsaitlərinin toplanması, bölüşdürülməsi və istifadəsinə dövlət və bələdiyyələrin və həmçinin digər səlahiyyətli orqanların nəzarətidir.

Maliyyə nəzarətinin prinsiplərini aşağıdakı kimi təsnifləşdirmək olar:
- Qanunçuluq prinsipi;
- Aşkarlıq prinsipi;
- Müstəqillik prinsipi;
- Obyektivlik prinsipi;
- Məsuliyyət prinsipi;
- Planlılıq prinsipi;
- Sistemlilik prinsipi;
- Səriştəlik prinsipi.

Maliyyə nəzarəti sistemində maliyyə nəzarəti infrastrukturunu təşkil edən elementlər vardır. Maliyyə nəzarətinin əsas elementlərinə aşağıdakıları aid eləmək olar:
- Obyekt və subyekt;
- İnformasiya, hüquqi və metodik təminatı;
- Nəzarət prosesinin bütün iştirakçılarının məsuliyyət tədbirləri.

S.V.Stepaşin "Dövlət maliyyə nəzarəti" əsərində maliyyə nəzarətinin obyekti olaraq milli gəlirin istehsalı, bölüşdürülməsi və onun səmərəli istifadəsinə dair, bir tərəfdən dövlət, digər tərəfdən hüquqi və fiziki şəxslər arasında yaranan münasibətlər kimi müəyyən edir.

Maliyyə nəzarətini həyata keçirən subyektlərdən asılı olaraq dövlət, sahədaxili, şirkətdaxili, Kommersiya bankları tərəfindən nəzarət, ictimai, müstəqil, hüquqi və mülki növləri fərqləndirilir:

Maliyyə nəzarəti əsasən iki formada aparılır:

- Dövlət maliyyə nəzarəti;
- Qeyri-dövlət maliyyə nəzarəti.

Dövlət maliyyə nəzarəti dövlət hakimiyyəti orqanları tərəfindən həyata keçirilir. Onun əsas məqsədi dövlətin pul vəsaitərinin xərclənməsi və gəlirlərin toplanması zamanı dövlətin və cəmiyyətin maraqlarını təmin etməkdir. Dövlət maliyyə nəzarəti qanunvericilik hakimiyyəti üzrə parlament tərəfindən, prezident xətti üzrə prezident tərəfindən, icra hakimiyyəti xətti üzrə hökumət tərəfindən həyata keçirilir.

Dövlət maliyyə nəzarətinin əsas ünsürlərinin elmi cəhətdən əsaslandırılmış təsnifatı dövlət idarəetməsinin əsas tərkib hissələrindən biridir. Müasir iqtisadi şəraitdə yeni nəzarət sisteminin təşəkkül tapması nəzarətin növləri məsələsinin mahiyyətinin aydınlaşdırılmasını, onun subyektlərinin və nəzarət fəaliyyətinin xarakterinin müəyyənləşdirilməsini zəruri edir. Dövlət maliyyə nəzarətinin tipi üzrə təsnifləşdirmə xüsusi rola malikdir. Qeyd etmək lazımdır ki, tipologiyanın əsasında mahiyyət əlaməti dayanmalıdır. Dövlət maliyyə nəzarətinin aşağıdakı tiplərini nəzərdən keçirmək olar:

- Maliyyə-büdcə nəzarəti. Maliyyə-büdcə nəzarəti dövlət büdcəsini vahid tam kimi, yəni konkret iqtisadi vahidlərə toxunmadan əhatə edir;
- Maliyyə-təsərrüfat nəzarəti. Maliyyə-təsərrüfat nəzarəti qarşılıqlı fəaliyyəti, dövlətin maliyyə-iqtisadi sisteminin ayrı-ayrı təsərrüfat subyektlərinin fəaliyyətini əhatə edir.

Dövlətlə əlaqəsinin xarakterinə görə, dövlət maliyyə nəzarəti aşağıdakı qaydada təsnifləşdirilə bilər:

- dövlətdaxili maliyyə-iqtisadi münasibətlərə yönəlmiş nəzarət;
- təsərrüfat subyektlərini, o cümlədən dövlətin xarici kontragentlərlə maliyyə-iqtisadi münasibətlərini əhatə edən nəzarət.

İdarəetmə qaydası və məsələlərin həlli baxımından dövlət maliyyə nəzarəti orqanları kollegial və vahid rəhbərlik əsasında ola bilər. Dövlət maliyyə nəzarəti onun orqanlarının səlahiyyətlərinin xarakteri baxımından aşağıdakı kimi təsnifləşdirmək olar:

- Ümumi səlahiyyətli dövlət maliyyə nəzarəti orqanları;
- Sahə səlahiyyətli dövlət maliyyə nəzarəti orqanları;
- Sahələrarası səlahiyyətli dövlət maliyyə nəzarəti orqanları;
- Xüsusi səlahiyyətli dövlət maliyyə nəzarəti orqanları.

Təsnifat əlaməti kimi, nəzarət obyektlərinin aşağıdakı formada konkretləşdirilməsi səviyyəsindən də istifadə etmək olar:

- qismən (və ya lokal) nəzarət;
- ümumi nəzarət.

Obyekt barədə təsəvvürlərin bitkinlik dərəcəsinə görə dövlət maliyyə nəzarətini dərin nəzarət, təxmini nəzarət növlər üzrə təsnifləşdirmək olar.

Vaxt aspektində nəzarət ya daimi, ya da birdəfəlik ola bilər.

Həmçinin, məzmununa görə də nəzarət aşağıdakı kimi fərqlənir:

- bilavasitə nəzarət edilməsi;
- əvvəllər çıxarılmış nəzarət qərarlarının icrasının yoxlanılması (yəni nəzarət yoxlaması).

Nəticə olaraq qeyd etmək istəyirəm ki, respublikamızda maliyyə nəzarətinin tədqiqi göstərir ki, maliyyə nəzarəti sisteminin müasir dövrün tələblərinə uyğun təşkili və təkmilləşdirilməsi olduqca vacibdir. Bu məqsədlə ilk növbədə maliyyə nəzarətinin müasir formalarının təşkili və fəaliyyətlərinin təmin edilməsi, nəzarət sisteminin koordinasiyası, onun təsirinin artırılması təmin edilməlidir. Çünki dövlət maliyyə nəzarəti vasitəsilə planlaşdırılmış bütün vəsaitlərin vaxtında dövlət fondlarına daxil olunmasına və bu vəsaitlərdən məqsədyönlü istifadəyə nəzarət həyata keçirilir.

**Məmmədova Afət**
**dosent**
**Atakişi Baladə**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**mamedova_afet4@mail.ru**
**balade.123@mail.ru**

## Regionlarda beynəlxalq standartlara uyğun maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri

Ölkəmizdə iqtisadi inkişafın müasir dövründə müəssisə və təşkilatların idarə edilməsində mühasibat uçotu və maliyyə hesabatının rolu get-gedə artmaqdadır. Mühasibat uçotu və maliyyə hesabatı sahəsində beynəlxalq standartların ölkəmizdə tətbiq olunması və onların əsasında Azərbaycan iqtisadiyyatının özəlliklərinə uyğunlaşdırılmış milli standartların yaradılması ölkə iqtisadiyyatının dünyanın inkişaf etmiş iqtisadi qurumlarına müvəffəqiyyətlə və əlverişli şəkildə inteqrasiyasına və yüksələn templə inkişaf etdirilməsinə hesablanmışdır. Bununla əlaqədar olaraq, son onillikdə mühasibat uçotu və maliyyə hesabatının bir çox məsələlərində ciddi dəyişikliklər meydana gəlmişdir. Demək olar ki, mühasibat uçotu və maliyyə hesabatı nəzəri və praktiki cəhətdən dəyişikliyə uğramış və müasir bazar iqtisadiyyatının tələblərinə tamamilə uyğun olan yeni iqtisadi əsaslar üzərində formalaşdırılmışdır.

Ölkənin beynəlxalq iqtisadi əlaqələr qurmaq istəyən hər bir müəssisəsi şirkətin maliyyə hesabatının MHBS-na uyğun tərtib edilməsi zəruriliyini dərk edir və bunu etməyə çalışır.

Azərbaycanda və onun regionlarında beynəlxalq standartlara uyğun maliyyə hesabatının səmərəli tərtib olunması mühüm məsələlərdən biridir. Maliyyə hesabatlarının tərtib olunması və təqdimatı üzrə konseptual əsaslar faktiki olaraq, bütün BMUS (Beynəlxalq Mühasibat Uçotu Standartları) və BMHS (Beynəlxalq Maliyyə Hesabatı Standartları)-ın təməlini təşkil edir.

Konseptual əsaslarda qeyd olunur ki, maliyyə hesabatlarının keyfiyyət xüsusiyyətləri hesabatlardakı məlumatların istifadəçilər üçün faydalı olmasını təmin edən əsas atributlardır. Dörd əsas keyfiyyət göstəricisi mövcuddur:

- anlaşıqlılıq;
- münasiblik;
- etibarlılıq;
- müqayisəlilik.

Anlaşıqlılıq dedikdə yəni istifadəçilər maliyyə hesabatlarını anlaya bilməlidirlər. Onların müəyyən kommersiya, iqtisadi və mühasibat biliklərinə malik olmaqları və məlumatları düzgün öyrənmək üçün bu bilikləri tətbiq edə bilməkləri fərz olunur. Mürəkkəb məsələlər faydalı informasiyanı əks etdirərlərsə sadəcə olaraq, mürəkkəb olduqlarına görə maliyyə hesabatlarından kənarlaşdırılmalıdır.

Münasiblilik dedikdə yalnız münasib məlumat faydalı ola bilər. Məlumat istifadəçilərə keçmiş, indiki, gələcək hadisələri qiymətləndirməyə və ya keçmiş qiymətləndirməni təsdiq və ya inkar etməyə kömək etdikdə münasib sayıla bilər.

Etibarlılıq dedikdə məlumatların faydalı olması üçün o həm də etibarlı olmalıdır, başqa sözlə, əhəmiyyətli səhvlər müşahidə edilməməli və qərəzsiz olmalıdır, istifadəçi onun həqiqi təsvir edildiyindən əmin olmalıdır.

Müqayisəlilik dedikdə istifadəçi müəssisənin maliyyə hesabatlarının müvafiq məqsədlər baxımından müqayisə edə bilməlidir. Yəni istifadəçi müəssisənin maliyyə hesabatlarının aşağıdakı məqsədlər baxımından müqayisə edə bilməlidir:

- Dövrlər arası, dəyişiklikləri müəyyənləşdirə bilmək üçün;

- Digər müəssisələrin hesabatları ilə, onların nisbi maliyyə vəziyyətlərini, nəticələrini və maliyyə vəziyyətlərində dəyişiklikləri qiymətləndirə bilmək üçün.

Bu səbəbdən, oxşar maddələrin uçotunun dövrlər üzrə və ya müəssisələr arasında eyni üsulla aparılması çox vacibdir. Burada uçot siyasətinin açıqlanması xüsusi əhəmiyyət daşıyır. İstifadəçi müxtəlif müəssisələrin müvafiq maddələrini müqayisə edə bilmək üçün istifadə edilmiş müxtəlif metodları aydın fərqləndirə və dərk edə bilər.

Müəssisənin maliyyə hesabatlarının əsas istifadəçiləri onun sahibləri, səhmdarlardır. Faktiki olaraq maliyyə hesabatları xüsusi olaraq bu böyük qrupa ünvanlanıb. Bu onunla əlaqədardır ki, müəssisə sahibləri müəssisənin işə başlaması üçün onu ilkin kapitalla təmin edən qrupdur. Müəssisə iflasa uğradığı zaman səhmdarların vəsaiti risk altında qalır. Onlar investisiyalarının sadəcə təhlükəsiz olmasına yox, həm də artmasına əmin olmaq üçün müəssisə haqqında mümkün olduqca dolğun və dəqiq məlumat istəyirlər. standart qayda olaraq, əgər səhmdarlar müəssisənin maliyyə hesabatlarındakı məlumatlarla razıdırlarsa, onda digər istifadəçi qrup da arxayın ola bilərlər.

Potensial investorlar da yuxarıda qeyd olunan məlumatları görmək istəyirlər, çünki onlar da şirkətin yeni sahibkarları (səhmdarları) ola bilərlər. Onlar maliyyə hesabatlarını müəssisənin davamlı investisiya etmək üçün yararlı olub-olmamasını dəyərləndirmək üçün istifadə edirlər.

Rəhbərlik şirkətin maliyyə hesabatlarını öz qərarlarında, fəliyyətlərində ilboyu “əsas mənbə” kimi götürürlər. Bu ona görədir ki, hesabatlar bu qərarların və fəaliyyətlərin müəssisə üçün nə dərəcədə gəlirli (ya zərərli) olduğunu əks etdirir.

Maliyyə vəsaitini təmin edən qurumlar - banklar və digər maliyyə institutları kimi kreditorlar şirkəti öz fəaliyyəti davam etdirmək və ya biznesini genişləndirmək üçün maliyyə vəsaitləri ilə təmin edirlər.

Müəssisə ilə ticari əlaqələri olan qurumlar dedikdə, müəssisənin təchizatçıları və müştəriləri başa düşülür. Onlar bu hesabatlardan müəssisənin onlardan sifariş etdiyi əmtəə və xidmətlətin dəyərini ödəmək qabiliyyətinin aşkar etmək üçün maliyyə vəziyyətini və nəticələrini təhlil etmək üçün istifadə edirlər. Müştərilər adətən əməkdaş olduqları müəssisələrin maliyyə hesabatları ilə daha az maraqlanırlar. Bu ona görədir ki, adətən onların müəssisə ilə əlaqələri əmtəə və xidmətlərin satışı baş verdikdə tamamlanır. Lakin müəssisə ilə davamlı əlaqədə olan müştərilər gələcək illərdə müəssisənin öz fəliyyətini davam etdirəcəyini müəyyən etmək məqsədilə onun maliyyə hesabatları ilə maraqlanırlar.

Müəssisənin işçiləri həmin müəssisənin maliyyə vəziyyəti və nəticələri ilə yaxından maraqlanırlar, çünki işçilərin əmək haqqlarının yeganə mənbəyidir. Əlavə olaraq, zəif fəaliyyət göstərən və ya zəif maliyyə nəticələrinə malik bir müəssisə adətən iş həyatında irəliləmək, karyera və s. kimi imkanlar təklif etmək iqtidarında olmur. İşçilər şirkətin perspektivini maliyyə hesabatlarından görə bilərlər.

Dövlət milli iqtisadi statistikanı, məsələn ölkənin ÜDM (ümumi daxili məhsul) tərtib edərkən müəssisələrin maliyyə hesabatlarında mənbə kimi istifadə edir. Bu dövlətə müxtəlif siyasi qərarların qəbulunda köməklik göstərir.

Maliyyə analitikləri, birja dəllaları, maliyyə müxbirləri. Bu qrup istifadəçilər müəssisələrin maliyyə vəziyyətini və nəticələri haqqında təsəvvür əldə etmək üçün onların maliyyə hesabatlarını təhlil edirlər. Onlar bu hesabatlardan həmçinin, müəssisənin gələcək maliyyə vəziyyəti və nəticələrini proqnozlaşdırmaq üçün də istifadə edirlər. Bu proqnozlardan asılı olaraq, onlar öz müştərilərinə (potensial investorlara) hər hansı bir müəssisəyə investisiya etmək barədə məsləhət verə bilərlər.

Vergi orqanları maliyyə hesabatlarından verginin məbləğini təyin etmək üçün istifadə edirlər. Mənfəət və zərər haqqında hesabatda göstərilən gəlir vergiyə cəlb olunan gəliri hesablamaq üçün bir başlanğıc nöqtəsidir. Gəlir və satınalma göstəricilərindən ƏDV öhdəliyini hesablamaq üçün istifadə edilir.

**Məmmədova Afət**
**dosent**
**Həsənov Təhmasib**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**mamedova_afet4@mail.ru**
**gasanov.tehmasib1@gmail.com**

## Regionlarda beynəlxalq standartlara uyğun mühasibat (maliyyə) hesabatlarının tərtibi və istifadəçilər üçün əhəmiyyəti

Müasir dünyada informasiyanın rolu dönmədən artmaqdadır. Sahibkarlıq fəaliyyətində mənfəətin əldə edilməsində və kapitalın artımında öz əksini tapan işgüzar müvəffəqiyyət iqtisadi informasiyaların keyfiyyətindən asılıdır. İnvestisiya qərarlarının qəbulu, müştərilərin, malsatanların və digər işgüzar partnyorların seçilməsi üçün məlumatların tamlığı və etibarlılığı mühüm şərtdir.

Mühasibat hesabatı dedikdə, istifadəçi üçün qəbul ediləsi görünüşdə təqdim olunan informasiyalar başa düşülür.

Azərbaycanda ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan islahatların mühüm bir istiqaməti kimi şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı mübarizə və sahibkarlığın inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilir. Şəffaflığın artırılması, iqtisadi səmərəliliyin yüksəldilməsi, tərəfdaşlarla və dövlət qurumları ilə münasibətdə etibarlılığın və ictimai etimadın gücləndirilməsi hər bir müəssisədən beynəlxalq standartlara və ölkə qanunvericiliyinə uyğun hesabatların, o cümlədən maliyyə hesabatlarının hazırlanmasını və müvafiq qaydada təqdim olunmasını tələb edir. Azərbaycan iqtisadiyyatı inkişaf etdikcə, onun səmərəliliyinin yüksəldilməsi zərurəti günün tələblərinə çevrildikcə və dünya iqtisadiyyatına inteqrasiyası genişləndikcə xarici investisiyaların daha geniş cəlb edilməsi, müəssisələrin fəaliyyəti barədə daha dolğun, obyektiv və operativ, eyni zamanda, idarəetməyə və proqnozlaşdırmaya yararlı informasiya sisteminin mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan respulikamızda və onun regionlarında müəssisələrin Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə cavab verən maliyyə hesabatlarının tərtib edə bilməsi vacib məsələlərdəndir. Qeyd etmək lazımdır ki, maliyyə hesabatları mühasibat uçotu prosesinin bir məhsuludur.

Hesabat - elə bir əlaqə vasitəsidir ki, onun köməyi ilə informasiya onu göndərəndən alana ötürür. Bu hesabatlar eyni zamanda hər hansı bir müəssisəyə aid olan maliyyə məlumatlarının müxtəlif məqsədlər güdən və fərqli ixtisas və peşə mənbələrindən qaynaqlanan insan qruplarına rəsmi ötürülmə üsuludur.

Maliyyə hesabatlarından kənar istifadəçilər biznesə (müəssisəyə) yatırım etmək, borc vermək və ya kredit ayırmaq kimi qərarlarların verilməsində əsas rol oynayır. Maliyyə hesabatlarından daxili istifadəçilər isə öz növbəsində idarə etdikləri şirkətin maliyyə hesabatlarını araşdıraraq əldə edilən məlumatlardan biznesin gedişatını dəyərləndirmək, qarşıdan gələn dövrlər üçün strateji planlar qurmaq, nəticələrdən asılı olaraq rəhbərliyə ödənilən maddi mükafatların həcmini müəyyən etmək və sairə vacib qərarların verilməsində istifadə edə bilərlər. Bu baxımdan, maliyyə hesabatları əksər biznes qərarlarının verilməsində istifadə olunan önəmli məlumat mənbəyidir və o, mühasibat uçotu məlumatları əsasında hazırlanan müəssisənin maliyyə vəziyyəti, onun fəaliyyətinin maliyyə nəticələri və onun maliyyə vəziyyətinin dəyişməsi barədə vahid məlumat sistemidir.

“Maliyyə hesabatlarının təqdimatı üzrə” Kommersiya Təşkilatları üçün 1 N-li Milli Mühasibat Uçotu Standartında qeyd edilir ki, maliyyə hesabatları - istifadəçinin konkret məlumat ehtiyaclarına cavab verən hesabat tələb etmək hüququ olmadıqda, onun bu tələbatını ödəmək məqsədi ilə tərtib edilmiş ümumi təyinatlı hesabatlardır.

Maliyyə hesabatlarının tam məcmusu aşağıdakılardan ibarətdir:
- Mühasibat balansı;
- Mənfəət və zərər haqqında hesabat (Xərclərin funksiyaları üzrə);
- Mənfəət və zərər haqqında hesabat (Xərclərin xüsusiyyatı üzrə);
- Kapitalda dəyişikliklər haqqında hesabat;
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
- Uçot siyasəti və izahlı qeydlər.

Bazar iqtisadiyyatı şəraitində mühasibat (maliyyə) hesabatı qarşısında bir sıra vəzifələr qoymuşdur. Həmin vəzifələr aşağıdakılarla xarakterizə edilir:

a) hesabat bazar iqtisadiyyatının və beynəlxalq standartların tələblərinə cavab verməklə, ona uyğun qurulmalıdır;

b) hesabat göstəriciləri etibarlı, ardıcıl, müqayisə olunan və düzgün olmalıdır;

c) hesabat sadə anlaşılan olmaqla, müəyyən olunmuş vaxtlarda tərtib olunub, təyinatlara uyğun olaraq təqdim olunmalıdır.

Maliyyə hesabatlarından maliyyə hesabatları vasitəsilə təmin edilmiş məlumatlar daxili və xarici istifadəçilərə aşağıdakı sualların cavablandırılmasında əhəmiyyətli ola bilər:

- Biznes nə dərəcədə gəlirlidir?

- Biznes özünün əsasını təşkil edən əməliyyatlar üzrə fəaliyyətdən kifayət qədər pul axını əldə edə bilir?

- Biznes arta bilmişdir? Əgər müəssisə böyümüşdürsə, bu hansı yollarla baş vermişdir? Müəssisənin gəlirləri hesabına, təsisçi tərəfindən əlavə yatırımlar vasitəsilə yoxsa borc götürərək?

- Biznes özünün cari borc və öhdəliklərini ödəmək üçün kifayət qədər pul axını əmələ gətirə bilir?

- Biznesin uzun müddətli borc və öhdəlikləri ödəmək iqtidarında qala bilmə ehtimalı nə qədərdir?

- Biznesin vəsaitləri nədən ibarətdir və bu vəsaitlərin həcmi nə qədərdir? Biznesin vəsaitlərinə olan iddialar hansılardır? Bu iddiaların həcmi nə qədərdir?

Daxili və xarici istifadəçilər suallardan bir çoxuna cavab birbaşa olaraq maliyyə hesabatlarında təqdim olunan məlumatlarda və ya dolayı yolla maliyyə hesabatlarında rast gəlinən elementlərin qarşılıqlı əlaqəsini və digər xüsusi qeydləri incələməklə tapıla bilər. Tapılan cavablar isə onlara hər hansı bir biznesi satın almaq və ya səhmdara çevrilərək o biznesə yatırım etmək kimi qərarları icra etməkdə kömək edəcəkdir. Bundan əlavə bu cavablar xarici istifadəçilərə hər hansı bir biznesə kredit ayırmaq və ya artıq ayırmış olduğunuz borcun qaytarılma ehtimalını yenidən nəzərdən keçirmək baxımından əhəmiyyətlidir.

**Məmmədova Afət**
**dosent**
**İbrahimova Nəzrin**
**magistrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti**
**mamedova_afet4@mail.ru**
**nezrin.ibrahimova1995@gmail.com**

## Region müəssisələrində mənfəət və zərər haqqında hesabatın məqsədli istiqaməti

Müəssisə hər bir hesabat verilməli seqment üçün mənfəət və ya zərərin, ümumi aktivlərin qiymətləndirilməsinin hesabatını verməlidir. Məbləğ mütəmadi olaraq baş qərar

qəbul edən şəxsə təqdim olunan halda, müəssisə hər bir hesabat verilməli seqment üçün öhdəliklərin qiymətləndirilməsinin hesabatını verməlidir. Müəssisə, həmçinin seqmentin mənfəət və zərərinə həmin qiymətləndirmə daxil edilmədiyi halda belə, baş qərar qəbul edən şəxs tərəfindən təhlil edilən mənfəət və zərərin qiymətləndirilməsinə dəqiq məbləğlər daxil edilən və ya başqa yolla baş qərar qəbul edən şəxsə təqdim edilən halda, hər bir hesabat verilməli seqment haqqında aşağıdakıları acıqlamalıdır:

- kənar müştərilərdən olan gəlir;
- eyni müəssisənin müxtəlif əməliyyat seqmentləri ilə olan razılaşmalardan alınan gəlir;
- faiz gəlirləri;
- faiz xərcləri;
- amortizasiya və qiymətdəndüşmə xərcləri;
- kommersiya təşkilatları üçün "Maliyyə Hesabatlarının təqdimatı üzrə" 1№-li MMUS-ə uyğun olaraq açıqlanmış gəlir və xərc maddələri;
- müəssisənin digər birgə müəssisələrin mənfəət və zərərindəki kapital metodu ilə uçota alınmış payı;
- gəlir vergisi xərci və ya gəliri;
- amortizasiya və qiymətdəndüşmədən başqa, digər maddi qeyri-pul maddələri.

Maliyyə nəticələrinin uçotu məsələlərinə aşağıdakılar daxildir.

1. Maliyyə nəticələri anlayışı;
2. Gəlirlərin təsnifatı;
3. Xərclərin təsnifatı;
4. Əsas fəaliyyətdən gəlirlərin və xərclərin uçotu;
5. Sair gəlirlərin və xərclərin uçotu;
6. Mənfəətin (zərərin) formalaşması;
7. Mənfəətin (zərərin) istifadə olunmasının uçotu.

Hesabat ilində təşkilatların bütün fəaliyyətlərinin nəticəsi ya mənfəət, ya da zərərlə nəticələnir. Kommersiya təşkilatlarında mənfəət əsas etibarı ilə məhsulların satışı prosesində və məhsulların satışından olan pul vəsaiti və həmin satılan məhsulların tam faktiki maya dəyəri və əlavə dəyər vergisi və aksizlərin məbləği arasındakı fərq kimi yaranır. Beləliklə, təşkilatın təsərrüfat hesablı fəaliyyətinin əsasını mənfəət təşkil edir. O iki mühüm fınksiyanı yerinə yetirir:

1. Təşkilatın fəaliyyətinin son maliyyə nəticələrini, onun pul yığımının həcmini xarakterizə edir. Mənfəətin həcmi aşağıdakılardan asılıdır: satılmış məhsulların həcmindən, məhsulların keyfiyyətindən, əsas fondlardan, maddi və əmək ehtiyatlarından səmərəli və faydalı istifadə edilməsindən (maya dəyərinin aşağı salınması), təşkilatın işinin keyfiyyətindən (malgöndərənlər, malalanlar, banklar qarşısında öhdəliyin yerinə yetirilməsi);

2. Mənfəət təşkilatın istehsal və sosial inkişafına məsrəflərin maliyyələşdirilməsinin əsas mənbəyi hesab olunur; Mənfəətdən büdcəyə ödəmələr isə - dövlət büdcəsinin gəlirlərinin mühüm elementi hesab olunur.

Təşkilatlar təsərrüfat fəaliyyəti prosesində mənfəətlə yanaşı nəzərdə tutulmayan itkilərə də malik ola bilərlər. Həm mənfəət, həm də zərərlər uçotda hər bir maddə və bütövlükdə maliyyə nəticələri üzrə öz əksini tapmalıdır. Hesabat ilində təşkilatın fəaliyyətinin son maliyyə nəticəsinin əmələ gəlməsi haqqında informasiyaları ümumiləşdirmək üçün 801 saylı "Ümumi mənfəət (zərər)" adlı aktiv-passiv sintetik hesabı ayrılmışdır.

Balans mənfəəti təsərrüfat əməliyyatlarının və balans maddələrinin qiymətləndirilməsinin sonuncu maliyyə nəticəsi kimi özündə təşkilatın torpaq, tikili və avadanlıqlarının və başqa əmlaklarının, məhsullarının (işlərin və xidmətlərin) satışından olan mənfəəti (zərəri), həmçinin qeyri-satış əməliyyatlarından gələn gəlirləri (bu əməliyyatlar üzrə xərcləri çıxmaqla) cəmləşdirilir.

Hesabat ilində aşkar edilmiş, lakin keçmiş illərin mənfəətinə aid olan mənfəət, yaxud zərər hesabat ilinin maliyyə nəticələrinə aid edilir. Hesabat dövründə alınmış, lakin gələcək

hesabat dövrünə aid olan gəlirlər uçotda ayrı maddə üzrə gələcək dövrlərin gəlirləri kimi əks etdirilir.

Son maliyyə nəticəsi (mənfəət və ya zərər) məhsul (iş və xidmət), digər maddi sərvətlərin satışından əldə edilən maliyyə nəticəsindən və qeyri-satış əməliyyatları üzrə xərc məbləğləri çıxılmaqla əldə olunan gəlirlərdən (zərərlərdən) ibarətdir.

Mühasibatlıq iki əsasda aparıla bilər.

- Nağd pul üsulu;
- Hesablama üsulu.

Mənfəət və zərər hesabatı hesablama üsuluna əsaslanaraq tərtib olunur. Məhz bu səbəbdən nağd pul vəsaitinin hərəkəti hesabatı xüsusi əhəmiyyət kəsb edir.

Mənfəət və zərərlər haqqında hesabat beynəlxalq mühasibatın maliyyə hesabatına müəyyən qədər uygunlaşmanı özündə təcəssüm etdirir. Digər tərəfdən bu forma mənfəətdən verginin hesablanmasını yüngülləşdirir və vergi orqanları tərəfindən onun yoxlanılmasını asanlaşdırır.

Mənfəət və zərərlər haqqında hesabat 2 bölmədən ibarətdir:

1. Mənfəət və zərərlər haqqında hesabat (xərclərin funksiyaları üzrə);
2. Mənfəət və zərərlər haqqında hesabat (xərclərin xüsusiyyətləri üzrə).

Hesabatda balans mənfəətinin (zərərin) əmələ gəlməsi haqqında informasiya verilir. Bu bölmədə mənfəət (daxil olması) və zərərlər (xərc) açıq şəkildə göstərilir, bu da hesabat dövründə mənfəət və zərərləri ayrı-ayrılıqda hesablamaga imkan verir, onların tutuşdurulması yolu ilə işə balans mənfəətinin (və ya zərərinin) son maliyyə nəticəsi kimi qalığını hesablayırlar.

**Məmmədova Afət**
**dosent**
**Quliyev Ülvi**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Quliyeva Məhbubə**
**magisitrant**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
**Lənkəran Dövlət Universiteti.**
**mamedova_afet4@mail.ru**
**guliyev.ulvi@gmail.com**
**nazliq359@gmail.com**

## Aqrar sektorda maliyyə hesabatlarının hazırlanması mərhələləri

Son illərdə ölkəmizdə kənd təsərrüfatının modernləşdirilməsi,aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması,dövlətin inzibati və maliyyə resurslarından səmərəli istifadə olunması, ölkənin aqrar potensialının təbliği istiqamətində mühüm uğurlar əldə edilib.

Digər sahələrdə olduğu kimi, aqrar sahədə də maliyyə hesabatı müəssisənin mühasibat uçotu prosesinin sonu və uçot informasiyalarının işlənməsinin son mərhələsidir. Aqrar sektorun maliyyə hesabatında müəssisənin kənar istifadəçiləri üçün təqdim etdiyi standart informasiyalar əks olunur.

“Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun, eləcə də mühasibat uçotu və maliyyə hesabatı standartlarının tələblərinə əsasən Azərbaycan

Respublikasının təsərrüfat subyektlərində maliyyə hesabatının tam məcmusu aşağıdakılardan ibarətdir:

1. Mühasibat balansı;
2. Mənfəət və zərərlər haqqında hesabat;
3. Kapitalda dəyişikliklər haqqında hesabat;
4. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
5. Uçot siyasəti və izahlı qeydlər

Hesabat – elə bir əlaqə vasitəsidir ki, onun köməyi ilə informasiya onu göndərəndən alana ötürür. Maliyyə hesabatları – müəssisənin maliyyə vəziyyəti, onun fəaliyyətinin maliyyə nəticələri və onun maliyyə vəziyyətinin dəyişməsi barədə məlumat verir. Maliyyə hesabatlarına balans, mənfəət və zərər, pul vəsaitlərinin hərəkətinə dair hesabatları misal deyə bilərik. Bu hesabatlar keçmişdə müəssisədə nə baş verdiyini göstərir. Maliyyə hesabatları əsas və əlavə maliyyə hesabatları olaraq iki başlıq altında qruplaşdırılır.

Əsas maliyyə hesabatları - Mənfəət və zərər hesabatı; Balans hesabatı; Pul vəsaitlərinin hərəkəti haqqında hesabat; Kapitalda dəyişikliklər hesabatı.

Əlavə maliyyə hesabatları - Maliyyə hesabatlarına qeydlər (dipnotlar); Yardımçı cədvəllər; Rəhbərliyin müzakirə və təhlilləri; Rüblük və ya yarım illik hesabatlar; Proxy hesabatlar; Auditor rəyi.

Aqrar sektorun inkişafına göstərilən dövlət qayğısı çoxşaxəlidir. Respublikamızda aqrar sektorun inkişafına göstərilən dövlət dəstəyinə sayəsində bölgələrdə dövlət vəsaiti hesabına kənd təsərrüfatı üçün lazımi infrastruktur yaradılır, bu sahəyə investisiyalar yönəldilir. Artıq aqrar sektorda maliyyə hesabatlarının inkişaf göstəriciləri elə bir həddədir ki, Azərbaycan bu sahə üzrə əksər məhsulları, o cümlədən taxıla olan tələbatı yerli istehsal hesabına tam ödəməkdədir. Ərzaq təhlükəsizliyi baxımından isə bu, olduqca mühüm nailiyyət hesab edilir. Belə ki, 2005-2014-cü illərdə aqrar sektorun ümumi məhsulu real ifadədə hər il orta hesabla 3,7% artmışdır. Aqrar sektor müəssisələrinin maliyyə nəticələrinə diqqət yetirdikdə də bu illər ərzində davamlı artımın olduğu müşahidə olunur.

**Azərbaycan Respublikasında kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə hesabatları**

| İllər | 2005 | 2007 | 2009 | 2010 | 2012 | 2014 |
|---|---|---|---|---|---|---|
| Təsərrüfatların sayı, vahid | 1 782 | 2 098 | 2 392 | 2 043 | 1774 | 1701 |
| Ümumi gəlir (*faktiki qiymətlərlə*), min manat | 14757 | 36932 | 67149 | 71604 | 86045 | 102723 |
| Bütün maliyyə-təsərrüfat fəaliyyəti üzrə rentabellik, % | 9,1 | 14,9 | 21,4 | 16,7 | 19,2 | 17,0 |
| Kənd təsərrüfatı məhsullarının satışından əldə edilən gəlir, min. manat | 5 872 | 18832 | 29089 | 32385 | 44252 | 55381 |
| o cümlədən: | | | | | | |
| bitkiçilikdə | 2 769 | 3 368 | 4 708 | 8 855 | 14609 | 16234 |
| heyvandarlıqda | 3 117 | 15171 | 24061 | 13021 | 29036 | 25842 |

Aqrar sektorda maliyyə hesabatı təşkilatın təsərrüfat proseslərinin dərk olunmasının başlıca informasiya mənbəyidir.

Aparılan tədqiqatdan belə nəticəyə gəlirik ki, Azərbaycan iqtisadiyyatının digər sahələri kimi, aqrar sektorun inkişaf etdirilməsi də asan olmayıb. İndiki uğurlar gərgin zəhmət, dəqiq düşünülmüş iqtisadi siyasət sayəsində əldə edilib.

**Mehdiyev Vüqar**
**dosent**
**Ağasiyeva Simuzər**
**magistrant**
**Azərbaycan Kooperasiya Universiteti**
**Vugar.m@muxtaroglu.az**
**sima_cavadzade@mail.ru**

## Regionların xidmət sferası müəssisələrinin inkişafında material ehtiyatlarının uçotunun təkmilləşdirilməsi istiqamətləri

Material ehtiyatları üzrə baş vermiş təsərrüfat əməliyyatları xidmət müəssisəsinin təsərrüfat proseslərinin mühüm hissəsini təşkil edir. Belə təsərrüfat əməliyyatları müxtəlif çeşidlərdən olan xammal və materialların tədarük edilərək, daşınıb gətirilməsini, onların xidmət müəssisəsinin material anbarlarında müəssisəyə mədaxil edilərək, xidmətin ahəngdar təşkili üçün lazım olan miqdarda material ehtiyatlarının yaradılmasını, orada təhlükəsiz şəraitdə saxlanmasını, xidmət proseslərinin xarakterik xüsusiyyətlərinə uyğun olaraq çeşidlənməsini, buraxılmasını və digər bu kimi çoxşaxəli proses və hərəkətləri əhatə edir. Ona görə də ölkəmizin iqtisadi inkişafında xidmət müəssisələrinin rolunun mütəmadi şəkildə artmaqda olduğu müasir dövrdə material ehtiyatlarının uçotunun beynəlxalq standartların tələblərinə uyğun təşkil edilməsi mühüm əhəmiyyətə malikdir. Bütün bunlar xidmət müəssisələrində material ehtiyatlarının uçotunun beynəlxalq standartların tələblərinə uyğun təkmilləşdirilməsinin aktual olduğunu qeyd etməyə əsas verir. Ölkəmizin malik olduğu ehtiyatlardan daha səmərəli və faydalı istifadə edilməsi xidmət sahəsinin səmərəliliyi işində ən vacib problemlərdən biri olaraq diqqəti cəlb edir. Azərbaycan iqtisadiyyatının xidmət sahələrində zəruri kəmiyyətdə xammal, yanacaq və digər ehtiyatlarla təminatı yalnız onların həcminin artırılması ilə deyil, eyni zamanda onlardan səmərəli və qənaətlə istifadəsi də nəzərə alınmalıdır. Bu baxımdan material ehtiyatlarının uçotu və auditinin düzgün qiymətləndirilməsi vacib amil olaraq qalır.

Qeyd etmək lazımdır ki, xidmət sferasının müəssisələrində material ehtiyatlarının uçotunun təkmilləşdirilməsinin əsas istiqamətlərindən birinin də burada elektron mühasibat uçotu işləmələrinin geniş formatda istifadə edilməsidir. Material ehtiyatlarının uçotunun müasir kompüter texnologiyasının tətbiq edilməsi ilə aparılması üçün bir sıra mühasibat uçotu proqramlarından istifadə edilə bilər. Belə proqramlara misal olaraq "Azmühasib" və "Günəş" mühasibat uçotu proqramlarını göstərmək olar. Bu proqramların hər ikisi xidmət sferasının müəssisələrində çoxsaylı çeşidə malik olan materialların uçotu proseslərinin mühasibat uçotunun beynəlxalq standartının tələblərinə uyğun aparılmasını təmin edir.

Materialların uçotu proseslərində mühüm əhəmiyyətə malik olan məsələlərdən biri onların müəssisədə mədaxil edilməsinin sənədləşdirilməsi və uçotudur. "Azmühasib" proqramının tətbiqi şəraitində materialların müəssisəyə daxil olması əməliyyatlarının sənədləşdirilməsi prosesində proqramın "Anbar" modulundan istifadə edilir. "Anbar" modulunun məqsədi materialların daxil olması, anbarlarda müəyyən müddət ərzində saxlanması, istehsala buraxılması və digər məxaric edilməsinə aid olan əməliyyatlarının müasir tələblərə uyğun sənədləşdirilməsindən, eləcə də uçot-analitik proseduraların avtomat informasiya işləmələri vasitəsilə yerinə yetirilməsindən ibarətdir.

"Azmühasib" mühasibat ucotu proqramları paketində mal əməliyyatlarının sənədləşdirilməsi və ucotu üçün "Azmühasib" proqramından ayrı şəkildə və eyni zamanda qarşılıqlı fəaliyyət göstərə bilən "Anbar" proqramı (modulu) yaradılmışdır. "Anbar" proqramının məqsədi müəssisədə mal və taraların daxil olması, saxlanması, satışı, buraxılışı və sair məxariçi üzrə təsərrüfat əməliyyatlarının sənədləşdirilməsi və ucotu proseslərinin avtomatlaşdırılmasından ibarətdir. Bu proqramda mal və taraların hərəkətinə dair sənədlər tərtib edilir və təsərrüfat əməliyyatlarının analitik ucotu aparılır. Həmin sənədlər və analitik

ucot məlumatları əsasında mal əməliyyatlarına dair mühasibat müxabirləşmələri "Azmühasib" proqramında memorial orderə daxil edilir və sintetik ucot registrləri işlənir. Beləliklə, "Anbar" proqramı "Azmühasib" proqramından ayrı fəaliyyət göstərmək qabiliyyətinə malik olsa da, mühasibat-maliyyə ucotu prosesinin əsas hissəsini təşkil edən təsərrüfat əməliyyatlarının sintetik ucotu yalnız "Azmühasib" proqramında aparıla bilər. Odur ki, "Anbar" proqramının "Azmühasib" proqramı ilə birgə istismarı daha məqsədəuyğun hesab edilir.

Aparılmış tədqiqat nəticəsində məlum olur ki, xidmət sferasında material ehtiyatlarının tanınması, qiymətləndirilməsi və uçotunun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən olunması ilə bağlı qeyd olunan təklif və tövsiyyələr ümumən elmi əsaslara malik nəticələrin alınmasına imkan verir. Belə ki:

- Hər bir müəssisədə material ehtiyatlarının düzgün qiymətləndirilməsi və yenidən qiymətləndirilməsi metodları təkmilləşdirilməli və iqtisadi aspektdən onların tanınması həyata keçirilməlidir;
- Material ehtiyatlarından istifadənin tənzimlənməsinin hüquqi əsaslarının yenilənməsi və təkmilləşdirilməsi problemlərinin sistemli şəkildə müəyyənləşdirilməsi və həlli mexanizmlərinin reallaşdırılması lazımdır;
- Uçotun beynəlxalq standartlara uyğun olaraq qiymət stabilliyini saxlamaq məqsədilə mal-material ehtiyatlarını ya onların satınalma, ya da bazar dəyəri ilə qiymətləndirmək məqsədəuyğun sayılır. Qiymətin artması ilə əlaqədar əmələ gələn mənfəət mal-material dəyərləri bazarda satılanadək uçotda əks etddirilməməlidir;
- Hal-hazırda və bundan sonrakı gələcək dövrlərdə də mühasibat uçotunun bütün məsələləri "Ehtiyatlar" adlı 2 nömrəli Mühasibat Uçotunun Beynəlxalq Standartının tələbləri ilə tənzimlənməlidir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq xidmət sferası müəssisələrində material ehtiyatlarınınnın düzgün qiymətləndirilməsi istiqamətlərini aktual məsələlərdən biri kimi hesab etmək olar.

**Mirzəyev Natiq**
**dosent**
**Lənkəran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**

## Regionda sahibkarlığın mövcud vəziyyətinin qiymətləndirilməsi və rəqəmsal iqtisadiyyata transformasiya

Azərbaycanda regionların sosial-iqtisadi inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biridir. Aydın məsələdir ki, ərzaq təhlükəsizliyi problemlərinin həlli, işsizliyin azaldılması, yoxsulluğun aradan qaldırılması kimi məsələlərin həlli rayonların inkişafından asılıdır. Regionların sosial-iqtisadi inkişafı isə bölgələrdə qeyri-neft sektorunda sahibkarlığın, özəl sektorun tərəqqisi hesabına mümkündür.

Azərbaycan iqtisadiyyatı üçün dayanıqlığın təmin edilməsində sahibkarlıq fəaliyyətinin inkişafı əsas məqsəd olaraq qalmaqdadır. Möhtərəm prezidentimiz İlham Əliyevin başçılığı ilə respublikanın ətraflı inkişafının təminatı üçün yeni mərhələ yaşanır. Dövlət özünün mövcud imkanları ilə yeni sahibkarlıq subyektlərinin iqtisadi sferanın bütün sahələrində formalaşmasına şərait yaratmaqla, sahibkarların öz potensial imkanlarında səmərəli şəkildə istifadə edə bilmələri üçün geniş imkan yaratmışdır. Ölkəmizdə bu məqsədlə reallaşdırılan iqtisadi siyasət sahibkarlıq fəaliyyətinin sürətlənməsinə, iqtisadi və sosial sahələrdə mövcud olan problemlərin həllində onların rolunun artmasına, dövlətin bu sahədə qayğısının gücləndirilməsinə və sahibkarlarda olan potensialın reallaşdırılmasına yönəldilmişdir. İqtisadi

siyasətin tərkib hissəsi kimi rəqəmsallaşma, rəqəmsal iqtisadiyyata keçid böyük rol oynayır və müasir iqtisadi tərəqqinin mühüm hərəkətverici qüvvəsidir.

Qeyd etmək lazımdır ki, kompüterlər artıq uzun illərdir həyatımızdadır. Əgər əvvəllər kompüter texnologiyaları bir sıra sənaye sahələrinin işində köməkçi idisə, bu gün onlar ön plana çıxır və onların sosial-iqtisadi inkişafda rolu getdikcə daha böyük əhəmiyyət kəsb edir. "Rəqəmsal iqtisadiyyat" layihəsi yeni rəqəmsal texnologiyaların və biznesin inkişafında sıçrayışa şərait yaratmaq, mövcud sosial-iqtisadi aparatın rəqəmsal iqtisadiyyatın ehtiyac və tələblərinə uyğunlaşdırılması məqsədilə hazırlanır. Bu istiqamətdə 11 oktyabr 2021-ci il tarixində Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

İqtisadiyyatın rəqəmsal transformasiyası potensialı hər hansı bir iqtisadi sistemin inkişaf strategiyasına daxil edilmiş bütövlükdə iqtisadi artımın, eləcə də əmək məhsuldarlığının artmasının mümkün amillərindən biridir. Həqiqətən də iqtisadiyyatın real sektorlarında rəqəmsal texnologiyaların tətbiqi yeni səviyyəyə qalxmağa və istehsalı əhəmiyyətli dərəcədə optimallaşdırmağa imkan verir.

Regionların iqtisadi potensialını müəyyənləşdirən göstəricilərdən biri də orada olan sahibkar subyektlərin iqtisadiyyat sahəsində göstərdiyi fəaliyyətləri ilə bağlıdır. Həmçinin, sahibkarlığın inkişafı ölkəni idxaldan asılı olmaqdan azad edir, ixracı artırır. Bu məqsədlə də regionlarda sahibkarlıq fəaliyyətinin inkişafının yüksəldilməsi artıq dövlətin vəzifəsinə çevrilməkdədir.

Müasir informasiya texnologiyalarının işlənib hazırlanması və sahibkarlıq subyektlərində tətbiqi sayəsində onun nəinki məhsuldarlığı yüksəlir, eyni zamanda həm maliyyə xərcləri, həm də əmək məsrəfləri azalır. Nəticədə məhsulun keyfiyyəti yüksəlir və mənfəət artır. Bioloji və ərzaq təhlükəsizliyinə qarşı mövcud və gələcək təhdidlərin öhdəsindən gəlmək üçün cəmiyyətin davamlı inkişaf prinsiplərinə və tullantısız (sirkulyar) iqtisadiyyat modelinə uyğun gələn müasir informasiya texnologiyalarından istifadəyə əsaslanan yeni tip iqtisadiyyata ehtiyac var.

Respublikamızda 1995-ci ildə reallaşdırılan rayonlaşma siyasətinə müvafiq olaraq 5 təbii iqtisadi zona daxilində 10 iqtisadi rayon müəyyən edilmişdir. Ölkənin hər bir regionu təbii resurs potensialına, iqlim şəraitinə, təsərrüfatın ərazi və sahə quruluşuna, əhalinin məskunlaşması və tarixi inkişaf xüsusiyyətlərinə görə fərqlənirlər.

Məlum olduğu kimi regional səviyyədə mikro, kiçik və orta sahibkarlıq subyektləri inkişaf etmişdir. Lənkəran-Astara regionu üçün də bu xarakterik haldır və onların əsas makroiqtisadi göstəricilərinin araşdırılması lazımdır.

Cədvəl 1

Ölkə iqtisadiyyatında mikro, kiçik və orta sahibkarlıq subyektlərinin payı, %

| Göstəricilər | Cəmi | 2020 | | |
|---|---|---|---|---|
| | | o cümlədən | | |
| | | Mikro | Kiçik | Orta |
| Əlavə dəyər | 16,7 | 6,8 | 2,5 | 7,4 |
| qeyri neft-qaz sektoru üzrə | 23,7 | 9,9 | 3,5 | 10,3 |
| İşçilərin sayı | 42,1 | 4,9 | 11,1 | 26,1 |
| qeyri neft-qaz sektoru üzrə | 43,8 | 6,1 | 12,9 | 24,8 |
| Əsas kapitala investisiyalar | 23,2 | 8,4 | 3,3 | 11,5 |
| qeyri neft-qaz sektoru üzrə | 11,5 | 3,4 | 7,7 | 0,4 |
| Fəaliyyətdə olan sahibkarlıq subyektlərinin ümumi sayında | 99,7 | 96,9 | 1,9 | 0,9 |

Qeyd: Müəllif tərəfindən hazırlanmışdır. Mənbə: Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2021

Cədvəldə 2020-ci ildə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri, onların ölkə iqtisadiyyatında payı, yəni, ölkə iqtisadiyyatında yaradılmış əlavə dəyərdə (məhsul buraxılışı ilə aralıq istehlak arasında yaranan fərq) sahibkarlıq subyektlərində çalışan muzdlu işçilərin sayı, əsas kapitala investisiya qoyuluşunda payı əks olunmuşdur.

Regionlarda sahibkarlıq fəaliyyətini inkişaf etdirmək istiqamətində mühüm işlər görülməkdədir. Ancaq bütün bunlara baxmayaraq bu sahədə digər regionlarda olduğu kimi Lənkəran regionunda da problemlər mövcuddur. Bu problemlərin qismən də olsa aradan qaldırılması üçün aşağıdakı təklifləri qeyd edə bilərik: ilk öncə regionlar üzrə səlahiyyətli nümayəndələrin iştirakı ilə sahibkarlarla görüşlər keçirilməli, problemlər yerindəcə dinlənməli, lazımi tədbirlər görülməlidir; Azərbaycanın indiki iqtisadi vəziyyətini nəzərə alaraq müəssisələrin həcmindən, istehsal gücündən asılı olmayaraq sahibkarlığın bütün formalarının inkişafının təmin edilməsi; qəbul edilən qanunların müsbət nəticələrini əldə etmək üçün ilk öncə bu qanunların işləkliyini təmin etmək, nəzarət sistemini gücləndirmək lazımdır; regionlarda kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün sahibkarların azadlığa sahib olmaları, qəbul edilən qərarların vaxt itirmədən icrasının həyata keçirilməsi, iqtisadi fəaliyyətlə məşğul olanlar üçün istehsal və idarəetmə xərclərinin aşağı olması, sahibkarların öz fəaliyyətlərini istehlakçıların tələbatlarına uyğun olaraq qurması; kiçik və orta sahibkarlığın inkişafını artırmaq məqsədilə güzəştli vergilərin tətbiqi, vergi sisteminin təkmilləşdirilməsi, gömrük rəsmiləşdirilməsi prosedurlarının qısaldılması, gömrük rüsumlarının tətbiqində güzəştlərin artırılması, həmçinin sahibkarlıqda əlverişli rəqabət mühitinin formalaşdırılması.

Regionda rəqəmsal texnologiyaların tətbiqi qeyri-məhsuldar xərclərin azaldılması və əmək məhsuldarlığının intensiv artması nəticəsində gələcəkdə sahibkarlıq subyektlərini yüksək texnologiyalı biznesə çevirməyə imkan verəcək. Müəyyən səbəblərdən respublikanın regionlarında rəqəmsal inkişaf hələ də başlanğıc mərhələdədir. Dövlət bütövlükdə iqtisadiyyatın və onun ayrı-ayrı sahələrinin rəqəmsallaşdırılması üçün qanunvericilik bazası hazırlayır və proqramları təsdiq edir. Rəqəmsallaşma müəssisələrə öz fəaliyyətlərinin səmərəliliyini, məhsullarının rəqabət qabiliyyətini, eləcə də, əmək məhsuldarlığını artırmağa və ayrı-ayrı iqtisadi sahələrə investisiya cəlb etməyə kömək etmək üçün nəzərdə tutulub. Ölkədə rəqəmsal texnologiyaların tətbiqi onun ərzaq təhlükəsizliyini təmin edə bilər.

**Mirzəyev Natiq**
**dosent**
**Abdullayeva Pərvanə**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**
**pervane_abdullayeva88@mail.ru**

## Regionlarda sığorta bazarında rəqəmsal texnologiyalardan istifadənin təşkili

Sığorta sektoru maliyyə dayanıqlığının və iqtisadi təhlükəsizliyin təmin edilməsi yollarından biri olmaqla, sosial müdafiə zəncirinin əsas halqasını təşkil edir və bir növ ehtiyatlılıq tədbiridir. Sığorta bazarının genişlənməsi, əhalinin sığorta təminatı almayan hissəsinin sığorta məhsulları ilə əhatə olunması, maliyyə xidmətlərinə çıxışın artırılması və iqtisadiyyatın şaxələndirilməsinin dəstəklənməsi məqsədilə yeni sığorta məhsullarının yaradılmasına ehtiyac vardır. Azərbaycanda sığorta bazarının davamlı inkişafı mühüm strateji əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə maliyyə sahəsi qarşısında çeviklik,

rəqabətqabiliyyətlilik və innovativlik kimi yeni vəzifələr müəyyən edilmişdir. Respublikada, eləcə də onun ayrı-ayrı regionlarında sığorta bazarının inkişafı strategiyasının əsas istiqamətlərindən biri elektron (rəqəmsal) sığortanın inkişafıdır.

Azərbaycanda sığorta bazarının inkişafı yeni rəqəmsal iqtisadiyyat texnologiyalarının tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Onların istifadəsi sığorta fəaliyyətində bir çox proseslərin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər. Sığorta şirkətləri, eləcə də digər təsərrüfat subyektləri tərəfindən müasir rəqəmsal texnologiyalardan və InsurTech alətlərindən istifadə sığortaçının biznes-proseslərinin mərhələlərində qərar qəbuletmə sürətini artırmaqla, qəbul edilmiş risklərin qiymətləndirilməsi, müştərilərin müasir ehtiyaclarına cavab verən yeni məhsulların hazırlanması və digər amillər sığorta xidmətlərinin göstərilməsinin keyfiyyətini yüksəltməyə imkan verir. Sığorta xidmətlərinin göstərilməsinin keyfiyyəti bir çox cəhətdən sığorta müqaviləsinin qüvvədə olduğu bütün dövr ərzində, yəni sığorta müqaviləsinin bütün həyat dövrü ərzində onun yerinə yetirilməsinin keyfiyyəti və müştərinin (sığorta olunanın) məmnunluq səviyyəsi ilə müəyyən ediləcəkdir.

COVİD-19 epidemiyası bütövlükdə Azərbaycan iqtisadiyyatının, eləcə də, regional səviyyədə bütün sahələrinə, o cümlədən sığortanın fəaliyyətinə böyük təsir göstərib. Sığorta bazarı məhdudlaşdırıcı karantin tədbirlərinin və əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi, sığortanın müəyyən növləri üzrə müştəri toplaya bilməməsi, rəqəmsal bərabərsizlik kimi epidemiyanın doğurduğu mənfi tendensiyaların təsirini və digər təsirləri hiss etdi. Çətin və mürəkkəb epidemioloji vəziyyət şəraitində sığorta şirkətlərinin xidmət göstərilməsinin bütün həyat dövrü ərzində rəqəmsal texnologiyalardan istifadə etməsi rəqabət üstünlüyünə çevrilir ki, bu da müştərilərə onlar üçün təhlükəsiz və rahat şəkildə məsafədən xidmət göstərməyə və ehtiyaclarını distant formada ödəməyə imkan verir.

Rəqəmsal iqtisadiyyat kifayət qədər geniş spektrli innovativ texnologiyaların tətbiqi ilə xarakterizə olunur, məsələn, süni intellekt, böyük verilənlər (BigData), proseslərin robotlaşdırılması, "əşya interneti", virtual və əlavə reallıq və bir çox başqaları.

Sığorta bazarında yuxarıda sadalanan innovativ texnologiyalarla yanaşı, həm sığorta şirkəti daxilində, həm də vasitəçilər və müştərilərlə qarşılıqlı əlaqədə olduğu zaman məlumat mübadiləsini sadələşdirən proqram təminatı interfeyslərindən, bütün növ mobil əlavələrdən və s.-dən fəal şəkildə istifadə olunur və bu da göstəricilərin (və ya məlumatların) onlayn kanallar vasitəsilə reallaşdırılmasını stimullaşdırır. Hal-hazırda bu texnologiyalar bir çox sığortaçılar tərəfindən sığorta müqaviləsinin həyat dövrünün müxtəlif mərhələlərinin müvafiq məlumat dəstəyi üçün tətbiq edilir.

Məlum olduğu kimi Azərbaycanda 15 qeyri-həyat, 4 həyat, 1 təkrarsığorta şirkəti var. 2020-ci ilin yanvar-oktyabr aralığında sığorta sektorunun göstəricilərinə baxsaq, müşahidə edə bilərik ki, sığorta yığımı 628,3 milyon manatdır. Böyük qismi onlayn formada reallaşdırılan sığorta ödənişi əməliyyatlarının həcmi isə 350 milyon manatdır. Yığımın ödənişdən 2 dəfəyə yaxın çox olması sığorta sektoruna etimadın göstəricisidir.

Respublikada, eləcə də onun ayrı-ayrı regionlarında sığorta sektoru üzrə aparılan elektron xidmətlər aşağıdakılardır:

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası;
- Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası;
- Daşınmaz əmlakın icbari sığortası;
- Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası;
- Sərnişinlərin icbari fərdi qəza sığortası.

Sığortaçılar Assosiasiyasının məlumatına görə Azərbaycanda 5 icbari sığorta növü tətbiq olunur. Onların 5-i də elektronlaşdırılıb. Bunlar istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, daşınmaz əmlak və istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası və sərnişinlərin icbari fərdi qəza sığortasıdır. Növbəti mərhələdə könüllü sığorta növlərinin də tam elektronlaşdırılması nəzərdə tutulur.

Təəssüflər olsun ki, bu vaxtadək maliyyə sektorunun sığorta seqmentində elektron həllərlə bağlı kifayət qədər işlər görülmədiyindən, ictimaiyyət sığortaya necə deyərlər inanmır, ya da bu sahə barədə məlumatsızdır. Dünya ölkələri üzrə elektron xidmətlərdə pul köçürmələrindən sonra 2-ci yerdə 24 faizlə sığorta sektorunun gəlməsi, Avropa ölkələrinin 80-85 faizində analoji statistikanın olması, amma Azərbaycanda bu göstəricilərin hələ ki əlçatan olmaması da məhz bu amilər səbəbindəndir:

- Elektron sistemlərin sığorta sektoruna lazımı qədər inteqrasiya edilməməsi;
- Vətəndaşların sığorta sektoru və xidmətlərin siyahısı barədə məlumatsızlığı;
- İctimaiyyətin sığorta ilə bağlı maliyyə əməliyyatları aparmaqda qarşılaşdığı bürokratik çətinliklər və fərqli sığorta xidmətlərinin azlığı;
- Hökumət ilə sinxron fəaliyyətdə bəzi strukturların uzlaşmaması.

Belə nəticəyə gəlmək olar ki, infrastruktur institut kimi Azərbaycanda və eləcə də onun regionlarında sığorta fəaliyyətinin rəqəmsallaşması proseslərinin müvəffəqiyyəti və sürətibir çox cəhətdən iqtisadiyyatın və sosial sahənin rəqəmsallaşması tempi ilə müəyyən ediləcək. Bu da korporativ idarəetmə sistemində sığorta mədəniyyətinin inkişafı və sığorta mexanizmlərindən istifadənin səmərəliliyə əhəmiyyətli təsir göstərəcəkdir.

**Mirzəyev Natiq**
**dosent**
**Həsənli Fərid**
**magistrant**
**Lənkaran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**
**feridhesenli5611@gmail.com**

## Vergi siyasətinin regionlarda iqtisadi aktivliyə təsiri

Vergi siyasəti dövlətin maliyyə siyasətinin ayrılmaz tərkib hissəsidir. Ölkənin vergi sistemi hazırlanan zaman dövlət bu siyasətdən müəyyən maliyyə siyasətinin məqsədləri üçün istifadə etməyə çalışır. Dövlətin iqtisadi proseslərə müdaxilə səviyyəsi artdıqca, vergi siyasətinin diskriminasiya xarakteri də artır. Ona görə də vergi siyasətinin sabitliyi, sahibkarlıq mühitinin əsas gostəricisidir və regionların spesifikasına uyğun olaraq onların inkişafına təsir göstərir.

Vergilər iqtisadi münasibətlərin təkmilləşməsinə, maraqların tarazlaşmasına, paritet əsaslarla mülkiyyətin bütün formalarının inkişafına kömək etməlidir. Vergi siyasəti sahəsində aparılan elmi tədqiqatların nəticələri göstərir ki, ölkənin iqtisadi inkişafı iqtisadiyyatın vergi yükünün səviyyəsindən aslıdır.

Vergi yükünün azaldılması, iqtisadiyyatın inkişafına təkan verən əsas amillərdəndir. Azərbaycan Respublikasında aparılan hazırki vergi siyasəti vergi yükünün azaldılmasına yönəldilmişdir. Ümumiyyətlə, vergi yükünün azaldılmasına bir çox amillərdən istifadə etməklə nail olmaq olar. Regionlarda yeni istehsal və xidmət sahələrinin açılması üçün münbit şəraitin yaradılması əsas şərtlərdəndir. Münbit şəraitin yaradılması dedikdə əlverişli vergi mühitinin yaradılması nəzərdə tutulur.

2018-ci ildən etibarən vergi sistemində başlanan islahatlar dövlət-biznes münasibətlərində yeni bir mərhələnin əsasını qoymaqla şəffaflığın təmin olunması və vergi orqanlarının fəaliyyətində yeni yanaşmaların formalaşdırılması ilə yadda qaldı. Prezident İlham Əliyevin “kölgə iqtisadiyyatı”nın aradan qaldırılması, şəffaflığın və bərabərliyin təmin edilməsi, vergi mədəniyyətinin yüksəldilməsi kimi müəyyən etdiyi tapşırıqlar, eləcə də vergi siyasətinin və vergi inzibatçılığının tətbiqi zamanı vergi ödəyiciləri ilə dövlət arasında yeni mədəniyyətin formalaşdırılması vergi orqanlarının qarşısında duran əsas vəzifələrdən biridir.

Vergi qanunvericiliyinə edilmiş ən mühüm dəyişikliklərdən biri qeyri-neft sektorunun özəl bölməsində çalışan vətəndaşların əmək haqlarından tutulan vergilər üzrə vergi güzəştlərinin verilməsidir. Dəyişikliyə əsasən, aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün 7 il müddətində gəlir vergisi üzrə 100 faizlik güzəşt verilib, 8000-dən yuxarı olan məbləğdə muzdlu işlə əlaqədar gəlir əldə edən fiziki şəxslər üzrə isə gəlir vergisi 14 faiz həcmində müəyyənləşdirilib ki, bu da dövlətin sözügedən məsələdə çox böyük fiskal güzəştə getməsi deməkdir. Qeyd olunan vergi güzəştinin məqsədi "kölgə iqtisadiyyatının" həcminin azaldılması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın, xüsusilə qeyri-neft sektorunun özəl bölməsində işgüzar aktivliyin daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının daha dolğun şəkildə təmin edilməsidir.

Bundan başqa istehlakçıların stimullaşdırılması məqsədilə ƏDV-nin müəyyən hissəsinin onlara geri qaytarılması mexanizmi daxil edilib. İstehlakçılar tərəfindən pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara görə (neft və qaz məhsulları istisna olmaqla) ödənilmiş ƏDV-nin nağdsız ödənişlərdə 15 faizi, nağd ödənişlərdə isə 10 faizi onlara geri qaytarılacaqdır.

Dəyişikliklərdə mikro biznes, kiçik və orta sahibkarlıq subyektləri üçün gəlir, mənfəət, əmlak, torpaq vergisi və ƏDV üzrə güzəştlər müəyyən edilib. Kiçik və orta biznes (KOB) klasterinə daxil olan şirkətlər KOB reyestrində qeydiyyata alındıqları andan 7 il müddətinə mənfəət, torpaq əmlak və müvafiq təsdiqedici sənəd əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı əlavə dəyər vergisindən azad edilib. Mikro sahibkarlıq subyektləri üçün müəyyən edilmiş güzəştlərə sahibkarlıq fəaliyyətindən əldə olunan gəlir və mənfəətin 75%-nin vergidən azad edilməsi daxildir.

Vergi güzəştlərinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istiqamətində dəyişikliklərə özəlləşdirmədə iştirak edən investorların əmlak vergisindən azad olunması, vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmlərinin satışına vergi güzəştinin tətbiq edilməsi, həmçinin həssas sosial təbəqələrə güzəştin verilməsi kimi sosialyönümlü dəyişikliklər daxildir. Mühüm dəyişikliklərdən biri vergi güzəştləri əldə edən şəxslər tərəfindən malların dövriyyəsinin uçotunun aparılmadığı halda, onlara qarşı maliyyə sanksiyalarının tətbiqi ilə bağlıdır. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sırasında diqqətçəkən məsələlərdən biri də nağdsız hesablaşmaların stimullaşdırılması məqsədilə sahibkarlıq subyektlərinə tətbiq edilən güzəştlərdir.

Dəyişikliklərə əsasən, pərakəndə satış qaydasında malların satışının həyata keçirilməsi üzrə ticarət fəaliyyəti və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların və hüquqi şəxslərin büdcəyə ödənilməli olan gəlir vergisinin məbləği 2019-cu il yanvarın 1-dən 3 il müddətinə POSterminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərin ümumi gəlirdəki xüsusi çəkisinə uyğun müəyyən edilən verginin 25 faizi həcmində azaldılıb.

Vergi siyasətinin həyata keçrilməsinin əsas mahiyyəti dövlətin bu siyasəti necə aparmasından və hansı nəticəni almasından aslıdır. İqtisadi inkişafı yüksək olan ölkələrdə və bu inkişafı artırmaq istəyən ölkələrdə dövlət tərəfindən istehsalın artırılması,bölgələri iqtisadi inkişafı, əhalinin illik gəlirlilik səviyyəsinin yüksəldilməsi üçün ÜDM artırılması üçün istifadə olunur və bu siyasəti aparmağın bir neçə üsulundan istifadə edilir. Bunlar aşağıdakılardır:

- Vergi subyektlərinin ödəyəcəkləri olan vergi yükünün dəyişdirilməsi;
- Vergitutmanın istifadə edilən üsul və formalarının başkaları ilə əvəz edilməsi;
- Vergilərin ərazi üzrə yayılmasının dəyişdirilməsi;
- Vergi güzəştlərinin tətbiq edilməsi və lazım olan formada dəyişdirilməsi;
- Diferensiyal vergi dərəcələri üsulunun tətbiqi.

Vergi amnistiyası dedikdə, vergi ödəyiciləri tərəfindən bəyan edilməmiş, yəni vaxtında ödənilməmiş vergilərin könüllü olaraq dövlət büdcəsinə ödəməklə dövlət tərəfindən müəyyən məsuliyyət tədbirləri görülməyəcəyi barədə zəmanətin alınması başa düşülür.

Vergi amnistiyaları həm dövlət həm də yerli idarəetmə orqanları səviyyəsində aparıla bilər. Vergi amnistiyasına müxtəlif borclar aid edilir. Birinci bu borclar vergi ödəyiciləri

tərəfindən vaxtında ödənilməyən borclar və ikinci halda isə vergi ödəyiciləri tərəfindən əvvəldən bəyan olunmamış sonradan könüllü olaraq hesablanmış məbləğlərin amnistiyasından söhbət gedir. Vergi amnistiyası siyasəti əhəmiyyətinə görə vergi ödəyiciləri və dövlət baxımından qiymətləndirilir. Dünyanın bir çox ölkələrində vergi amnistiyaları tətbiq olunur. Vergi amnistiyaları vergi ödəyicilərinin vergi orqanlarına, dövlətə inamını daha da artırır və onların fəaliyyətinin stimullaşdırılmasına xidmət edir. Cənab Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanan "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixində mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" qanun layihəsi msahibkarlığın inkişafını stimullaşdırmağa, əlverişli biznes mühitinin formalaşmasında və vergi yükünün azaldılmasında mühüm rol oynamışdır. Vergi borclarından azad olan sahibkarların sərəncamında sərbəst vəsaitləri qalır və nəticədə onların işgüzar aktivliyi artır.

Nəticə olaraq aşağıdakıları qeyd edə bilərik:

- Regionların spesifik xüsusiyyətlərinə uyğun olaraq xüsusi vergi rejimlərinin tətbiq edilməsinə və əlverişli mühitin yaradılmasına ehtiyac vardır;
- Sahibkarlığın və investisya mühitinin inkşafına şərait yaratmaq məqsədilə ölkədə vergi yükünün optimallaşdırılmasına zərurət vardır;
- Regionlarda kiçik və orta sahibkarlıq fəaliyyətini stimullaşdırılması üçün vergi dərəcələrinin azaldılması günün tələblərindəndir.

**Mirzəyev Natiq**
**dosent**
**Nəzərli Aydan**
**magistrant**
**Lənkəran Dövlət Universiteti**
**mirzoev.n@mail.ru**
**Aydannezerli874@gmail.com**

## Rəqəmsallaşma şəraitində Mərkəzi Bankın pul və maliyyə sabitliyi siyasəti

Azərbaycan Respublikasında pul və maliyyə sabitliyi siyasəti Mərkəzi Bank tərəfindən həyata keçirilir. Mərkəzi Bankın maliyyə sabitliyi siyasətində əsas istiqamətləri maliyyə-bank sisteminə etimadın qorunması, risklərin azaldılması və maliyyə sektorunda idarəetmə potensialının artırılmasını təşkil etmişdir.

Milli valyuta, eləcə də sərhədlər daxilində istifadə oluna bilən bütün pul aqreqatlarının üzərində nəzarətin güclü olması və qiymət sabitliyinin təminatı Mərkəzi Bankın əsas başlıca məqsədidir. Bəzən bir ölkənin maliyyə sabitliyinin pozulması digər ölkənin həmin ölkənin dövlət istiqrazlarındakı yatırımlarına kəskin təsir edə bilir. Göründüyü kimi maliyyə sabitliyi lokal yox əslində həm də qlobal hadisə olduğundan Mərkəzi Bankların əsl məqsədi qiymət sabitliyini göz önündə saxlayaraq bunu təmin edəcək siyasəti həyata keçirməkdir.

Maliyyə sabitliyi, ödəmə sistemi, riski paylama, mənbələrin təsirli paylaması kimi iqtisadi funksiyaları, şok və ya strukturlu dəyişmə dönəmində belə təsirli bir şəkildə yerinə yetirilməsi vəziyyətidir. Maliyyə sabitliyi maliyyə sisteminə nəzərən dayanıqlılıq vəziyyətinin təmin olunmasıdır. Maliyyə sabitliyi baş verə biləcək bir şok qarşısında, yığımların investisiya imkanlarına paylanmasında problemlərin baş verməsi və iqtisadiyatdakı ödəmə sistemləri işlərinin pozulmasında əsas faktor kimi nəzərə alınmalıdır. Maliyyə sabitliyini hər bir dövlətin "əsas aktivi" olaraq dəyərləndirmək mümkündür. Dövlət maliyyə sabitliyi kimi dəyərləndirilən "əsas aktivini" istehlakçılara təqdim etmək məcburiyyətindədir.

Azərbaycan Respublikasında və onun regionlarında Mərkəzi Bankın pul və maliyyə sabitliyi siyasəti, güclü və təsirli işləyən bir maliyyə sisteminin varlığı qiymət sabitliyinin

təmin edilməsinə istiqamətli imtina edilməz bir ünsür olaraq qiymətləndirilməlidir. Bu halda Mərkəzi Bank, maliyyə sabitliyinə istiqamətli sistematik risk ünsürü ola biləcək struktur və makroiqtisadi proseslərin tətbiqinə və lazım olduğunda digər təşkilatlarla əməkdaşlıq içində bunlara istiqamətli tədbirlər alınmasına, maliyyə sabitliyi baxımından maliyyə sektorunun və lazım olduğunda təşkilatların fəaliyyətini və sağlamlığını izləməyə böyük əhəmiyyət verməkdədir.

2020-ci ildə maliyyə sabitliyi siyasəti Respublikamızda və onun regionlarında başlıca olaraq maliyyə bazarlarının və sisteminin stabilliyinin təmin olunmasına, pandemiyanın neqativ təsirlərinin azaldılmasına, əhalinin və biznesin dəstəklənməsinə yönəldilmişdir. Yaranmış vəziyyətə baxmayaraq maliyyə vasitəçiliyinin genişləndirilməsi və maliyyə bazarlarının dərinləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir.

2021-ci ildə də ölkədə və regionlarda maliyyə sabitliyinin qorunması Azərbaycan Respublikası Mərkəzi Bankının fəaliyyətinin əsasını təşkil etmişdir. Cari ilin ikinci yarısından dünyanın əksər ölkələrində olduğu kimi ölkəmizdə inflyasiya təzyiqləri artsa da, ümumilikdə maliyyə və pul sabitliyi təmin olunmuşdur. İnflyasiyanın xarici fonunun əhəmiyyətli pisləşməsi şəraitində inflyasiyanın formalaşmasında xarici və daxili qeyri-monetar amillərin müəyyənedici rolunu nəzərə almaqla Azərbaycan Mərkəzi Bankının pul siyasəti monetar şərait və inflyasiya gözləntilərini idarə etmək vasitəsilə bu amillərin təsirinin yumşaldılmasına yönəldilmişdir.

2022-ci ildə də Mərkəzi Bankın pul siyasəti ölkədə dayanıqlı qiymət sabitliyinin təmin edilməsinə, inflyasiyanın elan edilmiş hədəf çərçivəsinə qaytarılması yönəldilmişdir. 2022-ci ildə də Mərkəzi Bank maliyyə sektorunun sabitliyinin təmin olunması, maliyyə inklüzivliyinin genişləndirilməsi, sığorta və kapital bazarlarının dərinliyinin artırılması, milli ödəniş sisteminin təhlükəsiz, fasiləsiz və davamlı fəaliyyətinin təmin edilməsini diqqət mərkəzində saxlayacaqdır.

Artıq günümüzdə iqtisadiyyatda mərkəzi banklar baxımından maliyyə sabitliyi əsas məsələlərdən biri halına gəlmişdir və maliyyə sabitliyini aradan qaldıracaq, iqtisadi təsirləri minimuma endirəcək pul siyasətinin irəli sürülməsinə başlanmışdır.

Pul siyasəti - əsasən qiymətlərin sabitliyinin təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər sistemidir. Mərkəzi Bank valyuta məzənnəsi, pul kütləsi və faiz dərəcələrini tənzimləmək vasitəsilə inflyasiya proseslərinə təsir göstərir.

Mərkəzi Bank qarşıdakı il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı hazırlayır və ictimayyətə açıqlayır. Sənəddə cari ildə makroiqtisadi siyasət çərçivəsi, həyata keçirilən pul siyasətinin yekunları, qarşıdakı il üçün müəyyən edilən pul siyasətinin məqsəd və vəzifələri, onların həyata keçirilməsi yolları, eləcədə orta müddətli dövrə siyasət istiqamətləri göstərilir.

Mərkəzi Bank tərəfindən həyata keçirilən pul siyasəti alətləri "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunun 29-cu maddəsində də öz əksini tapmışdır. Pul siyasətinin əsas alətləri bunlardır:

- Açıq bazarda əməliyyatlar;
- Faiz dərəcələrinin müəyyənləşdirilməsi;
- Məcburi ehtiyat normaları;
- Depozit əməliyyatları;
- Beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətləri;
- Kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi.

Regionlarda pul və maliyyə sabitliyinin bir neçə istiqamətləri var:

- Ehtiyacı olan bölgələrin inkişafının stimullaşdırılması;
- Ehtiyacı olan bölgələrin iqtisadiyyatına subsidiyalar və digər iqtisadi inyeksiyalar;
- Ölkənin müxtəlif bölgələrində qiymət və tariflərin təyin edilməsi;
- Dövlətin müxtəlif mövzularda vətəndaşlara dəstək siyasətinin həyata keçirilməsi.

Sürətli ödənişlər sisteminin gələcək inkişafının pul siyasəti və maliyyə vasitəçiliyi üçün əhəmiyyətini nəzərə alaraq Mərkəzi Bankın Rəqəmsal Valyutasının ortamüddətli dövrdə tətbiqi imkanlarının qiymətləndirilməsi bir neçə istiqamətdə davam etdiriləcəkdir:

- Rəqəmsal valyutanın tətbiqi üzrə siyasət, məqsəd və hədəfin dəqiqləşdirilməsi;
- Maraqlı tərəflərin prosesə cəlb olunması;
- Qanunvericilik bazasının formalaşdırılması;
- Yeni nəsil texnologiyadan istifadə potensialı;
- Bazarın hazırlıq səviyyəsi.

Rəqabətli, innovativ və əlçatan ödəniş mühitinin formalaşdırılması, rəqəmsal ödənişlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə institusional mühitin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdiriləcəkdir. Sözügedən tədbirlər çərçivəsində şəhər və rayonlarda ictimai nəqliyyatda gediş haqlarının innovativ ödəniş alətləri (bank kartları və mobil bankçılıq həlləri) vasitəsilə qəbulu imkanlarının genişləndirilməsi, təsərrüfat subyektlərində POS-terminalların əhatə dairəsinin genişləndirilməsi, POS-terminalların quraşdırılması mümkün olmayan yerlərdə QR kod ödəniş həllərinin qəbulu imkanlarının yaradılması kimi layihələr yer almaqdadır.

**Mustafayev Vaqif**
**baş müəllim**
**Lənkəran Dövlət Universiteti**
**vaqif.mustafayev.1960@mail.ru**

## Statistikada elektron xidmətlər göstərməsinin təşkili və Lənkəran rayonunda maliyyə statistik göstəricilərinin informasiya mənbələrinin öyrənilməsi

“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli Fərmanının 2-1-ci bəndinin, “Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları”nın və “Elektron xidmət növlərinin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Dövlət Statistika Komitəsi aşağıdakı istiqamətlər üzrə elektron xidmətlər göstərir.

- Rəsmi statistik hesabatların təqdim edilməsi;
- Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi;
- Statistik məlumatların (göstəricilərin) verilməsi;
- Statistik nəşrlərin (kitabların) onlayn satışı;
- Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi.

Dövlətin maliyyə siyasətini həyata keçirmək üçün tam və dəqiq statistik məlumatlarla təmin olunmasından ötrü informasiya bazasının daim yenilənməsi, statistik göstəricilərin hesablanması metodlarının təkmilləşdiriməsinə ehtiyac vardır. Bu baxımdan Lənkəran rayonunda maliyyə statistik göstəricilərinin informasiya mənbələrinin öyrənilməsi aktual məsələlərdən hesab edilir.

Maliyyə sektorunda çoxsaylı və qarşılıqlı əlaqədə olan mürəkkəb proseslərin öyrənilməsi statistik göstəricilər sistemindən istifadə edilməsini tələb edir. Onlar maliyyə və bank sahəsində baş verən hadisə və proseslərin inkişaf qanunauyğunluğunu və meylini statistik təhliletməyəvə proqnozlaşdırmağa imkan verir.

Müasir dövrdə bazar prinsipləri əsasında maliyyə proseslərinin idarəedilməsi olduqca vacibdir. Bu isə faiz dərəcəsi, qiymət və infilyasiyanın statistik tədqiqi metodlarının təkmilləşdirilməsi vəzifəsinin qarşıya qoyur.

Ümumi halda rayonda maliyyə statistikasının vəzifələri müvafiq göstəricilər sisteminin, təsnifatların və bu sahədə statistika müşahidəsinin köməyi ilə maliyyə sisteminin fəaliyyətini səciyyələndirməkdən ibarətdir. Rayon büdcəsinin quruluşunu əks etdirən statistika məlumatı həm də nəzarət funksiyasını yerinə yetirir. Sonuncunun köməyi ilə iqtisadiyyatın müxtəlif sektorlarına aid olan və müxtəlif mülkiyyət forması olan institutsion vahidlərdən büdcəyə daxil olan vəsaitlərinhəcmi müəyyən edilir. Rayon büdcəsinin yerinə yetirilməsinin təhlili bütövlükdə gəlir və xərclər üzrə planın yerinə yetirilməsini səciyyələndirən bir sıra nisbi kəmiyyətləri hesablamaqla həyata keçirilir. Sosial-statistik təhlilin köməyi ilə plandan kənarlaşmanı şərtləndirən amillərin təsir dərəcəsi ölçülür. Məsələn, vergi gəlirlərinin həcmini müəyyən edən iki amil ola bilər: vergi bazasının dəyişməsi və vergi dərəcəsinin dəyişməsi. Birinci amil – vergi bazasının həcminin verginin ümumi məbləğinin mütləq artımına təsiri aşağıdakı düsturla hesablanır:

$$\Delta Vb = (B1 - Bo) \times Co$$

Vergi dərəcəsinin təsirilə vergilərin həcminin mütləq artımı isə

$\Delta Vc = (C1 - Co) \times B1$ düstürü ilə hesablanır.

Burada

B0 və B1 – uyğun olaraq əsas və hesabat dövründə vergi bazasının həcmini;

C1 və Co – vergi dərəcəsinin səviyyəsini göstərir.

Dövlət maliyyəsi statistikası göstəricilərinin təhlili əsasında istənilən iqtisadiyyat sektorunun və ya dövlət idarəetmə sektorunun iqtisadi fəaliyyətini səciyyələndirmək olar. Həmin göstəricilərə aiddir:

- dövlət idarəetmə sektoru xərclərinin xüsusi çəkisi;
- bu dövlət büdcəsinin ümumi həcminin ÜDM-a nisbətilə müəyyən edilir;
- ÜDM-da vergi gəlirlərinin xüsusi çəkisi;
- büdcə xərclərinin ümumi həcmində funksional hissələrin quruluş nisbəti.

Dövlət büdcəsi reallığının və səmərəliliyinin statistik təhlili onun mədaxil və məxaric hissələrinin quruluşunun və ölkənin makroiqtisadi situasiyasını səciyyələndirən amillərlə bu mövqelərin qarşılıqlı əlaqəsinin öyrənilməsini nəzərdə tutur. Burada statistikanın paralel dinamika sıraları, korelyasiya-reqressiya təhlili, çoxamilli indeks modellərinin qurulması kimi metodları istifadə olunur. Sonra büdcədənkənar fondların sosial-statistik təhlili aparılmalıdır. Büdcədən kənar fondlar ümumdövlət maliyyəsinin mühüm bölməsidir.

Rayonun təsərrüfat subyektlərinin maliyyəsi malların istehsalı və satışı, işlərin görülməsi və bazar xidmətlərinin göstərilməsi nəticəsində pul fondlarının və yığımın yaranması, bölüşdürülməsi və istifadəsi prosesində meydana çıxan pul münasibətlərindən ibarətdir. Təsərrüfatçılıq subyektlərinin maliyyəsi statistikasının göstəriciləri hər şeydən əvvəl mənfəətin (gəlirin) həcmini, tərkibini və dinamikasını səciyyələndirir, onun bölüşdürülməsini, rentabellik səviyyəsini, dövriyyə vəsaitlərinin dövriyyəsini, azad olan dövriyyə vəsaitlərinin həcmini, maliyyə vəziyyətinin sabitliyini əhatə edir. Təsərrüfatçılıq subyektlərinin maliyyə resursları əsasən mənfəət və amortizasiya ayırmaları hesabına formalaşır. Məzmunundan, hesablanma qaydasından asılı olaraq balans mənfəəti və müəssisənin sərəncamında qalan mənfəət fərqləndirilir. Mənfəət göstəriciləri müəssisələrin fəaliyyətinin mütləq səmərəsini əks etdirir. Tətbiq olunan resursların və cari xərclərin səmərəliliyini səciyyələndirmək üçün rentabelliliyin göstəricilər sistemindən istfadə olunur. Rentabellik – təsərrüfat subyektlərinin işinin səmərəliliyini (nəticəliliyini) səciyyələndirir. Rentabellilik göstəriciləri müəssisələrin aktivlərə qoyduğu vəsaitin hər manatına nə qədər mənfəət əldə etdiyini qiymətləndirməyə imkan verir. Rentabelliliyin göstəricilər sistemi mövcuddur. Statistika təcrübəsində istehsalda istifadə olunan avanslaşdırılmış resursların və cari xərclərin səmərəliliyini qiymətləndirmək üçün istifadə olunan göstəriciləri, müəssisənin gəlirliliyini və əmlakından istifadənin səmərəliliyini müəyyən edən göstəriciləri ayırmaq olar. Müəssisənin istehsal-təsərrüfat

(kommersiya) fəaliyyətinin səmərəliliyini balans(ümumi) rentabelliyi əks etdirir; canlı və keçmiş əməyin cari məsarifindən istifadənin səmərəliliyini isə məhsul satışının rentabelliyi səciyyələndirir. Satışın rentabelliyi göstərici getdikcə daha çox tətbiq olunur.

Lənkəran rayonunun maliyyə xidmətləri sektorunda çoxsaylı və qarşılıqlı əlaqədə olan mürəkkəb proseslərin öyrənilməsi statistik göstəricilər sistemindən istifadə edilməsini tələb edir. Regionda maliyyə xidmətləri sektorunun xüsusilə bank xidməti sahəsində baş verən hadisə və proseslərin inkişaf qanunauyğunluğunu və meylini statistik təhlil etməklə proqnozlaşdırmada daha dəqiq nəticə əldə etmək mümkündür.

**Nəsirova Ofelya**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Məmmədli Əlvan**
**magistrant**
**Azərbaycan memarlıq və inşaat universiteti**
**Lənkəran Dövlət Universiteti**
**Ofelya74@bk.ru**
**elvan.memmedli.00@mail.ru**

## Regionlarda büdcə-vergi siyasəti və vergi gücünün qiymətləndirilməsi amilləri

Hazırda qeyri-neft sənayesinin inkişaf etdirilməsi üçün ölkənin regionlarında güclü iqtisadi potensial mövcuddur və bu məsələ diqqət mərkəzindədir. Ölkə regionlarının,o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işləri növbəti illərdə də davam etdirmək, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, bölgələrdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" qəbul edilib. Dövlət Proqramlarının nəticəsində regionların inkişafına sahibkarlığın daha da geniş yayılmasına və investisiya qoyuluşlarının artmasına nail olunmuşdur. Bu tədbirlər nəticəsində regionlarda yaşayan əhalinin maddi rifah halı yaxşılaşmış və regionlardan dövlət büdcəsinə daxil olan vergilərin miqdarında artım baş vermişdir. Əlbətdə ki, büdcənin formalaşmasında, həcm və tarazlılığın tənzimlənməsində mühüm rol oynayan büdcə-vergi siyasəti, eyni zamanda iqtisadi məqsədlərə nail olmaq üçün dövlətin apardığı maliyyə siyasətinin tərkib hissəsi olmaqla, sosial-iqtisadi həyatda mühüm əhəmiyyətə malik olan iqtisadi siyasətdi.

Büdcə-vergi siyasətinin məzmunu olaraq, dövlətin həm sosial sahədə, həm də iqtisadi sahədə birbaşa büdcə ilə bağlı həyata keçirdiyi və nəzərdə tutduğu islahatları, iqtisadi qanunları, tədbirləri qeyd etmək olar. Büdcə-vergi siyasəti yürütməklə bəzən isə makroiqtisadi problemlərin həllinə nail olmaq üçün dövlət, büdcənin ümumi həcmini dövlət xərclərinin büdcə tərkibində maliyyələşdirilməsi formalarını açıq maliyyələşdirmə vasitəsi kimi və iqtisadiyyatın ayrı-ayrı sahələrində vergi güzəştləri tətbiq edərək nail olur.

Büdcənin gəlir və xərclərinin çoxluğu, tarazlığı, qeyri-tarazlığı, kəsrin maliyyələşdirilməsi forması (pul emissiyası, borclanma) və s. məqsədlərə çatmaq üçün, büdcə-vergi siyasəti bir vasitə kimi istifadə oluna bilər.

Ölkəmizdə həyata keçirilən vergi siyasəti iqtisadi siyasətin mühüm tərkib hissəsidir və iqtisadi tənzimləmə və fiskal siyasətin aparılmasında mühüm rol oynayır. Azərbaycanın vergi sistemi təkmilləşmə və tərəqqi sayəsində tam institusional quruma çevrilmişdir. Vergi ödəyicilərinə göstərilən xidmətlərin sayı artmış, keyfiyyəti yüksəlmiş, vergi bəyanamələrinin və vergi borclarının eloktron formada verilməsinə nail olmuşdular.

Büdcə-vergi proqnozlaşdırılması və planlaşdırılması nəticəsində regionlara maliyyə yardımları edilir. Bu yardımların edilməsi isə əsasən gəlirlərin dövlət büdcəsinə və regional

büdcələrə düzgün bölüşdürülməsi mənbələrinə və imkanlarına dayanmalıdır. Gəlirlərin miqdarı isə başlıca olaraq vergi tutma bazasından asılıdır.

Vergi sistemində aparılan köklü islahatlar, sahibkarların və iş adamlarının fəaliyyəti üçün səmərəli investisiya mühütinin formalaşması, iqtisadi və sosial inkişafı stimullaşdıran düzgün, çevik və əlverişli vergi siyasətinin yürüdülməsi nəticəsində regionlar üzrə vergi daxilolmaları xeyli artmış və bu da dövlət büdcəsinin gəlirlərinin artmasına səbəb olmuşdur.

Regionların və aqrar sektorun inkişafını artırmaq üçün əhalidə, hüquqi və fiziki şəxslərdə kənd təsərrüfatı məhsullarının istehsalını stimullaşdırmaq üçün 2019-ci il yanvarın 1-nə kimi torpaq vergisindən başqa digər vergiləri ödənilməməsi müddəti uzadılmışdır. Görülən tədbirlərin nəticəsi kimi kənd təsərrüfatı sahəsində həyata keçirilən vergi güzəştləri nəticəsində son illərdə 2 milyard manatdan artıq pul vəsaiti sahibkarların özlərinə qalmışdır. Bütün bu göstəricilərin əsasında, vergi inzibatçılığının sadələşdirilməsi və təkmilləşdirilməsini, sahibkarlıq fəaliyyətinin genişlənməsini və əhalinin kənd təsərrüfatı məhsullarının istehsalına marağının artmasıdır.

Pandemiya dövrünədək olan müddətdə regionların iqtisadi inkişafının artması, sahibkarlıq fəaliyyətinin sürətli inkişafı və əhalinin faydalı fəaliyyətinin təmin edilməsi və s. istiqamətlərdə əhəmiyyətli dərəcədə tədbirlər yerinə yetirilmişdir. Bu tədbirlər pandemiyadan sonrakı dövrdə də davam etməkdədir. Təqdirlərin nəticəsi kimi qeyd etmək lazımdır ki, hər bir regionun vergi potensialına və vergi bazasının hesablanmasına ayrı-ayrılıqda yanaşılma doğru olardı.

Regionların vergi gücünün qiymətləndirilməsində və təhlilində bir neçə amillər rol oynayır ki, bu amillərə aşağıdakılar aiddir:

- vergi güzəştləri;
- vergi borcları;
- vergi daxilolmaları;
- vergi qanunvericiliyi;
- digər qanunvericiliklərin yaratdığı ziddiyyətlər;
- gizli iqtisadiyyat tərəfindən qaçırılan vergilərin məbləği.

Nəticə olaraq qeyd edirik ki, regional siyasətdə həyata keçirə biləcəyi aşağıdakı real variantlardan istifadə edə bilər:

- vəsaitlərin regionlar arasındakı bölgüsünün nisbətini dəyişmək üçün vergi yükünün artırılması və ya azaldılması;
- geridə qalan regionların investisiya cəhətdən cəlbediciliyinin yüksəldilməsi.

**Nəsirova Ofelya**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Novruzov Vüsal**
**magistrant**
**Azərbaycan memarlıq və inşaat universiteti**
**Lənkəran Dövlət Universiteti**
**Ofelya74@bk.ru**
**vusal.novruzov.1999@mail.ru**

## Regionlarında ödəniş sistemlərinin inkişafında rəqəmsallaşmanın rolu

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davaml inkişafına, regionlarda kommunal xidmətlərin və

sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası ölkənin regionlarının davamlı və tarazlı inkişafının təmin olunması məqsədini daşıyır. Strategiyanın həyata keçirilməsində, o cümlədən ölkənin regionlarının sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramları (2004-2008, 2009-2013 və 2014—2018-ci illər üzrə) böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionların potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır. Hazırda bu imkanlardan çıxış edərək ölkənin sosial-iqtisadi həyatında, xüsusilə regionlarda iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin layiqli məşğulluğu və sosial rifah halının daha da yüksəldilməsi istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən hesab edilir.Bu məsələlərin uğurlu həlli ölkənin regionlarında mövcud olan potensialdan daha səmərəli istifadə etməklə sosial-iqtisadi inkişafın sürətləndirilməsi və bu inkişafın davamlılığının möhkəmləndirilməsini zəruri edir. Bu isə öz növbəsində ölkənin regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar siyasət tədbirlərinin, o cümlədən kompleks proqramlar hazırlanıb icra olunmasının davam etdirilməsini nəzərdə tutur. Bu istiqamətdə əsas hədəflərdən biri də regionlarında ödəniş sistemlərinin inkişafına nail olmaqdır.

Ölkənin regionlarında da ödəniş sistemlərinin sabit, fasiləsiz fəaliyyəti və inkişafı Mərkəzi Bankın fəaliyyətinin əsas istiqamətlərindən biridir. Rəqəmsallaşmanın geniş tətbiqi ölkə iqtisadiyyatında nağdsız ödənişlərin həcminin artmasına e-ticarətin inkişafına, sahibkarların pul ödənişlərinin,dövlət vergi, rüsumlarının və s. ödənişlərin "Elektron Hökumət" portalı, "AVİS" (Avtomatlaşdırılmış Vergi İnformasiya sistemi), "İAMAS" (İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi) kimi dövlət informasiya resursları sistemə inteqrasiya olunmuş, habelə "ASAN xidmət" mərkəzlərində və səyyar "ASAN xidmət" avtobuslarında xidmət olunan bank şöbələrində ödənişlərin qəbulunun HÖP infrastrukturu vasitəsilə həyata keçirilməsi iqtisadiyyatda baş verən ödənişlərin tam, fasiləsiz uçotunu və yayınmaların qarşısının alınmasına imkan yaradır. Ölkədə rəqəmsal ödəniş sisteminin inkişafı ilə bağlı ölkə Prezidentinin 26 sentyabr 2018-ci il sərəncamı ilə "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" regionlarda da uğurla icra edilməkdədir. Rəqəmsal ödəniş sistemlərindən geniş istifadə regionlarında əhalinin biznes subyektlərinin səmərəli maliyyə xidmətlərinə çıxış imkanını artrmaq məqsədi daşıyır. Bu istiqamətdə "Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün Rəqəmsal ödəniş strategiyası" hazırlanmış və strateji istiqamətlər kimi regionlarda rəqəmsal ödəniş infrastrukturunun təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi vacib prioritetlərdən hesab edilir.

Nəticə olaraq qeyd etmək istəyirik ki regionlarda rəqəmsallaşmanın inkişaf etdirilməsi ilə üçün maliyyə savadlılığının artırılmasına böyük ehtiyac vardır. "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"ndan irəli gələrək nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi regionların iqtisadiyyatında şəffaflığı artacaq, vergidən yayınma halları azaldacaq, işəgötürənlə işçi arasında maliyyə şəffaflığı təmin ediləcək, sosial sığorta ayırmalarının həcmi artacaq, elektron bank əməliyyatlarının çeşidi və həcmi genişlənəcək, elektron bankçılıqdan istifadə edən əhalinin xüsusi çəkisi artacaq, elektron ticarətin həcmi isə böyüyəcək. Nəticədə ölkə iqtisadiyyatın nağdsızlaşması sürətlənəcək ki, bu da dövlət büdcəsi gəlirlərinin artmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm rol oynayacaq.

**Nəsirova Ofelya**
**iqtisad üzrə fəlsəfə doktoru**
**Nurullayeva Günel**
**magistrant**
**Azərbaycan memarlıq və inşaat universiteti**
**Lənkəran Dövlət Universiteti**
**Ofelya74@bk.ru**
**gunelnurullayeva14@gmail.com**

## Mühasibat uçotunda kompüter proqramlarından istifadə xüsusiyyətləri

Mühasibat uçotunun avtomatlaşdırılması iqtisadi baxımdan olduqca səmərəlidir. Elmi texniki tərəqqinin son nailiyyətlərinin istehsala tətbiqi daxili və xarici bazarlarda rəqabətin kəskinləşməsi müəssisələrdə operativ informasiyaya olan tələbatı getdikcə artmaqdadır. Bu isə idarəedicilərdən operativ informasiyalardan səmərəli istifadə edilməsini tələb edir. Bu baxımdan müasir şəraitdə informasiyaların nəinki operativliyi, həmçinin etibarlılığı təmin olunmalıdır.

Muhasibat uçotunda kompüter proqramlarının istifadəsi şirkət haqqında tez bir zamanda və obyektiv hesabatlar və məlumat almağa imkan verir. Şirkətin mühasibat uçotunu, daxili (idarəetmə) uçotunu, anbar uçotunu və ümumiyyətlə işini avtomatlaşdıran proqramlar çoxdur. Onların hər birinin müxtəlif imkanları var və onlar işin müxtəlif mərhələlərini əhatə edə bilərlər. Ona görə də biz bu proqramları şərti olaraq aşağıdakı qruplara bölə bilərik. Bu qrupların şərti olmasına səbəb bir çox proqramları bir neçə qrupa aid edilməsi, qrupların özlərinin isə bir-birilə bağlı olmasıdır.

Bu qruplar bunlardır:
- ödəmə tapşırıqlarının uçotunu aparan proqramlar;
- bank-müştəri proqramları;
- anbar uçotunu aparan proqramlar;
- muhasibat proqramları;
- gəlir və xərclərin uçotunu aparan proqramlar;
- bir neçə qrupa və ya bütün yuxarıda göstərilən qrupları özündə birləşdirən proqramlar;
- xüsusi proqramlar.

Ödəmə tapşırıqlarının uçotunu aparan proqramlarödəmə tapşırıqlarını daxil etmək və çap etmək üçündür. Sonra çap olunan ödəmə tapşırıqlarını banka aparırlar. Bu proqramda ödəmə tapşırıqları məlumatlar bazasına daxil olunur və hər zaman tarixinə görə və ya başqa göstəriciyə görə istifadəçi məlumatlar bazasında axtarış aparıb ona lazım olan ödəmə tapşırığını tapa bilər.

Bank-müştəri proqramları adətən bankda işləyən proqramçılar tərəfindən yazılır və bankın müştərilərinə quraşdırılır. Bu proqramların qarşısında bir əsas məsələ durur müştərinin banka gəlişini aradan qaldırmaq və bütün bank əməliyyatlarını istifadəçinin iş yerindən həyata keçirməkdir. Bu sözsüz iş prosesini çox rahatlaşdırır. Müştəri bu proqram vasitəsi ilə öz ofisindən və ya evindən hər zaman öz bank hesabında olan real qalığı öyrənə bilər və hesabdan ödəmələr və hesaba daxil olmalar barədə hesabat əldə edə bilər.

Anbar uçotunu aparan proqramların vəzifəsi onların adından görünür. Bu proqramlar malların anbarda uçotunu, onların anbara mədaxilinin və məxaricinin uçotunun aparılmasını təşkil edir. Bu proqramların bir çoxu uçotu eyni zamanda bir neçə anbarda aparmağa imkan verir. Anbar proqramlarının əksəriyyətində anbar sənədlərinin çap edilməsi imkanı var: mədaxil/məxaric sənədləri, vəkalətnamələr və s.

Mühasibat proqramları bağlı Azərbaycan Respublikasında muhasibat uçotu əməliyyatlarının avtomatlaşdırılması, başqa sözlə rəqəmsallaşdırılması zamanı istifadə olunan proqramlara “AzMuhasib, 1C, Günəş, Link, Logo, və ya ERP” proqramlarını misal göstərə bilərik.

Gəlir/Xərclər uçotunu aparan proqramlarqrupunun adından göründüyü kimi, bu proqramlar şirkətin gəlir və xərclərinin uçotunu aparmağa imkan verir. Bu proqramlar gəlir və xərclər kitabının elektron variantıdır. Amma burada biz kompüter proqramlarına xas olan imkanlardan istifadə edə bilərik: gəlirin avtomatik hesablanması, hər bir dövr üçün gəlir, xərclər, borcların hesabatlarının avtomatik hazırlanması, vergi hesabatlarının hazırlanması, gəlir və xərclər qruplarının uçotu və analizi və s.

Bir neçə qrupa və ya bütün yuxarıda göstərilən qrupları özündə cəmləşdirən proqramlar aid edilən proqramlar şirkətin işinin bir neçə mərhələsini (və ya işinin bütün mərhələlərinin) avtomatlaşdırmağa imkan verirlər. Nümunə kimi burada AzMuhasib, 1C, Günəş, Link, Logo, və ya ERP proqramlarını gətirmək olar. Bu proqramlar, demək olar ki, şirkətin maliyyə ilə bağlı bütün əməliyyatlarını əhatə edə bilərlər: mühasibat, idarəetmə, ticarət, anbar uçotu, gəlirlər/xərclər uçotu, pensiya fonduna olan ayırmaların, ödəniş tapşırıqlarının və başqa ödəniş sənədlərinin tərtib edilməsi, bank-müştəri tipli proqramlar ilə birlikdə işləmə və s.

Xüsusi proqramlara şirkətin spesifik sahələrini avtomatlaşdıran proqramlar aiddir. Burada qeyd etmək istərdim ki, şirkətlərin işlərinin elə mərhələləri var ki, bunlar bütün növ şirkətlərə aid edilə bilər (müştərilər ilə iş, satış, mühasibatlıq), amma şirkətlərdə elə bir mərhələ ola bilər ki, bu mərhələ yalnız bu tip şirkətə və bu tip sənayeyə aid edilə bilər. Məsələn, fotosalonlarda olan fotoşəkillərin çəkilməsi və çapı əməliyyatları, rabitə, energetika, su, qaz sənayesində olan abonentlərin uçotunun aparılması və s. Şirkətlərin belə xüsusi mərhələlərini xüsusi yazılmış proqramlar ilə avtomatlaşdırıla bilər.

Mühasibat uçotunda kompüter proqramlarından istifadə ilə bağlı mühasibat uçotunun avtomatlaşdırılmasından istifadəsininin şirkətlər çərçivəsində istifadə edilməsinin aşağıdakı problemləri mövcuddur:

1. Şirkətlərdə mühasibat uçotu, hesabat və vergi qaydalarını müəyyən edən qaydalardakı tez-tez dəyişikliklər çevik deyildir və xarici şərtlərdəki dəyişiklikləri əks etdirə bilmirlər;
2. İxtisaslı kadrların çatışmazlığı;
3. Şirkətlərdə mövcud məlumatların yeni sistemə köçürülməsi.

Hesab edirik ki, bu problemlərin həll edilməsi şirkətlərin mühasibat uçotunun aparılması üçün avtomatlaşdırılmış sistemin tətbiqinə çəkilən xərcləri azaldar və onun tətbiqindən iqtisadi effektivliyi artırar.

**Tağızadə Səriyyə**
**baş müəllim**
**İsayev Vasif**
**müəllim**
**Lənkəran Dövlət Universiteti**
**sariyyatagizade@gmail.com**
**vasif.isayev.74@mail.ru**

## Lənkəran regionunun müəssisələrində mühasibat uçotunun elektronlaşdırılması problemləri

Müasir iqtisadi şəraitdə mühasibat uçotunun avtomatlaşdırılması müəssisənin daha səmərəli idarə edilməsinin ən vacib amilidir. Müasir biznesin idarə olunması üçün informasiya texnologiyaları sahəsində müasir nailiyyətlərin tətbiqi idarə olunan proseslər haqqında informasiyanın vaxtında və dolğunluğunun təmin olunmasına imkan yaradır. Son illərdə biznes idarəçiliyində informasiya texnologiyalarının inkişafı sürətlə gedir. Müasir mühasib bu gün artıq avtomatlaşdırma vasitələrindən geniş istifadə etmədən mühasibat uçotunun aparılması prosesini təsəvvür edə bilmir. Məhz, ona görə də

mühasibat hesabatlarının formalaşdırılmasının əsas tətbiqi problemlərindən biri onun avtomatlaşdırılması və kompüter texnologiyaları dünyasında son tendensiyalarla əlaqələndirilməsi prosesidir. Lakin bu gün mühasibat uçotunun avtomatlaşdırılmas ilə bağlı meydana çıxan problemlər aktual olaraq qalır. Bu baxımdan Lənkəran regionunda da mühasibat uçotunu həyata keçirərkən onun keyfiyyətinə təsir edən təşkili problemlərindən biri kimi mühasibat uçotunun avtomatlaşdırılması problemlərinin öyrənilməsi aktuallıq kəsb edir.

Birinci növbədə qeyd edək ki, Lənkəran regionunun müəssisələrində mühasibat uçotunun təşkili problemlərindən biri mühasibat uçotunun avtomatlaşdırılmış formasının zəif işlənmiş metodologiyasıdır. Buna baxmayaraq, proqram təminatı tərəfindən istifadə olunan alqoritmlər kifayət qədər mürəkkəbdir və proqram təminatından istifadə etmək üçün bunu işləyib hazırlayandan gələn məsləhətlər daha faydalıdır. Lakin, eyni zamanda, mühasibat uçotunun avtomatlaşdırılmış formalarının metodologiyasının inkişaf etdirilməsi zəruridir.

Qeyd etmək lazımdır ki, bu gün üçün hazırlanan metodologiya formaları çox zəifdir.Yalnız bəzi işlərdə müəlliflər avtomatlaşdırılmış sistemlərin qurulması prinsiplərini təhlil edir, mühasibat uçotunun avtomatlaşdırılmış formasının inkişafının metodik, həm də metodoloji problemlərini nəzərdən keçirirlər.

Bundan əlavə, Lənkəran regionunun müəssisələrində MHBS-ə keçidlə əlaqədar olaraq mühasibat uçotunun avtomatlaşdırılmasının başqa bir problemi, yeni mühasibat standartlarına uyğun proqram məhsullarının təkmilləşdirilməsi zərurəti ilə əlaqədardır.

Lənkəran regionunun müəssisələrində mühasibat uçotunun müasir avtomatlaşdırılmasının digər mühüm problemi məlumatların saxlanılmasının etibarlılığının təmin edilməsi məsələsi olur. Çünki informasiya təşkilatın strateji resurslarından birinə çevrilir. Onun fəaliyyətində getdikcə daha çox əhəmiyyət kəsb edir.

Eyni zamanda, metodların onlayn-rejimdə istifadəsi ilə bağlı bir sıra problemlər mövcuddur. Onların əsas hissəsi informasiya təhlükəsizliyinin təmin edilməsi problemidir. Bugün məlumatların yüz faiz məxfiliyinə təminat verən xüsusi normativ hüquqi aktlar, habelə texnologiyalar mövcud deyil. Nəticə etibarilə, ən qiymətli məlumatlar ictimai onlayn-sistemdə saxlanılmamalıdır.

Müasir biznesin idarə olunması üçün informasiya texnologiyaları sahəsində müasir nailiyyətlərin tətbiqi idarə olunan proseslər haqqında informasiyanın vaxtında və dolğunluğunun təmin olunmasına, proseslərin daha dərindən təhlilinə, modelləşdirilməsinəvəonlarıninkişafınınproqnozlaşdırılmasınaimkanyaradır.

Məlumatlarınbütövlüyüməsələlərdəaktualproblemkimiçıxışedir.Beləki,onlayn-xidmətləri üçün interne tşəbəkəsi ilə daimi əlaqənin təmin edilməs izəruridir. Bununla əlaqədar isə məlumat anbarlarında informasiyanın düzgün və vaxtında yenilənməsi ilə bağlı problemlər yarana bilər.

Mühasibat uçotunun avtomatlaşdırılmasından istifadənin üstünlüklərinə baxmayaraq, onun bilavasitə müəssisə çərçivəsində istifadə edilməsinin aşağıdakı problemləri mövcuddur:

1. Müəssisənin fəaliyyətinin əsaslarını və əsas biznes proseslərini müəyyən etmək zərurətindən ibarət olan avtomatlaşdırma məsələlərinin müəyyən edilməsi, buda müəssisənin real tələbatından kənara çıxmamağa imkan verir;
2. Mühasibat uçotu, hesabat və vergi qaydalarını müəyyən edən qaydalardakı tez-tez dəyişikliklər çevik deyildir və xarici şərtlərdəki dəyişiklikləri əksetdirə bilmirlər;
3. İxtisaslı kadrların çatışmazlığı;
4. Müəssisədə mövcud məlumatların yeni sistemə köçürülməsi.

Bütün bu problemlər mühasibat uçotunun aparılması üçün avtomatlaşdırılmış sistemin tətbiqinə çəkilən xərclərin artmasına və onun tətbiqindən iqtisadi effektin olmamasına səbəb ola bilər.

Yuxarıda göstərilən problemlərin həlli şirkətə məxsus olmayan serverlərdə (onlayn-

xidmətdə yerləşir) məsafədən çıxışın olması halında məlumatların itirilməsi və ya ona giriş üçün şəraitin aradan qaldırılması üçün məqsədyönlü tədbirlər tələb edir. Bundanbaşqa, proqram təminatının texniki dəstəyi ilə bağlı xərclərin azaldılmasına baxmayaraq, istifadəçi istifadə olunan təminatda məhdudiyyətlərlə üzləşir və bəzən onun özməqsədləri üçün onu tam şəkildə tənzimləmək imkanı mövcud olmur.

Regionun istehsal və xidmət müəssisələrində mühasibat uçotu təkmilləşdirilməklə maksimum səviyyədə avtomatlaşdırılmasına ehtiyac vardır. İstənilən bir mühasibat şirkətinin işi əsasən elektronika və İT ilə əlaqələndirilir. Bu istiqamətdə funksional proqram təminatı və etibarlı profil avadanlıqlarının da tətbiqi mühasibat uçotunun səmərəli fəaliyyətinin yüksəldər. Fikrimizcə regionda mühasibat uçotunun aparılması zamanı müasir texnologiyaların tətbiqi əməliyyatların yerinə yetirilməsinin vahidliyini təmin edər. Digər tərəfdən isə bu informasiyanı operativ emaletməyə, effektiv təhliletməyə, sistemləşdirilmiş və təhlükəsiz saxlamağa imkan verir. Nəticədə, təsadüfi səhvlərin meydana gəlməsi, məlumatların itirilməsi riski əhəmiyyətli dərəcədə azalır.



Konfrans materialları Lənkəran Dövlət Universtetinin
mətbəəsində çap olunmuşdur

Yığıma verilmişdir:06.05.2022
Çapa imzalanmışdır:02.06.2022
Kağızın formatı: $64 \times 84^{1/8}$
Çap vərəqi: 22 c.v., tiraj: 120

Ünvan: Az 4200, Lənkəran səhəri, General Həzi Aslanov xiyabanı 50
Tel: (+994) 25-25-5-25-21
e-mail: elmi_tezis@lsu.edu.az
www.lsu.edu.az